AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
GƏNJƏ DÖVLƏT UNİVERSİTETİ

Azərbaycan dili kafedrası

YADİGAR ƏLİYEV

ÜMUMİ MƏTNŞÜNASLIQ

(«Kitabi-Dədə Qoqud» mətnlərinin linqvopoetik təhlili əsasında)

Dərs vəsaiti

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 31 may 2007–ci il tarixli 640 saylı əmri ilə dərs vəsaiti kimi tövsiyə edilmişdir.

BAKI - 2007

Rəyçilər:

Nizami Jəfərov - Azərbaycan MEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi,

Məsud Mahmudov - AMEA Nəsimi adına Dilçilik İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru, professor

Elmi redaktor:

Xəlil Yusifli – filologiya elmləri doktoru, professor

Əliyev Y.V. Ümumi mətnşünnaslıq («Kitabi-Dədə Qorqud» mətnlərinin linqvopoetik təhlili əsasında). Dərs vəsaiti. Bakı, 2007. – 248 səh.

Kitabda bədii mətnin təşkili mexanizmi, onun informativ strukturu, bədii mətn üçün səciyyəvi olan funksional-məzmun, struktur-forma elementləri, şer və nəsr mətnlərin fərqli xüsusiyyətləri, mürəkkəb sintaktik bütövlərin bədii mətn vahidi kimi formalaşması, bədii mətn dili üçün spesifik olan bədii təsvir və ifadə vasitələri sistemi, fonem, heca, intonasiyanın, ahəng qanununun bədii mətndəki rolu araşdırılır, «Kitabi-Dədə Qorqud»un dili üzərində aparılan müşahidələr əsasında türk bədii mətninə məxsus kontekstual struktur təhlil olunur.

Vəsait ali məktəblərin filologiya fakültələrində «Mətnşünaslıq», «Azərbaycan ədəbi dilinin tarixi» fənlərinin, Gəncə Dövlət Universitetində təhsilin magistr pilləsi üzrə «Kitabi-Dədə Qorqud»un linqvopoetikası» seçmə fənninin tədrisi üçün nəzərdə tutulmuşdur.

$\text{Y}\frac{4603000000}{\text{N - 098 - 2007}}$ Qrifli nəşr

© Əliyev, 2007

• ÖN SÖZ •

Ayrı – ayrı dil səviyyələrinə aid vahidlərin – fonem, heca, intonasiya, söz, söz birləşməsi, cümlənin elə keyfiyyətləri var ki, bunlar ancaq bədii mətn daxilində təzahür edir və ayrı-ayrı hallarda bədii mətn içərisində həm strukrur detal rolunu oynayır, həm mikromətn komponentlərinin formal bağlılığını təmin edir, həm də ahəng, ritm yarada bilir.

Hər bir bədii mətn mükəmməl bir təşəkküldür. Onun təşkili üçün zəruri sayılan bir çox detallar, üsul və vasitələr mövcuddur. Onların öyrənilməsi bədii mətnlərin dili üzərində həmin istiqamətdə xüsusi araşdırmalar aparılmasını zəruri edir və bu baxımdan oxuculara təqdim edilən bu dərs vəsaiti ənənəvi mətnşünaslıqdan fərqlənir. Əslində mətnşünaslıq sözün geniş mənasında ədəbi abidə mətnlərinin öyrənilməsinin prinsip və metodlarını ümumiləşdirən filoloji fəndir[1].

Xüsusi kontekstual struktura malik türk bədii mətnində forma və məzmun göstəriciləri müəyyən əlamətlərlə səciyyələnir. Mətnin məzmun planı onun formal hüdudlarını da müəyyən edən xüsusi informativ tutuma əsaslanır. Kitabda məhz bədii mətnin informativ strukturu, bədii mətnin təşkili mexanizmi, mürəkkəb sintaktik bütövlərin bədii mətn

---

qeyd[1] Bax: Текстология. Москва: Высшая школа, 1966, стр. 4

vahidi kimi formalaşması, bədii mətn üçün səciyyəvi olan funksional-məzmun, struktur-forma elementləri, şer və nəsr mətnlərin fərqli xüsusiyyətləri, bədii mətn dili üçün spesifik olan sintaktik konstruksiyalar, bədii təsvir və ifadə vasitələri sistemi, fonem, heca, intonasiya və onun komponentlərinin, ahəng qanununun bədii mətndəki rolu araşdırılır. Kitabda nəzəri ümumiləşdirmələr daha çox «Kitabi-Dədə Qorqud»dan gətirilmiş nümunələrin dili üzərində aparılır.

I FƏSİL
MƏTN VƏ STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏR
GİRİŞ

Türk bədii mətninin xüsusi kontekstual strukturunda məzmun və forma elementləri aparıcı yer tutur. Forma və məzmunun əlaqələnməsi mətnin funksiyası ilə birbaşa bağlıdır. Mətnin funksional təyinatı bunların tekstdaxili statusunu müəyyən etməyə imkan yaradır. Mətnin üslubi funksionallığından asılı olaraq, ağırlıq mərkəzi növbəli şəkildə forma-məzmun komponentlərindən birinin üzərinə keçir. Deyək ki, bədii üslub materialında forma funksionallığı rəsmi üslub materialında olduğundan güclüdür və əksinə. Bununla bərabər, məzmun planı bütün mətn tiplərində birmənalı rol oynayır və öz növbəsində xüsusi informativ struktur ilə xarakterizə olunur. Mətnin ən kiçik vahidi sayılan yarımçıq sintaqmdan ən böyük vahidinə – tam sintaqma və tam sintaqmların birliyinə qədər mətnin formal hüdudlarını və məzmun tutumunu informasiya müəyyən edir. İnformativ strukturla tekstin strukturu adətən üst-üstə düşür. Bu halda sintaktik mətndəki informasiyaların sayı ən azı cümlə vahidlərinin sayı qədər olur. Ancaq bu cür uzlaşmanın olmadığı hallarda mətndəki (mürəkkəb sintaktik bütövdəki) cümlələr birlikdə bir informasiyanın ifadəsinə xidmət edir. Birinci hal («mətn informasiyaya bərabərdir» prinsipi üzrə) nəsr mətnlər üçün, ikinci hal («mətn informasiyaya bərabər deyil» prinsipi üzrə) şer mətnlər üçün xarakterdir.

İnformasiyanın strukturu mətnin bədii təyinatı ilə, yaxud əksinə, mətnin bədii təyinatı informativ strukturla bağlıdır. Bu halda informasiyanın növü mətnin funksional imkanlarını və mətnin forması informasiyanın növünü müəyyən edə bilir. Müşahidələr göstərir ki, paralel sıralanan informasiyalar struk-

turuna malik mətndə bədiilik göstəricisi ardıcıl sıralanan informasiyalar strukturuna malik mətndə olduğundan güclüdür. Aşağıdakı mətnlərə baxaq:

I. –Dərsə xan oğlana bəglik verdi, təxt verdi. Oğlan təxtə çıqdı, babasının qırq yigidin anmaz oldı. Ol qırq yigit həsəd eylədilər. Bir-birinə söylədilər: «Gəlün, oğlanı babasına quvlıyalum. Ola kim öldürə, genə bizim izzətimiz– hörmətimiz olun babası yanında xoş ola, artıq ola», -dedilər (I b., s. 36).

–Oğlan anasının sözin sımadı. Buğac bəg yerindən uru turdı. Qara polat uz qılıcın belinə quşandı. Ağ tozlıca qatı yayını əlinə aldı. Altun cidasın əlinə aldı. Bədəvi atın tutdu, durdı, bütün bindi. Qırq yigidin boyına aldı. Babasının ardınca yortub getdi (I b., s. 40).

II. –Ol gün cigərində olan ər yigitlər bəlürdi. Ol gün müxənnətlər sapa yer közətdi. Ol gün bir qiyamət savaş oldı, meydan tolu baş oldı; başlar kəsildi top kibi. Şahbaz-şahbaz atlar yügürdi, nalı düşdi. Ala-ala köndərlər süsəldi. Qara polat uz qılıclar çalındı, yılmağı düşdi. Üç yeləkli qayın oqlar atıldı, dəmrəni düşdi. Qiyamətin bir güni ol gün oldı. Bəg nökərindən, nökər bəgindən ayrıldı (II b., s. 50).

–Baybörə bəgin dünlügi altun ban evinə [şivən] girdi. Qızıgəlini qas-qas gülməz oldı. Qızıl qına ağ əlinə yaqmaz oldı. Yedi qız qardaşı ağ çıqardılar, qara tonlar geydilər. «Vay, bəgim qartaş! Muradına-məqsudına irməyən yalnuz qardaş!» -deyib ağlaşdılar – bögürişdilər (III b., s. 57-58).

Birinci iki mətnin informasiya bazaları ilə sonrakı iki mətnin informativ blokları biri digərindən fərqlənən iki müxtəlif model (quruluş) nümayiş etdirirlər. İlk iki mətni təşkil edən cümlələrin hər birinə ən azı bir informasiya təhkim olunmuşdur. Birinci hər iki mətnin strukturunu səkkiz informasiya və təxminən bir o qədər də cümlə vahidi təşkil edir. Buradakı cümlələrin hər biri bir informativ nüvə ilə xarakterizə olunurlar. Sonrakı mətnlərdən birincisi doqquz cümlədən, ikincisi beş cümlədən ibarət olsa da, mətnlərin hər birini bir semantik

nüvə səciyyələndirir. Birinci mətnin cümlələri oğuzlarla kafərlərin döyüşünü, ikinci mətnin vahidləri Beyrəyin itkin düşməsini, yəni ayrı-ayrılıqda vahid semaları ifadə edirlər.

Xarakterinə görə əsas və yardımçı informasiyalar fərqləndirilir. Yardımçı informasiyanın iştirakını mətnin bədii təyinatı şərtləndirir və çox zaman o, bədii fiqur və ya obrazlı ifadə tərzindən ibarət olur: Dərin olsa, baturdır, qalabalıq qorxudır. At işlər, ər öginür. Yayan ərin umurı olmaz. Otuz toquz yigidlən Beyrək tutsaq getdi (III b., s. 57). Verilmiş nümunədə ilk üç cümlə ancaq sonuncu cümlənin informativ strukturunu ifadə etməyə, onu zənginləşdirməyə xidmət edir. Deməli, IY cümlə əsas informasiyanı, atalar sözlərindən ibarət olan I, II, III cümlələr isə yardımçı (vasitəçi) informasiyalar blokunu əmələ gətirir.

Əsas və yardımçı informasiya tutumları arasındakı tarazlıq birincinin xeyrinə dəyişə bilir.

Səgrək məst oldı. Tışra ayaq yolına çıqdı. Gördi kim, öksiz oğlan bir qızanı çəkişür. «Mərə, noldınız?» deyü bir sillə birinə, bir sillə birinə urdı. *Əski tonın biti, öksüz oğlanın dili acı olur*. Biri aydır: «Mərə, mizim öksüzligimiz yetməzmi, bizi niyə urarsan? Hünərin var isə, qartaşın Əlincə qələsində əsirdir, var, anı qurtar!» -dedi (X b., s. 111).

Kursivlə verilmiş atalar sözündən ibarət cümlənin informativ tutumu özündən sonra gələn beş əsas informasiya daşıyıcılarının leksik məna tutumu üçün yardımçı vasitə rolunu oynayır.

Əsas və yardımçı informasiyalar arasındakı həcm balansı pozulmaya bilir.

At ayağı külük, ozan dili çevik olur. İyəgülü ulalur, qabırğalı böyür. Oğlan on beş yaşına girdi. Oğlanın babası Bayındır xanın ordısına qarışdı (I b., s. 36).

Bu cür nisbətlərin bədii mətn quruluşu üçün ciddi əhəmiyyəti olmur, bütün hallarda eyni funksionallıq nümayiş et-

dirir; məzmunu (əsas informasiya) tamamlayan forma (yardımçı informasiya) rolunu oynayır.

Yardımçı informasiyalar əsas informasiyadan törəyir və heç bir halda bunun əksi baş vermir. Ən azı bir (və ən çoxu iki) yardımçı informasiya daşıyıcısı mətnin bir neçə əsas informasiya daşıyıcıları ilə bərabər şəkildə əlaqələnir. Bu halda bir yardımçı informasyia informativ tutumuna görə bir əsas informasiya blokuna bərabər ola bilir.

Qalaba qorxudar, dərin olsa baturar (I). Yayanın umudı olmaz (II). Sağın-solun Uruzın çevirdilər (III). Qırq yigidin şəhid etdilər (IY). Oğlanın üzərinə düşdilər, tutdılar (Y). Qarusından ağ əllərin bağladılar (YI). Qıl orğan ağ boynına taqdılar (YII). Yüzi üzərinə saluban sürdilər (YIII). Ağ ətindən qan çıqınca dögdilər (IX). «Baba» deyü ağlatdılar, «ana» deyü bozlatdılar (X). Əli bağlu, boynı bağlu yüzi üzərinə salıb aldılar, yürüyü verdilər (XI). Uruz tutsaq oldı (XII) (YI b., s. 71).

Mətndən gətirdiyimiz parçanın ilk iki cümləsinin verdiyi bilgi yardımçı informasiya hüququndadır. Ondan sonra gələn cümlələr əsas informasiya blokunu təşkil edir. Hər iki qəbildən olan informasiyaların əlaqələnməsini bu cür ifadə etmək olar.



Eyni ilə bir neçə yardımçı informasiyalar (yardımçı informasiya bloku) bir əsas informasiyanın məlumat tutumuna nisbi bərabər ola bilir.

Dədə Qorqut aydır:

Qarşu yatan qara tağını aşmağa gəlmişəm (I). Aqındılı görklü suyını keçməgə gəlmişəm (II). Gen ətəgünə, tar qoltuğına qısılmağa gəlmişəm (III). Tənrinin buyruğilə, peyğəmbərin qövlilə, aydan arı, gündən görkli qız qardaşın Banıçiçəgi Bamsı Beyrəyə diləməgə gəlmişəm! (IY) –dedi (III b., s. 56).

Verilmiş mətn parçasının sonuncu tərkib hissəsi olan cümlə əsas informasiyanı, əvvəlki üç cümlə vahidi isə yardımçı informasiya blokunu əmələ gətirir:



Mətnin informativ strukturunda informativ mərkəz və ümumi informasiya süjeti mühüm yer tutur. Ümumi informativ süjet daxilində adresant və adresat üçün köhnə və yeni olan informasiyaların növbələnməsi bədii mətnin təşkili mexanizmi kimi özünü göstərir. Müxtəlif qrammatik əlamətlər, xəbərlərin zamana görə uzlaşması, ayrı-ayrı nitq hissələrinə mənsub xüsusi leksik vahidlər, sintaktik quruluşun təkrarı, dialoji nitq

strukturu, tematik və rematik informasiyaların bir-birini izləməsi, mətn komponentlərinin xüsusi sıralanma qaydası da mətnə, bədii mətnə məxsus komponentlərin daxili rabitəsini bir qayda olaraq davamlı edir.

Şer–mətnlə nəsr–mətnin kontekstdaxili kompozisiyası bir-birindən fərqlənir. Mətn-nəsrdə əhvalat, təsvir, birbaşa ifadə və əsas informasiyalar mühüm yer tutur. Mətn-şerdə isə birbaşa olmayan ifadə tərzi, əhvalatın olmaması, tərənnüm özünü göstərir və bir qayda olaraq, yardımçı informasiyalar teksti müşayiət edir.

§1. MƏTN VƏ İNFORMASİYA

Qədim və orta əsrlər türk yazılı abidələrinin dili üzərində apardığımız müşahidələr göstərir ki, türk bədii mətni funksional-məzmun və struktur forma elementlərini özündə birləşdirən xüsusi kontekstual struktur ilə xarakterizə olunur. Bunu ilk növbədə mətnin funksional təyinatı tələb edir. Yəni YI—YIII əsrlərə aid Orxon-Yenisey abidələrindən tutmuş orta əsrlərin ümumtürk ədəbi dilinə (türki) qədər bütün yazılı mətnlər üslubi funksionallıq nümayiş etdirirlər; bəzilərində (məsələn: Orxon-Yenisey abidələri) aparıcı funksional üslublar inteqrativ fakt səviyyəsində eyni mətn daxilində, digərlərində diferensiativ fakt şəklində başqa-başqa mətnlər içərisində mövcud olur və ümumi tekst ilə xüsusi kontekstin aparıcı əlamətlərini müəyyən edir. Bu isə öz növbəsində bədii üslub materialını, misal üçün, rəsmi üslub materialından fərqləndirməyə gətirib çıxarır. Fərqli materialların spesifik əlamətləri üstünlük təşkil etsə də, məzmun və forma planındakı seçilmələr xüsusilə nəzərə çarpır.

Türk bədii mətninin strukturu iki əsas komponenti birləşdirir: informasiya və informasiyanın ifadəsi. İnformativ struktur şer və ya nəsr mətninin bazisini təşkil edir. İstənilən mətn və ya sintaqmatik hüdudları olan dil vahidi informAasiyasız mümkün deyil. İnformasiyanın azlığı və ya çoxluğu yarımçıq sintaqmdan tam sintaqma doğru ən müxtəlif dil vahidlərinin (söz birləşməsi, sadə cümlə, mürəkkəb cümlə, qarışıq tipli mürəkkəb cümlə, mürəkkəb sintaktik bütöv) yaranmasını şərtləndirir. Yəni informasiyanın həcmliliyi sintaktik vahidin quruluşca mürəkkəbliyini müəyyən etmiş olur. Məsələn, aşağıdakı mürəkkəb sintaktik bütövdə informasiya predikativliyə, bitmə intonasiyasına, modallığa malik dörd sintaktik vahidlə (cümlə ilə) ifadə edilir:

Kafər aydır [I]: «*Bəglər, Qazanın tölə-tölə şahbaz atlarını binmişüz* [II], *altun-aqçasını yağmalamışuz* [III], *qırq yigidlən oğlı Uruzı tutsaq etmişüz* [IY], *qatar-qatar dəvələrini yetmişüz* [Y], *qırq incə belli qızlan Qazanın hələlını tutmışız* [YI]. *Bu heyfləri biz Qazana etmişüz* [YII]», *-dedi* (5, s. 43).

Əgər mətnin əvvəli və sonundakı aydır, dedi fellərinin sintaktik təyinatı da nəzərə alınsa, onda mətnin bir sintaktik vahid ilə – iki baş cümləyə malik tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlə ilə ifadə edildiyi aydınlaşar.

Gördüyümüz kimi, mətn daxilində informasiyaların kəmiyyəti ilə sintaktik vahidlərin - cümlə formalarının sayı üst-üstə düşməyə bilir. Bu müxtəlif variasiyalarla müşayiət olunur:

-bir sintaktik vahid bir informasiyanı bildirir; *Altı yüz kafər atlandı, qoyunun üzərinə alğar vardı* (II b., s. 43);

-bir sintaktik vahid bir neçə informasiyanı bildirir; *Kafər aydır*: «*Bəglər, Qazanın tölə-tölə şahbaz atlarını binmişüz*, *altun-aqçasını yağmalamışuz*, *qırq yigidlən oğlı Uruzı tutsaq etmişüz* (5, s. 43);

-bir informasiya bir neçə sintaktik vahidlə ifadə olunur; *Hey ana! Ərəbi atlar olan yerdə bir qulunı olmazmı olur? Qızıl dəvələr olan yerdə bir köşəgi olmazmı olur? Ağca qoyunlar olan yerdə bir quzucığı olmazmı olur? Sən sağ ol, qadın ana! Babam sağ olsun! Bir mənim kibi oğul bulunmazmı olur?* (5, s. 47).

Sonuncu varianta daha çox «Kitabi-Dədə Qorqud»dakı şer mətnlərində, tərkibində frazeoloji vahidlərin, məcazların iştirak etdiyi cümlələrdə təsadüf olunur.

«Kitabi-Dədə Qorqud»dakı sintaktik mətnlər mürəkkəb sintaktik bütövlərdə informasiyanın inkişafını izləmək baxımından daha çox maraq doğurur. Mətnlərdə informativ strukturun genişlənməsi, bir qayda olaraq, informasiyanın sayca çoxalması hesabına baş verir. Proses iki xətlə gedir. **Birinci halda** yeni olan informasiya köhnə olan informasiyadan intişar tapır, bir-biri ilə əlaqəli iş, hərəkət, proses, hadisələrin ardıcıl

baş verməsindən doğur. Bu halda biri digərindən doğan və ondan sonra sıralanan informasiyalar **ardıcıl sıralanan (və ya ardıcıl) informasiyalar** adlanır. Mətnə baxaq:

Oğlan böylə digəc bıldır-bıldır gözinin yaşı rəvan oldı. Boyı uzun, beli [*incə*] *Burla xatun boynilə qulağın aldı, düşdi. Güz alması kibi al yanağın tutdı, yırtdı. Qarğu kibi qara saçını yoldı*. «*Oğul!*» «*Oğul!*» *deyübən zarılıq qıldı, ağladı* (5, s. 47).

İnformativ tutumu beş vahiddən ibarət olan mürəkkəb sintaktik bütövdə hər bir sonrakı informasiyanı ondan əvvəl gələn informasiya doğurur. Burada sayca beşinci informasiya dördüncü informasiyadan, dördüncü ondan əvvəl gələndən, üçüncü ikincidən, ikinci isə birincidən intişar tapır.

İkinci halda mətndəki informasiyalar bir informativ nüvə ilə bağlı olur və biri digərindən doğmur. Bu zaman informasiyanın ifadə edildiyi cümlələrin semantikası vahid mərkəzi semanın əhatə dairəsindən kənara çıxmır. Belə informasiyalar vahid sema ilə əlaqəli informasiyaları paralel şəkildə bildirdiklərindən **paralel sıralanan (və ya paralel) informasiyalar** adlanır. Məsələn:

Uruz aydır: «Ağzın qurısın, ana! Dilin çürisin, ana!» «Ana həqqi-tənri həqqi» denilməsəydi, qalqubanı yerimdən turaydım. Qaba öncəm altına salaydım. Ağ yüzini qara yerə dəpəydim. Ağzunla yüzindən qan şorladaydım. Can tatlusın sana göstərəydim. Bu nə sözdür? Saqın, qadın ana! Mənim üzərimə gəlmiyəsin! Mənim üçün ağlamıyasan. Qoy bəni, qadın ana, çəngələ ursunlar! Qo ətimdən çəksünlər, qara qaurma etsünlər, qırq bəg qızının öginə ilətsünlər. Anlar bir yedigində sən iki yegil! Səni kafərlər bilməsünlər, tuymasınlar. Ta kim, sası dinlü kafərin döşəginə varmıyasan. Sağrağın sürmiyəsən. Atam Qazan namusını sımayasan. Saqın!» - dedi (5, s. 47).

İnformativ tutumu iyirmi dörd vahiddən ibarət olan mürəkkəb sintaktik bütövdə heç bir sonra gələn (yeni gələn) informasiyanı əvvəl gələn (köhnə olan) informasiya doğurmur.

Üçüncü halda mürəkkəb sintaktik bütövün strukturundakı informasiyalar həm ardıcıl, həm də paralel sıralanır. Bu zaman ardıcıl (və ya paralel) sıralanan informasiyaların sərhəddi ilə paralel (və ya ardıcıl) sıralı informasiyaların hüdudları fərqlənir. Bu paralel-ardıcıl (və ya ardıcıl-paralel) informasiyalar adlanır.

Kafərlər tərs tanışmışlar. «Qazan oğlı Uruzı həbsdən çıqarun, boğazından orğanla asun. İki talusından cəngələ sancun, qıyma-qıyma ağ ətindən çəkün. Qara qaurma edib, qırq bəg qızına ilətün. Hər kim yedi, ol degil. Hər kim yemədi, ol Qazan xatunıdır, çəkün döşəgimizə gətürəlim, sağraq sürdirəlim! –demişlər. Sənin ətindən oğul-a, yeyəyinmi? Yoxsa sası dinlü kafərin döşəginə girəyinmi? Ağan Qazanın namusını sındırayınmı? Necədəyin, oğul, hey?!» - *dedi* (5, s. 47).

Mətndə əvvəl gələn ardıcıl, kursivlə verilmiş hissə isə paralel sıralanan informasiyalardır.

İnformasiyanın ağırlıq mərkəzi heç də bütün mətnlərdə standart ünvanda yerləşmir. Bu baxımdan şer və nəsr nümunələri arasında fərqlənmələr nəzərə çarpır. Əgər nəsr-mətnlərdə vahid mərkəzi sema mətnin əvvəlinə düşür və ya onun bütün üzvləri (cümlələr) arasında bərabər şəkildə paylanırsa, şer-mətnlərdə daha çox sonuncu misra (cümlə) bu vəzifəni üzərinə götürür.

Bu məhəldə, sultanım, Salur Qazanla Qaraca çoban çapar yetdi. Çobanın üçyaşar tana dərisindən sapanının ayasıydı, üç keçi tüyindən sapanının qollarıydı. Bir keçi tüyindən çatlağucıydı. Hər atanda on iki batman taş atardı. Atdığı taş yerə düşməzdi. Yerə dəxi düşsə toz kibi savrılardı, ocaq kibi oyrulardı. Üç yıladaq taşı düşdigi yerin otı bitməzdi. Simüz qoyun, arıq toqlı bayırda qalsa, qurt gəlib yeməzdi sapanın qorqusından. Elə olsa, sultanım, Qaraca çoban sapan çatlatdı. Dünya-aləm kafərin gözinə qarannu oldı (5, s. 48).

Burada mərkəzi sema – Qaraca çobanla bağlı informasiya mətn boyu bütün komponentlərdə funksional olub, istər giriş,

izahedici cümlələrdə, istərsə də yekun cümlədə bərabər səviyyədə qalır. Aşağıda nümunə göstərəcəyimiz başqa bir mətndə – şerdə isə informativ mərkəz yekun cümlədə üzə çıxır:

Marə Şökli Məlik!
Dünlügi altun ban evlərimi gətürüb dursan,
sana kölgə olsun!
Ağır xəzinəm, bol aqçam gətürüb dursan,
sana xərclıq olsun!
Qırq incə bellü qızla Burla xatunı gətürüb dursan,
sana yesir olsun!
Qırq yigidlən oğlum Uruzı gətürüb dursan,
qulun olsun!
Tavla-tavla şahbaz atlarım gətürüb dursan,
sana binət olsun!
Qatar-qatar dəvələrim gətürüb dursan,
sana yüklət olsun!
Qarıcıq anamı gətürüb dursan, mərə kafər,
anamı vergil mana
Savaşmadın, uruşmadın qayıdayım – gerü dönəyim,
gedəyim, bəllü bilgil,- dedi
(5, s. 48).

Şerdə sonuncu misralara qədər olan bütün sətirlər giriş cümlə xarakterində olub, əsas məqsədin – Qazan xanın qarıcıq olmuş anasını əsirlikdən xilas etmək, düşməndən geri almaq arzusunun ifadəsinə xidmət edir. Mərkəzi sema isə son iki misrada açılır; yekun cümlə həm də izahedici cümlə funksiyasını yerinə yetirir.

Mətnin informativ mərkəzi və ümumiyyətlə, informasiya mətnin quruluş strukturunda iştirak etməklə həm də ikili funksiya yerinə yetirir, mətnə quruluş ünsürü kimi də xidmət göstərir. Bütün sintaktik vahidlərdə olduğu kimi, mürəkkəb sintaktik bütövlərdə də başlanğıc və son hissələr onun bütöv

sintaqmatik hüdudlarını müəyyn edir. Bəzən həmin informativ mərkəz bir dəfə mətnin əvvəlində və bir dəfə də sonda ifadə edilməklə mətn komponentlərini konstruktiv çərçivəyə salır; həm onların əlaqələnməsini bir daha təmin etmiş olur, həm də mürəkkəb sintaktik bütövü başlayır və tamamlayır.

Bir gün Qam ğan oğlı xan Bayındır yerindən turmışdı. Şami günlügi yer yüzinə dikdirmişdi. Ala sayvanı gög yüzinə aşanmışdı. Bin yerdə ipək xaliçəsi döşənmişdi.

Xanlar xanı Bayındır yildə bir kərrə toy edib, Oğuz bəglərin qonaqlardı. Genə toy edib atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç qırdırmışdı. Bir yerə ağ otağ, bir yerə qızıl otağ, bir yerə qara otağ qurdırmışdı. «Kimün ki oğlı-qızı yoq, qara otağa qondurın, qara keçə altına döşən, qara qoyun yəxnisindən öginə gətürün. Yersə, yesün, yeməzsə, tursun-getsün», -demişdi. «Oğlı olanı ağ otağa, qızı olanı qızıl otağa, qondurın. Oğlı-qızı olmıyanı allah-təala qarğayıbdır, biz dəxi qarğarız, bəllü bilsün» -demiş idi.

Oğuz bəgləri birin gəlüb yığnaq olmağa başladı. Məgər Dirsə xan deyirlərdi, bir bəgün oğlı-qızı yoxdı. Soylamış, görəlim, xanım, nə soylamış: Salqum-salqum tan yelləri əsdigində, saqallu boz ac turğay sayradıqda, saqalı uzın tat əri banladıqda, bədəvi atlar issini görüb oğradıqda, ağlı-qaralı seçən çağda, köksi gözəl qaya tağlara gün dəgəndə, bəg yigitlər, cılasınlar bir-birinə qoyulan çağda, alar sabah Dirsə xan qalqubanı yerindən uru turıb, qırq yigidin boyına alub, Bayandar xanın söhbətinə gəlürdi.

Bayındır xanın yigitləri Dirsə xanı qarşuladılar. Götürüb qara otağa qondurdular, qara keçə altına döşədilər, qara qoyun yəxnisindən öginə götürdilər. «Bayandar xandan buyruğ böylədür, xanım», -dedilər. Dərsə xan aydur: «Bayandar xan bənim nə əksüglügüm gördi? Bəndən alçaq kişiləri ağ otağa, qızıl otağa qondurdı. Bənim suçum nə oldı kim, qara otağa qondurdı?» -dedi.

Ayıtdılar: «Xanım, bu gün Bayındır xandan buyruq şöylədir kim, oğlı-qızı olmıyanı tənri-təala qarğayıbdır, biz dəxi qarğarız, *-demişdir*» *-dedilər* (5, səh. 34).

Mətnin bütün struktur-semantik tutumu bir informasiyaya əsaslanır: «oğlı-qızı olmıyanı tənri-təala qarğayıbdır, biz dəxi qarğarız». Həmin informativ mərkəz bir dəfə mətnin əvvəlində gəlməklə onu başlayır, ikinci dəfə mətnin sonunda işlənməklə onu qapayır.

Mətnin informativ mərkəzi bir informasiyalı (bir xətli) olduğu kimi, çox informasiyalı (çox xətli) da ola bilər. Bu halda həm əsas informasiya, həm də ondan asılı şəkildə mətnin ümumi informasiya süjeti ayrı-ayrı xətlərə şaxələnirlər.

Ozan aydır: «Qarılar dörd dürlidü: birisi soldıran soydır (II), birisi toldıran toydır (III), birisi evin tayağıdır (I), birisi necə söylərsən, bayağıdır» (IY).

(I) *Ozan, evin tayağı oldır ki, yazıdan-yabandan evə bir qonaq gəlsə, ər adam evdə olmasa, ol anı yedirər–içirər, ağırlar-əzizlər, göndərər. Ol Ayişə, Fatimə soyıdır, xanım. Anun bəbəkləri bitsün. Ocağına buncılayın övrət gəlsün.*

(II) *Gəldin ol kim soldıran soydır, sapadanca yerindən uru turar, əlin-yüzin yumadan toquz bozlamac ilən bir küvlək yoğurd gəvəzlər, toyınca tıqa- basa yeyər, əlin bögrinə urar, aydar: «Bu evi xərab olası! Ərə varalıdan bərü dəxi qarnım toymadı, yüzim gülmədi. Ayağım başmaq, yüzim yaşmaq görmədi». Deyər: «Ah, noleydi, bu öleydi, birinə dəxi vareydim. Umarımdan yaxşı-uyar oleydi», -deyər. Anun kibinin, xanım, bəbəkləri bitməsün, ocağına buncılayın övrət gəlməsün.*

(III) *Gəldin ol kim toldıran toydır, dəpdincə yerindən uru turdı, əlin-yüzin yumadan obanın ol ucından bu ucına – ol ucına çarpışdırdı. Quv quvaladı, din dinlədi. Öyləyədəncə gəzdi. Öylədən sonra evinə gəldi. Gördi kim, oğrı köpək, yekə tana evini bir-birinə qatmış, tauq komasına, sığır tamına dönmüş. Qonşılarına çağırar ki, Yetər! Zəlixə! Zübeydə!*

Ürüydə can-qız can! Paşa! Ayna Mələk! Qutlu Mələk! Ölməgə-yitməgə getməmişdim, yatacaq yerim genə bu xərab olasıydı. Noleydi, bənim evimə bir ləhzə baqaydınız. «Qonşı həqqi – tənri həqqi» -deyü söylər. Bunın kibinin, xanım, bəbəkləri bitməsün. Ocağına bunın kibi övrət gəlməsün.

(**IY**) *Gəldin ol kim necə söylərsən, bayağıdır. Evinə yazıda-yabandan bir udlu qonaq gəlsə, ər adam evdə olsa, ana disə ki, tur ətmək gətür yeyəlim, bu da yesün; disə bişmiş ətməgün bəqası olmaz, yemək gərəkdir, övrət aydar: «Neyləyəyim, bu yıqılacaq evdə un yoq. Ələk yoq. Dəvə dəgirməndən gəlmədi», -diyər; «nə gəlürsə, bənim sağrıma gəlsün» deyü ələyin… urur, yönin anaru, sağrısın ərinə döndürür. Bin söylərsən, birisini quymaz – ərin sözini qulağına qoymaz. Ol Nuh peyğəmbərin eşəgi əslidür. Andan dəxi sizi, xanım, allah saqlasun. Ocağınıza buncılayın övrət gəlməsün* (5, s. 33).

Verilmiş mətnin informativ strukturunda dörd əsas mənbə müşahidə olunur. Yəni mərkəzi sema bir-biri ilə bağlı dörd müxtəlif semanı birləşdirir. Bu, mətnin giriş cümləsində aydın ifadə olunur və mətnin özünü də kiçik mətnlərə parçalayır, dörd tərkib hissəyə (abzasa) ayırır. Mətnin giriş cümləsindəki bu informativ tutum ayrı-ayrı hissələri – dörd abzası bir-birinə bağlayır. Hər abzas isə qarılara aid dörd əlamətdən birini xatırladır; onun kontekstual açımına həsr olunur. Birinci abzas üçüncü əlamətə, ikinci abzas birinci əlamətə, üçüncü abzas ikinci əlamətə, dördüncü abzas dördüncü əlamətə işarə edir.

Məlumdur ki, mürəkkəb sintaktik bütövlərin informativ strukturu köhnə (məlum) və yeni (naməlum) olan informasiyaları birləşdirir.

Bayındır xan aydır: «Mərə, niyə ağlarsız? Biz bunı tanımazız. Adaqlusına aparın, görsün. Ol yaxşı bilür. Zira ol dikübdir, yenə ol tanır», -dedi.

Vardılar, kömləgi Banıçiçəgə ilətdilər. Gördi, tanıdı. «Oldur!» -dedi. Tartdı, yaqasın yırtdı. Acı tırnaq ağ yüzinə aldı-çaldı. Güz alması kibi al yanağını yırtdı. «Vay göz açub

gördigim, könül verib sevdigim! Vay al duvağım iyəsi! Vay alnum-başım umudı, xan Beyrək!» -deyü ağladı (5, s. 53) .

Burada ilk abzas adresant (məlumatı göndərən) və adresat (məlumatı qəbul edən) üçün məlum olan informasiyanı ifadə edir. Son abzas isə adresant üçün köhnə olsa da, adresat üçün yenidir.

Bu baxımdan mətnin təşkili mexanizmlərindən biri köhnə və yeni informasiyaların əvəzlənməsinə əsaslanır. Bəzən bunlar makromətni təşkil edən ayrı – ayrı mikromətnlərin əlaqələnməsini də təmin edir. Yəni birinci mətnin yeni informasiyası ikinci mətnin də informativ tutumuna daxil olur, lakin bu zaman yeni yox, köhnə informasiya funksiyasını daşıyır, ikinci mətnin yeni informasiyası isə öz növbəsində üçüncü mətnin köhnə informasiyasına çevrilir və s. İnformativ struktur komponentlərinin düzülüşünü sxemlə bu cür ifadə etmək olar:

$$\downarrow$$

$$M_1 = A_K + B_Y$$

$$M_2 = B_K + C_Y$$

$$\downarrow$$

$$M_3 = C_K + D_Y \quad \text{və s.}$$

Qeyd: $_K$ – köhnə informasiyanı, $_Y$ – yeni informasiyanı, M – mətni bildirir. Ayrı-ayrı mikromətnlər (mürəkkəb sintaktik bütövlər) birləşərək bir makromətni (bədii əsəri) əmələ gətirdikləri kimi, mikromətnin özünün də informativ bazasını ifadə edən tərkib hissələr – mətndən kiçik sintaktik vahidlər (söz birləşməsi, cümlə) mövcuddur. Bu struktur komponentlərin verdiyi informasiyalar mürəkkəb sintaktik bütövlərin informativ strukturunu və ya mətndaxili kompozisiyanı təşkil edir.

Oğlan anasının sözin sımadı. Büğac bəg yerindən uru turdı. Qara polat uz qılıcın belinə quşandı. Ağ tozlıca qatı yayını əlinə aldı. Altun cilasın əlinə aldı. Bədəvi atın tutdı, durdı, bütün bindi. Qırq yigidin boyına aldı. Babasının ardınca yortıb getdi (5, s. 40).

Burada səkkiz cümlənin bildirdiyi doqquz informasiya mətnin informasiya strukturunu verir. Ancaq komponentlər mətn vahidi kimi məzmun daşıyıcısı olsalar da, dil vahidi kimi kommunikasiyaya xidmət edirlər. Bu baxımdan kommunikativ vahidlərin birliyi kimi informasiya strukturu bütün mətnlərdə eynidir. Ancaq mətn vahidlərinin funksionallığı mürəkkəb sintaktik bütövlərdə eyni olmaya da bilir. Bu daha çox şer olan mətnlərlə nəsr olan mətnlər arasında üzə çıxır. «Kitabi-Dədə Qorqud»da şer-mətnlə nəsr-mətnin mətndaxili kompozisiyası – giriş, final hissələri və s. bir çox hallarda fərqlənir. Mətn-nəsrdə əhvalat, təsvir, birbaşa ifadə əsas yer tutur:

Qırq yigidinə dilbənd saldı, əl eylədi. Qırq yigit bədəvi atın oynatdı, oğlanın üzərinə yığnaq oldı.

Oğlan qırq yigidin boyına aldı, at dəpdi, cəng və savaş etdi. Kiminün boynın urdı, kimini tutsaq elədi. Babasını qurtardı, qayıtdı, gerü döndi.

Dərsə xan burda oğlancığın sağ idügin yenə bildi. Xanlar xanı oğlana bəglik verdi, təxt verdi. Dədəm Qorqud boy boyladı, soy soyladı. Bu oğuznaməyi düzdi-qoşdı, böylə dedi (5, s. 41).

Mətn-şerdə isə birbaşa olmayan ifadə tərzi, əhvalatın olmaması, tərənnüm özünü göstərir və ifadə üsulu, bir qayda olaraq, əsas mətləbin açılmasına kömək edən yardımçı vasitələrlə müşayiət olunur.

Boynı uzın bədəvi atlar gedərsə, sənin gedər;
Bənim də içində binədim var,
qomağım yoq qırq namərdə!
Qaytabanda qızıl dəvə sənin gedər,

Mənim də içində yüklətim var,
qomağım yoq qırq namərdə!
Ağayıldı tümən qoyun sənin gedər,
Mənim də içində şişligim var,
[*qomağım*] *yoq qırq namərdə*!
Ağ yüzlü, ala gözlü gəlin sənin gedərsə,
Mənim dəxi içində nişanlım var,
qomağım yoq qırq namərdə!
Altun başlu ban evlər sənin gedərsə,
Mənim də içində odam var,
qomağım yoq qırq namərdə!
Ağ saqallu qocalar sənin gedərsə,
Mənim dəxi içində bir əqli şaşmış,
biligi yetmiş qoca babam var;
qomağım yoq qırq namərdə! (5, s. 41).

Verilmiş şerin sonluq hissəsindəki baba sözü əsas informativ mərkəzin mikrokomponentidir. Əvvəl gələn misraLardakı at, dəvə, qoyun, gəlin, ev elementləri isə əsas informasiyanın ifadəsində köməkçi vasitə rolunu oynayır. Bununla belə, bütün elementlər assosiasiya yaradaraq ümumi informativ strukturu təşkil edirlər.

Mürəkkəb sintaktik bütövlər bədii mətni (makromətni) başladıqda, başqa sözlə, ilk cümlə, yaxud daha iri sintaktik vahidlər – mətn əvvəl gəldikdə oxşar informativ tutum əmələ gətirirlər. Belə ki, qədim türk (runik) yazılı abidələrində ilk cümlə xüsusi funksional-semantik məzmun daşıya bilir. Burada adətən xaqanın adı çəkilir və ya xaqan haqqında bilgi – informasiya verilir. Kültiqin şərəfinə abidədə: Tenri teq tenride bolmış türk bilqe kağan bu ödke olurtım (KltC. 1; Tərcüməsi: Tanrı kimi göylərdə doğulmuş türk müdrik xaqanı bu taxta əyləşdim). Bilgə xaqan şərəfinə abidədə: Tenri teq tenri yaratmış türk bilqe kağan sabım (BxŞ. 1; Tərcüməsi: Tanrı tək tanrı yaratmış türk müdrik xaqanı sözüm [budur]). Moyun Çor

şərəfinə abidədə: Tenride bolmış, il etmiş bilqe kağan (MçŞm. 1; Tərcüməsi: Tanrıdan olmuş, dövlət yaratmış xaqan). İlk cümlənin bu informativ təyinatı orta əsrlər türk yazılı abidələrində – «Kitabi-Dədə Qorqud»un da dilində saxlanılır; ilk cümlədə və ya mürəkkəb sintaktik bütövdə, bir qayda olaraq, yuxarı instansiya, yaxud əsas obraz haqqında məlumat olur. Bu baxımdan «Kitabi-Dədə Qorqud»un ayrı-ayrı boylarında ilk mürəkkəb sintaktik bütöv fərqli informativ funksionallıq nümayiş etdirə bilir. İnformativ məzmun:

-əsas obrazı xarakterizə edir. Rəsul əleyhissəlam zamanına yaqın Bayat boyından Qorqud ata diyərlər bir ər qopdı. Oğuzın ol kişi təmam bilicisiydi, -nə diyərsə, olurdı. Ğaibdən dürlü xəbər söylərdi. Həq təala anın könlinə ilham edərdi (5, s. 31). Məgər xanım, oğuzda Duxa Qoca oğlı Dəli Domrul deyərlərdi bir ər var idi. Bir quru çayın üzərinə bir köpri yapdırmışdı. Keçənindən otuz üç aqça alurdı, keçmiyənindən dögə-dögə qırq aqça alurdı. Bunı neçün böylə edərdi? Anunçun ki, «məndən dəli, məndən gücli ər varmıdır ki, çıqa mənümlə savaşa, -deyirdi; mənim ərligim, bəhadirligim cılasunligim, yigitligim Ruma, Şama gedə çavlana», -deyirdi (5, s. 79);

-yuxarı instansiya haqqında məlumat verir. Bir gün Qam ğan oğlı xan Bayındır yerindən turmışdı. Şami günligi yer yüzinə dikdirmişdi. Ala sayvanı gög yüzinə aşanmışdı. Bin yerdə ipək xaliçəsi döşənmişdi (5, s. 37). Qam ğan oğlı xan Bayındır yerindən turmışdı. Qara yerin üstinə ağ ban evin dikdirmişdi. Ala sayvan gög yüzinə aşanmışdı. Bin yerdə ipək xaliçəsi döşənmişdi. İç Oğuz, Taş Oğuz bəgləri Bayındır xanın söhbətinə dərilmişdi. Baybörə dəxi Bayındır xanın söhbətinə gəlmişdi. Bayındır xanın qarşısında oğlı Qarabudaq bay tayanub turmışdı. Sağ yanında Qazan oğlı Uruz turmış idi. Sol yanında Qazlıq qoca oğlı bəg Yegnək turmışdı. Baybörənin bunları gördügində ah eylədi. Başından əqli getdi. Dəstmalın əlinə aldı, bögürü–bögür ağladı (5, s. 52);

-birbaşa əhvalatla başlayır. Məgər xanım, bir gün Oğuz otururkən üstinə yağı gəldi. Dün içində ürkdi, köçdi. Qaçub gedərkən Aruz qocanın oğlancığı düşmiş, bir aslan bulub götürmiş, bəsləmiş. Oğuz yenə əyyamla gəlüb, yurdına qondı. Oğuz xanın ilqıçısı gəlüb xəbər gətürdi. Aydır: «Xanım, sazdən bir aslan çıqar, at urar, apul–apul yürüyişi adam kibi. At basuban qan sümürər» (5, s. 98). Üç oq, Boz oq yığnaq olsa, Qazan evin yağmaladardı. Qazan gerü evin yağmalatdı. Əmma Taş oğuz bilə bulınmadı. Həmin İç oğuz yağmaladı (5, s. 125).

«Kitabi – Dədə Qorqud» boylarında ilk mürəkkəb sintaktik bütövlərin fərqli məzmun tutumlarını aşağıdakı cədvəl də əks etdirir:

cədvəl 1

«Kitabi-Dədə Qorqud» boyları	Yuxarı instansiya haqqında məlumat	Əsas obraz (baş qəhrəman) haqqında məlumat	Birbaşa əhvalatın təsviri
Müqəddimə		+	
Birinci boy	+		
İkinci boy		+	
Üçüncü boy	+		
Dördüncü boy		+	
Beşinci boy		+	
Altıncı boy		+	
Yeddinci boy	+		
Səkkizinci boy			+

Doqquzuncu boy	+		
Onuncu boy		+	
On birinci boy			+
On ikinci boy			+

İlk cümlənin bu informativ müəyyənliyi qədim türk (runik) yazılı abidələrindən orta əsrlər türk yazılı abidələrinə və sonrakı dövrə doğru iki xətt üzrə inkişaf edir:

a) xüsusi semantik yük daşıyan ilk cümlənin bu funksionallığı daha mürəkkəb sintaktik vahidə (mürəkkəb sintaktik bütövə) ötürülür və onun bütün tərkib hissələri arasında bu və ya digər səviyyədə yayılır. Müqayisə üçün aşağıda verdiyimiz hər iki dövr yazılı abidələrinə aid nümunələrdə demək olar ki, eyni informativ məzmun – yuxarı instansiya ilə bağlı bilgi var. Və bu bilgi – informasiya bədii mətn ilə bədii olmayan yazılı nümunədə başqa-başqa həcmə malik sintaktik vahidlərdə yerləşmişdir:

Kültiqin şərəfinə abidə	«Kitabi – Dədə Qorqud»
Tenri teq tenride bolmış türk bilqe ka-ğan bu ödke olurtım (KltC. 1; Tərcüməsi: Tanrı kimi göylərdə doğulmuş türk müdrik xaqanı bu taxta əyləşdim).	Qam ğan oğlı xan Bayındır yerindən turmışdı. Ağ ban evini qra yerin üzərinə dikdirmişdi. Ala sayvan gög yüzinə aşanmışdı. Bin yerdə ipək xalicəsi döşətmişdi. İç Oğuz, Taş Oğuz bəgləri yığnaq olmışdı (IX b., s. 104).

b) ilk cümlə başlığa çevrilir və orta əsrlərdə başlıqların cümlə şəklində formalaşma ənənəsini doğurur. «Kitabi – Dədə Qorqud»da:

İkinci boy – Salur Qazanın evi yağmalandığı boyı bəyan edər (5, s. 42).

Dördüncü boy – Qazan bəg oğlı Uruz bəgin tutsaq oldığı boyı bəyan edər, xanım, hey! (5, s. 68).

Səkkizinci boy – Basat Dəpəgözi öldürdigi boyı bəyan edər, xanım, hey! (5, s. 98).

On birinci boy – Salur Qazan tutsaq olub oğlı Uruz çıqardığı boyı bəyan edər (5, s. 116).

On ikinci boy – İç oğuza Taş Oğuz asi olub Beyrək öldügi boyı bəyan edər (5, s. 123).

M.Füzulinin «Leyli və Məcnun» poemasında:

Bu Leylinin çırağla macərasıdır və ondan çareyi-dərdi-dil təmənnasıdır (3, s. 77). Bu Leylinin ibni Sələma giriftar olduğudur və yardan məhrum və müqəyyədi-əğyar olduğudur (3, s. 94). Bu Nofəlin Leyli həşəmilə rəzm etdiyidir və rəzmdə qalib olmayıb sülhə əzm etdiyidir (3, s. 103). Bu Məcnunun zəncirə özün müqəyyəd etdiyidir və bəhanə ilə Leyli tərəfinə getdiyidir (3, s. 110). Bu Zeyd vəfadarın Məcnuna xəbər gətirdiyidir və ibni Sələm ilə Leylinin peyvəndi müjdəsini yetirdiyidir (3, s. 128). Bu Məcnunun atası vəfatından xəbərdar olduğudur və məzarinə yol bulduğudur (3, s. 153). Bu ibni Sələmın keyfiyyəti-vəfatıdır və Leylinin ol bəladən nəcatıdır (3, s. 171).

Makromətndə xüsusi əhəmiyyət daşıyan ikinci güclü nöqtə sonluqda – finalda üzə çıxır. Yəni birinci cümlə (sonrakı inkişafda mürəkkəb sintaktik bütöv) ilə yanaşı sonuncu cümlə (mürəkkəb sintaktik bütöv) də türk bədii mətninin məzmun strukturunda həlledici rol oynayır. Qədim türk (runik) yazılı abidələrində mətnin sonuna yaxın ümumiləşdirici yekun hissədə müəllifin – abidəni yazan və ya daşa həkk etdirənin adı verilir. Oxşar hadisə «Kitabi – Dədə Qorqud» boylarında da

özünü göstərir; sonuncu mürəkkəb sintaktik bütöv Dədə Qorqudu «Kitabi–Dədə Qorqud» boylarının-«Oğuznamə»lərin tam hüquqlu müəllifi kimi təqdim edir.

Kültiqin şərəfinə abidədə: Bunça bitiq bitiqme Kültiqin atısı Yolığ tiqin bitidim. Yiqirmi kün olurıp bu taşka bu tamka kop Yolığ tiqin bitidim (KltC-Ş; Tərcüməsi: Bunca yazı yazan Kültiqinin qohumu Yolığ tigin (şahzadə Yolığ) yazdım. İyirmi gün oturub bu daşa bu damğanı bütünlüklə Yolığ tigin yazdım).

Bilgə kağan şərəfinə abidədə: …Bunça barkığ, bediziq uzığ [türk bilqe] kağan atısı Yolığ tiqin men ay artukı tört kün olurıp bitidim, bediztim (BxC-Q; Tərcüməsi: Bunca sərdabəni, naxışı, heykəli [türk müdrik] xaqanın qohumu mən-Yolığ tigin bir ay dörd gün oturub yazdım, naxış vurdum).

Tonıkuk şərəfinə abidədə: Türk kağan iline bitidim ben bilqe Tonıkuk (Ton. II daş, Ş. 58; Tərcüməsi: Türk müdrik xaqan dövləti üçün yazdırdım mən – müdrik Tonıkuk).

«Kitabi – Dədə Qorqud»da: Dədəm Qorqud gəlübən şadlıq çaldı. Bu Oğuznaməyi düzdi-qoşdı, «Bəkil oğlı Əmranın olsun!» -dedi. Ğazilər başına nə gəldügin söylədi. Yum verəyin, xanım! Yerli qara otağların yıqılmasun! Kölgəlicə qaba ağacın kəsilməsün! Allah verən ümidin üzülməsün! Günahınızı adı görklü Məhəmmədə bağışlasun, xanım, hey! (5, s. 109).

§2. MƏTN VƏ MÜRƏKKƏB SİNTAKTİK BÜTÖV

Bədii mətnin təşkilində informasiya nə qədər zəruri sayılırsa, onun ifadə forması bir o qədər əhəmiyyətli hesab edilir. Bu ifadə formalarına bütün sintaktik vahidləri (söz birləşməsi, sadə cümlə, tabesiz mürəkkəb cümlə, tabeli mürəkkəb cümlə, qarışıq tipli mürəkkəb cümlə, mürəkkəb sintaktik bütöv) aid etmək mümkündür. Onların hər biri bədii mətnə (və ya informasiyanın ifadəsinə) quruluş detalı kimi xidmət göstərsə də, quruluşca və digər xüsusiyyətlərinə görə biri digərindən fərqlənir. Bu baxımdan sintaktik mətni (mürəkkəb sintaktik bütövü) başqa sintaktik vahidlərdən ayıran əlamətlər var:

a) başqa sintaktik vahidlərdən fərqli olaraq mürəkkəb sintaktik bütövə doğru inkişaf quruluşun mürəkkəbliyindən yox, informasiyanın həcmliyindən irəli gəlir (mürəkkəb cümlə bəzən sadə cümlə ilə müqayisədə quruluşun mürəkkəbliyindən başqa bir şey deyil);

b) mürəkkəb sintaktik bütövün komponentlərini təşkil edən cümlələr tabeli, ya tabesiz mürəkkəb cümlələrin tərkib hissələri ilə müqayisədə nisbi müstəqildirlər;

c) sintaktik mətn komponentlərini əlaqələndirən formal vasitələrin rolu zəifdir və bəzən onlar əlaqələnmədə həlledici ünsür ola bilmir;

d) mürəkkəb sintaktik bütövlər bədii mətnin daha böyük tərkib hissəsi – mikromətn hesab edilirlər.

«Kitabi-Dədə Qorqud»un dilindəki mürəkkəb sintaktik bütövlərdə açar söz iştirak edirsə də, o, mətn komponentlərinin hamısını əlaqələndirməyə bilir, eləcə də, mətn boyu açar sözün iştirak etdiyi mürəkkəb sintaktik bütövlərə az-az təsadüf olunur.

Məgər xanım, Bayındır xanın bir buğası vardı, bir dəxi buğrası vardı. Ol buğa qatı taşa buynız ursa un kibi ügidərdi. Bir yazın, bir güzin buğayla buğrayı savaşdırarlardı. Bayındır xan Qalın oğuz bəglərilə tamaşaya baxardı, təfərrüc edərdi.

Məgər sultanım, genə yazın buğayı saraydan çıxardırlar. Üç kişi sağ yanından, üç kişi sol yanından dəmür zəncirlə buğayı tutmışlardı. Gəlüb meydan ortasında qoyu verdilər. Məgər sultanım, Dirsə xanın oğlancığı, üç dəxi ordı uşağı meydanda aşuq oynarlardı. Buğayı qoyu verdilər, oğlancıqlara «qaç» dedilər. Ol üç oğlan qaçdı, Dirsə xanın oğlancığı qaçmadı. Ağ meydanın ortasında baxdı–turdı. Buğa dəxi oğlana sürdi–gəldi. Dilədi ki, oğlanı həlak qılaydı. Oğlan yumrığilə buğanın alnına qıya tutıb çaldı. Buğa kötin – kötin getdi. Buğa oğlana sürdi, gerü gəldi. Oğlan yenə buğanın alnına yumruğilə qatı urdı. Oğlan bu qatla buğanın alnına yumrığını tayadı, sürdi, meydanın başına çıqardı.

Buğayla oğlan bir həmlə çəkişdilər. İki talusının üstinə buğanın köpük turdı. Nə oğlan yenər, nə buğa yenər. Oğlan fikr eylədi, aydır: «*Bir tama dirək ururlar, ol tama tayaq olur. Bən bunın alnına niyə tayaq olurbən-tuturbən*» *-dedi. Oğlan buğanın alnından yumruğın gedirdi, yolından savıldı. Buğa ayağ üstinə turamadı, düşdi; dəpəsinin üstinə yıqıldı. Oğlan bıçağına əl urdı. Buğanın başını kəsdi* (I boy, s. 36).

Verilmiş nümunədə buğa sözü açar funksiyasını daşıyaraq, başqa vasitələrlə yanaşı, mətn komponentlərinin əlaqələnməsinə xidmət edir.

Açar söz müxtəlif cümlələrdə – sintaktik bütövün tərkib hissələrində sinonimlərlə əvəz olunur.

Rəsul əleyhissəlam zəmanına yaqın Bayat boyından Qorqud Ata diyərlər, bir ər qopdı. Oğuzın ol kişi təmam bilicisiydi, -nə diyərsə, olurdı. Ğaibdən dürlü xəbər söylərdi. Həq-təala anın könlinə ilham edərdi (müqəddimə, s. 31).

Birinci cümlədəki Qorqud ata diyərlər bir ər birləşməsi açar ifadə vəzifəsini yerinə yetirir. Onu ikinci cümlədə ol kişi

birləşməsi, dördüncü cümlədə üçüncü şəxsin təkinə aid əvəzlik əvəz edir.

Açar söz ifadə olunmadan da öz funksiyasını qoruyub saxlaya bilir. Onun ilk cümlədə işlənməsi bəzən kifayət edir ki, növbəti cümlələrdə leksik vahid şəklində reallaşmadan nəzərdə tutulsun. Nümunəyə baxaq:

Məgər xanım, Oğuzda Duxa Qoca oğlı Dəli Domrul deyərlərdi, bir ər var idi. Bir quru çayın üzərinə bir köpri yapdırmışdı. Keçənindən otuz üç aqça alurdı, keçmiyənindən dögə-dögə qırq aqça alurdı. Bunı neçün böylə edərdi? Anunçun ki, «*məndən dəli, məndən gücli ər varmıdır ki, çıqa mənümlə savaşa*, *-deyirdi*; *mənim ərligim, bəhadirligim, cilasunligim, yigitligim Ruma, Şama gedə çavlana*», *-deyirdi* (Y b., s. 79).

Burada açar ifadə mətn komponentlərini bir-birinə bağlayan Duxa Qoca oğlı Dəli Domrul deyərlərdi, bir ər birləşməsidir. Sonrakı cümlələrin hər birində həmin açar ifadə (söz) işlənməsə belə, onların hər birini tekstual mərkəzdən idarə edir və yaxın informativ blokda birləşdirir. Odur ki, sonrakı cümlələrin hər birinin əvvəlində həmin açar söz (ifadə) formal olaraq təsəvvür oluna bilir:

[Dəli Domrul**]** bir quru çayın üzərinə bir köpri yapdırmışdı.

[Dəli Domrul**]** keçənindən otuz üç aqça alurdı, keçmiyənindən dögə-dögə qırq aqça alurdı.

[Dəli Domrul**]** bunı neçün böylə edərdi? və s.

Ümumiyyətlə, açar sözün ilk cümlələrdən başqa növbəti sintaktik vahidlərdə ifadə olunmaması və bununla belə, həmin funksionallıqda qalması «Kitabi-Dədə Qorqud»un dilindəki mürəkkəb sintaktik bütövlər üçün xarakterik haldır. Belə nümunələrdə açar söz mənsubiyyət şəkilçiləri, əvəzliklər, daha çox üçüncü şəxsə aid xəbərlərlə əvəz olunur. Açar sözün növbəti cümlələrdə işirak etməməsi bəzən mətn komponentlərinin əlaqələnməsinə xidmət göstərir.

…Basat aydır: «*Yoğ, ağ saqallu əziz baba, vararam*», *dedi. Əsləmədi, biləgindən bir tutam oq çıqardı, belinə soqdı. Qılıcın həm quşandı. Yayın qarusına bıraqdı. Ətəklərin qıvardı. Babasının-anasının əlini öpdi, hələllaşdı*, «*xoş qalun*» *-dedi*.

Mürəkkəb sintaktik bütöv burada tamamlana bilərdi. Çünki informasiyalar və onların həcmi buraya qədər olan hissəni bir sintaktik mətn kimi qəbul etməyə imkan verir. Ancaq növbəti cümlədə açar-subyektin ifadə olunmaması onu və ondan sonra gələn tam sintaqmları əvvəlki cümlələr ilə formal baxımdan bağlayır və mürəkkəb sintaktik bütövün hüdudları genişlənir.

Dəpəgöz oldığı Salaxana qayasına gəldi. Gördi, Dəpəgöz günə qarşu arxasın vermiş. Yalnuz çəkdi, belindən bir ox çıqardı. Dəpəgözün yağrına bir ox urdı. Ox keçmədi, paralandı. Bir dəxi atdı. Ol dəxi parə-parə oldı. Dəpəgöz qocalara ayıtdı: «*Bu yerin sinəgi bizi üşəndirdi*!» *–dedi*. *Basat bir dəxi atdı. Ol dəxi paralandı, bir parəsi Dəpəgözün öginə düşdi. Dəpəgöz sıçradı, baqdı. Basat gördi, əlin-əlinə çaldı; qas-qas güldi. Qocalara aydır*: «*Oğuzdan yenə bizə bir türfəndə quzı gəldi*», *-dedi. Basatı öginə qatdı, tutdı. Boğazdan salındırdı. Yatağına gətürdi. Ədüginin quncına soqdı. Aydır*: «*Mərə qocalar, ekindi vəqti munı mana çevirəsiz, yiyəm*» *-dedi. Yenə uyıdı* (YIII b., s. 101).

«Kitabi-Dədə Qoqud»un dilində mürəkkəb sintaktik bütövün tərkib hissələrini əlaqələndirən vasitələr içərisində qrammatik şəkilçilər çoxluq təşkil edir. Mənsubiyyət kateqoriyasının əlamətləri mətn komponentlərini bir-birinə bağlayır.

Oğuz zəmanında Qanlı Qoca derlərdi, bir gürbiz ər vardı. Yetişmiş bir cilasun oğlı vardı. Adına Qanturalı deirlərdi (YI b, s. 85).

Sintaktik mətndən gətirdiyimiz parçada ikinci cümlənin mənsubiyyət şəkilçisi oğlı sözünü əvvəlki cümlənin ər lekseminə, üçüncü cümlənin mənsubiyyət şəkilçisi isə adına sözünü ikinci cümlənin oğlı isminə bağlayır və hər iki cütlük

bir yerdə təyini söz birləşmələri əmələ gətirirlər. Ancaq ikinci və üçüncü cümlələrdə həmin ismi birləşmələrin (ərin oğlı, oğlının adı) birinci tərəfi ifadə olunmadığından üçüncü növ təyini söz birləşməsi modelində təktərəfli birləşmələr yaranır. …bir gürbiz ər vardı. [Ərin] yetişmiş bir cilasun oğlı vardı. [Oğlının] adına Qanturalı deirlərdi. Həm də mənsubiyyət şəkilçilərinin iştirakı ilə olan bu bağlanmalar ardıcıl (və ya zəncirvari) sıralandığından bədii əsərin dilinə xüsusi effekt verir. Kəmiyyət kateqoriyasının əlaməti bu funksiyanı yerinə yetirir. Burada cəmlik şəkilçisinin hansı nitq hissəsi ilə işlənməsi, cümlənin hansı mövqeyində gəlməsi xüsusi əhəmiyyət kəsb edir. Cəmlik şəkilçisi cümlənin içərisində işlənib isimlərə əlavə olunduqda ancaq qrammatik məzmun daşıyır, eyni sintaktik funksiyalı isimlərə əlavə edildikdə isə cümlənin həmcins üzvlərinin formalaşmasına kömək edir. –lar (-lər) şəkilçisinin bağlayıcı–əlaqələndirici funksiyası, bir qayda olaraq, xəbərlərlə işləndikdə özünü göstərir.

Babasilə Yegnək gizlü yaqa tutuban yiləşdilər. Eki həsrət bir-birinə bulışdılar. İssüz yerin qurdı kibi ulaşdılar. Tənriyə şükrlər qıldılar. Qələnin kəlisasın yıqub, yerinə məscid yapdılar. Əziz tənri adına qudbə oqıtdılar. Quşun ala qatını, qumaşın arusını, qızın gögçəgini, toquzlama çırğab çuqa Bayındır xana pəncyek çıqardılar. Baqisin ğazılara bəxş etdilər. Döndilər, evlərinə gəldilər (YII b, s. 97).

Burada feli xəbərin cəmlik şəkilçisi mətndəki doqquz cümlənin bir-birinə bağlanmasına kömək edir.

Xəbərlərin zamana görə uzlaşması bağlayıcı vasitə rolunu oynayır. Bu halda aşağıdakı zaman şəkilçilərinin funksionallığı müşahidə edilir:

–mətnlərdə qeyri-qəti gələcək zamana görə uzlaşma özünü göstərir.

Oğul, oğul, ay oğul! Ortacım oğul!
Qarşu yatan qara tağım yüksəgi oğul!
Qarannulıca gözlərim aydını oğul!

Sam yelləri əsmədin Qazan qulağım çınlar.
Sərimsaq otın yemədin Qazan, içim göynər.
Sarı yılan soqmadan ağca tənüm qalqar, şişər.
Qurumışca köksimdə südim oynar,
Yalnuzca oğul görünməz, bağrım yanar.
Yalnuz oğul xəbərin, Qazan, degil, mana!
Deməz olarsan, yana-göynə qarğaram, Qazan,
sana! (IY b., s. 72);

–mürəkkəb sintaktik bütövün komponentləri şühudi keçmiş zamana görə uzlaşır və belə uzlaşmaya «Kitabi-Dədə Qorqud»un dilində daha çox təsadüf olunur:

Baba oğlancuğın gördi, allaha şükrlər eylədi. Oğlilə, gəlinlə Qanlı Qoca Oğuza girdi. Gög ala görkli çəmənə çadır dikdi. Atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç qırdırdı, dügün etdi. Qalın Oğuz bəglərin ağırladı. Altunluca günlügin diküb, Qanturalı gərdəginə girüb, muradına–məqsudına irişdi (YI b., s. 93);

–idi bağlaması müxtəlif zaman şəkilçilərinə əlavə olunaraq, mətn komponentlərini formal baxımdan birləşdirir.

Məgər qız meydanda bir köşk yapdırmış idi. Cəmi yanında olan qızlar al geymişlərdi, kəndü sarı geymiş idi. Yuqarıdan təmaşa edərdi (YI b, s. 87).

Qrammatik formalarla yanaşı, leksik vahidlər mürəkkəb sintaktik bütövlərin formalaşmasına təsir göstərir. *Bir gün Ulaş oğlı*, *Tülü quşun yavrısı*, *bizə miskin umudı*, *Amit soyının aslanı*, *Qaracuğın qaplanı*, *qonur atın iyəsi*, *xan Uruzın ağası*, *Bayındır xanın göygüsi*, *Qalın Oğuzın dövləti*, *qalmış yigit arxası*, *Salur Qazan yerindən turmuşdı*. *Toqsan başlu ban evlərin qara yerin üzərinə dikdirmişdi*. *Toqsan yerdə ala-qalı ipək döşəmişdi*. *Səksən yerdə badyələr qurulmışdı*. *Altun ayaq sürahilər düzülmüşdi. Toquz qara gözlü, xub yüzlü, saçı ardına urulu, köksi qızıl dügməli, əlləri biləgindən qınalı, barmaqları*

nigarlı məhbub kafər qızları Qalın Oğuz bəglərinə sağraq sürüb içərlərdi (II b, s. 42).

Verilmiş mətndə hər biri ayrı-ayrılıqda informasiya daşıyıcıları olan cümlələrin rabitəsi miqdar saylarının hesabına daha davamlı olur. Yəni giriş cümləsindən başqa sonrakı cümlələrdə işlənmiş toqsan, səksən, toquz saylarının məna funksionallığı (miqdar ifadə etməsi) əlaqə radiusunu həmin sintaktik vahidlər çərçivəsinə salır. Odur ki, bu sintaktik bütövlərin diapazonu yeni komponent hesabına genişlənsə idi, mütləq həmin tərkib hissədə başqa bir miqdar sayı işlənməli, əvvəlki struktur təkrar olunmalı idi.

Mətnin daxili rabitəsi sintaktik quruluşun mürəkkəb sintaktik bütöv boyu təkrarına əsaslanır. Buradakı sintaktik təkrarlar ikili funksiya daşıyaraq həm mətn komponentlərinin əlaqələnməsini təmin edir, həm də bədii effekt yaratmaq məqsədi daşıyır. Odur ki, sintaktik quruluşun təkrarı ilə müşayiət olunan mürəkkəb sintaktik bütövlərə şer-mətndə də, nəsr-mətndə də rast gəlmək olur.

Mərə, dini yoq, əqlsiz kafər!
Ussı yoq dərnəksiz kafər!
Qarşu yatan qarlı qara tağlar qarıyıbdur, *otı bitməz*.
Qanlu-qanlu ırmaqlar qurıyıbdır, suyı gəlməz.
Şahbaz-şahbaz atlar qarıyubdur, *qulun verməz*.
Qızıl-qızıl dəvələr qarıyubdur, *köşək verməz*.
Mərə kafər, Qazanın anası qarıyubdur, oğul verməz.
(II b., s. 49)

«Kitabi-Dədə Qorqud»un dilində mətnlər bəzən dialoqlar şəklində qurulduğundan dialoji nitq strukturu da mürəkkəb sintaktik bütövlərin komponentlərini əlaqələndirir.

Əzrayıl aydır: «*Mərə, dəli qavat, mana nə yalvararsan, allah-təalaya yalvar. Mənim də əlümdə nə var. Mən dəxi bir yumuş oğlanıyam*» *-dedi*.

Dəli Domrul aydır: «*Ya pəs can verən, can alan allah-təalamıdır*?»

«*Bəli oldur*!» *-dedi*.

Döndi Əzrayilə: «*Ya pəs sən nə eyləməkluqdasan*? *Sən aradan çıqğıl*, *mən allah-təala bilə xəbərləşim*», *-dedi* (Y b., s. 80-81).

Komponentlərin bir-birinə bağlanmasında tematik və rematik informasiyaların (tema və rema) bir-birini izləməsi mühüm rol oynayır. Ancaq belə mətnlər «Kitabi-Dədə Qorqud»un dilində azlıq təşkil edir. Təsadüf edilənlər isə sintaktik bütöv boyu deyil, mətnin ayrı-ayrı hissələrində işlənirlər.

Dirsə xan oğlana bəglik verdi, *təxt verdi*. *Oğlan təxtə çıqdı*, *babasının qırq yigidin anmaz oldı*. *Ol qırq yigid həsəd eylədilər* (I b., s. 36).

Mətndən nümunə gətirdiyimiz parçadakı tərkib hissələrin tema-rema quruluşundan asılı olaraq, birinci cümlənin reması («təxt verdi») ikinci cümlənin temasına («təxtə çıqdı»), ikinci cümlənin reması («qırq yigit») üçüncü cümlənin temasına çevrilir.

Bu məhəldə sultanım, *Salur Qazanla Qaraca çoban çapar yetdi*. *Çobanın üçyaşar tana dərisindən sapanının ayasıydı*, *üç keçi tüyindən sapanının qollarıydı*, *bir keçi tüyindən çatlağucıydı*. *Hər atanda on iki batman taş atardı*. *Atdığı taş yerə düşməzdi*. *Yerə dəxi düşsə*, *toz kibi savrılardı* (III b., s. 48). Verilmiş parçanın tema-rema quruluşunu aşağıdakı cədvəldən daha aydın görmək olar:

cədvəl 2

Mətndə cümlənin sıra sayı	İnformasiyanın növü	Cümlənin semantik mərkəzi
I	rema	Qaraca çoban
II	tema	Qaraca çoban
II	rema	sapan
III	tema	sapan
III	rema	taş
IY	tema	taş
IY	rema	yer
Y	tema	yer

Mətnin tema-rema quruluşu başqa bir məsələni – mətn komponentlərinin sıralanma qaydasını doğurur. Yeni və köhnə informasiyaların əvəzləndiyi mürəkkəb sintaktik bütövlərdə tərkib hissələr, bir qayda olaraq, ardıcıl birləşirlər. Yəni birinci cümlənin sonu (yeni informasiya) ikinci cümlənin əvvəlində (köhnə informasiya), ikinci cümlənin sonu üçüncü cümlənin əvvəlində, üçüncü cümlənin sonu dördüncü cümlənin əvvəlində və s. təkrarlanır, daxili rabitəni möhkəmləndirir.

Dəpəgöz bildi kim, *Basat mağaradadır* (1). *Mağaranın qapusın alub bir ayağın bir qapunın bir yanına*, *birin dəxi bir yanına qodı, aydır*: «*mərə qoyun başları ərkəc*, *bir-bir gəl*, *keç*!» *-dedi* (2). *Bir-bir gəlüb keçdi* (3). *Hər birinin başların sığadı* (4). «*Toqlıcıqlar*, *dövlətim saqar qoc, gəl keç*!» *-dedi* (5). *Bir qoç yerindən qalqdı, gərinüb sündi* (6). *Dəfi Basat qoçı basub boğazladı, dərisini yüzdi, quyruğilə başını dəridən ayırmadı, içinə girdi* (7). *Basat Dəpəgözün öginə gəldi* (8). *Dəpəgöz də bildi kim, Basat dəri içindədir* (YIII b., s. 101).

Mətndə paralel sıralanmanı reallaşdıran semantik mərkəzlər aşağıdakı kimi düzümlənir:

[(1) mağara (2)**]** ⟶ **[**(2) bir-bir gəl keç (3), (4)**]** ⟶

[(5) qoç (6), (7)**]** ⟶ **[**(7) Basat (8)**]** ⟶

[(8) Basat, Dəpəgöz (9)**]**

Tərkib hissələrin paralel birləşməsində isə bu cür ardıcıllıq olmur. Burada paralel termini qeyri-ardıcıl əlaqələnməni ifadə etmək üçün şərti mənada işlədilir. Məsələn:

Basatın xəncəri vardı. Ədügini yardı, içindən çıqdı. Aydır: «Mərə qocalar, munın ölümi nədəndir?» Ayıtdılar: «Bilməziz. Amma gözündən qeyri yerdə ət yoqdır», -dedilər. Basat Dəpəgözün başı ucına gəldi. Qapaq qaldırdı. Baqdı gördi kim, gözi ətdir. Aydır:

«Mərə qocalar, sügiligi ocağa qoun, qızsun!» -dedi. Sügiligi ocağa bıraqdılar, qızdı (YIII b., s. 101).

Tədqiqatçılara görə, hər bir mətn üç hissədən ibarətdir: başlanğıc (tema), orta (inkişaf), sonluq (nəticə) [1, s. 441; 6]. «Kitabi-Dədə Qorqud»un dilində mürəkkəb sintaktik bütövlərin komponentlərini struktur-semantik kompozisiya baxımından üç tipə ayırmaq olar:

a) mürəkkəb sintaktik bütövün başlanğıcı;

b) mürəkkəb sintaktik bütövün inkişafı;

c) mürəkkəb sintaktik bütövün sonu.

Aslanı qoyu verdilər. Sürdi gəldi; Qanturalı bir kəpənəgi qapağına toladı. Aslanın pəncəsinə sunı verdi. Adı görklü Məhəmmədə salavat gətürdi. Aslanın alnın közədüb bir yumruq eylə urdı kim, yumruq çənəsinə toqundı, ovatdı. Süksünindən tutdı, belüni üzdi. Andan götürüb yerə urdı. Xurd oldı. Təkur öginə gəldi. Ayıtdı: «Yarın qızını mana vergil!» -dedi (YI b., s. 89).

Burada birinci cümlə sintaktik mətnin başlanğıcını, ikinci-səkkizinci cümlələr tam sintaqmların sintaktik mətnə doğru inkişafını, sonuncu cümlə isə sintaktik mətnin sonunu bildirir, mətn sonuncu cümlə ilə qapanır.

Mürəkkəb sintaktik bütövün sonunu (sonluğu) bildirən cümlə ilk və başlanğıc cümlə tiplərindən fərqli olaraq, müxtəlif məzmun çalarları yarada bilir:

a) təsviredici məzmun çaları;

Bir gün Ulaş oğlı Tülü quşun yavrusu, bizə miskin umudı, Amit soyının aslanı, Qaraçuğın qaplanı, Qonur atın iyəsi, xan Uruzın ağası, Bayındır xanın göygüsi, Qalın Oğuzın dövləti, qalmış yigit arxası Salur Qazan yerindən turmuşdı. Toqsan başlu ban evlərin qara yerin üzərinə dikdirmişdi. Toqsan yerdə ala qalı-ipək döşəmişdi. Səksən yerdə badyələr qurulmışdı. Altun ayaq sürahilər düzülmüşdi. Toquz qara gözlü, xub yüzlü, saçı ardına urulu, köksi qızıl dügməli, əlləri biləgindən qınalı, barmaqları

nigarlı məhbub kafər qızları Qalın Oğuz bəglərinə sağraq sürüb içərlərdi (II b., s. 42).

b) yekunlaşdırıcı məzmun çaları;

İçüb-içüb Ulaş oğlı Salur Qazanın alnına şərabın istisi çıqdı. Qaba dizi üzərinə çökdi, ayıtdı: «Ünim anlan, bəglər, sözüm dinlən, bəglər! Yata-yata yanımız ağrıdı. Tura-tura belümiz qurudı. Yüriyəlim, a bəglər! Av avlıyalım, quş quşlıyalım, sığun, keyik yığalım, qayıdalım, otağımıza düşəlim: yeyəlim, içəlim, xoş keçəlim!»

Qıyan Selcük oğlı Dəli Tondaz aydır: «*Bəli*, *xan Qazan*, *məsləhətdir*».

Qaragünə oğlı Qarabudaq aydır: «*Ağam Qazan*, *məsləhətdir*».

Anlar öylə digəc at ağuzlu Aruz Qoca iki dizinin üstinə çökdi, aydır: «Ağam Qazan, sası dinlü Gürcüstan ağzında otursarsan, ordun üstinə kimi qorsan?».

Qazan aydır: «*Üç yüz yigidlən oğlum Uruz mənim evim üstinə tursun*» *-dedi*. *Qonur atın çəkdirdi, bütün bindi. Təpəl-qaşqa ayğırına Tondaz bindi. Gög bədəvisin tutdurdı, Qazan bəgün qarındaşı Qaragünə bindi. Ağ bədəvisin çəkdirdi, Bayındır xanın yağısın basan Şir Şəmsəddin bindi. Barasarın Bayburd hasarından parlayıb Beyrək boz ayğırına bindi. Qonur atlu Qazana «keşiş» deyən bəg Yegnək Turu ayğırına bindi. Saya varsam, dükənsə, olmaz Qalın Oğuz bəgləri bindi. Ala tağa ala ləşkər ava çıqdı* (II b., s. 42).

c) nəticə-məzmun çaları;

Ol gün cigərində olan ər yigitlər bəlürdi (1). *Ol gün müxənnətlər sapa yer közətdi* (2). *Ol gün bir qiyamət savaş oldı, meydan tolu baş oldı, başlar kəsildi top kibi* (3). *Şahbaz-şahbaz atlar yügürdi, nalı düşdi* (4). *Ala-ala köndərlər süsəldi* (5). *Qara polat üz qılıclar çalındı, yılmağı düşdi* (6). *Üç yelənli qayın oqlar atıldı, dəmrəni düşdi* (7). *Qiyamətin bir güni ol gün oldu* (8). *Bəg nökərindən, nökər bəgindən ayrıldı* (9) (II b., s. 50).

Bəzən bir mürəkkəb sintaktik bütövün komponentlərinin bağlanmasında bir deyil, bir neçə əlaqə forması özünü göstərir.

Yuxarıda nümunə gətirdiyimiz mətnin birinci, ikinci, üçüncü və səkkizinci cümlələrini açar söz əlaqələndirir. Dördüncü, beşinci, altıncı, yeddinci cümlələr bir sintaktik quruluşun – dördüncü cümlənin ikinci tərəfinin modelində formalaşır. Doqquzuncu cümlə isə giriş ilə başlanmış informasiyanı tamamlayan yekun cümlədir. Mətn komponentlərinin formal əlaqələnmə üsuluna görə qruplaşdırılmanı sxemlə bu cür ifadə etmək olar:



Sxemə əsasən verilmiş mətn komponentləri aşağıdakı kimi qruplaşdırıla bilər:

- açar sözə görə: I, II, III, YIII cümlələr;
- sintaktik quruluşa görə: IY, Y, YI, YII cümlələr;
- başlanğıc: I cümlə;
- sonluq: IX cümlə.

Oğuz zəmanında Uşun Qoca deərlər bir kişi vardı (1). *Ömründə eki oğlı vardı* (2). *Ulu oğlının adı Əgrək idi* (3). *Bəhadır, dəlü, yaxşı yigid idi* (4). *Bayındır xanın divanına qaçan istəsə, varır-gəlürdi* (5). *Bəglər bəgi olan Qazan divanında buna heç qapu-baca yoğdı* (6). *Bəgləri basub Qazan ögində oturardı* (7). *Kimsəyə iltifat eyləməzdi* (8) (X b., s. 110).

Mətnin komponentləri idi bağlamasının əlaqələndirici funksiyasına görə bir şəkildə (əvvəlincidən sonuncuya qədər bütün tərkib hissələr bir-biri ilə), açar sözün iştirakına görə başqa şəkildə əlaqələnir. Mətnin birinci, ikinci, üçüncü cümlələrini Uşun Qoca deərlər bir kişi ifadəsi, dördüncü, beşinci, altıncı, yeddinci, səkkizinci cümlələrini başqa açar söz (və ya funksiyaca buna bərabər tutulan) – Əgrək idarə edir. Hər iki komponentin sxemlə ifadəsi bu cürdür:

I variant (idi bağlamasının iştirakına görə)



II variant (açar sözə görə)



Qoca eşidüb şad oldı (1). *Gumbur-gumbur davullar çalındı* (2). *Altun tuc borular ağrıldı* (3). *Ol gün ala bargah otaqlar dikildi* (4). *Atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç qırıldı* (5). *Qoca bəg oğullarına qarşu gəldi* (6). *Atından endi, oğlanlarilə quca-quca görüşdi, «xoş gəlmisiz, oğullar», dedi* (7). *Günligi altunlıca odasına gəldilər* (8). *Şadlıq, yemək-içmək oldı* (9). *Ulu oğlına dəxi görkli gəlin gətürdi* (10). *Eki qardaş bir-birinə sağdıc oldılar, gərdəklərinə çapub düşdilər* (11). *Murada-məqsuda irişdilər* (12) (X b., s. 115).

Mürəkkəb sintaktik bütövün komponentləri əlaqə üsuluna görə üç şəkildə qruplaşır:

- açar söz (Qoca bəg): I, YI, YII, X cümlələr;

- sintaktik quruluş: II, III, IY, Y, IX cümlələr;
- morfoloji yol (xəbərdəki cəmlik şəkilçisinə görə): YIII, XI, XII cümlələr.



«Kitabi – Dədə Qorqud»un dilində mürəkkəb sintaktik bütövləri əmələ gətirən cümlələrin quruluşuna görə də mətn tiplərini fərqləndirmək mümkündür:

-mürəkkəb sintaktik bütöv sadə cümlələrdən təşkil olunur. Yol üzərində kafərin Aya Sofyası vardı. Keşişlər bəklərdi. Ğayət sarb kəlisaydı. Atdan enüb tacir tonın geydilər. Bəzırgan surətində qatır-dəvə çəkdilər, gəldilər (XI b., s. 119).

-mürəkkəb sintaktik bütöv sadə və tabesiz mürəkkəb cümlələrdən ibarət olur. Böylə digəc qırq incə belli qız yayıldılar. Tağ çiçəgi döşürdilər. Oğlanın anası əmcəgin bir sıqdı, südi gəlmədi. İki sıqdı, südi gəlmədi. Üçüncidə kəndüyə zərb eylədi, qanı toldı. Sıqdı, südlə qan qarışıq gəldi. Tağ çiçəgilə südi oğlanın yarasına urdular. Oğlanı ata bindirdilər, alubanı ordısına gəldilər. Oğlanı həkimlərə ısmarladub Dərsə xandan saqladılar (I b., s. 39).

-mürəkkəb sintaktik bütöv sadə və tabeli mürəkkəb cümlələrdən təşkil olunur. Eylə olsa, xanım, Beyrəgin qanı qaynadı. Ədəblə yab-yab gerü döndi. Qızlar keyiki götürdilər. Gözəllər şahı Banıçiçəgin öginə gətürdilər. Baqdı, gördi ki, bir sultan simüz sığın-keyikdir. Banıçiçək aydır: «Mərə qızlar, bu yigit nə yigitdir?» Qızlar aydır: «Vallah, sultanım, bu yigit yüzi niqablu yaxşı yigitdir. Bəg oğlı bəg imiş», -dedilər (III b., s. 54).

-mürəkkəb sintaktik bütöv sadə cümlələrlə qarışıq tipli mürəkkəb cümlədən ibarət olur. Nagahi bəzırganlar gəldilər. Gördilər kim, ol yigit kim, baş kəsübdür, qan dökübdür, Baybörə bəgin sağında oturar. Bəzırganlar yüridilər. Yigidin əlin öpdilər (I b., s. 53-54).

Ümumiyyətlə, «Kitabi – Dədə Qorqud»un dilindəki mürəkkəb sintaktik bütövlərdə sadə cümlələr mürəkkəb cümlələrə nisbətən çoxluq təşkil edir.

§3. BƏDİİ MƏTN VƏ FUNKSİONAL MƏZMUN DETALLARI

İnformasiya və onun mürəkkəb sintaktik bütövlərlə ifadəsi bədii mətnin zəruri struktur-semantik vahidini təşkil edir. Mürəkkəb sintaktik vahidlərin bədii mətn vahidi kimi formalaşması üçün başqa zəruri keyfiyyət–funksional məzmun elementlərinin iştirakı da tələb olunur. Belə elementlər bədii mətnin məzmununa aid olub milli təfəkkür enerjisinin yetirdiyi funksional dil vahidlərini, ifadə vasitələrini, spesifik obrazlar sistemini, din və mifologiya ilə bağlı təfəkkür elementlərini nəzərdə tutur.

Mətnin məzmun strukturunu səciyyələndirən informAsiyalar aşağı və yuxarı instansiyalara mənsubluq dərəcəsinə görə bəzən fərqlənir. Yuxarı elitaya aid obraz ilə aşağı elitanı təmsil edən obraz haqqında məlumatlar eyni səviyyədə təqdim olunmur. Müəllif təhkiyəsi, obrazların nitqi, xüsusi isimlər, bədii təyin və bənzətmələr hər iki təbəqə nümayəndələrinə münasibətdə fərqlənir. «Kitabi-Dədə Qorqud»un dilində yuxarı və aşağı instansiyalara aid sabitləşmiş ifadələr, epitetlər əhatə dairəsinə görə iki hissəyə ayrılır: ümumi və fərdi səciyyə daşıyanlar. Yuxarı instansiyaya ünvanlanmış ümumi səciyyəli sabit ifadələr «Kitabi-Dədə Qorqud»un mətnində, bir qayda olaraq, azlıq təşkil edir. Onların işlənmə potensiyası mətnin hər yerində bərabər səviyyədə olmur; daha çox boyların əvvəlində, obrazların bir-birinə müraciəti məqamında müşahidə edilirlər.

Bir gün Qamğan oğlı xan Bayındır <u>yerindən turmışdı</u> (I b., s. 34).

Alar sabah Dirsə xan qalqubanı <u>yerindən uru turub</u>, qırq yigidin boyına alub, Bayındır xanın söhbətinə gəlürdi (Ib., s. 34).

Xan qızı gördi kim, Qazan gəlür, yumurlanıb yerindən uru turdı (IY b., s. 72).

Bəy yigidim Qazan, qalqubanı yerindən uru turdın (IY b., s. 72).

«Kitabi-Dədə Qorqud»un mətnində Qazan xan və Bayındır xanla bağlı sabit ifadə və cümlələr işlənir: *Bir gün Qam Ğan oğlı xan Bayındır yerindən turmışdı. Şami günligi yer yüzinə yüzinə dikdirmişdi. Ala sayvanı gög yüzinə aşanmışdı. Bin yerdə ipək xaliçəsi döşənmişdi* (I b., s. 34).

Bir gün Ulaş oğlı Qzan bəg yerindən turmışdı. Qara yerin üzərinə otaxların tikdirmişdi. Bin yerdə ipək xaliçəsi döşətmiş idi. Ala sayvan gög yüzinə aşanmışdı (IY b., s. 68).

Fərdi səciyyə daşıyan konstantlar (sabit ifadələr) fərdi obrazlarla bağlı olur və biri digərinə aid edilmir. Obrazların bəzisi bir epitet ilə təqdim olunur, bir obrazla bağlı bədii təyinlər isə nisbətən çoxluq təşkil edir.

Xanlar xanı xan Bayındır yildə bir kərrə toy edib, Oğuz bəglərin qonaqlardı (Ib., s. 31).

Bir gün Ulaş oğlı Tülü quşun yavrısı, bizə miskin umudı, Amit soyının aslanı, Qaraçuğın qaplanı, Qonur atın iyəsi, xan Uruzın ağası, Bayındır xanın göygüsi, Qalın Oğuzın dövləti, qalmış yigit arxası Salur Qazan yerindən turmışdı (II b., s. 42).

Bunların əksəri feli sifət tərkibi ilə ifadə edilir.

Qara dərə ağzında qara buğa dərisindən beşiginin yapuğı olan, acığı tutanda qara taşı kül eyləyən, bığın ənsəsində yedi yerdə dügən ərənlər əvrəni, Qazan bəgin qartaşı Qaragünə çapar yetdi (II b., s. 49).

Varıban peyğəmbərin yüzini görən, gəlübəni Oğuzda səhabəsi olan, acığı tutanda bığlarından qan çıqan bığı qanlu Bügdüz Əmən çapar yetdi (II b., s. 50).

Yuxarı instansiyaya aid sabitləşmiş ifadələr təmtəraqlı üslubda olur, silsilə epitetlər və bəzən mübaliğə ilə müşayiət edilir.

Bəzən belə ifadələrdə xalqın etnik təfəkküründə özünə yer etmiş zəruri genetik informasiyalar qorunub saxlanır. Məsələn,

Tülü quşun yavrısı, Türküstanın dirəgi, Amit soyının aslanı, Qaraçuğın qaplanı! Qonur atın ayası! Xan Uruzın babası, xanım Qazan, ünüm anla, sözüm dinlə (II b., s. 63). Burada Türküstanın dirəgi ifadəsi qədim türk birliyinin süqutundan sonra (YIII əsrin ikinci yarısı) türk etnoslarının, o cümlədən, oğuzların Mərkəzi Asiyada, Türküstanda təmərküzləşməsi, Qaraçuğın qaplanı ifadəsi isə Oğuz yabqu dövləti zamanında Sırdərya çayı boyunda oğuzlara mənsub şəhərlərdən biri – Qaraçuq ilə bağlı informasiyanı, yəni Oğuz dövlətinin etnogenetik zəminində müəyyənləşmiş informasiyaları təqdim edir.

Eyni adresata ünvanlanan epitetlər başqa-başqa adresantLardan gələ bilir, dastan müəllifinin, yaxud obrazlardan hər birinin fərdi təfəkkürü ilə bağlı olur. Dastan müəllifinə görə, Bayındır xan xanlar xanı epiteti ilə təqdim olunur (Xanlar xanı xan Bayındır yildə bir kərrə toy edib, oğuz bəglərin qonaqlardı; I b., s. 34) digər adresant (obraz) tərəfindən isə başqa cür təyinlənir (Səgrək burada qardaşına soyladı. Aydır: Qaba gərdun içində yol azsam, umum Allah! Qaba ələm götürən xanımız Bayındır xan; X b., s. 114). Bu cür paradiqma Qazan xana münasibətdə də müşahidə olunur.

1.Dastan müəllifinə görə:

Bir gün Ulaş oğlı Tülü quşun yavrısı, bizə miskin umudı, Amit soyının aslanı, Qaraçuğın qaplanı, Qonur atın iyəsi, xan Uruzın ağası, Bayındır xanın göygüsi, Qalın Oğuzın dövləti, qalmış yigit arxası Salur Qazan yerindən turmışdı (II b., s. 42).

2.Burla xatuna görə:

Bərü gəlgil, Salur bəgi, Salur görgi!
Başım bəxti, evim təxti!
Xan babamın göygüsi,
Qadın anamın sevgisi
Atam-anam verdügi,
Göz açuban gördügim!
Könül verüb sevdügim,

Bəg yigidim Qazan! (IY b., s. 72).

3. Uşun Qoca oğlu Səgrəkə görə:

Qırış güni öndin dəpər alpımız Salur Qazan! (X b., s.114) və s.

Türk epik mətnlərində ümumtürk təfəkkür faktları kimi sabitləşmiş motiv və ifadələr orta əsrlər türk ədəbi dilinə (türki) ötürülür və türkidə yazılan abidələrdə, o cümlədən, «Kitabi-Dədə Qorqud»un dilində qorunub saxlanır. Belə faktlardan biri – yer-göy oppozitivliyi həm qədim türk (runik) yazılı abidələrinin dilində, həm də «Kitabi-Dədə Qorqud»un mətnində müşahidə olunur. Kültiqin şərəfinə abidədə: Üze kök tenri, asra yağız yir kılıntukta ekin ara kisi oğlı kılınmıs. Kisi oğlınta üze eçüm, apam Bumın kağan, İstemi kağan olurmış (KltŞ. 1; Tərcüməsi: Yuxarıda mavi səma, aşağıda qonur yer yarandıqda, ikisinin arasında insan oğlu dünyaya gəlmiş. İnsan oğlunun üzərində Bumın xaqan, İstemi xaqan hakim olmuş). «Kitabi – Dədə Qorqud»da:

-Yucalardan yucasan, kimsə bilməz necəsən! Görkli tənri, Çoq cahillər səni gögdə arar, yerdə istər (Y b., s. 83).

-Ərş tanığ olsun, kürsi tanığ olsun, Yer tanığ olsun, gög tanığ olsun (Y b., s. 83).

-Yedi gün mən Qazana möhlət vergil! Yerdə isə oğulı çıqarayım, gögdə isə endirəyim (IY b., s. 74).

Şifahi ədəbi dil elementləri yazılı ədəbi dildə iştirak edir. Bu isə ədəbi-kommunikativ sistemlərdən birinin digərinə təsiri kimi özünü göstərir və «Kitabi – Dədə Qorqud»un mətnində bir neçə şəkildə üzə çıxır:

a) nağıl təhkiyəsi formasında; *Sayılmaqla Oğuz bəgləri tükənsə olmaz* (II b., s. 50). *Sonra Əmən deərlərdi, bir kişi altı kərrə varub hasarı alımadı* (YII b., s. 94);

b) nağıl, epos detalı kimi; *Bir ay baqsun*. *Bir ayda varmazsam, iki ay baqsun*! *İki ayda varmazsam, üç ay baqsun*! *Üç ayda varmazsam, öldügimi ol vəqt bilsün*! (IY b., s. 70). *Aydır*: «*Qız, sən mana bir yil baqğıl*! *Bir yildə gəlməzsəm, iki yil baqğıl*! *İki yildə gəlməzsəm, üç yil baqğıl*! *Gəlməzsəm*, *ol*

vəqt mənim öldügimi biləsən…» (IX b., s. 112). *Oğlanın anası əmcəgin bir sıqdı, südi gəlmədi. İki sıqdı, südi gəlmədi. Üçüncidə kəndüyə zərb eylədi, qanı toldı* (I b., s. 39). *Bir sordı, olanca südin aldı. İki sordı qanın aldı. Üç sordı, canın aldı* (YIII b., s. 99).

Şifahi ədəbi dilin bu təsiri yazılı mətnlərdə yeni keyfiyyət formalaşdırır; spesifik ifadə və müqayisələr yaranır: Dört oğlı olan birin verdi, üçi qaldı. Üç olan birin verüb, eki qaldı. Eki olan birin verdi, biri qaldı (YIII b., s. 99). Ol üç canvərin biri qağan aslandı, biri qara buğaydı, biri dəxi qara buğra idi. Buların hər birisi bir əjdərhaydı (YI b., s. 85). İki vardın, bir gəlürsən, yavrum qanı (IY b., s. 72). Gördinmi, mən mana netdim (YI b., s. 86). «Mərə, sən səni bilürsən, bizim halımızdan xəbərin yoq», -dedilər (III b., s. 60) və s.

Qədm türk mətninin başqa xarakter dil elementi orta əsrlər türk yazılı abidələrində ya həmin funksionallıqda, ya da dəyişmiş şəkildə müşahidə olunur. Orxon-Yenisey abidələrinin mətninə görə İkinci Şərqi Türk Xaqanlığının iyerarxik rütbə sistemində rütbə sahibləri iki qola ayrılırdı: ictimai təyinatı, mənşə və s. əlamətlərə görə xaqandan sağda və solda yerləşənlər. Birye şad apıt beqler, yırya tarkat buyruk beqler (KltC. 1; Sağdakı şad və apa bəyləri, soldakı tarxan, buyruq bəyləri). Həmin xüsusiyyətə «Kitabi-Dədə Qorqud»un dilində üç formada təsadüf olunur:

-Qədim türk dövlətinə məxsus iyerarxik sistemin relikt şəklində qalmış əlamətini bildirir. Sağda oturan sağ bəglər! Sol qolda oturan sol bəglər! Eşikdəki inaqlar! Dibdə oturan xas bəglər! Qutlu olsun dövlətinüz! –dedi (III b., s. 63).

-İyerarxik sistem əlamətinin sonrakı modifikasiyası şəklində özünü göstərir. Bir gün Ulaş oğlı Qazan bəg yerindən turmışdı… Oğlı Uruz qarşusında yay söykənib turardı. Sağ yanında qardaşı Qaragünə otırmışdı. Sol yanında tayısı Aruz oturmışdı. Qazan sağına baqdı, qas-qas güldi. Solına baqdı, çoq sevindi (IY b., s. 68).

-Obrazlı ifadə vasitəsi kimi işlənir. Beyrək şülən yeməginin üzərinə gəldi. Qarnın toyurduqdan sonra qazanları dəpdi-dökdi, çevirdi. Yəxninin kimini sağına, kimini solına atar. Sağdan gedəni sağ alur, soldan gedəni sol alur. Haqluya həqqi dəgə, haqsuza yüzi qaraluğı dəgə (III b., s. 64).

«Kitabi-Dədə Qorqud»un dilində mürəkkəb cümlələrin (və bəzən mətnlərin) başlanğıcı ilə sonunu əlaqələndirən sinonim–dubletlər və ya cütlüklər işlənir. Sinonim cütlüklərin işlənməsi mətnin özünü və tərkib hissələrini xüsusi formaya salır və spesifik sintaktik quruluş əmələ gətirir. Mətn vahidlərində belə sinonim cütlüklər ikili vəzifə yerinə yetirir. Cütlüyün iştirakı həm sintaktik vahidin – cümlənin (tabeli mürəkkəb cümlənin), bəzi hallarda isə mətnin sintaqmatik hüdudlarını müəyyənləşdirir; onu başlayır və qapayır, həm də ədəbi-kommunikativ funksiyalılıq baxımından xüsusi vəzifə daşıyır. Yəni sinonim cütlüyün birinci tərəfi obrazın nitqi ilə bağlıdırsa, ikinci tərəfi – yekunlaşdırıcı hissə müəllif təhkiyəsi ilə əlaqəlidir. Başqa sözlə, obrazın təhkiyəsini (məsələn, Qılbaş ayıtdı: «Sən qarındaşısan, sən var; XII b., s. 125) müəllif təhkiyəsi (-dedi; XII b., s. 125) müşayiət edir və tamamlayır. (Cümlə bütöv halda bu cür ifadə olunur: Qılbaş ayıtdı: «Sən qarındaşısan, sən var!» -dedi; XII b., s. 125).

Sinonim cütlüklər, bir qayda olaraq, xəbəri üçüncü şəxsin təkində olan cümlələrdə özünü göstərir və həm şəxsə, həm də kəmiyyətə görə bir-biri ilə uzlaşır. Qanturalı aydır: «Qızların yolu əvvəldir, sən at!» -dedi (YI b., s. 93). Birinci tərəf (ayıt-feli) birinci şəxsdə işlənsə də, ikinci tərəf (de- feli), bir qayda olaraq, birinci şəxsin təkində işlənmir. Qılbaşa ayıtdım ki, qaçan ki, Qazan evin yağmaladardı, Taş Oğuz bəgləri bilə yağmaladardı; bəglər gəlür, Qazanı səlamlar, gedərdi –dedi (XII b., s. 124). Aydır – dedi cütlüyü bəzən üçüncü şəxsin cəminə də aid olur. Ol qırq namərd dəxi bunı gördilər, ayıtdılar: «Gəlün, varalım, şol yigidi tutıb gətürəlim», -dedilər (I b., s. 40). Sinonim cütlüklər kəmiyyətcə uzlaşmaya da bilir.

Yigitləri aydır: «Buğadan qurtıldı, aslandan necə qurtula?» – dedilər (YI b., s. 88).

«Kitabi-Dədə Qorqud» şerlərində işlənən sinonim cütlüklər konstruktiv funksiya da daşımalı olur; mətn vahidi hesab edilən şerlərin başlanğıcı ilə sonunu əlaqələndirməklə, mətn komponentlərini bir-birinə bağlayır, onların bütöv sintaktik vahid kimi təşkilinə xidmət edir. Odur ki, cütlüklərin əhatə etdiyi belə şerləri tabeli mürəkkəb cümlədən çox mətn hesab etmək daha məqsədəuyğundur.

Məgər sultanım, Dərsə xanın xatunı tuymış, oğlancuğına qarşu varub, soylamış, görəlim, xanım, nə soylamış. Aydır:

Görərmisin, ay oğul, nələr oldı?!
Sarp qayalar oynanmadı, yer oyruldı.
Eldə yağı yoğkən sənin babanın üstinə yağı gəldi.
Ol qırq naməd – babanın yoldaşları babanı tutdılar.
Ağ əllərin ardına bağladılar,
Qıl sicim ağ boynına taqdılar,
Kəndülər atlu, babanı yayaq yüritdilər.
Alubanı qalın kafər ellərinə yönəldilər.
Xanım oğul! Qalqubanı yerindən urı turğıl!
Qırq yigidin boyına alğıl!
Babanı ol qırq namərddən qurtarğıl!
Yüri oğıl!
Baban sana qıydısa, sən qıymağıl! *–dedi* (I b., s. 40).

«Kitabi-Dədə Qorqud»un dilində mətn təşkili üçün zəruri elementlərdən biri üslubiliyə xidmət edən dil detallarından istifadə edilməsidir. Belə ki, ümumişlək olmayan – köhnəlmiş söz və ifadələr semantik təyinatını dəyişmiş şəkildə üslubiliyə xidmət göstərə bilir. «Kitabi-Dədə Qorqud»un dilində elitar təbəqəyə mənsubluğu bəg termini ifadə edir. Qızlar aydır: «Vallah sultanım, bu yigit yüzi niqablu yaxşı yigitdir. Bəg oğlı bəg imiş», -dedilər (III b., s. 54). Dövlətin başçısı bəzən xan, bəzən də bəg titulu ilə təyinlənir. Qazan bəg baqub tamaşa

edərdi (III b., s. 63). Baybörə bəg aydır: «Xan Qazan, necə ağlamıyayın, necə bozlamıyayın? Oğulda ortacım yoq, qardaşda qədərim yoq! Allah-təala məni qarğayıbdır. Bəglər tacım-təxtim üçün ağlaram. Bir gün ola, düşəm, öləm, yerimdə, yurdımda kimsə qalmıya», -dedi (II b., s. 52). Bir nəfərə ünvanlanmış ali hakimiyyətə mənsubluğu bildirmək üçün İran modelində xanlar xanı (şahənşah) ifadəsindən istifadə olunur. Xanlar xanı xan Bayındır yildə bir kərrə toy edib oğuz bəglərin qonaqlardı (I b., s. 34). Qədim türk cəmiyyətində xaqan institutunun başçısını bildirən kağan sözü isə «Kitabi-Dədə Qorqud»un dilində mənaca deformasiyaya uğrayaraq, semantik yönümünü dəyişir; mifik obrazı – mifonimi təyinləndirməyə xidmət edir. Ol üç canvərin biri qağan aslandı, biri qara buğaydı, biri dəxi qara buğra idi (YI b., s. 85). Canvərlər sərvəri qağan aslan qıran, Ala köpək itinə kəndözin taladırmı (YI b., s. 88). Qağan aslan gəldügində belin bükmiş, Qara buğra gəldigində nə kiçikmiş?! –deyələr (YI b., s. 89). Anam adın sorar olsan, -Qaba Ağac, Atam adın deirsən, -Qağan Aslan (YIII b., s. 102). Qağan aslan qopdı Təpəgöz, Qalın sazlarda çevirdim, alımadım, Basat! (YIII b., s. 100). Bununla belə, hər iki sema arasında ümumi yaxınlıq müşahidə olunur; birincisi insanların yuxarı təbəqə nümAyəndəsini, iyerarxik pillə üzrə yuxarıda dayananı, ikincisi, mifik dünyagörüşə görə, heyvanlar aləmində yuxarı iyerarxik pilləyə sahib olanı bildirir.

Epos mətninin bədii təsir gücünü artıran atalar sözlərini də iki şəkildə qruplaşdırmaq mümkündür: kontekstlə bağlı olan və kontekstlə bağlı olmayan atalar sözləri. Birincilər məzmun etibarilə hər hansı kontekstlə bağlanır. Məsələn:

- İyəgülü ulalur, qabırğalu böyür. Məgər xanım, Uşun Qocanın kiçi oğlı Səgrək eyü bəhadır alp, dəlü yigit qopdı. Bir gün yolı bir dərnəgə uğradı, qondı. Yemək-içmək etdilər. Səgrək məst oldı. Tışra ayaq yolına çıqdı. Gördi kim, oksüz oğlan bir qızanı çəkişür. «Mərə noldınız» deyü bir şillə birinə, bir şillə birinə urdı. Əski tonın biti, öksüz oğlanın dili acı olur.

Biri aydır: «Mərə, mizim öksüzligimiz yetməzmi, bizi niyə urarsan? Hünərin var isə, qartaşın Əlincə qələsində əsirdir, var, anı qurtar!» -dedi (X b., s. 111).

• Oğlan dəxi burada soylamış, görəlim, nə soylamış, aydır: Hərzə-mərzə söyləmə, mərə itüm kafər! Altımda al ayğırım nə bəgənməzsən, - səni gördi oynar …Kafər aydır: «Oğuzun arsızı türkmanın dəlüsinə bənzər! Bağ-a şuna» -dedi (IX b., s. 108).

• …Oğul, at üzərindən məni qap, döşəgimə çıqar, -dedi. Aslan ənigi yenə aslandır. Atası at üzərindən qarvadı-tutdı, döşəginə çıqardı. Cübbəsin üzərinə büridi. Qapusın örtdi (IX b., s. 106).

Eyni zamanda bir hadisədən digərinə keçid səciyyəsi daşıya bilir. Məsələn:

•At ayağı külük, ozan dili çevik olur. Qazanın ölüsini, dirisini kimsə bilmədi (XI b., s. 119).

• At ayağı külük, ozan dili çevik olur. Qazan kafərə çağırub soylamış, görəlim, xanım, nə soylamış. Aydır… (II b., s. 48).

• At ayağı külük, ozan dili çevik olur. İyəgülü ulalur, qabırğalı böyür. Oğlan on beş yaşına girdi. Oğlanın babası Bayındır xanın ordısına qarışdı (I b., s. 36).

İkincilər isə birbaşa kontekstual məzmunla bağlanmır, eyni vaxtda bir neçə və ya daha çox sayda işlənə bilir.

Dədə Qorqut soylamış:

Allah-Allah diməyincə işlər onmaz,
Qadir tənri verməyincə ər bayımaz

•

Əzəldən yazılmasa, qul başına qəza gəlməz

•

Əcəl vədə irməyincə kimsə ölməz

•

Ölən adam dirilməz, çıxan can geri gəlməz

•

Bir yigidin qara tağ yumrısınca malı olsa, yığar-dərər, tələb eylər, nəsibindən artuğın yeyə bilməz.

•

Ulaşıban sular taşsa, dəniz dolmaz.

•

Təkəbbürlik eyləyəni tənri sevməz
Könlin yuca tutan ərdə dövlət olmaz

•

Yad oğlı saqlamaqla oğul olmaz, -böyüyəndə salur-gedər, gördüm deməz….

•

Kül təpəcik olmaz, [Güyəgü oğul olmaz].

•

Qara eşək başına üyən ursan, qatır olmaz,
Qaravaşa ton geyürsən, qadın olmaz.

•

Yapa-yapa qarlar yağsa, yaza qalmaz,
Yapağlu gögçə çəmən güzə qalmaz.

•

Əski panbuq bez olmaz,
Qarı düşmən dost olmaz.

•

Qaraquca qıymayınca yol alınmaz,
Qara polad üz qılıcı çalmayınca qırım dönməz.
Ər malına qıymayınca adı qalmaz.

•

Qız anadan görməyincə ögit almaz,
Oğul atadan görməyincə süfrə çəkməz.

•

Oğul atanın yetiridir,
iki gözinin biridir.
Dövlətli oğul qopsa,
Ocağının közidir.

•

Oğul dəxi neyləsün,
Baba ölüb, mal qalmasa.
Baba malından nə faidə,
Başda dövlət olmasa (Müqəddimə, s. 31).

Atalar sözləri əsasən müəllif təhkiyəsində işlənir. Bəzən obrazların nitqində də ona təsadüf edilir.

Yüz kafər seçilüb oğlanın üzərinə gəlmiş. Oğlana kafər soylamış, görəlim, nə soylamış, aydır:

Ağ saqallu baban var isə, ağlatmağıl!
Ağ birçəklü anan varsa, bozlatmağıl!
Yalnız yigit alp olmaz,
Yovşan dibi bərk olmaz.
Qadası yetmiş qavat oğlu qavat,
Qayıda dön buradan! *–dedi* (IX b., s. 108).

«Kitabi-Dədə Qorqud»un dilində bədii surətlərin adlandırılmasında iki meyl müşahidə olunur: tekstual adlandırma və situativ adlandırma. Tekstual adlandırmada bədii mətnin əvvəlindən axırınadək obraz nominasiyası dəyişməz olaraq qalır; bədii surət bir adla tanınır: Salur Qazan, Bamsı Beyrək, Aruz Qoca, Qazılıq Qoca, Bəkdüz Əmən, Dirsə xan, Burla xatun, Selcan xatun, Dədə Qorqud və s. Situativ adlandırmada obrazın nominasiyası bədii informasiya yükünün, surəti səciyyələndirən keyfiyyətlərin qeyri-sabitliyindən asılı olaraq dəyişə bilir. Eposda Dirsə xanın döyüşçüləri «Qırq yigit» adı ilə tanınır: Dərsə xan oğlana bəglik verdi, təxt verdi. Oğlan təxtə çıqdı, babasının qırq yigidin anmaz oldı. Ol qırq yigit həsəd eylədilər. Bir-birinə söylədilər: «Gəlün oğlanı babasına quvlıyalum. Ola kim, öldürə, genə bizim izzətimiz, hörmətimiz anın babası yanında xoş ola, artıq ola», -dedilər (I b., s. 36). Ancaq «qırq yigit» nominasiyalı ünvan öz bədii obraz həllini tapandan, onun bədii obraz yükü sabitləşəndən sonra nominasiyasını dəyişir. *Vardı, bu qırq yigidin yigirmisi bir yana, yigirmisi dəxi bir yana oldı. Əvvəl yigirmisi vardı. Dirsə xana bu xəbəri gətürdi, aydır: «Görürmisin, Dirsə xan, nələr oldı!?*

Yarımasun-yarçımasun. Sənin oğlın kür qopdı, ərcəl qopdı. Qırq yigidin boyına aldı. Qalın Oğuzun üstinə yüriş etdi. Nə yerdə gözəl qopdısa, çəküb aldı. Ağ saqallu qocanın ağzın sögdi. Ağ birçəklü qarının südin tutdı. Aqan turı sulardan xəbər keçə, arqurı yatan Ala tağdan xəbər aşa, xanlar xanı Bayındıra xəbər vara. «Dirsə xanın oğlı böylə bidət işləmiş» deyələr. Gəzdigindən öldigin yeg ola. Bayındır xan səni çağıra, sana qatı qəzab eyləyə. Böylə oğıl sənin nənə gərək? Böylə oğıl olmaqdan olmamaq yegdir. Öldürsənə!» -dedilər (I b., s. 37). Elə ki, bu baş verir, «Qırq yigit» «Qırq namərd»ə çevrilir; surətin tekstual (bədii mətndəki) adı dəyişir: Dərsə xan istədi kim, oğlancuğın üstinə körəlib düşəydi, ol qırq namərd qomadı (I b., s. 37).

Əski mifoloji detallar, nağıl, dastan elementləri «Kitabi-Dədə Qorqud»un dilində ənənəvi məzmununu qoruyub saxlamaqla bərabər, yeni mahiyyət kəsb edir. «Kitabi-Dədə Qorqud»da qurda qarşı həm köhnə pozitiv münasibətin izləri özünü hiss etdirir (Məsələn: «Qurd yüzi mübarəkdir, qurdlən xəbərləşəyim», -dedi, II b., s. 45; Qaranqu axşam olanda güni toğan, Qar ilə yağmur yağanda ər kibi turan! Ordumın xəbərin bilürmisin, degil mana, Qara başım qurban olsun, qurdum, sana! II b., s. 45; Qazan bəg burada dəxi soylamış, aydır: …Əzvay qurd ənigi erkəgində bir köküm var, XI b., s. 118-119; Babasilə Yegnək gizlü yaqa tutuban yiləşdilər. Eki həsrət bir-birinə bulışdılar. İssüz yerin qurdı kibi ulaşdılar, YII b., s. 97), həm də yeni, qeyri-pozitiv münasibət müşahidə olunur (Qaraquç atları kişnəşdirən! Qızıl dəvə gördügində bozlaşdıran! Ağca qoyun gördügində quyruq çırpub qamçılayan! Arqasını urıb, bərk ağılın ardın sökən! Qarma bükəc simüzin alub tutan! Qanlu quyruq üzüb çap-çap yudan! Avazı qaba köpəklərə Qoğa salan! Çaqmaqluca çobanları dünlə yügürdən! II b., s. 45). Sonuncu detallar türk epik təfəkkürünün yetirdiyi qədim dastanlardakı qurd (börü) obrazından, xüsusilə, Oğuz xaqan dastanında Oğuz xaqanın qoşununa yol göstərən xüsusi

epitetə (kök «göy, mavi») malik kök böri (göy qurd) ilə bağlı epizodlardan fərqlənir.

«Kitabi-Dədə Qorqud»da Beyrəyin xüsusi qabiliyyətə malik atını xarakterizə edən «Dəniz qulunı boz ayığır» (5, s. 52) ifadəsi ilə «Koroğlu» eposunda xüsusi gücə malik əfsanəvi Qıratın dəniz ayğırı və adi madyanın cütləşməsindən törəməsi əhvalatı arasında yaxınlıq özünü göstərir və hər ikisinin daha qədim türk əfsanəsi ilə bağlılığını güman etməyə əsas verir.

Bədii mətndə obrazın nitqi ilə müəllif təhkiyəsi bir-birindən fərqləndirilir. Biri digərinin informativ tutumunu təkrar etdikdə sonra gələnin nitqində formal dəyişiklik aparılır.

Dərsə xanın xatunı soylamış, görəlim, nə soylamış, Və aydır:

…Atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç öldürgil!
İç Oğuzun, Taş Oğuzun bəglərin üstünə yığnaq etgil!
Ac görsən, toyurğıl! Yalınçıq görsən tonatğıl!
Borcluyu borcundan qurtarğıl!
Dəpə kibi ət yığ, göl kibi qımız sağdır!
Ulu toy elə, hacət dilə!
Ola kim, bir ağzı dualının alqışilə
Tənri bizə bir yetman əyal verə –dedi (I b., s. 35).

Burada obraz nitqinin informativ məzmunu, söz, ifadə, cümlə belə sonra gələn müəllif təhkiyəsində olduğu kimi saxlanılır. *Dərsə xan dişi əhlinin sözilə ulu toy elədi, hacət dilədi. Atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç qırdırdı. İç Oğuz, Taş Oğuz bəglərin üstinə yığnaq etdi. Ac görsə toyurdı. Yalın görsə tonatdı. Borcluyı borcından qurtardı. Dəpə kibi ət yığdı. Göl kibi qımız sağdırdı. Əl götürdilər, hacət dilədilər. Bir ağzı dualının alqışilə allah-təala bir əyal verdi* (I b., s. 35). Ancaq verilmiş situasiyada obrazın nitqini müəllif təhkiyəsindən formal göstəricilər – felin şəkli əlamətləri

(birincidə əmr və arzu, ikincidə xəbər şəkilləri) və s. fərqləndirir, cümlələrin xəbərləri dəyişir.

Əski dini-mifoloji sistemin izləri «Kitabi-Dədə Qorqud»un mətnində də öz əksini tapır. Qədim türklərin teist baxışlarında din və mifologiya sintez olunduğundan dini motivlər mifoloji görüşlərdən və əksinə mifoloji görüşlər dini motivlərdən azad deyil. Dini-mifoloji sistemin bu şəkildə təzahürü «Kitabi-Dədə Qorqud» üçün də xarakterikdir. Qədim türk panteonunun ən yüksək səviyyəsini ifadə edən Tanrı termini işlənir. Yucalardan yucasan, kimsə bilməz necəsən, görkli tənri (Y b., s. 81). Qədim türk runik yazılı abidələrində olduğu kimi, burada da tanrı antropomorfozlaşdırılır; insana xas olan xüsusiyyətlərlə təqdim olunur. Yəni

a) O, bədii obraza çevrilə bilir. Dəli Domrul aydır: «Mərə, Əzrayil dedügüniz nə kişidir kim, adamın canın alur? Ya qadir allah, birligin, varlığın haqıçün, Əzrayili mənim gözümə göstərgil, savaşayım, çəkişəyim, dürişəyim, -yaxşı yigidin canın qurtarayım. Bir dəxi yaxşı yigidin canın almıya» -dedi». Qayıtdı-döndi Dəli Domrul evinə gəldi. Həq təalaya Domrulun sözi xoş gəlmədi: «Baq, baq, mərə dəli qavat, mənim birligim bilməz, yarligümə şükr qılmaz. Mənim ulu dərgahımda gəzə, mənlik eyləyə?» -dedi. Əzrayilə buyuruq elədi kim, ya Əzrayil, var, ol dəxi dəli qavatın gözinə görüngil, bənzini sarartğıl! – dedi, canını xırlatğıl, alğıl! – dedi (Y b., s. 79). Allah-təalaya Dəli Domrulın burada sözi xoş gəldi. Əzrayilə nida eylədi kim, çün dəli qavat mənim birligim bildi, birligümə şükr qıldı, ya Əzrayil, Dəli Domrul can yerinə can bulsun. Anun canı azad olsun! – dedi (Y b., s. 81).

b) Tanrı hökm edir, buyurur, fərman // yarlıq verir. Əzrayilə buyuruq elədi kim, ya Əzrayil, var, ol dəxi dəli qavatın gözinə görüngil, bənzini sarartğıl! – dedi (Y b., s. 79). Həq təalaya Domrulun sözi xoş gəlmədi: «Baq, baq, mərə dəli qavat mənim birligim bilməz, yarligümə şükr qılmaz. Mənim ulu dərgahımda gəzə, mənlik eyləyə?» - dedi (Y b., s. 79).

c) Tanrı insanları himayə edir, çətinə düşəndə kömək göstərir, vaxtsız ölüm və müxtəlif bəlalardan xilas olmağa yardım edir. Həq təala Cəbrayilə buyurdı kim: «Ya Cəbrayil, var, şol quluma qırq ərcə qüvvət verdim» -dedi. Oğlan kafəri götürdi, yerə urdı (IX b., s. 108). Dəpəgöz günbədə əlin soqdı. Eylə qalxdı kim, günbəd zirü zəbər oldı. Dəpəgöz aydır: «Oğlan, qurtuldınmı?» Basat aydır: «Tənrim qurtardı» (YIII b., s. 102). Basat mağara qapusına vardı. Gördü bir qınsuz qılıc turmaz, -enər, çıqar. Basat aydır: «Mən muna bitəkəllüf yapışmayım», -deyüb kəndi qılıcın çıxardı, tutdı. Eki parə böldi. Vardı, bir ağac gətürdi, qılıca tutdı. Anı dəxi iki parə eylədi. Pəs yayını əlinə aldı. Oxla ol qılıc asılan zınciri urdı. Qılıc yerə düşdi, kömüldi. Kəndü qılıcın qınına soqdı. Balçağından ol qılıcı bərk tutdı. Gəldi, aydır: «Mərə Dəpəgöz, necəsən?» -dedi. Dəpəgöz aydır: «Mərə oğlan, dəxi ölmədinmi?» Basat aydır: «Tənrim qurtardı» (YIII b., s. 102).

Hökmdar kultunun izlərinə rast gəlmək olur. Xatun aydır: «Yigidim, bəg yigidim! Padşahlar tənrinin kölgəsidir. Padşahına asi olanın işi rast gəlməz…» –dedi (IX b., s. 105).

Tanrıçılıqla bağlı dini ritualların izləri müşahidə olunur. Yoxsa «oğul, Dəli Domrul!» -deyü ağlarmısan? Acı tırnaq ağ yüzinə çalarmısan? Qarğu kibi qara saçın yolarmısan, ana? –dedi (Y b., s. 82). Gəlməzsəm, ol vəqt mənim öldügimi biləsən. Ayğır atum boğazlayub, aşum vergil! –dedi (X b., s. 112).

§4. BƏDİİ MƏTN VƏ STRUKTUR – FORMA ELEMENTLƏRİ

Bədii mətni səciyyələndirən, onu bədii təfəkkür məhsulu kimi formaya salan digər zəruri amil struktur forma elementlərinin iştirakı ilə bağlıdır. Forma komponentləri hər hansı mətnin informativ strukturunu tamamlayır, onu formaca müəyyənləşdirir, bədii, ya qeyri–bədii mətnə mənsub edir. «Kitabi-Dədə Qorqud»un dilində elə məqamlar var ki, eyni informasiya həm adi ifadə tərzində, həm də bədii forma komponentlərinin iştirakı ilə verilir. Bu halda sonrakı ifadə tərzi əvvəlkindən bədii effektliyi, obrazlığı ilə seçilə bilir. Məsələn, bir dəfə kafərlərin hücumunu müəllif nəql edir: *On altı bin qara tonlu kafər ata bindi. Qazanın üzərinə alğar yetdi* (YI b., s. 69). İkinci dəfə eyni informasiya bədii ifadə vasitələrinin iştirakı ilə verilir: *Baqdılar, gördilər, altı bölük toz endi. Kimi aydır: «Keyik tozıdır». Kimi aydır: «Yağı tozıdır». Qazan aydır: «Keyik olsa, bir, ya iki bölük olurdı. Bu gələn bilmiş olun, yağıdır» -dedi. Toz yarıldı, gün kibi şıladı, dəniz kibi yayqındı, meşə kibi qarardı. On altı bin ip üzəngili, keçə börkli, azğun dinli, quzğun dilli kafər çıqa gəldi. Qazan qonur atın çəkdirdi, bütün bindi* (YI b., s. 69).

Yaxud başqa misal:

Bədii ifadə vasitələrinin iştirakı	Adi ifadə tərzi
1.Qaraquçın oynatdı Uruz, kafərin sağına atın dəpdi. Sağlı-sollı kafəri xub dağıtdı. Sanasan kim, tar yolda tolu düşdi. Ya qara qazın içinə şahin girdi (IY b., s.	1. [Uruz] kafərin ucını basdı, tağıtdı. Azğın dinlü kafər bunaldı, oxa girdi (IY b., s. 71).

71).	
2. Adəmilər əvrəni Dəli Domrul əlin əlinə çaldı, qasqas güldi. Aydar: «Yigitlərim, Əzrayilin gözini elə qorxutdum ki, gen qapuyı qodı, tar bacadan qaçdı» (Y b., s. 80)	2. Əzrayil bir gögərçin oldı, pəncərədən uçdı–getdi (Y b., s. 80)
3. Yegnək ardından yetdi. Hasar qapusına girmişkən qara polat uz qılıca ənsəsinə eylə çaldı kim, başı tob kibi yerə düşdi (YII b., s. 96). Növbət kafərə dəgdi. Ol altmış batman gürzlə Qazılıq qocayı dəpərə tutıb çaldı. Yalan dünya başına tar oldı. Düdük kibi qan şorladı (YII b., s. 94).	3. Kafərin çigninə bir qılıc urdı. Geyimini – kecmini doğradı. Altı parmaq dərinligi zəxm irişdirdi. Qara qanı şorladı. Qara sığırı soqmanı tolu qan oldı. Qara başı bunaldı, bunlu oldı (YII b., s. 96).
4. Qazan aydır: «Ayağına ət tuşağın urun!» -dedi (X b., s. 112).	4.Yauqlısı vardı, tez dügün-diring etdilər (X b., s. 112).
5. Dəli Domrul qırq yigid ilən yeyüb-içüb otururkən nagahandan Əzrayil çıqa gəldi. Əzrayili nə çavuş gördi, nə qapuçı. Dəli Domrulun görər gözi görməz oldı, tutar əlləri tutmaz oldı. Dünya-aləm Dəli Domrulun gözünə qarannu oldı (Y b., s. 79).	5. …Döndi evinə gəli yürürkən Əzrayil atının gözinə göründi. At ürkdi. Dəli Domrulı götürdi. Yerə urdı. Qara başı bunaldı, bunlu qaldı. Ağ köksinin üzərinə Əzrayil basub qondı. Baya mırlardı, şimdi xırlamağa başladı (Y b., s. 80)

Bədii mətnin struktur-forma elementlərinə hər hansı informasiyanın bədii mətn detalı kimi cilalanıb formaya salınmasında, morfemin, sözün, söz birləşməsi və cümlənin bədii dil vahidinə çevrilməsində yardımçı olan vasitələr, bədii təsvir və ifadə vasitələri, mürəkkəb sintaktik bütövlərin bəzi quruluş ünsürləri, tərkib hissələrini bağlayan bəzi vasitələr, habelə, bədii dil fiqurları, obrazlı ifadə vasitələri və s. daxildir. Onların bəziləri ayrı-ayrılıqda, bəziləri bir yerdə assosiasiya təşkil edərək, həmin funksiyanı yerinə yetirirlər.

Qədim türk (runik) yazılı abidələri ilə müqayisədə orta əsrlər türk ədəbi dilində bədii təfəkkür məhsullarını ifadə edən nitq vahidlərinin həcmi böyüyür, artır. Əgər Orxon-Yenisey abidələrində bədii təfəkkür nümunəsi olan nitq vahidinin həcmi bir cümlə ilə məhdudlaşırdısa (məsələn, Kültiqin şərəfinə abidədə: Kanım kağan süsi börü teq er1mis, yağısı koy teq ermis – «Atam xaqanın qoşunu qurd kimi, yağı qoşunu qoyun kimi imiş»; Öd tenri yasar, kisi oğlı kop ölüqli törümis – «Vaxtı, taleni tanrı müəyyən edir; insan oğlu ölümlü törənmiş» və s.), sonrakı dövr yazılı abidələrində, məsələn, «Kitabi-Dədə Qorqud»un dilində bu, on-on iki cümləyə qədər (bəzən daha çox) genişlənir. «Kitabi-Dədə Qorqud»un dilindəki söyləmələr (şerlər) buna əyani sübutdur.

Bədii mətndə ilk cümlə kimi, son cümlə də xüsusi tekstual əhəmiyyət kəsb edir. Ən azı ona görə ki, son cümlə teksti ümumiləşdirərək məzmunca və həm də forma etibarilə tamamlayır. Odur ki, bədii mətn ünsürü olmaq etibarilə son cümlə də ilk cümlə kimi xüsusi informasiya daşıyıcısına çevrilir.

Son cümlənin məzmun təyinatı müəllif haqqında informA-siya ilə bağlı olur. Bu baxımdan qədim türk (runik) yazılı abidələri ilə «Kitabi-Dədə Qorqud» boylarının sonluğu üst-üstə düşür.

Kültiqin şərəfinə abidədə: Bunça bitiq bitiqme Kültiqin atısı Yolığ tiqin bitidim. Yiqirmi kün olurıp bu taşka bu tamka

kop Yolığ tiqin bitidim. Iğar oğlanınızda, tayğunınızda keqide iqidür ertiqiz, uça bardığız. Tenri tiriq edkiçe (KltC-Ş; Bunca yazı yazan Kültiqinin qohumu Yolığ tiqin yazdım. İyirmi gün oturub, bu daşa bu damğanı bütünlüklə Yolığ tiqin yazdım. Sadiq oğlanınızdan, övladınızdan yüksəldir idiniz, vəfat etdiniz. Göylərdə diri edilənəcən).

Bilgə kağan şərəfinə abidədə: Bunça barkığ, bediziq uzığ kağan atısı Yolığ tiqin men ay artukı tört kün olurıp bitidim, bediztim (BxC-Q; Bunca sərdabəni, naxışı, heykəli xaqanın qohumu mən-Yolığ tiqin bir ay dörd gün oturub yazdım, bəzədim).

Tonıkuk şərəfinə abidədə: Türk bilqe kağan iline bitidim ben bilqe Tonıkuk (TonŞ. 58; Türk müdrik xaqan dövləti üçün yazdım mən – müdrik Tonıkuk).

«**Kitabi-Dədə Qorqud**» boylarında:

-Dədəm Qorqud gəldi, şadlıq çaldı. Boy boyladı, soy soyladı, qazı ərənlər başına nə gəldügin söylədi. «Bu Oğuznamə Beyrəgin olsun!» - dedi (III b., s. 67).

-Dədəm Qorqud boy boyladı, soy soyladı, bu Oğuznaməyi düzdi- qoşdı… (I b., s. 41).

-Dədəm Qorqut gəlübən boy boyladı, soy soyladı, «bu boy Dəli Domrulun olsun; Məndən sonra alb ozanlar söyləsün! Alnı açuq comərd ərənlər dinləsün!» -dedi (Y b., s. 83).

-Dədəm Qorqut gəlübən boy boyladı, soy soyladı. Bu Oğuznamə Yegnəgin olsun! -dedi (YII b., s. 97).

-Dədəm Qorqut gəlüb şadlıq çaldı, boy boyladı, soy soyladı. Ğazi ərənlər başına nə gəldügin söylədi (YI b., s. 93).

-Dədəm Qorqud gəlübən şadlıq çaldı, bu Oğuznaməyi düzdi-qoşdı, «Bəkil oğlı Əmranın olsun!» -dedi. Ğazilər başına nə gəldügin söylədi (IX b., s. 109).

-Dədəm Qorqud gəlübən boy boyladı, soy soyladı (X b., s. 115).

Ancaq bədii mətnin fərqli informativ təyinatlara malik olan ilk və son cümlələri funksiya, vəzifə etibarilə də fərqlənə bilir.

İlk cümlə daha çox funksional-semantik vəzifə daşıyır; bu funksional təyinat xaqan (xan) haqqında informasiya ilə məhdudlaşır. Son cümlənin xüsusi informasiya daşıyıcısı kimi sabitləşməsi isə struktur-forma amilinə xidmət edir; bədii mətni formal baxımdan (həm də məzmunca) tamamlayır. Təsadüfi deyil ki, orta əsrlərə doğru bədii üslubun əsas ifadə vasitəsi olan və lirik növün əsasən təmsil edildiyi şer nümunələrində (istər klassik, istərsə də xalq şeri janrları) müəllif adının sonda verilməsi formal janr əlamətinə çevrilir.

Bəzən qrammatik formanın özü bədii mətnin struktur-forma detalına çevrilir. Məlumdur ki, felin təsdiq və inkar şəkilləri ayrı-ayrılıqda müvafiq qrammatik vəzifə yerinə yetirirlər. Onların birlikdə eyni sintaktik vahiddə işlənməsi isə bədii üslubi fakt olur. Dəpəgöz Oğuzdan çıqdı, bir yuca tağa vardı. Yol kəsdi, adam aldı, böyük hərami oldı. Üzərinə bir qaç adam göndərdilər. Ox atdılar, batmadı. Qılıc urdılar, kəsmədi. Sügüylə sancdılar, ilmədi. Çoban-çoluq qalmadı, həb yedi. Oğuzdan dəxi adam yeməgə başladı. Oğuz yığılub üzərinə vardı. Dəpəgöz görüb qaqdı. Bir ağacı yerindən qopardı. Atub əlli-altmış adam həlak elədi… (YIII b., s. 99).

Mürəkkəb sintaktik bütövün kursivlə verilmiş birinci üç tərkib hissəsində təsdiq və inkar felləri növbə ilə işlənir. Bu cür işlənmə tərkib hissələrin semantik uzlaşması və sintaktik quruluşun təkrarı ilə müşayiət olunur. Təsdiq-inkar fellərinin müvaziliyi dördüncü cümlədə də təkrar olunur, ancaq əksinə sxemlə baş verir; inkar feli əvvəl, təsdiq feli sonra gəlir:

Ox atdılar [təsdiq], batmadı [inkar]
Qılıc urdılar [təsdiq], kəsmədi [inkar]
Sügüylə sancdılar [təsdiq], ilmədi [inkar]
Çoban-çoluq qalmadı [inkar], həb yedi [təsdiq]

Dörd cümlənin məzmun-forma tutumu əlaqələnərək mürəkkəb sintaktik bütöv içərisində mikrokontekst əmələ

gətirir. Dördüncü cümlə öz növbəsində əvvəlki üç cümlənin verdiyi informasiyanı yekunlaşdırır və həmin mikrokonteksti qapayır. Eyni zamanda əvvəlki informativ strukturu yarımçıq qoymaqla, növbəti məzmuna keçid üçün şərait yaradır.

Bəzi halda struktur-forma elementləri bədii mətn vahidi olan mürəkkəb sintaktik bütövün komponentlərini bir-biri ilə bağlamağa xidmət edir. Bu halda şeir olan mətnlə nəsr olan mətn bir-birindən fərqlənir. Belə ki, nəsrlə yazılan mürəkkəb sintaktik bütövün tərkib hissələrini məlum formal vasitələr (açar söz və s.) və semantik rabitə birləşdirir. «Kitiabi-Dədə Qorqud»un dili üzərində aparılan müşahidələr göstərir ki, şeir-mətnlərdə ahəng yaradan vasitələr də bu vəzifəni yerinə yetirə bilirlər.

Qadın ana! Qarşum alub nə bögrərsən?
Nə ağlarsan, nə bozlarsan?
Bağrımla yürəgim nə tağlarsan?
Keçmiş mənim günimi də andırarsan?
Hey, ana! Ərəbi atlar olan yerdə
bir qulunı olmazmı olur? (**I**)
Qızıl dəvələr olan yerdə
bir köşəgi olmazmı olur? (**II**)
Ağca qoyunlar olan yerdə
bir quzıcığı olmazmı olur? (**III**)
Sən sağ ol, qadın ana! Babam sağ olsun!
bir mənim kibi oğul bulunmazmı olur? (**IY**;II b., s. 47)

Verilmiş şeir nümunəsində ritm yaradan vasitələr - qafiyələnmə, leksik təkrar, sintaktik təkrar, mətn (bənd) mərkəzinə əsaslanan üçlük modeldən istifadə edilməsi sonuncu dörd misranın hamısında assosiasiya təşkil etdiyindən həmin cümlələr birlikdə mətn hüdudunu (əvvəlini və sonunu) müəyyənləşdirir, mətnin formaca təşkilinə xidmət edir. Və ritmik

vasitələr mətn komponentləri - misralar arasında əsasən proporsional (simmetrik) paylanırlar:

Sətrin sıra №-si	*Qafiyələnən sözlər*	*Leksik təkrarlar*	*Sintaktik təkrarlar*
I	Qulunı	olan yerdə bir olmazmı olur	Ərəbi atlar olan yerdə bir qulunı olmazmı olur (feli sifət tərkibi+zərflik+təyin (say) + vasit-əsiz tamamlıq + qeyri qəti gələcək zamanın inkarında olan xəbər+ perifrastik fel forması)
II	köşəgi	olan yerdə bir olmazmı olur	Qızıl dəvələr olan yerdə bir köşəgi olmazmı olur
III	quzıcığı	olan yerdə bir olmazmı olur	Ağca qoyunlar olan yerdə bir quzıcığı olmazmı olur
IY	oğul	… bir bulunmazmı olur	… bir mənim kibi oğul bulunmazmı olur

«Kitabi-Dədə Qorqud» şeirlərində mətn və ya bənd mərkəzlərinə əsaslanan xüsusi modellərdən istifadə olunur. Bu modellərə görə sintaktik quruluşun qəlibi və bəzi leksik vahidlər bütün misralarda olduğu kimi saxlanır. Hər sətrin iki,

üç və daha artıq sözü isə bir-biri ilə semantik əlaqəyə girərək, mərkəzlər – ikiliklər, üçlüklər, dördlüklər və s. əmələ gətirirlər. Bu cütlük qəlibləri hər misrada mənaca əlaqələnmiş digər cütlüklə (ikilik və s.) əvəz olunur və növbəti misrada yerini növbəti cütlüyə (ikilik, üçlük və s.) verir. Hey, ana! Ərəbi atlar olan yerdə bir qulunı olmazmı olur? Qızıl dəvələr olan yerdə bir köşəgi olmazmı olur? Ağca qoyunlar olan yerdə bir quzıcığı olmazmı olur? Sən sağ ol, qadın ana! Babam sağ olsun! Bir mənim kibi oğul bulunmazmı olur? (II b., s. 47).

Verilmiş nümunənin birinci misrasında mənaca əlaqələnmiş at-qulun, ikinci misrada dəvə-köşək, üçüncü misrada qoyun-quzıcıq, dördüncü misrada ana, baba-oğul sözləri müvafiq cütlüklər və ya mətn mərkəzləri əmələ gətirirlər. «Kitabi-Dədə Qorqud»un dili üzərində apardığımız müşahidələr göstərir ki, misralardakı cütlüklərin sayına görə mətn (bənd) mərkəzləri üç və daha çox - üç, dörd, beş, altı, yeddi predmetli ola bilir. Yuxarıdakı nümunədə cütlüklərin (ikiliklərin) sayı dörd olduğu üçün mürəkkəb sintaktik bütöv dörd predmetli hesab olunur. Cütlükləri əmələ gətirən üzvlərin - leksik vahidlərin kəmiyyətinə görə də bu cür şeirlər fərqləndirilir; ən azı iki, ən çoxu beş elementli olur. Məsələn, əvvəl verilmiş nümunədəki cütlük model iki elementlidir.

Mətn mərkəzinə (cütlüklərə) əsaslanmış şeir-mürəkkəb sintaktik bütövlərdə cütlüklərin (predmetlərin və ya mərkəzlərin) sayı ilə mərkəz üzvlərinin (elementlərin) sayı adətən üst-üstə düşmür:

-mürəkkəb sintaktik bütöv üç mərkəzli (predmetli) və dörd elementli olur;

Qaytabanda qızıl dəvə bundan keçdi,
Torumları bundan bozlayıb belə keçdi,
Torumcığım aldırmışam, bozlıyayınmı?
Qaraqucda Qazlıq atı bundan keçdi,
Quluncığı kişnəyüb belə keçdi,

Quluncığım aldırmışam, kişnəyəyinmi?
Ağayılda ağca qoyun bundan keçdi,
Quzucığı mənrişib belə keçdi,
Quzucuğım aldırmışam, mənriyəyinmi?
«Oğul» deyü bozlıyayınmı? -dedi (IY b., s. 73).

Mətn mərkəzləri: qaytaban-qızıl dəvə-torum-bozla- (**I**); qaraquc – Qazlıq at – quluncıq – kişnə – (**II**); ağayıl – ağca qoyun – quzucıq – mənriş – (**III**).

-mürəkkəb sintaktik bütöv dörd mərkəzli və iki elementli olur;

Qarşu yatan qara tağını aşmağa gəlmişəm.
Aqındılı görklü suyını keçməgə gəlmişəm.
Gen ətəgünə, tar qoltuğına qısılmağa gəlmişəm.
Tənrinin buyruğilə, peyğəmbərin qövlilə
aydan arı gündən görkli qız qardaşın Banıçiçəgi
Bamsı Beyrəgə diləməgə gəlmişəm (III b., s. 56).

Mətn mərkəzləri: qara tağını - aşmağa (**I**); görkli suyını-keçməgə (**II**); ətəgünə, qoltuğına-qısılmağa (**III**); Banıçiçəgi-diləməgə (**IY**).

-mürəkkəb sintaktik bütöv dörd mərkəzli və üç elementli olur;

Mən Qazanın nemətini çoq yemişəm,
bilməzsəm, gözümə tursun!
Qaraqucda Qazlıq atına çoq yilmişəm,
bilməzsəm, mana tabut olsun!
Yaxşı qaftanların çoq geymişəm,
bilməzsəm, kəfənim olsun!
Ala bargah otağına çoq girmişəm,
bilməzsəm, mana zindan olsun (XII b., s. 124).

Mətn mərkəzləri: Qazanın nemətini-yemişəm-gözümə tursun (I); Qazlıq atına-yilmişəm-tabut olsun (II); qaftanların-geymişəm-kəfənim olsun (III); otağına girmişəm-zindan olsun (IY).

-mürəkkəb sintaktik bütöv beş mərkəzli və iki elementli olur;

Qarşu yatan qara tağlar qarısa, otı bitməz, el yaylamaz.
Aqındılı görkli sular qarısa, qara taşmaz.
Qaytabanlar qarısa, kürüm verməz.
Qaraquclar qarısa, qulun verməz.
Ər yigitlər qarısa, oğlı toğmaz,
Baban qarı, anan qarı,
səndən yegrək qadir bizə oğul verməz… (IY b., s. 76).

Mətn mərkəzləri: qara tağ-otı bitməz (I); görkli sular-qara taşmaz (II); qaytabanlar-kürüm verməz (III); qaraquclar-qulun verməz (IY); ər yigitlər-oğlı toğmaz (Y).

-mürəkkəb sintaktik bütöv altı mərkəzli və iki elementli olur;

Marə Şökli Məlik!
Dünlügi altun ban evlərimi gətürüb dursan,
sana kölgə olsun!
Ağır xəzinəm, bol aqçam götürüb dursan,
sana xərclıq olsun!
Qırq incə bellü qızla Burla xatunı götürüb dursan,
sana yesir olsun!
Qırq yigidlən oğlum Uruzı gətürüb dursan,
qulun olsun!
Tavla-tavla şahbaz atlarım gətürüb dursan,
sana binət olsun!
Qatar-qatar dəvələrim gətürüb dursan,
sana yüklət olsun!

(II b., s. 48)

Mətn mərkəzləri: ev-kölgə (I); xəzinə-aqça-xərclıq (II); Burla xatun-yesir (III); Uruz-qulun (IY); atlar-binət (Y); dəvələr-yüklət (YI).

Bədii mətnin formaca təşkilinə xidmət edən qafiyələnmə həm nəsr mətndə, həm də şeir mətndə özünü göstərir və fərqli paradiqma nümayiş etdirir. Nəsr mətnlərdəki qafiyələnmə adətən epizodik xarakterdə olur, yəni mətn boyu müşahidə edilmir və bədii effekt yaratmaq (və ya gücləndirmək) məqsədi daşıyır.

Ol gəldi ki, yağı basılmışdı. Gördi, oğlanın ala gözlü qırq yigidi qırılmış, bədəvi atı oğlanın oxlanmış yatır. Leş arasında oğlancığı leşin bulımadı. Altunlıca qamçısın buldı. Yəqin bildi kim, oğlı kafərə tutsaqdır, ağladı: «Qaratağım yüksəgi oğul! Qanlu suyım taşqunı oğul! Qocalığım vəqti aldırduğım yalnuz oğul!» -dedi, bozladı. Kafərin izin izlədi. Qanlu qara Dərvənddə kafər dəxi qonmış idi. Oğlana qara kəpənək geydirmişlərdi. Qapu eşigi üzərində arqurı yer qomışlardı. Girən basar, çıqan basardı: «Qarı düşmən, tatar oğlı ələmizə girmişkən cəza ilə öldürəlim!» Qapu eşigi üzərindən arqurı qomışlardı ki, bu məhəldə xan Qazan yetdi. Qonur atın oynatdı. Kafər Qazanın gəldügin gördi, ürkdi. Kim atın binər, kim cövşən geyər. Oğlan başını qaldırdı. Aydır: «Mərə kafər, nə haldır?» Kafər aydır: «Baban gəldi, «tutalım» deriz». Oğlan aydır: «Aman, mərə kafər, aman! Tənrinin birliginə yoqdur güman!» Kafərlər oğlana aman verdilər, əlin çözdilər, gözin açdılar (YI b., s. 74).

Nümunə gətirdiyimiz mürəkkəb sintaktik bütöv on doqquz cümlə vahidindən ibarət olduğu halda, cəmi beş cümlədə söz sonluqlarının qrammatik formaya görə uzlaşması müşahidə olunur, iki ayrı-ayrı cümlə öz aralarında qafiyələnir, üç sintaktik vahiddə isə cümlədaxili qafiyələnmə müşahidə olunur.

Bəzi hallarda nəsrlə yazılmış sintaktik mətnlərin bütün tərkib hissələri də qafiyələnə bilir. *Yegnək babasilə görüşdi. Əldən qalan bəglər görüşdi. Pəs bir uğurdan bəglər hasara yüriş etdilər, yəğmaladılar. Babasilə Yegnək gizlü yaqa tutuban yiləşdilər. Eki həsrət bir-birinə bulışdılar. İssiz yerin qurdı kibi ulaşdılar. Tənriyə şükrlər qıldılar. Qələnin kəlisasın yıqub, yerinə məscid yapdılar. Əziz tənri adına qudbə oqıtdılar. Quşun ala qatını, qumaşın arusını, qızın gögçəgini, toquzlama çırğab çuqa Bayındır xana pəncek çıqardılar. Baqisin ğazılara bəxş etdilər. Döndilər, evlərinə gəldilər* (YII b., s. 97).

Şeir mətnlərdə isə cümlə (sətir) sonluqlarının qafiyələnməsi nisbətən sistemli xarakter daşıyır və bütün sintaktik mətni müşayiət edir.

Ağzın içün öləyim, oğul!
Dilün içün öləyim, oğul!
Qarşu yatan qara tağın yıqılmış idi, yucaldı, axır!
Aqındılı görkli suyın sovğılmışdı, çağladı, axır!
Qaba ağacda tal budağın qurımışdı,
yaşarıb gögərdi, axır!
Qalın Oğuz bəgləri izinə varsa, sən varğıl!
Ol yigidə yetdügində ağ-boz atın üzərindən yerə engil!
Əl qavşırıb, ol yigidə səlam vergil!
Əlin öpüb boynın qucğıl!
Qara tağım yüksəgi qartaş degil!
Nə turarsan oğul, yortğıl! (X b., s. 111)

Verilmiş nümunədə I və II misralar bir-biri ilə, III, IY, Y misralar bir-biri ilə və YI, YII, YIII, IX, X misralar bir-biri ilə qafiyələnirlər.

Aşağıda verdiyimiz başqa bir nümunədə isə I, II, III, IY, Y misraların sonluğu bir-biri ilə, YI, YII misralar isə öz aralarında qafiyələnir:

Qaytabanım güdəndə sarvanımmısan?
Qaraqucım güdəndə ilqıçımmısan?
Ağayılım güdəndə çobanımmısan?
Qulağımda şırşıyan naibimmisən?
Beşigdə qoyub getdigim qardaşcığımmısan?
Yigit, degil mana!
Qara başım qurban olsun bu gün sana! (X b., s. 114)

Belə şeir mətnlərdəki cümlə sonluqlarının qafiyələnməsi mürəkkəb sintaktik bütövlərin təşkilində mühüm rol oynayır. Çünki iki cümlə sonluğunun qafiyələnməsi onların bir-biri ilə formal bağlılığını təmin edir və iki və daha çox sintaktik vahidi bir-biri ilə uzlaşdırır. Bu olduqda növbəti cümlələrin də struktur-forma uyğunlaşmaları baş verir - xəbərlər felin bir zamanı ilə ifadə olunur, bir şəxsi bildirir, kəmiyyətcə ya təkdə, ya da cəmdə olur.

Digər forma amili informasiya daşıyıcılarının eyni (ən azı yaxın) həcmdə olmalarıdır. Bu zaman tam sintaqmların hüdudları daxilində yarımçıq sintaqmların heca ölçüsü növbəti cümlədə də saxlanılır. Başqa sözlə, bir informasiya daşıyıcısı (cümlə) ilə digər informasiya daşıyıcısının söz və heca tutumları kəmiyyətcə üst-üstə düşür. Ağ saqallu qocanın ağzın sögdi. Ağ birçəklü qarının südin tutdı (I b., s. 37). Tölə-tölə şahbaz atlarını biz binmişüz. Qatar-qatar qızıl dəvəsini biz yetmişüz (II b., s. 43). Eyni həcmli hecalar tam sintaqm daxilindəki iki yarımçıq sintaqm arasında da olur və bir qayda olaraq, sintaktik quruluşun təkrarı ilə yaranmış mürəkkəb cümlələrdə özünü göstərir. Oğulda ortacım yoq, qartaşda qədərim yoq (III b., s. 52). Kim atın binər, kim cövşən geyər (IY b., s. 74). Nə oğlan yenər, nə buğa yenər (I b., s. 36). Av avladılar, quş quşladılar (I b., s. 37). Sağdan gedəni sağ alur, soldan gedəni sol alur. Haqlıya həqqi dəgə, haqsuza yüzi qaraluğı dəgə (III b., s. 64).

Belə konstruksiyalı cümlələrdə sintaktik qəlibin təkrarı ilə yanaşı, bir, ya iki leksik təkrar da müşahidə olunur. Bin buğra

gətürün kim, maya görməmiş ola. Bin dəxi ayğır gətürün kim, heç qısrağa aşmamış ola (III b., s. 56). Dəxi kəndüsi tölə-tölə atlarına vardı, bin ayğır seçdi. Dəvələrinə vardı, bin buğra-nər seçdi. Qoyunlarına vardı, bin qoç seçdi (III b., s. 56-57). Sağ yanında qardaşı Qaragünə otırmışdı. Sol yanında tayısı Uruz oturmışdı (IY b., s. 68).

Mürəkkəb sintaktik bütöv bütünlüklə belə formalardan təşkil olunmasa da, onların iki-üç cümlədə iştirakı güclü bədii effekt yaratmaq üçün kifayət edir. Ol gün cigərində olan ər yigitlər bəlürdi. Ol gün müxənnətlər sapa yer közətdi. Ol gün bir qiyamət savaş oldı, meydan tolu baş oldı; başlar kəsildi, top kibi. Şahbaz-şahbaz atlar yügürdi, nalı düşdi. Ala-ala köndərlər süsəldi. Qara polat uz qılıclar çalındı, yılmağı düşdi. Üç yelənli qayın oqlar atıldı, dəmrəni düşdi. Qiyamətin bir güni ol gün oldı. Bəg nökərindən, nökər bəgindən ayrıldı (II b., s. 50).

Obrazlar arasındakı söyləşmələr (deyişmələr) zamanı onların ifadə etdikləri söyləmələr (şeirlər) eyni strukturda olur. Formal quruluş baxımından ikinci söyləmə (şeir) birinci söyləməni (şeiri) izləyir. Ancaq məzmun etibarilə ikinci birincinin tam eyni olmasa da, nisbi yaxınlıq qalır və bəzi halda ikinci söyləmə (şeir) birinci söyləməni (şeiri) məzmunca tamamlayır.

Oğlanın anası oğlanın üstinə çapub çıqa gəldi. Baqsa görsə oğlancığı alca qana bulaşmış yatur. Çağıruban oğlancuğına soylar, görəlim, xanım, nə soylar:

…Nə Qazlıq tağı aqar sənin suların,
Aqar kibi aqmaz olsun!
Bitər sənin otların Qazlıq tağı,
Bitər ikən bitməz olsun!
Qaçar sənin keyiklərin Qazlıq tağı,
Qaçar ikən qaçmaz olsun, taşa dönsün!
Nə biləyin, oğul, arslandanmı oldı,
yoxsa qaplandanmı oldı?…

Böylə digəc oğlanın qulağına səs toqundı. Başın qaldırdı, yılabıdaq gözin açdı. Anasının yüzinə baqdı. Soylamış, görəlim, xanım, nə soylamış. Aydır:

Bərü gəlgil, aq südin əmdigim, qadunım ana!
Ağ birçəklü, izzətlü, canım ana!
«Aqar» ayıda qarğamağıl,
Qazlıq tağının suyının günahı yoqdır.
«Bitər» ayıda otlarına qarğamağıl,
Qazlıq tağının suçı yoqdır.
Qaçar keyiklərinə qarğamağıl,
Qazlıq tağının günahı yoqdır.
Arslanla qaplanına qarğamağıl,
Qazlıq tağının suçı yoqdır,
Qarğarsan, babama qarğa,
Bu suç, bu günah babamdandır, -dedi… (I b., s. 39).

Sonuncu söyləmədə hər misranın sonu (xəbəri) inkarlıq bildirdiyi halda, axırıncı misra (şeirin sonu) təsdiq ifadə edir və bu təsdiq ayrıca sintaktik bütövü (şeiri) həm semantik, həm də formal baxımdan qapayır.

Cümlə sonluqlarının eyni formaya malik olması heç də həmişə qafiyələnməyə xidmət etmir; kommunikativ vahidlər sistemi kimi üzə çıxır. Hökmün ifadə formalarından və işi, hərəkəti icra edən subyektlərin hansı şəxsə mənsubluğundan asılı olaraq, mürəkkəb sintaktik bütövü təşkil edən cümlələrin xəbərləri eyni şəkli əlamət daşıya bilər.

Qazan bəgün dünlügi altun ban evlərini biz yıqmışuz. Tölə-tölə şahbaz atlarını biz binmişüz. Qatar-qatar qızıl dəvəsini biz yetmişüz. Qarıcıq anasını biz gətürmişiz. Ağır xəzinə, bol aqçasını biz yağmalamışuz. Qaza bənzər qızı-gəlini biz yesir etmişüz. Qırq yigidlə Qazanın oğlını biz gətürmişiz. Qırq incə bellü qızla Qazanın hələlını biz gətürmişiz. Bərə çoban, irağından-yaqınından bərü gəlgil! Baş endirüb bağır basğıl! Biz kafərə salam vergil, öldürmiyəlim! Şökli Məlikə səni ilətəlüm! Sana bəglig alı verəlim (II b., s. 43).

Mürəkkəb sintaktik bütövdən gətirdiyimiz parçada I, II, III, IY, Y, YI, YII, YIII cümlələrin xəbəri felin nəqli keçmiş zamanında birinci şəxsin cəmi ilə, IX, X, XI cümlələrin xəbəri felin əmr şəklində ikinci şəxsin cəmi ilə, tabesiz mürəkkəb cümlədən ibarət olan XI cümlənin ikinci tərkib hissəsinin xəbəri və XII, XIII cümlələrin xəbər hissəsi felin əmr şəklində birinci şəxsin cəmi ilə ifadə olunur. Sintaktik mətn komponentlərində hərəkət subyektlərinin eyni şəxs ilə ifadəsi xəbər formalarında (və deməli həm də cümlə sonluqlarında) da oxşarlığa (eyniliyə) səbəb olur. Bədii effekt yaradan vasitə isə I-YIII cümlələrdə tamamlıq-mübtəda-xəbər qəlibli konstruksiyanın təkrarlanmasıdır.

Qədim türk (runik) yazılı abidələri üçün spesifik olan cümlə quruluşları orta əsrlər türk ədəbi dilində - «Kitabi-Dədə Qorqud»un mətnində də tez-tez təkrarlanan sabit sintaktik konstruksiyalara çevrilir. Onlardan biri və daha geniş yayılanı xəbəri dedi feli ilə ifadə edilmiş iki baş cümlənin tamamlıq budaq cümləsini dövrəyə aldığı sintaktik quruluşdur.

Kültiqin şərəfinə abidədə: Türk kara kamığ bodun ança timis: İlliq bodun ertim, ilim amtı kanı, kimke iliq kazğanurmen, -tir ermis (KltŞ 8-9; Tərcüməsi- Sadə türk adamları bütünlüklə eləcə demiş: dövləti olan xalq idim, indi dövlətim hanı, kim üçün dövləti qazanıram // yaradıram, -deyirmiş).

Tonıkuk şərəfinə abidədə: Türqis kağan ança timis: «benin bodunım anta erür», -timis (TonŞ. 21; Tərcüməsi- Türqis xaqanı eləcə demiş: «mənim xalqım oradadır», -demiş).

Bir–biri ilə tabelilik əlaqəsi ilə birləşmiş üç cümlə vahidindən ibarət olan quruluş «Kitabi-Dədə Qorqud»un dilində inkişafa məruz qalır, ilk tərkib hissənin dedi feli öz sinonimi - aydır feli ilə əvəz olunur; «dedi - dedi» cütlüyünün yerini «aydır-dedi» cütlüyü tutur. Qazan aydır: «Su həq didarın görmişdir. Bən bu suyla xəbərləşim», -dedi (II b., s. 44). Uruz aydır: «Mərə kafər, aman! Tənrinin birliginə yoqdır güman! Qoun məni bu ağacla söyləşəyim», -dedi (II b., s. 47). Böylə digəc Qazan aydır:

«Mənim avımı bozma, ləşkərimi tağıtma! Bən bu gün qonur ata qaqaram, üç günlük yolı bir gündə aluram, ev ilə olmadın yurdum üstinə vararam. Əgər sağdır, əsəndir, axşam olmadın genə mən sana gəlürəm. Ordım sağ-əsən degil isə, başınuza çarə edin. Mən dəxi getdim», -dedi (II b., s. 44).

Türk bədii mətni üçün spesifik olan sintaktik quruluşdakı leksik təkrarlardan birinin (dedi feli) sinonimi ilə (aydır feli) əvəz edilməsi həm normativlik baxımından baş verir - dili ağırlıqdan xilas edir, həm də üslubi yük daşıyır. Leksik təkrarlı konstruksiyadan çox verilmiş quruluş tipindəki semantik təkrarlı konstruksiya effekt verir. Və bunlardan birincisi bədii mətnə bədii forma elementi kimi daxil olur. Ümumiyyətlə, «ikinci baş cümlə (yəni dedi sözü) burada zəruri qrammatik fakt kimi yox, bizcə, mətn ünsürü kimi cümlə quruluşunu tamamlayır. Eyni məzmuna malik bu dil vahidlərinin birincisi obrazın nitqinə, ikincisi müəllif təhkiyəsinə aiddir. Yəni müəllif təhkiyəsinin hər yerdə mətni müşayiət etməsi əsas informasiya daşıyıcısında hər iki tərəfi - əvvəli və sonu aydır-dedi sözləri ilə əhatələnmiş cümlə formalarının işlənməsini zəruri edir. Odur ki, bu cür bədii tekstoloji təyinatla iki cümlədən ibarət zəncirvari konstruksiyaya malik tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələr arasında bağlılıq var» [2, s. 31-32].

Bədii tekstoloji təyinat «Kitabi-Dədə Qorqud»un dilində başqa spesifik sintaktik modellərin işlənməsini də zəruri edir. «Kitabi-Dədə Qorqud»un dilində elə cümlələr var ki, orada təsriflənən fel afinit forma funksiyasını daşıyaraq cümlənin quruluşuna təsir edə bilir: Rəsul Əleyhüssəlam zamanına yaqın Bayat boyından Qorqud Ata diyərlər, bir ər qopdı (müqəddimə, s. 31). Dirsə xan deyirlərdi, bir bəgün oğlı-qızı yoqdı (I b., s. 34). Bu sintaktik vahidlərdə sadə cümlə quruluşunun sərhədləri tam dağılmamış və sadə cümlə hüdudunda başqa bir, quruluşca daha təkmil cümlə forması yerləşmişdir. İkinci komponentdə aydınlaşdırılmağa ehtiyacı olan cümlə üzvünü (təyini) birinci komponentin izah etdiyini, haqqında əlavə məlumat verdiyini

nəzərə alaraq, həmin cümlə formasının təyin budaq cümləli tabeli mürəkkəb cümləyə yaxınlaşdığını söyləmək mümkündür. Ancaq bu quruluşa malik başqa cümlə nümunəsi var ki, bu cür model təyin rolunu oynamır. Yalançı oğlu Yalancuq deyirlər, ölüsi xəbərin gətürdi (III b., s, 60). Burada deyirlər formasından sonra təyin olunan gəlmir. Cümlənin informativ fokusuna görə təyin olunanın iştirakını bərpa etsək, təxminən belə bir şəkil alınar: Yalançı oğlu Yalancuq deyirlər… bir kişi. Odur ki, informasiyanı qəbul edənin təfəkküründə quruluş təiyn kimi qəbul olunmur və cümlənin informativ strukturu da bunu tələb etmir. Yəni məzmun baxımından cümlə o şəkildədir ki, birinci hissə (Yalançı oğlu Yalancuq deyirlər) ikinci hissənin (ölüsi zəbərin gətürdi) iş icra edəni–mübtədası olmalıdır. Deməli, informativlik əlamətinə görə cümlə vahidi bir sadə cümlədir. Amma formal baxımdan nümunə öz predikativ mərkəzləri olan tərkib hissələrdən ibarət mürəkkəb cümlə vahididir. Bu cür uyğunsuzluq cümlənin mətn (bədii mətn) vahidi olması ilə əlaqədardır. Və birinci növbədə cümlədəki deyirlər sözü fəal mətn ünsürü olmaqla cümlə vahidinin bədii tekstoloji təyinatını həll edir. Yəni deyirlər sözü artıq üçüncü obrazın nitqi ilə bağlı detaldır. Kontekstə baxaq: Çobanlar aydır: Bəgümizin bir oğtlı vardı, on altı yıldır kim, ölüsi-dirisi xəbərin kimsə bilməz. Yalançı oğlu Yalancuq deyirlər, ölüsi xəbərin gətürdi. Adaxlusın ana verər oldılar. Gəlür bundan keçər. Uralım anı, ana varmasun, təninə-tuşına varsun, -dedilər (III b., s. 60). Mətndəki nitq felləri üç obrazın nitqini səciyyələndirir - aydır xəbəri çobanlara (I obraz), deyirlər - üçüncü şəxsin cəminə aid qeyri-müəyyən şəxsə (II obraz), dedilər xəbəri müəllif (III obraz) təhkiyəsinə aiddir [2, s. 27-28].

Sabit sintaktik konstruksiyalardan fərqli olaraq, sabit dil ifadələrini xüsusi işlənmə situasiyaları tələb edir və onlar bu və ya digər vəziyyətlərə təhkim olunurlar. Odur ki, eyni (və ya oxşar) situasiyada eyni ifadə vasitəsi təkrarlana-təkrarlana bədii dil fiquruna çevrilir.

Çoban böylə digəc Qazan ah etdi, əqli başından getdi. Dünya-aləm gözinə qarannu oldı. Aydır: «Ağzın qurusun, çoban! [Dilün] çürisün, çoban! Qadir sənin alnuna qada yazsun, çoban!» -dedi (II b., s. 45). Tan ötdi, kün toğdı. Beyrəgin anası-atası baqdı-gördi kim, gərdək görünməz olmış. Ah etdilər, əqlləri başlarından getdi. Gördilər kim, uçarda quzğun qalmış, tazı tolaşmış, yurtda qalmış. Gərdək paralanmış, naib şəhid olmuş. Beyrəgin babası qaba sarıq götürüb yerə çaldı. Tartdı, yaqasın yırtdı. «Oğul! Oğul!» deyübən yügürdi, zarlıq qıldı (III b., s. 57). Anası oğlanın böylə digəc Qazanın əqli başından getdi. Qara bağrı sarsıldı, düm yürəgi oynadı. Qarannulı gözləri qan-yaş toldı (IY b., s. 74).

«Kitabi-Dədə Qorqud»dakı şer mətnlərin tərkib hissələrinin əlaqələnməsində yaxın və əks mənalı sözlər ayrı-ayrılıqda mühüm rol oynayır. Şer başdan-başa antonimlərin və ya mənaca əkslik təşkil edən digər sözlərin rabitəsi üzərində qurulur:

Arğab-arğab qara tağın yıxılmışdı, yucaldı, axır!..
Qanlu-qanlu suların sovğulmışdı, çağladı, axır!..
Qaba ağacın qurımışdı, yaşardı, axır!..
Şahbaz atın qarımışdı, qulun verdi, axır!..
Qızıl dəvələrin qarımışdı, köşək verdi, axır!..
Ağ [ayılda] qoyunın qarımışdı, quzı verdi, axır!..
On altı yıllıq həsrətin - oğulun Beyrək gəldi, axır!..
Qayınata-qaynana, muştuluq mana nə verərsiz?
(III b., s. 66)

Verilmiş şeir mətndə yıxılmışdı-yucaldı, sovğulmışdı-çağladı, qurımışdı-yaşardı, qarımışdı (yəni nəsil vermək qabiliyyətini itirmişdi) - qulun verdi / köşək verdi / quzı verdi kimi əks mənalı söz və ifadələr həm tərkib hissələrin məna əlaqələrini möhkəmləndirir, həm də bədii effektliyi artırır.

Şerin strukturunda mənaca bir-birinə yaxın olan və ya ümumilikdə yaxınlıq təşkil edən sözlərin rabitəsi əsas rol oynayır:

…Qarşu yatan qara tağlar sana yaylaq olsun!
Souq-souq suları sana içət olsun!
Qulım-xəlayığım sana qırnaq olsun!
Şahbaz atlarım sana binət olsun!
Qatar-qatar dəvələrim sana yüklət olsun!
Ağayılda ağca qoyunım sana şülən olsun
Altun-aqçam sana xərclıq olsun!
Dünlügi altun ban evim sana kölgə olsun!
Qara başım qurban olsun sana, gəlincigüm!
(III b., s. 66)

Burada isə tərkib hissələrin mənaca əlaqələnməsini aşağıdakı sözlər təmin edir: tağ-yaylaq, su-içət, qul-xəlayığ - qırnaq, at-binət, dəvə-yüklət, qoyun-şülən, altun-aqça – xərclıq, ev-kölgə.

Alliterasiya qədim dövrdə olduğu kimi, orta əsrlərdə də türk bədii mətninin (və onun şeir qolunun) təşkilinə xidmət edən formal vasitələrdən biri olmuşdur. O şer və nəsr mətnlərində komponentlərin daxili əlaqələnməsinə xidmət etməklə, həmin vahidlərinin bədii emosionallığını da artırır. Professor T.Hacıyev başlanğıcda «Kitabi-Dədə Qorqud»un dilinin şer dili olmasına dəlalət edən çoxlu faktorların (söz birləşməsi və cümlələrdə alliterasiya, qafiyə, sintaktik paralelizm, ritm simmetriyası və s.) mövcudluğunu qeyd edərək yazır: «Cümlələrdəki sözlərin fonetik başlanğıcı (alliterasiya nəzərdə tutulur - Y.Ə.), söz əvvəlinin sistemli harmoniyası nəsr dilinə məxsus kefiyyət deyil [4, s. 167-168]. Alliterasiya həm mikromətnin daxili komponentləri arasında, həm də daxili komponentlərin içərisində ola bilir. Bu halda bədii mətnlərin təsir gücü müxtəlif olur və ikincinin xeyrinə dəyişir.

Cümlədaxili alliterasiya: **Q**uduz **q**urtlar evimi dəlir gördüm. **Q**ara dəvə ənsəmdən **q**arvar gördüm. **Q**arğu kibi **q**ara saçım uzanır gördüm (II b., s. 44). Bu halları gördügində **Q**azanın **q**ara **q**ıyma gözləri **q**an-yaş toldı. **Q**an tamarları **q**aynadı (II b., s. 44).

Cümlələr (misralar) arası alliterasiya: **Q**aranqu axşam olanda güni toğan! **Q**ar ilə yağmur yağanda ər kibi turan! **Q**araquc atları kişnəşdirən! **Q**ızıl dəvə gördügində bozlaşdıran! (II b., s. 45).

Qanlu kafər elinə dünin girdin.
Qara buğra gəldügində xurd-xaş eylədin,
Qağan aslan gəldügində belini bükdün.
Qara buğra gəldügində nə kiçikdin?
Qara-qara tağlardan xəbər aşa.
Qanlu-qanlu sulardan hənir keçə,
Qalın Oğuz elinə xəbər vara,
Qanlı Qoca oğlı Qanturalı netmiş deyələr:
Qara buğa gəldügində qılçatmamış,
Qağan aslan gəldügində belin bükmiş,
Qara buğra gəldügində nə kiçikmiş?! - deyələr
(YI b., s. 89)

Alliterasiyalı sözlər cümlədəki mövqeyinə görə də fərqlənə bilir. Onlar bir-birinə yaxın olur: Qarla yağmur yağanda **ç**aqmaqlı **ç**oban (II b., s. 45). Alliterasiyalı sözlər bir-birindən aralı yerləşir: **Ç**ığnam-**ç**ığnam qayalardan **ç**ıqan su (II b., s. 44).

Alliterasiya eyni sintaktik vahidin iki və daha artıq üzvünü əhatə edə bilir:

·Alliterasiya iki sözdə olur. **Q**azan **q**ara köpəklə xəbərləşdi, görəlim, xanım, nə xəbərləşdi (II b., s. 45). **S**ağrağın **s**ürmiyəsən (II b., s. 47).

·Alliterasiya üç sözdə olur. **Q**ara başım **q**urban olsun, **q**urdum sana (II b., s. 45).

· Alliterasiya dörd sözdə olur. **Q**ara **q**aurma edib **q**ırq bəg **q**ızına ilətün (II b., s. 47).

Eyni cümlə daxilində müxtəlif tipli samit səsləşmələri müşahidə edilir. **Q**alın Oğuz **b**əgləri **b**ənim **b**aşıma qaqınc **q**aqarlar (II b., s. 46; b və q səsləşmələri). **B**əg **b**abamın, qadın anamın yüzin **g**örmədin bu **g**ərdəgə **g**irərsəm (YI b., s. 90; b və g səsləşmələri).

«Kitabi-Dədə Qorqud»un dilindəki cümlələrdə söz əvvəlinin ahəngi, bir qayda olaraq, aşağıdakı sami səsləşmələri ilə müşayiət edilir:

b səsləşməsi - Və ya **b**uğanın **b**uynuzında ilişəm (YI b., s. 87). Adı **b**əllü **b**əglərlə sən yortmadın (YII b., s. 95). **B**asduğın **b**ələrtmiyən **b**əllü tənri (YII b., s. 96);

q səsləşməsi - Ya **q**ağan aslanın **q**aynağında didiləm (YI b., s. 87). **Q**aqduğın **q**əhr edən **q**əhhar tənri (YII b., s. 96);

g səsləşməsi - **G**ötürdügin **g**ögə yetürən **g**örklü tənri (YII b., s. 96);

h səsləşməsi - **H**aqluya **h**əqqi dəgə, **h**aqsuza yüzi qaraluğı dəgə (III b., s. 64);

s səsləşməsi - Qalın Oğuz içində Ulaş oğlı Salur Qazanı **s**orar olsam, **s**ağmı, arğış (III b., s. 58);

ş səsləşməsi - Bu yana **Ş**ökli Məlik kafərlərlə **ş**ən-**ş**adman yeyüb-içüb oturardı (II b., s. 46);

t səsləşməsi - **T**ülü quşun yavrısı! **T**ürküstanın dirəgi! (III b., s. 63);

y səsləşməsi - **Y**ettügimdə **y**el **y**etməzdi, **y**eddi urğunım, **Y**eni Bayırın qurdına bənzərdi **y**igitlərim (YII b., s. 95). Hey qırq eşim, qırq **y**oldaşım! **Y**ügrək olsa, **y**arışsam (YI b., s. 87).

Q samit səsləşməsindən ibarət olan alliterasiya «Kitabi-Dədə Qorqud»un dilində daha çox müşahidə edilir.

Sait səsləşmələri arasında isə dodaqlanan saitlərin ahəngi xüsusi effekt yaradır. **U**manana-**u**sanana aş yedirdim (IY b., s. 73). Assonans «Kitabi-Dədə Qorqud»un dilində aşağıdakı sait səslərin ahəngi ilə də müşayiət edilir:

ö səsləşməsi - Qırq yigit bir bəg oğlilə bir qızdan **ö**trü **ö**lmək nolur (YI b., s. 87-88);

u səsləşməsi- **U**rdığın **u**latmıyan **u**lu tənri (YII b., s. 96);

a səsləşməsi - **A**slanın **a**lnın közədüb bir yumruq eylə urdı kim, yumruq çənəsinə toqundı, ovatdı (YI b.. s. 89).

Həm də sətribaşı alliterasiya şer mətnlərdə bədii mətnin kontekstual hüdudlarının müəyyənləşməsində xüsusi əhəmiyyət kəsb edir. Bu, təxminən şerdəki sətir sonu qafiyələnmənin oynadığı rola bərabərdir. Alliterasiyanın assonansla bir yerdə işlənməsi bu funksional təyinatı bir qədər də möhkəmləndirir. Onlar mətnin daxilində (komponentlərin içərisində) gəldikdə isə bu vəzifə təyinatı dəyişir, effektlilik, emosionallıq yaratmaq məqsədi güdür:

b, ə səsləşmələri - Adı **bə**llü **bə**glərlə sən yortmadın (s. 95);

y, q, a, ğ səsləşmələri - **Ya qağa**n **a**sl**a**nın **qay**n**ağ**ınd**a** didiləm (YI b.,s. 87;);

b, e, i səsləşmələri - Qanturalı altunlu incə kətan **bez**i**n** **beli**nə sardı (YI b., s. 87);

b, u, a, n, ı səsləşmələri - Və ya **buğanın buynuzın**d**a** ilişəm (YI b., s. 87);

b, u səsləşmələri - **B**oyı **uzu**n **Bu**rla **bu**nı eşitdi, yürəgilə canına odlar düşdi (s. 46);

d, ə səsləşmələri - **Dəvəyə** bir **də**pmə urdı. **Dəvə** bağırdı. Bir **də**xi urdı. **Dəvə** ayağı üzərinə turamadı (YII b., s. 90);

q, ı səsləşmələri - **Qırq** yerdə **qızı**l ala gərdək dikdirdi (YII b., s. 90);

g, ə səsləşmələri - Qanturalıyla qızı **gə**türüb **gər**də**gə** qoydılar (YII b., s. 90);

ö, l səsləşmələri - Savaşalım, dögüşəlim, **öl**ənimiz **öl**sün, diri qalanımız odaya gəlsün (YII b., s. 91);

g, ö və **d, ə, r** səsləşmələri - Bir yüksək yerə çıqdı, **gö**zlədi, **gö**rdi kim, bir **dərə**nin içində toz gah **dər**ilür, gah tağılur (YII b., s. 91).

\

§5. BƏDİİ MƏTN: NƏSR VƏ ŞEİR

Formaca bədii mətn, bir qayda olaraq, nəsr, yaxud şeir şəklində olur. İstər nəsr mətnlərin, istərsə də şeir mətnlərin informativ strukturunda əsas informasiya nüvə rolunu oynayır. Qalan informasiyalar isə yardımçı xarakter daşıyır. Əsas və yardımçı informasiyalardan birinin digərinə olan nisbəti şeir və nəsr mətnlərdə bərabər səviyyədə deyil. Bu informAsiyalardan hər biri hər iki mətn formasının struktur informativ komponentinə daxil olur və yalnız çoxluğun bu və ya digər tərəfə meyl etməsi ilə seçilir. Məsələ ondadır ki, yardımçı informasiyalar nəsr mətnlərdə nisbətən az, şeir mətnlərdə nisbətən çoxdur. Bu nisbi üstünlük şeir mətnlərdəki bədiilik momentlərinin nisbətən güclü, nəsr mətnlərdə isə nisbətən zəif məqam kimi səciyyələnməsi ilə bağlıdır. Bu hesabla, nəsr mətnlərdəki predikativliyə, modallığa, bitmə intonasiyasına malik sintaktik vahidlərin – cümlələrin hər biri ən azı bir informasiya (əsas informasiya), şeir mətnlərdə isə bir neçə və ya bütün sintaktik vahidlər birlikdə yalnız bir informasiya (əsas informasiya) ifadə edə bilir.

«Kitabi-Dədə Qorqud»un mətni üzərindəki müşahidələr göstərir ki, nəsr mətnlərdə yardımçı informasiya zəruri komponent olmaya bilir, şeir mətnlərdə isə əsas informativ nüvəni o, mütləq müşayiət etməlidir.

Şeir mətnlərin özündə də əsas və yardımçı informasiyalar arasındakı tarazlıq onlardan birinin xeyrinə dəyişə bilir. Belə vəziyyət bu və ya digər kontekstlə bağlı olaraq yaranır.

…«Aqar» ayıda qarğamağıl,
Qazlıq tağının suyının günahı yoqdır.
«Bitər» ayıda otlarına qarğamağıl,
Qazlıq tağının suçı yoqdır.
Qaçar keyiklərinə qarğamağıl,

Qazlıq tağının günahı yoqdır.
Arslanla qaplanına qarğamağıl,
Qazlıq tağının suçı yoqdır,
Qarğarsan, babama qarğa,
Bu suç, bu günah babamdandır, -dedi… (I b., s. 39).

Verilmiş şeir nümunəsindəki məlumatlardan ancaq biri - sonuncu cümlənin ifadə etdiyi semantik tutum əsas informAsiyanı bildirir. Qalan cümlələrin verdiyi bilgilər isə yardımçı informasiyalar hüququndadır.

Aşağıda verilmiş başqa bir nümunədə isə əksinə vəziyyət özünü göstərir:

…Sarp qayalar oynanmadı, yer oyruldı.
Eldə yağı yoğkən sənin babanın üstinə yağı gəldi.
Ol qırq namərd - babanın yoldaşları babanı tutdılar.
Ağ əllərin ardına bağladılar.
Qıl sicim ağ boynına taqdılar.
Kəndülər atlu, babanı yayaq yüritdilər.
Alubanı qanlı kafər ellərinə yönəldilər.
Xanım oğul! Qalqubanı yerindən urı turğıl!
Qırq yigidin boyına alğıl!
Babanı ol qırq namərddən qurtarğıl!
Yüri, oğıl!
Baban sana qıydısa, sən babana qıymağıl!
(I b.,s. 40)

Şeir parçasındakı cümlələrin ancaq biri (ikinci misra) yardımçı informasiyanı, yerdə qalan sintaktik vahidlər (misralar) isə əsas informasiyanı ifadə edir.

Mətn mərkəzinin iştirak etdiyi şeirlərdə hər iki növdən olan informasiyalar çoxkomponentli ola bilir. Bu zaman kontekstdəki hər bir informasiya növü iki, üç və daha artıq (mətn mərkəzi elementlərinin sayından asılı olaraq) tərkib hissəyə -

mikroinformasiyalara üzvlənir. Başqa sözlə, bir neçə (iki, üç və daha artıq) informasiya bir kontekstdə birləşərək, vahid informasiyadaxili süjet xəttini əmələ gətirir.

Boynı uzun bədəvi atlar gedərsə, mənim gedər, (1)
Sənin də içində binədin varsa, yigit, degil mana,(2) **I**
Savaşmadın-uruşmadın alı verəyim, döngil gerü! (3)

Ağayıldan tümən qoyun gedərsə, mənim gedər, (1)
Sənin də içində şişligin varsa, degil mana,(2) **II**
Savaşmadın-uruşmadın alı verəyim, döngil gerü! (3)

Qaytabandan qızıl dəvə gedərsə, mənim gedər, (1)
Sənin də içində yüklətin varsa, yigit, degil mana,(2) **III**
Savaşmadın-uruşmadın alı verəyim, döngil gerü! (3)

Altun başlu ban evlər gedərsə, bənim gedər, (1)
Sənin də içində odan varsa, yigit, degil mana,(2) **IY**
Savaşmadın-uruşmadın alı verəyim, döngil gerü! (3)

Ağ yüzlü, ala gözlü gəlinlər gedərsə, bənim gedər,(1)
Sənin də içində nişanlın varsa, yigit, degil mana,(2) **Y**
Savaşmadın-uruşmadın alı verəyim, döngil gerü! (3)

Ağ saqallu qocalar gedərsə, mənim gedər, (1)
Sənin də içində ağ saqallu baban varsa,
yigit, degil mana, (2) **YI**
Savaşmadın-uruşmadın qurtarayım, döngil gerü! (3)

Altı ədəd üçlük modelin iştirak etdiyi nümunədə beş ədəd üçkomponentli yardımçı informasiya, bir ədəd üçkomponentli əsas informasiya özünü göstərir.

Şeirlə nəsr informativ tutumundakı məlumatın növünə görə fərqləndikləri kimi, forma amilinə görə də biri digərindən

seçilir. Bununla belə, «Kitabi-Dədə Qorqud»un nəsri ilə şeirini bir-birinə yaxınlaşdıran əlamətlər yox deyil. Bu səbəbdəndir ki, professor T.Hacıyevə görə, «Kitabi-Dədə Qorqud»un nəsrlə olan hissələri də əslində şeir şəklindədir: «Qədim ozan üçün misradakı sözlərin həcmi yox, hecaların sayı əsas olmuşdur. Ozan dastanı daima musiqinin müşayiəti ilə dediyindən sözləri yox, hecaları qruplaşdırmışdır (qədim heca şerini müasir heca şerinin eyni kimi almaq tarixiliyə müğayir olardı); Qorqud şerində ritm cümlənin (misranın) əvvəlində və ya sonunda, yaxud ya əvvəlində, ya sonunda daha güclü olur - həmin məqamda söz bölgüsü ilə heca qrupu üst-üstə düşür. Bunu nəzərə alanda misra-cümlələrin ilk, son sözlərnə diqqət verib, üstünlük təşkil edən ritmləyici təkti görmək gərəkdir:

Qamğan oğlı / Xan Bayındır / öz yeirndən / turmuş idi
Qara yerin / üzərinə / ağ ban evin / dikmiş idi
Ala seyvan / gög yüzinə / aşanmışdı
Bin yerdə i / pək xalçası / döşənmişdi
İç oğuz bəg / ləri söhbə / tinə dəril
Mişdi; yemə- / içmə idi [4, s. 170]».

Əgər nəsr mətndə bir qayda olaraq, bir sintaktik vahidə bir informasiya təhkim olunursa, şeir mətnlərdə bir neçə sintaktik vahid bir informasiyanı ifadə edə bilir. Yəni nəsr mətnin funksional planında daha çox konkretlik, şeir mətnin funksional planında daha çox ümumilik nəzərə çarpır.

Bununla bağlı mühüm fərqləndirici əlamət emosionallığın, ekspressivliyin nəsr mətndən fərqli olaraq şeir mətndə daha güclü formada təzahürüdür.

Yardımçı informasiyalar bloku şeir mətndə daha güclü plandadır və daha tez-tez müşahidə edilir.

…Qarşu yatan qara qarlı tağlar
qarıyıbdur, otı bitməz. (I)
Qanlu-qanlu ırmaqlar
qurıyıbdır, suyı gəlməz .(II)

Şahbaz-şahbaz atlar
qarıyubdur, köşək verməz. (III)
Mərə kafər, Qazanın anası
qarıyubdur, oğul verməz. (IY)

Burada I, II, III, IY misra - cümlələr Y misra-cümlədəki əsas informasiyaya xidmət edən yardımçı informasiyalar blokunu əmələ gətirir.

Əsas və yardımçı informasiyaların bir-birinə orlan bu cür birtərəfli nisbəti şer mətnlərdə çox tez-tez özünü göstərir.

Maraqlıdır ki, dialoji nitq strukturu nəsr mətnlərdə olduğu kimi, şer mətnlərdə də müşahidə edilir. Ancaq nəsr mətnlərdə dialoji nitq forması normal kommunikativ vasitə olduğu halda, şer mətnlərdə normativ ünsiyyətə xidmət etməyə bilir.

Qazan kafərə çağırub soylamış, görəlim xanım, nə soylamış. Aydır:

Marə Şökli Məlik!
Dünlügi altun ban evlərimi gətürüb dursan,
sana kölgə olsun!
Ağır xəzinəm, bol aqçam götürüb dursan,
sana xərclıq olsun!
Qırq incə bellü qızla Burla xatunı götürüb dursan,
sana yesir olsun!
Qırq yigidlən oğlum Uruzı gətürüb dursan,
qulun olsun!
Tavla-tavla şahbaz atlarım gətürüb dursan,
sana binət olsun!
Qatar-qatar dəvələrim gətürüb dursan,
sana yüklət olsun!
Qarıcıq anam gətürüb dursan, mərə kafər,
anamı vergil mana
Savaşmadın, uruşmadın qayıdayım-gerü dönəyim,
gedəyim, bəllü bilgil, -dedi.

Kafər aydır:

Mərə Qazan!
Dünlügi altun ban evini gətürmişiz, bizimdir!..
Qırq incə bellü qızla Boyı uzun Burla xatunı
gətürübdurur, bizimdir!..
Qırq yigidlən oğlın Uruzı gətürmişiz, bizimdir!..
Tavla-tavla şahbaz atların,
qatar-qatar dəvələrin gətürmişiz, bizimdir.
Qarıcıq ananı gətürmişiz, bizimdir.
Sana verməziz, Yayxan keşiş oğlına verəriz.
Yayxan keşiş oğlından oğlı toğar,
Biz anı sana ğərim qoruz, -dedilər.

Böylə digəc Qarıcıq çobanın acığı tutdı, todaqları təbsirdi. Çoban aydır:

Mərə, dini yoq, əqlsiz kafər!
Ussı yoq, dərnəksiz kafər!
Qarşu yatan qara qarlı tağlar
qarıyıbdur, otı bitməz.
Qanlu-qanlu ırmaqlar
qurıyıbdır, suyı gəlməz.
Şahbaz-şahbaz atlar
qarıyubdur, qulun verməz.
Qızı-qızıl dəvələr
qarıyubdur, köşək verməz.
Mərə kafər, Qazanın anası
qarıyubdur oğul verməz.

Dölin almaqdan səfan varsa, Şökli Məlik, qara gözlü qızın varsa, gətür, Qazana ver! Mərə kafər, sənin qızından oğlı toğsun, siz anı Qazan bəgə qədim qoyasız, -dedi (II b., s. 48-49).

Qazanla kafərin və Qaraca çobanın yuxarıda verilmiş mükaliməsində formaca dialoq quruluşu yerində qalır, ancaq dialoji nitqə daxil olan komponentləri əksəriyyətlə yardımçı informasiyalar təşkil etdiyindən (və yeganə əsas informasiyanı

çoxluqla yardımçı informasiyalar bloku müşayiət etdiyindən) onlar normal ünsiyyət funksionallığını verməyə bilirlər.

«Kitabi-Dədə Qorqud»dakı şer mətnlər, bir qayda olaraq, özünəməxsus xüsusiyyətlərlə səciyyələnir:

a) şeir mətnlər xüsusi forma strukturu ilə xarakterizə olunur. Həmin struktura görə şeirlərdə ayrı-ayrı misraların sonu fonetik tərkibcə bir-birinə uyğunlaşa bilir. Bu uyğunlaşma təsadüfi yox, sistematik şəkildə üzə çıxır. Yəni

-qafiyələnmə adətən mətnin əvvəlini təşkil edən misra-cümlələr içərisində və mətnin sonunda gələn misra-cümlələrin arasında olur.

Açuq-açuq meydana bənzər sənin alıncuğın,
Eki şəbçırağa bənzər sənin gözcigəzin.
Əbrişimə bənzər sənin yəlicigin.
Eki şəbçırağa bənzər sənin gözcigəzin.
Əri muradına yetürər sənin arxacığın,
At diməzəm sana,
qartaş deyərəm.
Qartaşımdan yeg!
Başıma iş gəldi, yoldaş deyərəm,
Yoldaşımdan yeg! (III b., s. 60).

-pauzalı qafiyələnmə özünü göstərir. Yəni şerin tək və ya cüt sıralanan misralarının sonu fonetik tərkibcə uyğunlaşır.

Qarşu yatan qara tağım yıqılubdır,
Ozan, sənin xəbərin yoq.
Kölgəlicə qaba ağacım kəsilübdir,
Ozan, sənin xəbərin yoq.
Dünyəlikdə bir qardaşım alınubdır,
Ozan, sənin xəbərin yoq… (III b., s. 62)

Qara qıyma gözlərin cöngəlməsəydi,
«Ağam Beyrək» diyədəm ozan, sana!
Yüzini qara saç örtməsəydi,
«Ağam Beyrək» diyədəm ozan, sana!

Qunt-qunt biləklərin solmasaydı,
«Ağam Beyrək» diyədəm ozan, sana!
Apul-apul yürişindən
Aslan kibi turışından
Qanrıluban baqışından
Ağam Beyrəgə bənzədürəm, ozan, səni!
Sevindirdin, yerindirmə, ozan, məni! (III b., s. 62)

b) «Kitabi-Dədə Qorqud»dakı söyləmələr (şer mətn) nəsr mətnlərin üzvi tərkib hissəsi olduğundan məzmunca vahid süjet xətti ilə bağlanır.

…Yegnək ardından yetdi. Hasar qapusına girmişkən qara polat uz qılıca ənsəsinə eylə çaldı kim, başı tob kibi yerə düşdi. Andan Yegnək atın döndərdi; ləşkərə gəldi.

Tutsaq olan Qazılıq qocayı salı vermişlər. Çıqub gəldi. «Hay, bəg yigitlər, kafəri kim öldürdi?» deyü soylamış, görəlim, xanım nə soylamış, aydır:

Qaytabanın mayasını yüklü qodum,
Nərmidir, mayamıdır, anı bilsəm.
Qara ayılum qoyunını yüklü qodum,
Qoçmıdır, qoyunmıdır, anı bilsəm.
Ala gözlü görklü hələlım yüklü qodum,
Erkəkmidir, qızmıdır, anı bilsəm.
Mərə, bəg yigitlər, xəbər mana,
yaradanın eşqinə! (YII b., s. 97)

c) şeir mətnlər deyişmələrdə daha çox işləndiyindən əksər hallarda xitabla başlanır:

Hey, yigidim, bəg yigidim!
Qaytabanlar torumından dönərmi olur?
Qaraqucda Qazlıq atlar quluncığın dəpərmi olur?
Ağayılda ağca qoyun quzucığın süsərmi olur?
Alp yigitlər, yeg yigitlər görklüsinə qıyarmı olur?
(YI b., s. 92)

d) şeir mətnlər xüsusi mürəkkəb cümlə formaları ilə əlaqələndiyindən əksər hallarda spesifik quruluşlu sintaktik vahidlər - mürəkkəb sintaktik bütövlər əmələ gətirir.

e) şeir mətnlərin tərkib hissələrini təşkil edən ayrı-ayrı cümlələr arasında özünəməxsus şəkildə uzlaşmalar müşahidə olunur. Belə uyğunlaşmalar təsadüfi xarakter daşımayıb, sistematik şəkildə üzə çıxır. Eyni bir misranın əvvəli ilə sonunu fonetik tərkibcə oxşar köklü sözlər müşayiət edir.

Bin-bin ərdən yağı gördümsə, oyunum dedim.
Yigirmi bin ər yağı gördümsə, yılamadım.
Otuz bin ər yağı gördümsə ota saydım.
Qırq bin ər yağı gördümsə, qıya baqdım.
Əlli bin ər gördümsə, əl vermədüm.
Altmış bin ər gördümsə, aytışmadım.
Səksən bin ər gördümsə, səksənmədim.
Toqsan bin yağı gördümsə, tonatmadım.
Yüz bin ər gördümsə, yüzüm dönmədim.

(XI b., s. 117)

Nümunədə, bir qayda olaraq, misraların əvvəlində saylar, sonda isə oxşar fonetik kökə malik fellər və ya tərkibi fellər gəlir (birinci misra kiçik istisna təşkil edir):

yigirmi bin - yılamadım
otuz bin - ota saydım
qırq bin - qıya baqdım
əlli bin - əl vermədim
altmış bin - aytışmadım
səksən bin - səksənmədim
toqsan bin - tonatmadım
yüz bin - yüzüm dönmədim

ə) misra əvvəli leksik təkrar - anafora müşahidə edilir:

Alan sabah, xan qızı, yerimdən turmadımmı?
Boz ayğırın belinə binmədimmi?
Sənin odan üzərinə sığın-keyik yıqmadımmı?
Sən məni yanına qağırmadınmı?

Sənünlə meydanda at çapmadıqmı?
Sənin atunı mənim atım keçmədimi?
Ox atanda mən sənin oxını yarmadımmı? (III b., s. 65)

f) misra sonu leksik təkrar - epifora özünü göstərir:

Beyrək gedəli Bam-bam dəpə başına çıqdınmı, qız?!
Qarılatıb dört yanına baqdınmı,qız?!
Qarğu kibi qara saçın yoldınmı,qız?!
Qara gözdən acı yaş dökdinmi, qız?!
Güz alması kibi al yanağın yırtdınmı, qız?!
Sən ərə vararsan, altun yüzük mənimdir,
ver mana, qız! (III b., s. 65)

g) şeirin əvvəlində gələn hər hansı sintaktik quruluş mətn boyu təkrar olunur və şer mətni formalaşdırır:

Bərü gəlgil, ağam Qazan!
Qalqubanı yerimdən bədəvi atım saqlardım bu gün içün,
güni gəldi;
ağ meydanda səgirdərin sənin içün.

Ala uran sur cidamı saqlardım bu gün içün,
güni gəldi;
qaba qarın gen köksdə oynadam sənin içün.

Qara polat uz qılıcım saqlardım bu gün içün,
güni gəldi;
sası dinlü kafər başın kəsdirəyim sənin içün.

Əgni bək dəmür tonım saqlardım bu gün içün,
güni gəldi;
yen-yaqalar dikdürəyim sənինçün.

Başımda qunt işıqlar saqlardım sənինçün,
güni gəldi;
Qaba çomaq altında yoğradım sənin içün.

Qırq yigidim saqlardım bu gün içün,
güni gəldi;
Kafər başın kəsdirəyim sənincün.

Aslan adım saqlardım sənin içün,
Yaqa tutıb kafərlə uğraşayım sənin içün,
Ağız dildən bir qaç kəlmə xəbər mana!
Qara başım qurban olsun, ağam, sana! [5, s. 70]

Şeir mətnin əvvəli ilə sonunda isə bir çox halda fərqli konstruksiyalar işlənir və məzmunca yerdə qalan hissə ilə uzlaşa bildiyi halda, formaca onlara uyğun gəlmir. Belə vəziyyət müvafiq quruluşa malik şer mətnlər üçün xarakterik haldır. Başqa bir nümunə:

Qara cida oynadanlar vardı, gəldi,
Altun cida oynadana, yarəb, noldı?
Qaraquc ata binənlər vardı, gəldi,
Bədəvi atlu bir oğula, yarəb, noldı?
Nökər gəldi, nayib gəldi,
Yalnuz bir oğula, yarəb, noldı?
Yalnuz oğul xəbərin, Qazan, degil, mana!
Deməz olarsan, yana-göynə qarğaram, a Qazan, sana!
[5, s. 72-73]

Burada şeir sonunun əsaslandığı konstruktiv model (son iki cümlə) yerdə qalan hissədən seçilir.

ğ) eyni quruluşda antonimlərin iştirakı qüvvətli bədii təzad yaratmaqla, şer mətnin struktur formaca təşkilinə də xidmət göstərir.

Qaytabanın mayasını yüklü qodum,
Nərmidir, mayamıdır,
anı bilsəm.
Qara ayılum qoyunını yüklü qodum,
Qoçmıdır, qoyunmıdır,
anı bilsəm.

Ala gözlü görklü həlalım yüklü qodum,
Erkəkmidir, qızmıdır,
anı bilsəm.
Mərə yigitlər, xəbər mana,
Yaradanın eşqinə!
[5, s. 97]

h) şeir mətndə kontekstual əhatə, bədiilik potensiyası nəsr mətndə olduğundan güclü şəkildə üzə çıxır. Yəni burada kontekstual güc o dərəcədə qüvvətli olur ki, bir məna qrupuna aid olan leksik vahidləri digər məna qrupuna aid edə bilir; sinonim, ya antonim olmayanları sinonimləşdirir, yaxud antonimləşdirir və ya antonimi sinonimə çevirir.

Ağ saqallu qocaları çoq ağlatmışam.
Ağ saqallı qarışı tutdı ola,
gözüm, səni?
Ağ birçəklü qarıcıqları çoq ağlatmışam.
Gözi yaşı tutdı ola,
gözüm, səni?
Bığçağı qararmış yigitcikləri çoq yemişəm.
Yigitlikləri tutdı ola,
gözüm səni?
Əlcügəzi qınalı qızcığazları çoq yemişəm,
Qarışcuları tutdı ola,
gözüm, səni?
Elə kim mən çəkərəm göz bunını,
Heç yigidə verməsün qadir tənri göz yükini!
Gözüm, gözüm, ay gözüm!
Yalnız gözüm!
[5, s. 103]

Verilmiş şeir nümunəsindəki qoca-qarı, yigitcik - qızcığaz, isimləri əks mənalı sözlər (antonim) olduğu halda, kontekstdə yaxın mənalı sözlərə (sinonim) bərabər tutulur, başqa sözlə, onların dördü də eyni obyekt - Təpəgözün təcavüzünə məruz qalmış insan timsalında eyniləşdirilir.

NƏTİCƏ

«*K*itabi-Dədə Qorqud» mətnlərinin struktur-semantik təhlili aşağıdakı bəzi mühüm nəticələrə gəlmək imkanı verir:

1. Türk bədii mətni funksional - məzmun və struktur – forma elementlərini özündə birləşdirən xüsusi kontekstual struktur ilə xarakterizə olunur. Həmin strukturda informasiya və informasiyanın ifadəsi zəruri komponentlər kimi özünü göstərir. İnformasiyanın azlığı və ya çoxluğu yarımçıq sintaqmdan tam sintaqma doğru ən müxtəlif dil vahidlərinin (söz birləşməsi, sadə cümlə, mürəkkəb cümlə, qarışıq tipli mürəkkəb cümlə, mürəkkəb sintaktik bütöv) yaranmasını şərtləndirir.

2. Mətn daxilində informasiyaların kəmiyyəti ilə sintaktik vahidlərin - cümlə formalarının sayı üst-üstə düşməyə bilir; bir sintaktik vahid bir informasiyanı bildirir, bir sintaktik vahid bir neçə informasiyanı bildirir, bir informasiya bir neçə sintaktik vahidlə ifadə olunur. İlk iki varianta nəsr mətnlərdə, sonuncu varianta isə daha çox «Kitabi-Dədə Qorqud»dakı şer mətnlərdə, tərkibində frazeoloji vahidlərin, məcazların iştirak etdiyi cümlələrdə təsadüf olunur.

3. Mətnin informativ mərkəzi və ümumiyyətlə, informasiya mətnin quruluş strukturunda iştirak etməklə həm də ikili funksiya yerinə yetirir, mətnə quruluş ünsürü kimi də xidmət göstərir. Bütün sintaktik vahidlərdə olduğu kimi, mürəkkəb sintaktik bütövlərdə də başlanğıc və son hissələr onun bütöv sintaqmatik hüdudlarını müəyyən edir. Bəzən həmin informativ mərkəz bir dəfə mətnin əvvəlində və bir dəfə də sonda ifadə edilməklə, mətn komponentlərini konstruktitv çərçivəyə salır; həm onların əlaqələnməsini bir daha təmin etmiş olur, həm də mürəkkəb sintaktik bütövü başlayır və tamamlayır.

4. Mətnin informativ strukturunda **giriş cümlə**, **mərkəzi semanı ifadə edən cümlə**, **izahedici cümlə** və **yekun cümlə** iştirak edir.

5. Mətnin bütün struktur-semantik yükü bir neçə informasiyadan ibarət olduğu kimi, bir informasiyaya da əsaslana bilir. Çoxinformasiyalı mətnlərin informativ tutumu mətnin ümumi infomasiya süjetindən asılı olur və ayrı-ayrı xətlərə şaxələnir. Bu halda mərkəzi sema da bir-biri ilə bağlı bir neçə semanı birləşdirir və mikromətnin özünü də kiçik mətnlərə parçalayır.

6. Mürəkkəb sintaktik bütövlərin informativ strukturu adresat və adresant üçün köhnə və yeni olan informasiyaları birləşdirir. Bu baxımdan mətnin təşkili mexanizmlərindən birini köhnə və yeni informasiyaların əvəzlənməsi təşkil edir. Bunlar nəinki mikromətnin komponentlərini, hətta makromətni təşkil edən ayrı-ayrı mikromətnlərin əlaqələnməsini də təmin edir. Yəni əvvəlki mətnin informasiyası (yeni olan) sonrakı mətnin informativ tutumunda iştirak edir və bu zaman köhnə informasiya funksiyasını (vəzifəsini) daşıyır.

7. Əsas informasiya informativ mərkəz komponentləri və köməkçi vasitələrin iştirakı ilə ifadə oluna bilir.

8. Qədim və orta əsrlər türk yazılı abidələrində makromətni başlayan ilk cümlə və ya mürəkkəb sintaktik bütövlər oxşar informativ tutuma malik olur; yuxarı instansiya haqqında məlumat verir, əsas obrazı xarakterizə edir. Sonrakı dövrlərdə mətnin ilk cümləsi başlığa çevrilir və başlıqların cümlə (sintaktik vahid) şəklində formalaşma ənənəsini doğurur. Birinci cümlə ilə yanaşı, sonuncu cümlə də türk bədii mətninin məzmun strukturunda həlledici rol oynayır.

9. Bədii mətnin ilk və son cümlələri xüsusi tekstual əhəmiyyət kəsb edir. Bədii mətn ünsürü olmaq etibarilə ilk cumlə xüsusi informasiya daşıyıcısına çevrilir, son cümlə teksti ümumiləşdirərək, məzmunca və həm də forma etibarilə tamamlayır.

10. Sintaktik vahidlər (söz birləşməsi, sadə cümlə, mürəkkəb cümlə, qarışıq tipli mürəkkəb cümlə, mürəkkəb sintaktik bütöv) informasiyanın ifadəsinə və həm də bədii mətnə quruluş

detalı kimi xidmət göstərir. Bu baxımdan onların hər birini-ən aşağı quruluşa malik olanından daha mürəkkəbinə – mürəkkəb sintaktik bütövə qədər informasiyanın həcmliliyi doğurur. Bədii mətn və sintaktik mətn komponentlərinin əlaqələnməsinə açar söz xidmət edir. Qrammatik şəkilçilər–mənsubiyyət şəkilçiləri, kəmiyyət kateqoriyasının əlaməti, feli xəbərlərin zamana görə uzlaşması, idi bağlaması, miqdar sayları, sintaktik quruluşun təkrarı, tematik və rematik informAsiyaların bir-birini izləməsi, dialoji nitq strukturu mürəkkəb sintaktik bütövün tərkib hissələrini bir-birinə bağlayır. Sintaktik mətn komponentləri xüsusi şəkildə sıralanır; onlar ardıcıl, paralel və ardıcıl-paralel birləşirlər. Mürəkkəb sintaktik bütövlərin (sintaktik mətnlərin) struktur-semantik kompozisiyası mətn başlanğıcını, inkişafını və sonunu ayırmağa imkan verir.

11. İnformasiya və onun mürəkkəb sintaktik bütövlərlə ifadəsi bədii mətnin zəruri struktur-semantik vahidini təşkil edir. Mürəkkəb sintaktik bütövlərin bədii mətn vahidi kimi formalaşması üçün digər zəruri keyfiyyət - funksional-məzmun elementlərinin iştirakı da tələb olunur. Belə elementlər bədii mətnin məzmununa aid olub, milli təfəkkür enerjisinin yetirdiyi funksional dil vahidlərini, ifadə vasitələrini, spesifik obrazlar sistemini, din və mifologiya ilə bağlı təfəkkür elementlərini nəzərdə tutur.

12. İstər qədim, istərsə də orta əsrlər türk bədii mətnlərində mətnin məzmun strukturunu səciyyələndirən informasiyalar aşağı və yuxarı instansiyalara mənsubluq dərəcəsinə görə bəzən fərqlənir. Yuxarı elitaya aid obraz ilə aşağı elitanı təmsil edən obraz haqqında məlumatlar eyni səviyyədə təqdim olunmur. Müəllif təhkiyəsi, obrazların nitqi, xüsusi isimlər, bədii təyin və bənzətmələr hər iki təbəqə nümayəndələrinə münasibətdə fərqlənir. Eyni adresata ünvanlanan epitetlər başqa-başqa adresantlardan gələ bilir; dastan müəllifinin, yaxud obrazlardan hər birinin fərdi təfəkkürü ilə bağlı olur. Türk epik mətnlərində ümumtürk təfəkkür faktları kimi

sabitləşmiş motiv və ifadələr orta əsrlər türk ədəbi dilinə (türki) ötürülür və türkidə (türkinin regional təzahür formalarında) yazılan abidələrdə, o cümlədən, «Kitabi-Dədə Qorqud»un dilində qorunub saxlanır. Ədəbi - kommunikativ sistemlərdən birinin digərinə təsirinin nəticəsi olaraq şifahi ədəbi dil elementləri yazılı ədəbi dilə nağıl təhkiyəsi formasında və nağıl, epos detalı kimi daxil olur. Şifahi ədəbi dilin bu təsiri ilə yazılı mətnlərdə yeni keyfiyyət formalaşır; spesifik ifadə və müqayisələr yaranır.

«Kitabi-Dədə Qorqud» şerlərində işlənən sinonim-cütlüklər konstruktiv funksiya da daşımalı olur; mətn vahidi hesab edilən şerlərin başlanğıcı ilə sonunu əlaqələndirməklə, mətn komponentlərini bir-birinə bağlayır, onların bütöv sintaktik vahid kimi təşkilinə xidmət edir.

«Kitabi-Dədə Qorqud»un dilində mətn təşkili üçün zəruri elementlərdən biri üslubiliyə xidmət edən dil detallarından istifadə edilməsidir.

13. «Kitabi-Dədə Qorqud»un dilində bədii surətlərin adlandırılmasında iki meyl müşahidə olunur: tekstual adlandırma və situativ adlandırma. Tekstual adlandırmada bədii mətnin əvvəlindən axırınadək obraz nominasiyası dəyişməz olaraq qalır; bədii surət bir adla tanınır. Situativ adlandırmada obrazın nominasiyası bədii informasiya yükündən, surəti səciyyələndirən keyfiyyətlərin qeyri-sabitliyindən asılı olaraq dəyişə bilir.

14. Əski mifoloji detallar, nağıl, dastan elementləri «Kitabi-Dədə Qorqud»un dilində ənənəvi məzmununu qoruyub saxlamaqla bərabər, yeni mahiyyət kəsb edir.

15. Bədii mətndə obrazın nitqi ilə müəllif təhkiyəsi bir-birindən fərqləndirilir.

16. Bədii mətni səciyyələndirən, onu bədii təfəkkür məhsulu kimi formaya salan digər zəruri amil struktur-forma elementlərinin iştirakı ilə bağlıdır. Forma komponentləri hər hansı mətnin informativ strukturunu tamamlayır, onu formaca

müəyyənləşdirir, bədii, ya qeyri-bədii mətnə mənsub edir. Bədii mətnin struktur-forma elementləri hər hansı informasiyanın bədii mətn detalı kimi cilalanıb formaya salınmasında, morfemin, sözün, söz birləşməsi və cümlənin bədii dil vahidinə çevrilməsində yardımçı olan vasitələri, bədii təsvir və ifadə vasitələrini, mürəkkəb sintaktik bütövlərin bəzi quruluş ünsürlərini, onun tərkib hissələrini bağlayan bəzi vasitələri, habelə bədii dil fiqurlarını, obrazlı ifadə vasitələrini və s. səciyyələndirir. Onların bəziləri ayrı-ayrılıqda, bəziləri bir yerdə assosiasiya təşkil edərək, bədii mətnə məxsus struktur-forma elementi funksiyasını yerinə yetirirlər.

17. Bədii mətnin formaca təşkilinə xidmət edən ünsürlər nəsr və şer mətnlərdə fərqli paradiqma nümayiş etdirirlər. Ritm yaradan vasitələr – qafiyələnmə, leksik təkrar, sintaktik təkrar mətn mərkəzinə əsaslanan üçlük (ikilik, dördlük və s. tipli) modeldən ya ayrı-ayrılıqda istifadə edilməsi bədii mətnin formaca təşkilinə xidmət edir, ya da hamısı birlikdə bədii mətn hüdudunu müəyyənləşdirir. Alliterasiya qədim dövrdə olduğu kimi, orta əsrlərdə də türk bədii mətninin (və onun şer qolunun) təşkilinə xidmət edən formal vasitə rolunu oynayır. O, şer və nəsr mətnlərində komponentlərin daxili əlaqələnməsini təmin etməklə, mətn vahidlərinin bədii emosionallığını da artırır.

18. Sabit dil ifadələrini də xüsusi işlənmə situasiyaları tələb edir və onlar bu və ya digər vəziyyətlərə təhkim olunurlar. Ona görə də eyni və ya oxşar situasiyada eyni ifadə vasitəsi təkrarlana-təkrarlana bədii dil fiquruna çevrilir.

19. Əvvəlki qədim türk (runik) yazılı abidələri üçün spesifik olan cümlə quruluşları (budaq cümlənin baş cümlə içərisində yerləşdiyi, habelə, xəbəri dedi, aydır felləri ilə ifadə edilmiş iki baş cümlənin tamamlıq budaq cümləsini dövrəyə aldığı sintaktik quruluşlar) orta əsrlər türk ədəbi dilində - «Kitabi-Dədə Qorqud»un mətnində də tez-tez təkrarlanan sabit sintaktik konstruksiyalara çevrilir.

20. Nəsr və şer mətnlərinin informativ strukturunda əsas və yardımçı informasiyalar iştirak edir. Bədiilik momentləri şer mətnlərdə nisbətən güclü, nəsr mətnlərdə nisbətən zəif olduğundan yardımçı informasiyalar nəsr mətnlərdə nisbətən az, şer mətnlərdə nisbətən çoxdurlar. Ona görə də nəsr mətnlərdəki cümlələrin hər biri ən azı bir informasiya, şer mətnlərdə isə bir neçə sintaktik vahid və ya bütün sintaktik vahidlər birlikdə yalnız bir informasiya ifadə edə bilərlər. Nəsr mətnlərdə yardımçı informasiya zəruri komponent olmaya bilir, şer mətnlərdə isə əsas informativ nüvəni o, mütləq müşayiət etməlidir.

21. Həm informativ tutumundakı məlumatın növünə görə, həm də forma amili baxımından şer və nəsr mətnlər birbirindən fəprqlənə bilir:

-Nəsr mətnin funksional planında daha çox konkretlik, şer mətnin funksional planında daha çox ümumilik nəzərə çarpır.

-Emosionallıq, ekspressivlik nəsr mətndən fərqli olaraq şer mətndə daha güclü formada təzahür edir.

-Dialoji nitq forması nəsr mətnlərdə normal kommunikativ vasitə olduğu halda, şer mətnlərdə normativ ünsiyyətə xidmət etməyə bilir.

-Şer mətnlər nəsr mətnlərdən fərqli olaraq xüsusi forma strukturu ilə xarakterizə olunur.

-Şer mətndə kontekstual əhatə, bədiilik potensiyası nəsr mətndə olduğundan daha güclü şəkildə üzə çıxır.

Ədəbiyyat

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Bakı, 1985

2. Əliyev Y.V. «Kitabi-Dədə Qorqud»un dilində mürəkkəb cümlə. Bakı: Nurlan, 2004

3. Füzuli. Seçilmiş əsərləri: 2 cilddə, II cild, Bakı, 1988

4.Hacıyev T.İ. Dədə Qorqud: dilimiz, düşüncəmiz. Bakı: Elm, 1999

5. Kitabi–Dədə Qorqud (Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə F.Zeynalov və S. Əlizadənindir). Bakı: Yazıçı, 1988

6. Novruzova N. Mətn sintaksisi. Bakı, 2002

7. Bx - Bilgə kağan şərəfinə abidə; Rəcəbov Ə. Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı, 1993 , s. 91-109.

8. Klt - Kültiqin şərəfinə abidə; Malov S.E. Pamətniki drevnetörkskoy pisğmennosti. M-L., 1951, s.19-33.

9. Mç - Moyun Çor şərəfinə abidə; Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı, 1993, s. 134-153.

10. Ton - Tonıkuk şərəfinə abidə; Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı, 1993, s. 111-126.

11. Veliev K. Linqvistiçeskaə pogtika. Baku, 1993

12. Tekstoloqiə. Moskva: Vısşaə şkola, 1966

İxtisarlar

Şm - Şimal;
C - Cənub;
Q - Qərb;
Ş - Şərq.

TAPŞIRIQLAR

Tapşırıq 1.

Verilmiş mətndə açar sözü müəyyən edin.

Bir gün Ulaş oğlı Tülü quşun yavrusu, bizə miskin umudı, Amit soyının aslanı, Qaraçuğın qaplanı, Qonur atın iyəsi, xan Uruzın ağası, Bayındır xanın göygüsi, Qalın Oğuzın dövləti, qalmış yigit arxası Salur Qazan yerindən turmuşdı. Toqsan başlu ban evlərin qara yerin üzərinə dikdirmişdi. Toqsan yerdə ala qalı-ipək döşəmişdi. Səksən yerdə badyələr qurulmışdı. Altun ayaq sürahilər düzülmüşdi. Toquz qara gözlü, xub yüzlü, saçı ardına urulu, köksi qızıl dügməli, əlləri biləgindən qınalı, barmaqları nigarlı məhbub kafər qızları Qalın Oğuz bəglərinə sağraq sürüb içərlərdi (II b., s. 42).

Tapşırıq 2.

Mətn mərkəzlərini tapın.

Qaytabanda qızıl dəvə bundan keçdi,
Torumları bundan bozlayıb belə keçdi,
Torumcığım aldırmışam, bozlıyayınmı?
Qaraqucda Qazlıq atı bundan keçdi,
Quluncığı kişnəyüb belə keçdi,
Quluncığım aldırmışam, kişnəyəyinmi?
Ağayılda ağca qoyun bundan keçdi,
Quzucığı mənrişib belə keçdi,
Quzucuğım aldırmışam, mənriyəyinmi?
«Oğul» deyü bozlıyayınmı? -dedi (IY b., s. 73).

Tapşırıq 3.

Verlmiş mürəkkəb sintaktik bütövün başlanğıc, orta və soluq hissələrini göstərin.

Aslanı qoyu verdilər. Sürdi gəldi; Qanturalı bir kəpənəgi qapağına toladı. Aslanın pəncəsinə sunı verdi. Adı görklü Məhəmmədə salavat gətürdi. Aslanın alnın közədüb bir yumruq eylə urdı kim, yumruq çənəsinə toqundı, ovatdı. Süksünindən tutdı, belüni üzdi. Andan götürüb yerə urdı. Xurd oldı. Təkur öginə gəldi. Ayıtdı: «Yarın qızını mana vergil!» - dedi (YI b., s. 89).

Tapşırıq 4.

Hansı ilk cümlədə ənənəvi informativ müəyyənlik yoxdur?

Rəsul əleyhissəlam zamanına yaqın Bayat boyından Qorqud ata diyərlər bir ər qopdı.

Məgər xanım, oğuzda Duxa Qoca oğlı Dəli Domrul deyərlərdi bir ər var idi. Bir quru çayın üzərinə bir köpri yapdırmışdı.

Bir gün Qam ğan oğlı xan Bayındır yerindən turmışdı.

Məgər xanım, bir gün Oğuz otururkən üstinə yağı gəldi.

Üç oq, Boz oq yığnaq olsa, Qazan evin yağmaladardı.

Tapşırıq 5.

Ardıcıl və paralel informasiyalı mətnləri seçin.

Oğlan böylə digəc bıldır-bıldır gözinin yaşı rəvan oldı. Boyı uzun, beli [incə] Burla xatun boynilə qulağın aldı, düşdi. Güz alması kibi al yanağın tutdı, yırtdı. Qarğu kibi qara saçını yoldı. «Oğul!» «Oğul!» deyübən zarılıq qıldı, ağladı (5, s. 47).

Uruz aydır: «Ağzın qurısın, ana! Dilin çürisin, ana!» «Ana həqqi-tənri həqqi» denilməsəydi, qalqubanı yerimdən turaydım. Qaba öncəm altına salaydım. Ağ yüzini qara yerə dəpəydim. Ağzunla yüzindən qan şorladaydım. Can tatlusın sana göstərəydim. Bu nə sözdür? Saqın, qadın ana! Mənim üzərimə gəlmiyəsin! Mənim üçün ağlamıyasan. Qoy bəni, qadın ana, çəngələ ursunlar! Qo ətimdən çəksünlər, qara qaUrma etsünlər, qırq bəg qızının öginə ilətsünlər. Anlar bir yedigində sən iki yegil! Səni kafərlər bilməsünlər, tuymasınlar. (5, s. 47).

Tapşırıq 6.

Verilənlərdən hansını sabit ifadələrə aid etmək mümkündür?

Bir gün Qamğan oğlı xan Bayındır yerindən turmışdı (I b., s. 34).

Xanlar xanı xan Bayındır yildə bir kərrə toy edib, Oğuz bəglərin qonaqlardı (Ib., s. 31).

Bir gün Ulaş oğlı Tülü quşun yavrısı, bizə miskin umudı, Amit soyının aslanı, Qaraçuğın qaplanı, Qonur atın iyəsi, xan Uruzın ağası, Bayındır xanın göygüsi, Qalın Oğuzın dövləti, qalmış yigit arxası Salur Qazan yerindən turmışdı (II b., s. 42).

Sağda oturan sağ bəglər! Sol qolda oturan sol bəglər! Eşikdəki inaqlar! Dibdə oturan xas bəglər! Qutlu olsun dövlətinüz! –dedi (III b., s. 63).

Tapşırıq 7.

Epitetləri seçin.

Xanlar xanı xan Bayındır yildə bir kərrə toy edib, oğuz bəglərin qonaqlardı (I b., s. 34).

Bir gün Ulaş oğlı Tülü quşun yavrısı, bizə miskin umudı, Amit soyının aslanı, Qaraçuğın qaplanı, Qonur atın iyəsi, xan Uruzın ağası, Bayındır xanın göygüsi, Qalın Oğuzın dövləti, qalmış yigit arxası Salur Qazan yerindən turmışdı (II b., s. 42).

Tapşırıq 8.

Mətndə ritm yaradan vasitələri göstərin.

Qadın ana! Qarşum alub nə bögrərsən?
Nə ağlarsan, nə bozlarsan?
Bağrımla yürəgim nə tağlarsan?
Keçmiş mənim günimi də andırarsan?
Hey, ana! Ərəbi atlar olan yerdə
bir qulunı olmazmı olur?
Qızıl dəvələr olan yerdə
bir köşəgi olmazmı olur?

Ağca qoyunlar olan yerdə
bir quzıcığı olmazmı olur?
Sən sağ ol, qadın ana! Babam sağ olsun!
bir mənim kibi oğul bulunmazmı olur? (II b., s. 47)

Tapşırıq 9.

Assonans və alliterasiyalı sözləri tapın.

Adı bəllü bəglərlə sən yortmadın (YII b., s. 95). Basduğın bəlürtmiyən bəllü tənri (YII b., s. 96); Ya qağan aslanın qaynağında didiləm (YI b., s. 87). Qaqduğın qəhr edən qəhhar tənri (YII b., s. 96); Götürdügin gögə yetürən görklü tənri (YII b., s. 96); Haqluya həqqi dəgə, haqsuza yüzi qaRaluğı dəgə (III b., s. 64); Qalın Oğuz içində Ulaş oğlı Salur Qazanı sorar olsam, sağmı, arğış (III b., s. 58); Bu yana Şökli Məlik kafərlərlə şən-şadman yeyüb-içüb oturardı (II b., s. 46); Tülü quşun yavrısı! Türküstanın dirəgi! (III b., s. 63); Yettügimdə yel yetməzdi, yeddi urğunım, Yeni Bayırın qurdına bənzərdi yigitlərim (YII b., s. 95). Hey qırq eşim, qırq yoldaşım! Yügrək olsa, yarışsam (YI b., s. 87). Umanana-usanana aş yedirdim (IY b., s. 73). Qırq yigit bir bəg oğlilə bir qızdan ötrü Ölmək nolur (YI b., s. 87-88); Urdığın ulatmıyan ulu tənri (YII b., s. 96); Aslanın alnın közədüb bir yumruq eylə urdı kim, yumruq çənəsinə toqundı, ovatdı (YI b.. s. 89) .

II FƏSİL
FONOLOJİ XÜSUSİYYƏTLƏR

GİRİŞ

İstənilən dil vahidinin məzmununu səs ilə mənanın assosiativ münasibətləri təşkil edir. Odur ki, nitq zəncirində məna faktoru ilə yanaşı, leksemin səs kompleksi, kompleksin tərkibində isə fonoloji struktur elementləri mühüm rol oynayır. Onlar istər forma, istərsə də məzmun planında bir-birindən asılı vəziyyətdə olurlar. Bu o deməkdir ki, istənilən kommunikativ intervaldakı istənilən leksik vahiddə hər üç fonetik vahid – fonem, heca, intonasiya (və intonasiya komponentləri) müəyyən assosiasiya təşkil edə bilir. Belə assosiativ münasibətlər yuxarıda adları sadalanan fonetik vahidlər arasında birbaşa şəkildə yaranmır. İlkin olaraq fonemlə fonemin qovuşması baş verir və bu öz növbəsində digər fonetik vahidə – hecaya keçidi şərtləndirir. Heca ilə hecanın qovuşması isə öz növbəsində yeni səviyyəyə aid dil vahidini – sözü formalaşdırır. Növbəti fonetik vahid – intonasiya da məhz bu dil vahidlərinin konturlarında üzə çıxır. Və bu trio – fonem, heca, intonasiya sırası müvafiq assosiativ münasibətlər sistemini əmələ gətirir.

Fonoloji üçlüyün hər bir elementi özünəməxsus xüsusiyyətlərlə səciyyələnir. Dilin ən kiçik və mənalı vahidi olan fonem, bir qayda olaraq, fonetik tərkib əmələ gətirir və səs cildini fərqləndirməyə xidmət edir. Digər fonoloji vahidlərin funksionallığı da fonemin bu keyfiyyətindən başlanır. Heca da nitq fəaliyyətinin dinamik ünsürlərindəndir. Onun xarakteri elədir ki, fonemlə müqayisəyə gəlməz dərəcədə kommunikativ işləklik nümayiş etdirir. Və hətta şifahi nitqdə müşahidə edilməyən bəzi sait səs belə, öz fonoloji müəyyənliyini tapır. Məsələn: [pçax] – [pı-çax] –bıçaq, [çrax] – [çı-rax] –çıraq,

[ştil] – [şi-til] –şitil, [pşix´] – [pi-şix´] –pişik, [kçix´] – [ki-çix´] –kiçik və s. İstər fonemlərin əmələ gətirdiyi səs kompleksləri, istərsə də, sonuncunun tərkibinə daxil olan heca vahidlər bu və ya digər cümlə intonativliyinin içərisində müəyyən intonativ tona malikdir. Bu baxımdan intonasiya, eləcə də intonasiya komponentləri (vurğu, ritm və s.) hər hansı fonoloji müəyyənliyin əsas əlaməti, bütövlükdə dilin ayrılmaz tərkib hissəsidir.

Bunlar fonem, heca, intonasiyanın normativ fonoloji keyfiyyətləridir. Fonetik vahidlərin norma sayılmayan xüsusiyyətləri isə bədii mətn içərisində üzə çıxır. Biz bunları şərti şəkildə fonotekstoloji olan adlandırırıq. İstər fonem, istərsə də heca, intonasiya, vurğu, saitlərin ahəngi bədii mətnlərdə müxtəlif fonotekstoloji situasiyalar yarada bilirlər. Üç gün dünli-günli yortdı (X boy, s. 113). Burada fonetik tərkibin bir səs fərqi ilə oxşarlığı verilmiş bədii mətn içərisində struktur detal kimi xüsusi əhəmiyyət kəsb edir. Belə səsfərqləşməsi cümlədə ritm yaradır, mənalı kiçik dil vahidini – fonemi həm də mətn elementinə çevirir.

Fonemin bu və bu tipli digər funksiyaları struktur mətn hüdudlarında da müşahidə edilir və mikromətn komponentlərinin formal bağlılığını bir daha möhkəmləndirmiş olur. İstənilən fonem istənilən mətn daxilində aktuallıq nümayiş etdirə bilər. Ancaq danışıq səsinin fonotekstoloji keyfiyyəti, bir qayda olaraq, bədii mətnlərdə üzə çıxır və danışıq səsini bədii tekstual element kimi səciyyələndirir. Ümumiyyətlə, fonotekstoloji xüsusiyyətin özü daha geniş anlayış olub, ayrı-ayrılıqda fonem, heca, intonasiya, vurğu və s. fonetik vahidlərlə bağlı bədii aktivliyi, onların bədii tekstdəki rolunu nəzərdə tutur. Fonetik vahidlərin hər biri müəyyən situasiyalarda bədiilik momentini doğura bilər və bunu minimum şəkildə yerinə yetirdikdə fonotekstoloji elementə çevrilmiş olur. Fonotekstoloji müəyyənlik, hər şeydən əvvəl, fonem – mətn münasibətlərində təzahür edir. Bu kontekstdə

aparıcılıq bədii mətnə mənsubdur. Yəni mətn istər fonemin, istərsə də digər fonoloji vahidlərin həm kommunikativ vahid kimi müəyyən olunmasına imkan yaradır, həm də tekstual vahid kimi onların bədii mətndə yerini müəyyən edir. Odur ki, fonotekstuallıq fonem, heca, intonasiya və sairənin bədii mətnlə bağlı keyfiyyətidir və bədii mətndən kənarda fonotekstoloji keyfiyyət mövcud deyil. Cümlədə informativ strukturuna görə bir-biri ilə bağlı olan ayrı-ayrı hissələrin heca tutumları cümlənin digər hissələrində, yaxud növbəti cümlədə (və ya cümlələrdə) təkrarlana bilir. Bu eyni ölçü və intervalda baş verdikdə mətndə ahəng, ritm yaradır. «Qonşı həqqi –tənri həqqi» -deyü söylər (müqəddimə, s. 33; I+II+III+IY – I+II+III+IY – I+II+III+IY). Av avlar, quş quşlar (I b., s. 39; I+II+III – I+II+III). Bu isə hecanın bədii mətndə fonotekstoloji detal kimi təzahür etdiyini göstərir.

Məlumdur ki, sintaqmatik hzüdudlardan kənarda intonasiya mövcud deyil. Bu baxımdan struktur – forma planında intonasiya sözdən asılı olmur. Bədii mətn daxilində isə funksioanl məzmun planında intonasiya – söz rabitəsi özünü göstərir. Semantik – emosional çalarlıq yaratmaq baxımından cümlədə müşahidə edilən əsas intonativ situasiyaları (nəqli, əmr, sual, nida) konkret şəkildə hər hansı dil səviyyəsinə aid vahidlər yox, bədii mətn və onun funksional təyinatı müəyyən edir. Və bədii mətndə xüsusi effektliyə səbəb olan növbəti fonotekstoloji modellərdən biri yaranır. Sintaktik vahid daxilində bu və ya digər sözün məntiqi vurğulu olmasını isə cümlənin informasiya yükü şərtləndirir.

Hər bir cümlənin informativ təyinatı bu və ya digər sözün fərqli fonosituativliyini təmin edir. Güclü fonosituativliyə malik söz adətən bir cümlə daxilində birdən aprtıq olmur və ondakı leksik məna cümlənin ümumi informativ bütövlüyünü tamamlayır. Xan babamın yanına mən varayın (s. 73). Cümlənin sonuna yaxın mövqe güclü mövqe olduğundan orada yerləşən söz güclü fonosituativlik (yəni fərqli tələffüzi

məqamı) nümayiş etdirir. Belə mövqe, adətən, xəbərin yanı və ya xəbərin yeri olur. Bununla yanaşı, antonimlər, leksik təkrar, sintaktik təkrar cümlə vahidindəki hər hansı sözün məntiqi vurğulu olmasını müəyyən edir.

§1. MƏTN VƏ FONEM

Fonem dil sistemində hər hansı kommunikativ materialın struktur forma baxımından təşkilinə xidmət edən ən kiçik quruluş vahididir. O, belə konstruktiv vahidlər sırasında birinci və nisbətən zəif olan bəndi əmələ gətirir. Başqa sözlə, əvvəlincidən sonuncuya və ya sadədən mürəkkəbə prinsipi üzrə ardıcıllıq fonemdən leksemə, daha sonra leksem və morfemə, nəhayət sintaqma doğru gedir. Fonemin quruluş vahidi kimi dözümsüzlüyü isə leksemin fonetik qabığında üzə çıxır. Yəni fonem dilin ən kiçik və həm də mənalı vahidi olduğundan onun leksik vahid tərkibində başqa cinsli fonemlə əvəzlənməsi sözü semantik cəhətdən deformasiya edə və hətta yeni dil vahidinin yaranmasına səbəb ola bilər. Məsələn: gəl-göl-gül-gil, qoru-quru, baş-boş, ağ-al, bağ-bar, sağ-say, yaz-yay-yar-yal-yan, pay-say-tay-zay, soy-boy və s.

Fonemlə bağlı bu və ya başqa situasiyalar onun müxtəlif kommunikativ keyfiyyətlərini üzə çıxarır. Konkret fonemin hər hansı başqa fonemlə əvəzlənməsi sözün semasını keyfiyyətcə dəyişməyə də bilir. Məsələn:

Yox – yoğ – yoq; Üç gündür qoşlığım yox! (IX b., s. 106). Dəpəgöz aydır: «sana ölüm yoğ imiş» (YIII b., s. 102). Xan aydır: «Yoq, at işləməsə, ər ögünməz» (IX b., s. 104-105).

Miz –biz; Biri aydır: «mərə, mizim öksüzligimiz yetməzmi, bizi niyə urarsan?» (X b., s. 111). Sən Bəkilün nəsisən, oğlan, degil mizə! –dedi (IX b., s. 108). Aruz aydır: «Qazan bizə Qılbaşı göndərmiş…» (XII b., s. 124).

Çoq – çoğ; Yigit aydır: «mərə bəzırganlar, çoqmı istədim?!» -dedi. Bəzırganlar ayıtıdılar: «Nə çoğ olsun. Əmma bizim bir bəgümiz oğlı vardır. Bu üç nəsnəyi ona ərməğan aparsavuz gərək idi! -dedilər» (IIIb., s. 53).

Mərə – marə; Uruz aydır: «Mərə kafər, aman! Tənrinin birliginə yoqdır güman» (II b., s. 47). Aydır: «Marə Şökli

Məlik! Dünlügi altun ban evlərimi gətürüb dursursan, sana kölgə olsun» (II b., s. 46).

Hər bir halda qoşa leksemlər (variantlar) üçün monosemantika qorunub saxlanılır. Bu ona görə baş verir ki, dəyişən və dəyişməyə meylli səsin fonetik funksionallığı və fonetik özünəməxsusluğu verilmiş halda verilmiş sözün səs strukturunda ciddi şəkildə mühafizə olunur. Ona görə də belə halların hamısında ancaq əmələgəlmə yerinə görə və keyfiyyətcə yaxın olan səslərin birindən digərinə keçid baş verir. Odur ki, istənilən sözdə nə qədər səs keçidi (səs əvəzlənməsi) olur-olsun, fonetik özünəməxsusluğun qorunduğu sözdə məna dəyişmələri olmur. Belə səs əvəzlənmələrinə dilçilik ədəbiyyatında qeyd olunan həm spontan, həm də kombinator dəyişmələri aid etmək mümkündür. Başqa bir halda da səs kompleksi deformasiyaya uğrayır və səsdüşümü baş verir. Yəni verilmiş ənənəvi səs strukturunun tərkib hissələrindən biri – samit fonem onu tərk edir. Məsələn: Qoa-qoa bir yerə gəldi (III b., s. 54). Dədəyi qoa-qoa Dəli Qarçar on yelək yer aşurdı (II b., s. 56). Aruz Dəpəgözi dögdi-sögdi, yasaq eylədi, əsləmədi. Axır evindən qodı (YIII b., s. 99). Tölə-tölə çəkiləndə şahbaz atlı (YII b., s. 94). Souq-souq suları sana içət olsun (III b., s. 66). Qısırca Yengə derlər, bir xatun vardı (III b., s. 54). Banıçiçək aydır: «Hey, hey, dayələr, [babam] mana bən səni yüzi niqablu Beyrəgə vermişəm, diərdi» (III b., s. 54). Sana noldı (III b., s. 56). Və həm bir qara gözlü yauqlım vardı (III b., s. 59). Beyrəgin ölisi xəbərin gətürib deniz, ölimidir (III b., s. 58). Burada samit fonemin səs strukturunu tərk etməsi nə sözü mənaca dəyişir, nə də yeni leksemin yaranmasını şərtləndirir. Bu da səsdüşümünə məruz qalmış samt səsə aid fonetik özünəməxsusluğun sözün səs strukturunda saxlanması hesabına baş verir. Səs düşsə belə, ona məxsus qəlib, yer saxlanılır və digər ən kiçik mənalı dil vahidinin həmin pozisiyada işlənməsinə imkan yaratmır: qoa–qova, tölə–tövlə, deirlər–deyirlər, souq–soyuq, qodı–qovdı,

derlər–deyərlər, yauqlı–yavuqlı, noldı–nə oldı, deniz–deyiniz və s.

Müvafiq dil səviyyələrinə aid vahidlərin yeni sözlərin əmələgəlmə prosesinə öz spesifik münasibəti müəyyənləşir. Morfologiyada morfem (söz kökünə əlavə olunmaqla), leksikada leksem (mənasını daraldıb genişləndirməklə), sintaksisdə sözlərin yanaşma üsulları bu prosesdə həlledici rol oynaır. Bu baxımdan fonetikanın vahidi fonem də yeni sözlərin əmələ gəlməsində sistemli şəkildə iştirak edir. Bu zaman sözə məxsus səs strukturunu dəyişən fonem onu quruluşca da dəyişir, formaca daha mürəkkəb növə mənsub edir. Yaxud nitq hissələrinə aid xüsusi qrammatik anlayışların (kateqoriyaların) birindən digərinə keçirir. Bütün hallarda sözü əhatəyə alan təbii hüdudlar forma və ya məzmun cəhətdən az və ya çox dərəcədə sınır. Bu və buna bənzər keyfiyyət orta əsrlər türk yazılı mənbələrində (o cümlədən «Kitabi-Dədə Qorqud»un dilində də) müşahidə olunur. Məsələn, Orxon-Yenisey abidələrinin dilində arığ «təmiz» mənasını bildirdiyi halda, onun «Divani-lüğət-it-türk»də səsartımı ilə müşayiət olunan başqa forması fərqli sema ilə çıxış edir, əlamətin çoxluğunu göstərir: arrığ «çox təmiz» (6, c., I, s. 143). Yaxud otuz sözü qədim və orta əsrlər türk yazılı abidələrinin dilində onluq saylardan birini – «otuz»u, onun samitartımı ilə işlənən bir variantı isə M.Qaşğarinin qeydinə görə, yağmaların dilində təklik sayı – «üç» sözünü ifadə edir. «Divani-lüğət-it-türk» müəllifi yazır: «Otuz sözü üç mənasında da işlədilir. Mən bunu Yağma ölkəsində eşitdim. Orada «üç dəfə içək» deyilən yerdə ottuz içelim işlədirlər» (6, c., I, s. 142).

Fonemin sözyaradıcı vasitə kimi funksionallığı «Kitabi-Dədə Qorud»un mətnində daha aydın şəkildə təzahür edir və tekstual əhəmiyyət kəsb edən yeni söz ıvə ifadələrin yaranmasına səbəb olur. Məsələn, qan sözündə kökün səs strukturundakı dilarxası, açıq, dodaqlanmayan sait fonem dilarxası, qapalı, dodaqlanan saitlə əvəz olunaraq əsas tərəf

(orijinal söz) ilə bir yerdə işlənir, ondan sonra gəlir və mürəkkəb isim əmələ gətirir. Bu zaman yeni yaranmış ikinci tərəf, təbii ki, ayrılıqda işlənə bilmir və leksik məna daşımır. *Vardı, könləgi qana-quna baturdı, Bayındır xanın öginə gətürib bıraqdı* (III b., s. 58). Başqa bir halda sözün birinci samiti ona yaxın bir səslə əvəz olunur, bu fonetik tərkibdə əsas sözlə birləşərək, mürəkkəb sifət yaradır və yeni yaranan tərəf əsas tərəfdən əvvəl işlənir. *Bin dəxi xaraca-qaraca bürələr dilədi* (III b., s. 56). Üçüncü halda yeni leksik vahid formasının əmələ gəlməsi feldə [ç] samitartımı hesabına baş verir. Bu yolla yaranmış leksik vahid də bədii nitqə emosionallıq, ekspressivlik verməklə, birinci növbədə bədii mətn detalı kimi diqqəti cəlb edir və fonoloji vahidin bədii tekstoloji məqamlara xidmət göstərdiyini bir daha nümayiş etdirir. *Dədə aydır: «Yarımasun-yarçımasun, Dəli Qarçar eylə mal istədi ki, heç bitməsün!» – dedi* (III b., s. 56).

Sözün səs strukturunda dəyişiklik edən fonem onu qrammatik məna baxımından da dəyişə bilir. Bu zaman sözün bu və ya digər qrammatik növə (geniş mənada) və kateqoriyaya mənsubluğu itir, əvəzində yeni qrammatik funksionallıq formalaşır. *Beyrək apalaca gərdəgi içində yeyüb-içüb bixəbər oturardı* (III b., s. 57). Verilmiş nümunədəki alaca sifətində [p] samitartımı həm sifətə aid dərəcə anlayışının sintetik yolla ifadəsinə xidmət edir, həm də çoxaltma dərəcəsində olan sifəti (ala-ca) digər dərəcəyə – şiddətləndirmə dərəcəsinə mənsub edir. Aşağıdakı nümunədə isə [r] samitartımı həmin vəzifəni yerinə yetirir. Dəpəgöz aydır: «*Şöylə çalayım ki, günbədlə tartağan olasan*» *–dedi* (YIII b., s. 101).

Müxtəlif səs strukturuna malik söz köklərində eyni cinsli saitin işlənməsi və əksinə, demək olar ki, eyni fonetik quruluşlu leksik vahidlərdə müxtəlif cinsli saitlərin iştirakı eyni gücdə olan fonotekstoloji situasiyalar yaradırlar. Bu zaman onların hər ikisi – istər səs uyuşması, istərsə də səsfərqləşməsi bir fonoloji vahid həcmində özünü göstərir. *Üç gün dünli-günli*

yortdı (X b., s. 113). Ayrı-ayrı semaları olan dün və gün leksemləri eyni zamanda əks mənalı leksik vahidlərdirlər. Həm sözlər arasındakı antonimlik, həm də fonetik tərkibin bir səs fərqi ilə oxşarlığı (səs fərqləşməsi) verilmiş bədii mətn içərisində struktur detal kimi xüsusi əhəmiyyət kəsb edir. Bu cür səs fərqləşməsi cümlədə ritm yaradır, mənalı kiçik dil vahidini – fonemi həm də mətn (tekstual) elementinə çevirir. Fonemin bu və bu tipli digər funksiyaları təkcə predikativliyə, modallığa, bitmə intonasiyasına malik sintaktik vahiddə – cümlə içərisində yox, sintaktik mətn hüdudlarında da müşahidə edilir və mikromətn komponentlərinin formal bağlılığını bir daha möhkəmləndirmiş olur. *Dərəşam suyını dəlüb keçdilər. Dün qatdılar, Oğuzın sərhəddinə yetdilər* (X b., s. 115). Burada danışıq səsinin fonotekstoloji funksionallığı iki müxtəlif cümləyə düşdüyündən onun iştirakı ilə yarana bilən bədiilik potensiyası da mətnin kəmiyyətcə iki cümlə – komponenti arasında paylanır. Hər iki cümlənin sonuncu leksik vahidində – fellə ifadə olunmuş xəbərlərində söz kökünün fonetik strukturundakı sait eynicinsliyi ahəng yaratmaqla sait fonemi ([e]) bədii mətn detalı kimi aktuallaşdırır. Fonotekstoloji funksionallığın bölüşdürüldüyü cümlələrdə digər bədii – ritmik göstəricilərin iştirakı o qədər də zəruri deyil. Yəni digər sözlərdə ahəng yaradan vasitələrin mövcudluğu cümlə vahidinin digər üzvlərində hecaların sayı, eyni fonetik ölçülərin gözlənilməsi, sintaktik təkrar olmaya da bilər. Ancaq bütün hallarda bunlardan biri o birini neytrallaşdırmır və fonotekstoloji aktuallıq yerində qalır. İstənilən fonem istənilən mətn daxilində aktuallıq nümayiş etdirə bilər. Ancaq danışıq səsinin fonotekstoloji keyfiyyəti, bir qayda olaraq, bədii mətnlərdə üzə çıxır və danışıq səsini bədii tekstual element kimi səciyyələndirir. Fonotekstoloji xüsusiyyətin özü daha geniş anlayış olub, ayrı-ayrılıqda fonem, heca, vurğu, intonasiya və s. fonetik vahidlərlə bağlı bədii aktivliyi, onların bədii tekstdəki rolunu nəzərdə tutur. Fonetik vahidlərin hər biri

müəyyən situasiyalarda bədiilik momentini doğurur və bunu minimum şəkildə yerinə yetirdikdə fonotekstoloji predmetə çevrilir.

Fonotekstoloji müəyyənlik ilkin olaraq fonem – mətn münasibətlərində təzahür edir. Bu kontekstdə aparıcılıq fonemə deyil, mətnə – bədii tekstə mənsubdur. Məhz mətn fonemin həm kommunikativ vahid kimi müəyyən olunmasına imkan yaradır, həm də tekstual vahid kimi onun bədii mətndə yerini müəyyən edir. Digər tərəfdən, fonem özü bu münasibətlərin həlledici fiquru ola bilir. Yəni dilin ən kiçik mənalı vahidi onun forma, quruluş elementi olmaqla, bütövlükdə nitqi və həm də nitqin istənilən parçasını, bütün səviyyələrdə kommunikativ kəsikləri formalaşdırır və mətnin özünü də təşkil edir. Bu mənada aparıcı funksiyalılıq baxımından hər iki nitq vahidi – fonem də, mətn də oxşar vəzifə yerinə yetirir və bir-birindən qarşılıqlı şəkildə asılı olurlar. Fonemsiz kommunikativ parça – mətn, mətnsiz fonotekstual element–fonem mümkün deyil. Fonotekstuallıq fonemin və digər fonetik vahidlərin bədii mətnlə bağlı keyfiyyətidir və bədii mətndən kənarda fonotekstoloji xüsusiyyət yoxdur.

Fonemlə bağlı fonotekstoloji məqamlar digər fonoloji vahidlərin yaratdığı bədii tekstoloji situasiyalardan keyfiyyətcə fərqlənir. Bunlardan biri fonemin qafiyələnmədə iştirakı ilə əlaqədardır. Qafiyələnmə bədii mətnlərin xatakter keyfiyyətidir. «Kitabi-Dədə Qorqud»un dilində istər şer-mətnlər, istərsə də nəsr-mətnlər üçün predikativliyə, bitmə intonasiyasına, modallığa malik sintaktik vahidlərdə cümlə əvvəlinin və ya cümlə sonluğunun eyni (və ya ən azı oxşar) fonetik tərkibdə olması mühüm əhəmiyyət kəsb edir. Qafiyənin yaranmasında müstəsna rolu olan fonem bir neçə vəzifə yerinə yetirir. Əvvəla, fonemin iştirakı ilə vahid qafiyələnmə strukturu yaradılır. «Kitabi-Dədə Qorqud»un mətnində qafiyələnmə strukturu bir neçə variantda üzə çıxır. Cümlə vahidinin öz

qafiyələnmə strukturu olur. Bu halda intonativ formaya görə, iki yerə ayrılmış cümlənin tam və yarımçıq sintaqmlarının sonluğu öz fonetik tərkibinə görə bir-biri ilə uyuşur. Həmin uyuşma cümlədaxili qafiyələnməni əmələ gətirir. *Bir qiyamət savaş oldı, meydan tolu baş oldı* (III b., s. 66). Burada savaş və baş sözlərinin sonuncu sait-samit kombinasiyaları cümlədaxili qafiyələnmə yaradır. *Mərə, varın, Qazanın oğlı Uruzı tartun, çəngələ asun* (I b., s. 40). *Qalın Oğuz bəgləri bunı eşitdilər, şad olub sevindilər* (III b., s. 52). *Qalın Oğuz bəgləri əl götürdilər, dua qıldılar* (III b., s. 54). *Baş endirdi, bağır basdı* (III b., s. 55).

İki və daha artıq cümlə vahidləri bir-biri ilə qafiyələnir. *Ol qırq yigit həsəd eylədilər. Bir-birinə söylədilər* (I b., s. 36). *Dirsə xan dişi əhlinin sözilə ulu toy elədi, hacət dilədi. Atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç qırdırdı. İç Oğuz, Taş Oğuz bəglərin üstinə yığnaq etdi. Ac görsə, toyurdı. Yalın görsə, tonatdı. Borcluyı borcından qurtardı. Dəpə kibi ət yığdı. Göl kibi qımız sağdırdı. Əl götürdilər, hacət dilədilər. Bir ağzı dualının alqışilə allah-təala bir əyal verdi. Xatunı hamilə oldı. Bir neçə müddətdən sonra bir oğlan toğurdı. Oğlancığını dayələrə verdi, saqlatdı* (I b., s. 35).

Sonuncu nümunədə on üç cümlə vahidindən ibarət olan mürəkkəb sintaktik bütövün daxili qafiyələnməyə malik bir cümləsini çıxmaq şərtilə bütün tərkib hissələrinin sonuncu leksik vahidində axırıncı samit- sait kompleksləri bir-biri ilə uyuşur. Eyni mükəmməl qafiyə sistemini «Kitabi-Dədə Qorqud»dakı şer-mətnlərdə də görmək mümkündür.

Xan qızı, yerimdən turayınmı?
Yaqanla boğazından tutayınmı?
Qaba öncəm altına salayınmı?
Qara polat uz qılıcım ələmə alayınmı?
Öz gödəndən başını kəsəyinmi?
Can tatlusın sana bildirəyinmi?
Alca qanun yer yuzinə dökəyinmi?

Xan qızı, səbəb nədir, degil mana!
Qatı qəzəb edərəm şimdi sana! (I b., s. 35)

Burada ilk yeddi misra-cümlə bir cür, sonuncu səkkizinci və doqquzuncu misra cümlələr isə başqa cür qafiyələnirlər.

Cümlələrarası qafiyələnmə iki cür – distantiv (məsafəli) və instantiv (məsafəsiz) olur. Distantiv qafiyələnmə növündə bir neçə qafiyələnmə tipi özünü göstərir. Və onlar növbəli şəkildə sıralanırlar. Yəni əvvəl birinci tip, sonra ikinci tip, daha sonra birinci tip qafiyələnmə gəlir. Saqın, qadın ana! Mənim üzərimə gəlmiyəsin. Mənim içün ağlamıyasan!i Qoy bəni, qadın ana, çəngələ ursunlar! Qo ətimdən çəksünlər, qara qaurma etsünlər, qırq bəg qızının öginə ilətsünlər. Anlar bir yedigində sən iki yegil! Səni kafərlər bilməsünlər, tuymasunlar. Ta kim sası dinlü kafərin döşəginə varmıyasan. Sağrağın sürmiyəsən. Atam Qazanın namusını sımayasan. Saqın! (II b., s. 47). Verilmiş nümunədə iki qafiyələnmə tipi özünü göstərir.

I tip	II tip
I cümlə II cümlə	
	III cümlə IY cümlə YI cümlə
YII cümlə YIII cümlə IX cümlə	

Məsafəsiz qafiyələnmə növündə üç-dörd cümlə və ya mətnin bütün cümlə vahidləri birinci qafiyələnmə tipi ilə xarakterizə olunurlar.

Qadın ana! Qarşum alub nə bögrərsən?
Nə bozlarsan, nə ağlarsan?
Bağrımla yürəgim nə tağlarsan ?
Keçmiş mənim günimi də andırarsan (II b., s. 47)

Qafiyə, yəni verilmiş halda söz sonluqlarının bir –biri ilə fonetik cəhətdən uzlaşması fonoloji (bir qədər də dəqiqləşdirsək, fonotekstoloji) hadisədir. Çünki onu fiziki cəhətdən formalaşdıran fonetikanın vahidi fonemdir. Bununla yanaşı, digər dil səviyyələri və onların vahidləri də bu prosesdə iştirakçı ola bilir. Bu baxımdan morfologiyanın vahidi morfem qafiyənin formalaşmasına bu və ya digər şəkildə təsir göstərir. Bədii mətn daxilində hər bir təkrar (leksik, sintaktik, o cümlədən fonetik) üslubi əhəmiyyət daşıyır. «Kitabi-Dədə Qorqud»un mətnində elə situasiyalar var ki, qrammatik formanın təkrarı üslubi vəzifə daşımaqla yanaşı, cümlə daxilində, yaxud ayrı-ayrı cümlələrdə söz sonluqlarının fonetik baxımdan həmcinsləşməsinə səbəb olur. Ol zəmanda bəglərin alqışı alqış, qarğışı qarğış idi (III b., s. 52). Cümlənin yarımçıq sintaqmında yerləşən üçüncü növ təyini söz birləşməsindən ibarət olan mübtədanın üçüncü şəxs mənsubiyyət şəkilçili ikinci tərəfi və şəxs şəkilçisiz (yaxud idi bağlamalı) xəbəri tam sintaqmda da təkrarlanır. Sintaktik quruluşun belə təkrarı oradakı sözlərə aid qrammatik şəkilçilərin də tam sintaqmda (cümlənin sonrakı hissəsində) işlənməsini tələb edir. Sonuncu təkrar isə öz növbəsində arxasıra ahəngli üçüncü şəxs mənsubiyyət şəkilçisinin və şəxs şəkilçisiz (və idi bağlamalı) xəbərin yenidən təkrarlanmasını zəruri edir. Eyni şəkilçi formanın təkrarı istər-istəməz səslərin təkrarına və fonetik uzlaşmaya gətirib çıxarır: alqışı – qarğışı, alqış [idi]– qarğış idi. Bəzırganın ulusı tutuldı, kiçisi qaçaraq Oğuza gəldi (III b., s. 53; üçüncü növ təyini söz birləşməli mübtədanın ikinci tərəfində üçüncü şəxs mənsubiyyət şəkilçisi). Baybörə bəg aydır: Xan Qazan, necə ağlamıyayın, necə bozlamıyayın (III b., s. 52; felin əmr şəklində işlənmiş xəbərdə –mı sual ədatı və şəxs şəkilçisi). Qarşu yatan qarlı qara tağlar, Qarıyıbdur, otı bitməz, Qanlu-qanlu ırmaqlar, Qurıyıbdır, suyı gəlməz (III b., s. 49; mübtədada cəm şəkilçisi, feli xəbərdə –ıb nəqli keçmiş

zaman və xəbərlik şəkilçisi, tamamlıqda təsirlik hal şəkilçisi, ikinci xəbərdə qeyri-qəti gələcək zamanın inkarlıq şəkilçisi). Böyük-böyük suların köprisi ağac! Qara-qara dənizlərin gəmisi ağac! (II b., s. 48; üçüncü növ təyini söz birləşməsinin birinci tərəfində müəyyən yiyəlik hal əlaməti, ikinci tərəfində üçüncü şəxs mənsubiyyət şəkilçisi və xitab).

Fonemin iştirakı ilə yaranmış qafiyələnmə sistemində danışıq səslərinin növünə görə də fərqlənmələr özünü göstərir. Bu bir neçə baxımdan əhəmiyyət kəsb edir. Əvvəla, sait-samit kombinasiyaları burada olmur, sait də, samit də ayrı-ayrılıqda fonotekstoloji aktuallıq nümayiş etdirir. Saitlərin, yaxud samitlərin eynicinsliyi sistem əmələ gətirir. Əvvəlki qafiyələnmədən fərqli olaraq, burada sait saitlə, samit SAmitlə uzlaşır. İkincisi, belə qafiyələnmə cümlə vahidinin (yaxud cümlə tərkibindəki sözlərin) sonunda deyil, əvvəlində özünü göstərir. Bu türk bədii mətnləri üçün xarakter olan alliterasiya hadisəsidir. Yaxud cümlədaxili leksik vahidlərin ayrı-ayrı mövqelərində eyni samit fonemin işlənməsi assonans adlanan spesifik sait uzlaşmalarını yaradır.

«Kitabi-Dədə Qorqud»un mətnində ən çox alliterasiya yaradan [q] samitidir. Bu, mətndə [q] anlautlu sözlərin çox işlənməsi və tez-tez təkrarlanan sabit ifadələr əmələ gətirməsi ilə bağlı ola bilər. Məsələn: qara-qara tağlar, qanlu-qanlu ırmaqlar, qalın Oğuz, qaba ələm götürən xan, qırış güni, qara polad uz qılıc, qarı düşmən, qadir tənri və s. Nümunələrə baxaq:

Qaranqu axşam olanda güni toğan!
Qar ilə yağmur yağanda ər kibi turan!
Qaraquc atları kişnəşdirən!
Qızıl dəvə gördügində bozlaşdıran!
(II b., s. 45)

Qarılatıb dört yanına baqdınmı, qız?!
Qarğu kibi qara saçın yoldınmı, qız?!
Qara gözdən acı yaş dökdinmi, qız?!
(III b., s. 65)

Alliterasiya da cümlələrarası və cümlədaxili şəkildə özünü göstərir. «Kitabi-Dədə Qorqud»un mətnində sonuncu daha çox yayılıb və daha çox bədii effekt verir. Cümlələrarası (yaxud xarici) alliterasiya şer–mətnlər üçün xarakterikdir, şer–mətnlər isə «Kitabi–Dədə Qorqud»un dilində nəsr–mətnlərlə müqayisədə azlıq təşkil edir. Və əksinə, nəsr–mətndə də xarici alliterasiya və şer–mətndə də daxili alliterasiya ola bilər; ancaq əvvəlki sonrakı ilə müqayisədə çox deyil.

Maraqlıdır ki, «Kitabi-Dədə Qorqud»da heç bir şer–mətn başdan–başa alliterasiyadan ibarət olmur. Alliterativ qafiyələnmə ilə qeyri-alliterativ (cümlə sonu) qafiyələnmə növbəli şəkildə bir-birini izləyir. Bu iş növbəli şəkildə yerinə yetirildiyində istər cümlə sonu, istərsə də cümlə əvvəli (alliterativ) qafiyələnmənin şer-mətnlərdə sistem təşkil etdiyinə şübhə yeri qalmır.

Mərə, dini yoq, əqlsiz kafər!
Ussı yoq, dərnəksiz kafər!
Qarşu yatan qara qarlı tağlar
Qarıyıbdur, otı bitməz.
Qanlu-qanlu ırmaqlar
Qurıyıbdır, suyı gəlməz.
Şahbaz-şahbaz atlar
Qarıyubdur, qulun verməz.
Qızıl-qızıl dəvələr
Qarıyubdur, köşək verməz.
Mərə kafər, **Q**azanın anası
Qarıyubdur, oğul verməz. (II b., s. 49)

Qalqubanı, **Q**anturalı, yerindən turı gəldin,
Yelisi qara **Q**azlıq atın bütün bindin.
Ala gözlü yigitlərin yanına aldın.
Arxu beli, ala tağı dünin aşdın,

Aqındılı suyın dünin keçdin,
Qanlu kafər elinə dünin girdin.
Qara buğa gəldügində xurd-xaş eylədin,
Qağan aslan gəldügində belini bükdün.
Qara buğra gəldügində nə kiçikdin?
Qara-qara tağlardan xəbər aşa.
Qanlu-qanlu sulardan hənir keçə,
Qalın Oğuz elinə xəbər vara,
Qanlı Qoca oğlı Qanturalı netmiş deyələr:
Qara buğa gəldügində qılçatmamış,
Qağan aslan gəldügində belin bükmiş,
Qara buğra gəldigində nə kiçikmiş?! (s. 89)

Daxili alliterasiya nəsr-mətndə də, şer-mətndə də olur. **Q**azan **q**ırq otaq dikdirdi (s. 78). Bir dəxi **y**axşı **y**igidin canın almıya (s. 79). **Q**amın aqan görklü suyın **q**urımasun! **Q**anadlarun ucı **q**ırılmasun! (s. 78). **Y**asanuban üzərinə **y**ağı **y**etdi. **Y**atacaq **y**ermi buldun, **y**urtmı buldun (s. 91). **Y**ettügimdə **y**el **y**etməzdi. **Y**edi urğunım – **Y**eni Bayırın qurdına bənzərdi **y**igitlərim. **Y**edi kiş ilə qurulurdı mənim yayım (s. 95). Adı **b**əllü **b**əglərlə sən yortmadın (s. 95). **B**asduğın **b**ələrtmiyən **b**əllü tənri! **G**ötürdügin **g**ögə yetürən **g**örkli tənri! **Q**aqduğın **q**əhr edən **q**əhhar tənri (s. 96).

«Kitabi-Dədə Qorqud»un mətnində daha çox [a] saiti assonans yaradır.

Ağ saqallu baban yeri uçmaq olsun!
Ağ birçəklü **a**nan yeri behişt olsun!
Axır sonı **a**rı imandan **a**yırmasun!
«**A**min» deyənlər didar görsin!
Ağ **a**lnunda beş kəlmə dua qıldıq, qəbul olsun!
Allah verən umudun üzülməsün.
Yığışdırsun, duruşdursun, günahlarını
Adı görklü Məhəmməd Mustafa yüzi suyına

bağışlasun, xanım, hey!.. (s. 51)

Alliterasiyada olduğu kimi, assonansda da cümlədaxili və cümləəvvəli (xarici) qafiyələnmələr müşahidə edilir. G**ö**zcügəzi c**ö**ngə qoca (s. 80). **U**rdığın **u**latmıyan **u**lu tənri (s. 96). **A**la gözlü yigitlərin yanına saldın. **A**rqu beli **A**la tağdan dünin aşdın. **A**qındılı görklü sudan dünin keçdin. **A**ğ alınlu Bayındır xanın divanına dünin vardın, bəglərlə yedün-içdin (s. 105). Alliterasiya ilə assonans eyni misrada yanaşı gəldikdə bədii effektlilik daha da artır. **Y**igitlərim, **y**erünizdən **uru** t**uru**n (s. 125).

Hər hansı sözün samit-sait başlanğıcı növbəti sözdə təkrar olunmaqla daha bir alliterativ tipli qafiyələnmə yaradır. Və ya buğanın buynuzında ilişəm, Ya qağan aslanın qaynağında didiləm (s. 87). Birinci misrada [b u], ikinci misrada isə [q a] və [a ğ] səs kompleksləri bu vəzifəni yerinə yetirir.

«Kitabi-Dədə Qorqud»un dilində belə fonotekstoloji xüsusiyyət və ümumiyyətlə, hər cür qafiyələnmə sintaktik mətn boyu sistem təşkil edir. Bu cür sistemlilik başqa kommunikativ vahidlərdən çox mətnin özünə xidmət göstərir. Yəni sözlərin, tutaq ki, eyni fonetik başlanğıca malik olması mətn komponentlərinin bir-birinə bağlanmasını təmin etməklə, onun bədii mətn kimi formalaşmasına da kömək edir.

…Yigirmi bin ər yağı gördümsə, yılamadım,
Otuz bin ər yağı gördümsə, ota saydım.
Qırq bin ər yağı gördümsə, qıya baqdım.
Əlli bin ər gördümsə, əl vermədüm
Altmış bin ər gördümsə, aytışmadım.
Səksən bin ər gördümsə, səksənmədim.
Toqsan bin yağı gördümsə, tonatmadım.
Yüz bin ər gördümsə, yüzüm dönmədim.
(s. 117)

Verilmiş nümunənin hər cümlə – misrasında birinci söz ilə sonuncu söz fonetik başlanğıcına görə bir-biri ilə uzlaşır. Birinci sözə məxsus fonetik tərkib sonuncu sözdə iki sait fonem həcmində, bəzilərində isə üç, dörd, altı sait fonem həcmində təkrarlanır:

I – yı: yı Y – a,t,ı,ş : a,t,ı,ş
II – ot: ot YI – s,ə,k,s,ə,n : s,ə,k,s,ə,n
III – qı:qı YII – to: to
IY – əl:əl YIII – y,ü,z : y,ü,z

Fonemin qafiyələnmədə rolu şübhəsizdir. «Kitabi-Dədə Qorqud»un mətnində fonotekstoloji situasiyaların təhlili göstərir ki, burada qafiyələnmə təsadüfi xarakter daşımır. Əksinə, fonem qafiyəni yaratmaqla, semaca uzlaşmış başqa – başqa informasiyalar daşıyan ayrı – ayrı cümlə vahidlərini forma etibarilə də bir-biri ilə uzlaşdırır, yəni ilkin olaraq tekstual aparat yaradır və digər kommunikativ vahidlərlə birlikdə bədii mətni təşkil edir. Məsələn:

Ağzım içi buz kibi, sünüklərim tuz kibi oldı. Mərə saqalcığı ağca qoca, Gözcügəzi cöngə qoca… (s.80). Yucalardan yucasan, Kimsə bilməz necəsən… Daim turan cəbbar tənri, Baqi qalan səttar tənri (s. 81). Yucalaradan yucasan, Kimsə bilməz necəsən, əziz tənri?! Anadan toğmadın, Sən atadan olmadın, Kimsə rizqin yemədün, Kimsəyə güc etmədün. Qamu yerdə əhədsən, Allahü səmədsən… (s. 96)

Danışıq səsinin fonotekstual keyfiyyəti bədii mətnə təsir göstərib onda bu və ya digər xüsusiyyətin formalaşmasına kömək etdiyi kimi, yazılı mətn də öz növbəsində, fonemin qrafik ifadəsində və deməli, həm də fonemə məxsus keyfiyyətlərin, eləcə də fonotekstual əlamətlərin müəyyənləşməsində həlledici rol oynayır. Hərf maddi səsin işarələrlə təzahürüdür. Bu mənada konkret səsli dili konkret işarələr sistemi əvəz edə bilir. Belə bir hökm qədim dilə, xüsusilə də, yazılı abidələrin dilinə münasibətdə qüvvədə qalır.

Məsələ ondadır ki, qrafem–fonem münasibəti təkcə forma–məzmun münasibəti deyil. Ona görə də dilin qədim qatları ilə bağlı tələffüzü və fonetik prosesləri dəqiqliklə əks etdirmək mümkün olmadığından, verilmiş halda «qrafem bərabərdir fonem» prinsipindən çıxış etmək lazım gəlir.

Hər bir normal ədəbi – kommunikativ sistemə məxsus yazılı abidələrdə olduğu kimi, «Kitabi-Dədə Qorqud»da da müəyyən qrafik işarə müəyyən danışıq səsini ifadə edir. Bu ənənəvi qrafem – fonem münasibətidir. Bəzən də olur ki, qrafemin bildirdiyi danışıq səsini ənənəvi qrafem–fonem münasibəti yox, mətnin tekstoloji imkanları müəyyən edir. «Qaf» (**ق**) qrafemi söz əvvəlində gəldikdə dilarxası, kipləşən, cingiltili [q] səsini ifadə edir. Və «Kitabi–Dədə Qorqud»un dilində söz əvvəlində [q]-nın mövcudluğu normaldır. Məsələn: quş (mətn 21; 16), qırq (mətn 34), qutlu (mətn 8), qopdı (mətn 20), qalqıb (mətn 22). Təkhecalı sözlərin sonundakı «qaf» isə təbii ki, [q] səsini ifadə etmir. Yoq , (mətn 9), öq (mətn 22), qırq (mətn 11), aqan (mətn 19), çıqardı (mətn 16), oqınsa (mətn 6), yıqılacaq (mətn 9), baqardı (mətn 15), oqla (mətn 4; bax: Rossi Ettore. «Kitabi-Dede Qorqut» / Drezden nüsxəsinin faksimilesi. Roma, 1952) və s. Prof. T.Hacıyev qeyd edir: «Azərbaycan dili tarixi abidələrinin dilində «*qaf*» qrafemi ilə bir neçə səs verilmişdir. Müasir dilimizdə *çox*, *bax*, *çıx* şəklində tələffüz olunan təkhecalı sözlərdə səs tarixən «*qaf*» ilə yazılır; حوق, حق , . Azərbaycan dili tarixçiləri belə sözlərin transkripsiyasını bu şəkildə verirlər: *çoq*, *baq*, *çıq*, Bizcə analoji sözlər belə tələffüz oluna bilməzdi. Bu halda «*qaf*» dilarxası kar *k* səsini əks etdirmişdir (*toqqa* sözündəki birinci *q* kimi). Başqa türk dillərində də belə gedib. Məsələn, türkcədəki *bak*, *yok* kimi sözlər də elə yazılıb. Azərbaycan dilinin özünəməxsus inkişafı müəyyənləşdikcə, xüsusiləşdikcə söz sonunda *k* yabançılaşır və öz yerini *x* səsinə verir. Ancaq bu məqamda «*qaf*» yazılması əsrimizin 30-cu illərinə qədər –

latın əlifbasına keçənə qədər davam edir. Deməli, bu, orfoqrafik ənənə ilə bağlıdır: tarixən səs təkamül etmiş, qrafik cəhət sabit qalmışdır. Belə fikir də söylənilir ki, əvvəlindən bütün tarixi yazılı mənbələrdə həmin məqamda *x* oxunmalıdır. Bizim fikrimizcə, təşəkkül dövrünün sonlarına qədər (XYII əsrin əvvəlləri) həmin məqamda *k* tələffüz olunub; bu klassik ədəbi dilin norması sayılmışdır. XYII əsrin ortalarından, xalq tələffüz tərzi əsas götürüldükdən sonra *x* oxunmalıdır» (3, s. 53; 8, s. 16-22).

Prof. F.Zeynalov və prof. S.Əlizadə yazırlar: «ق (qaf) – söz əvvəlində *q* samitinin, bəzi türk mənşəli sözlərin ortasında və sonunda dilarxası və kipləşən kar *k* səsinin işarəsidir. Məsələn: (yakın), (bakaydınız) (8, s. 24)».

Hər şeydən əvvəl diqqəti cəlb edən bu cür sözlərin bəzisində imla müxtəlifliyinin olması, yəni təkhecalı köklərin auslautda «qaf»la yazılışının qeyri–sabitliyidir.

çıqub (mətn 12) – çıxan (mətn 3); q // x
oq (mətn 37) – oxlayıb (mətn 21); q // x
aqlı-qaralı (mətn 21) – ağ (mətn 16); q // ğ
yoq (mətn 10) – yoğdı (mətn 11); q // ğ

Auslautda q//x, q//ğ paralelliyinin olması orta əsrlərin ümumtürk ədəbi dili türkidən gələn bir ənənəylə (2, s. 14-32) həmin sözlərin dilarxası, kipləşən, kar [*k*] səsini bildirən «qaf» ilə yazıldığını (misal üçün, M.Qaşğarinin «Divani-lüğət-it-türk» əsərinin dilində; 6, c. 1, s. 14), lakin nə [*q*], nə də [*k*] səslərini ifadə etmədiyini göstərir. Təkhecalı söz köklərinin «qaf» ( ) və «xe» ( ) ilə yazılış paralellərinin olması (çıxan–mətn 3 və çıqdı , mətn 20) onu isbat edir ki, katib belə sözləri bəzən tələffüz şəklinə uyğun olaraq «xe» ( ) ilə, bəzən də ümumtürk ədəbi dili türkidən gələn yazı ənənəsinə müvafiq şəkildə «qaf» ( ) ilə yazır. Bu isə öz növbəsində təkhecalı köklərdə auslautda «qaf»ın yazılı dil norması olduğunu, şifahi tələffüzdə isə [*x*] ilə (mətndə «xe», bəzən də q) deyildiyini nümayiş etdirir.

Geniş yayılmış fikrə görə, «Kitabi-Dədə Qorqud»un dilində leksik və bəzi fonetik paralellər ayrı-ayrılıqda oğuz və qıpçaq dil xüsusiyyətlərini əks etdirir. Fonetik paralellər içərisində daha aktual olanı *b-m* səslərinin müvaziliyidir. *b//m* paralelliyi birinci şəxsin təkinə aid əvəzliyin, çox az miqdarda birinci şəxsin cəminə aid əvəzliyin və işarə əvəzliyinin işlənməsində müşahidə edilir. Fonetik paralellik, konkret olaraq, *b//m* müvaziliyi yazılı abidədə normativ dil faktı olmaqla, fonotekstoloji fiqur rolunu oynayır.

Ağayıldan tümən qoyun gedərsə, mənim gedər (I b., s. 40)
(mətn 32)
Altun başlu ban evlər gedərsə, *bənim* gedər (I b., s. 40)
(mətn 32)

Eyni sintaktik mətndən misal gətirdiyimiz misra–cümlələrin birində şəxs əvəzliyinin qıpçaqcada, digərində oğuzcadakı fonetik variantı verilmişdir. Bu «Kitabi –Dədə Qorqud»un özünəməxsus dil normasıdır. Burada hər iki fonetik variant mətnə münasibətdə neytraldırlar. Ancaq elə məqamlar da var ki, fonetik variantlardan birinin mövcudluğu müqabilində digərinin işlənməsi fonotekstual keyfiyyət formalaşdırır. «Kitabi – Dədə Qorqud»un dilində mən əvəzliyinin işlənmə tezliyi nisbətən yüksəkdir. Ancaq aşağıda verilmiş dialoqun üçüncü cümləsindəki ikinci növ təyini söz birləşməsinin birinci tərəfində işlənən bən əvəzliyi alliterativ qafiyə yaradaraq mətnin bədii gücünü, bədii tekstual keyfiyyətini artırır.

> Uruz qaqdı, aydır: «mərə qavat, mənim babam Bayındır xan degilmidir?». Ayıtdı: «Yox, ol ananın babasıdır, sənin dədəndir». Uruz: «mərə, ya bənim babam ölümidir, dirimidir?» -dedi. Ayıtdı: «Diridir. Tumanın qələsində tutsaqdır», – dedi. (s. 119)

Boynı uzın bədəvi atlar gedərsə, sənin gedər;
Bənim də içində binədim var,
Qomağım yoq qırq namərdə!
Qaytabanda qızıl dəvə sənin gedər,
Mənim də içində yüklətim var,
Qomağım yoq qırq namərdə!
Ağayılda tümən qoyun sənin gedər,
Mənim də içində şişligim var,
[Qomağım] yoq qırq namərdə!
Ağ yüzlü, ala gözlü gəlin sənin gedərsə,
Mənim dəxi içində nişanlım var,
Qomağım yoq qırq namərdə!
Altun başlu ban evlər sənin gedərsə,
Bənim də içində odam var,
Qomağım yoq qırq namərdə!
Ağ saqallu qocalar sənin gedərsə,
Mənim dəxi içində bir əqli şaşmış,
Biligi yetmiş qoca babam var,
Qomağım yoq qırq namərdə! (I b., s. 41)

Yuxarıda verilmiş şer–mətndə birinci şəxsin təkinə aid əvəzliyin mən forması beş dəfə, bən variantı bir dəfə işlənmişdir. Sonuncu variantın cəmi bir dəfə işlənməsi onun üslubi təyinatı ilə bağlıdır. Belə ki, yalnız bən şəxs əvəzliyi misranın digər qütbündə yerləşən başqa bir leksik vahidlə *b* səsləşməsi yarada bilir və məsafəli alliterativ qafiyələnmə əmələ gətirir: *bənim binədim*. Həmin harmoniya əvvəlki və sonrakı misra-cümlələrin alliterativ ahənginə əlavə olunur; *boynı – bədəvi*, *bənim – binədim*, *qomağım – qırq*, *qaytaban – qızıl*.

Yaxud başqa misal. Mərə, qavat qızı, munı mana neçün deməzdin (s. 119). Cümlədə təsirlik halda olan işarə əvəzliyinin [b] anlautlu forması da işlənə bilərdi (Məsələn: Beyrək: «mərə kafər, necə bir onı-bunı sırarsan mana?» –dedi).

Lakin [m] anlautlu forma işarə əvəzliyindən sonra gələn birinci şəxsin təkinə aid əvəzlik ilə daxili alliterativ qafiyələnmə yaradır və öz növbəsində fonotekstoloji xüsusiyyət formalaşdır: *munı mana*. Eyni vəziyyəti «Kitabi-Dədə Qorqud»un mətnində çox nadir halda işlənən birinci şəxsin cəminə aid əvəzliyin söz əvvəlində [*m*] samitli variantı da əks etdirir. Biri aydır: «mərə, mizim öksüzligimiz yetməzmi, bizi niyə urarsan?» (s. 111; alliterativ qafiyələnmə komponentləri: *mərə–mizim*, *mizim–öksüzligimiz*, *mizim – yetməzmi*). Başqa sözlə, mətn fonemi bədii tekstoloji fiqura çevirir.

Bəzi fonetik paralellər samit səsin allofonlarından – fonem variantlarından mətn içərisində istifadə olunma nəticəsi kimi özünü göstərir. Pəri qızı qanat urub uçdı (YIII b., s. 98). Gördi kim, pəri qızları qanat-qanada bağlamışlar, uçarlar (YIII b.. s. 98). Nümunələrdəki qanat və qanad sözlərinin yazılış variantlarından biri əslində [*d*] samitinin səslənmə variantı – allofonudur.

Məlumdur ki, qıpçaq dilləri üçün söz əvvəlində kar [*t*] samitinin fəallığı səciyyəvidir. Bu, qədim türk (runik) yazılı abidələrinin dili və orta əsrlər türk ədəbi dili (türki) üçün də ədəbi norma idi. «Kitabi-Dədə Qorqud»un dilində isə həm ümumtürk ədəbi dili türkinin dil norması – anlautda [*t*] foneminin aktuallığı müşahidə olunur, həm də «Kitabi-Dədə Qorqud»un öz dil norması – anlautda [*d*] foneminin işlənməsi tipli öğuz xüsusiyyəti özünü göstərir. Məsələn:

– tavşan, toyum, turdı, tışra (s. 110), tan, tağ, tutsaq (s. 111), tolu (s. 66), toquz (s. 67-68), toqsan (s. 68) və s.

– dəlü, dört, dəpə, dedi, dişləyüb (s. 65), dilün, dəvə, dərələrdə (s. 66), dügün, doqquz, dədə (s. 67), dəniz, dil (s. 69) və s.

Elə sözlər var ki, paralel olaraq söz əvvəlində [*t*] və [d] ilə işlənir: doqquz və toquz (s. 67).

Bədii mətn fonemə məxsus keyfiyyətin (həm də tipik olmayan keyfiyyətin), deyək ki, sait uzanmasının təzahüründə

müəyyən rol oynayır. «Kitabi-Dədə Qorqud»un mətnində bəzi hallarda uzanma əlaməti səsdüşümünün nəticəsi kimi özünü göstərir və bəzən sonuncu tekstin bədii keyfiyyətinə təsir edə bilir. Ağam Qazan, sası dinlü Gürcüstan ağzında oturarsan, ordun üstinə kimi qorsan? (s. 42).

(Drezden, mətn 37). Dədəm Qorqud gəlsün, bu oğlana ad qosun (s. 36). (mətn 17). Ünüm anlan, bəglər, sözüm dinlən, bəglər! (s. 42) (mətn 36).

Sonuncu cümlənin yarımçıq sintaqmında felin əmr şəkli ilə ifadə olunan sözə məxsus qrammatik qəliblə (kök – leksik şəkilçi –la – əmr şəklində ikinci şəxsin cəminə aid –n əlaməti) yanaşı, səs kompleksindəki sait səsin fonetik keyfiyyəti də təkrarlanır; anlan sözündə olduğu kimi dinlən sözündə də ikinci hecanın saiti səsdüşümü nəticəsində uzun tələffüz olunur və bədii effektliyi artırır: anlan – dinlən.

«Kitabi-Dədə Qorqud»un dilində ayrıca bir samitin (yaxud saitin) düşümündən danışmaq çətin olsa da, heca düşümü geniş şəkildə müşahidə olunur. Mərə, bəzirganlar, varın, iqlim aran, Beyrəgin ölüsi xəbərin gətürib deniz, ölimidir? (II b.. s. 58; aran, deniz). Böylə oğıl nənə gərək? (I b., s. 37; nənə). Oğlanı ata bindirdilər, alubanı ordısına gətdilər (I b., s. 39; gətdilər). Aydır: «Bəglər, mənim dəxi həqqimə bir dua eylən» (II b.. s. 52; eylən). Varın bundan pay dilən, görün nə deyir! (III b., s. 54; dilən). Zira ol dikübdir, yenə ol tanır (III b.. s. 58; tanır). Oğlan aydır: «Məni yolımdan ayırman» (s. 112; ayırman). «Qarusından ağ əllərin bağlan» -demiş… Ağca yüzli qızını–gəlinini yesir eylən» -demiş (s. 106; bağlan, eylən). Məsələ ondadır ki, «Kitabi-Dədə Qorqud»un əlyazma mətnində (Drezden nüsxəsi) yanaşı gələn saitlə samitin qrafik işarələri eyni olduqda (məsələn: «ya» – [*ı* / *i*] və [*y*]; «vav» – [*o* / *u*; *ö* / *ü*] və [*v*]) onlardan biri yazılmır: dövlət (mətn 20; [*ö*] və [*v*] -), qovarkən (mətn 22; [*o*] və [*v*] -), qovardı (mətn 22; [*o*] və [*v*] -), qovar (mətn 22;

[*ö*] və [*v*] -), dirlər (mətn 1; [*i*] və [*y*] -) və s. Ona görə də bu tipli sözlərin əlyazmada tələffüz şəklinə uyğun yazıldığını ehtimal etmək çətindir. Eyni zamanda «Kitabi-Dədə Qorqud»un nəşrlərində de- felinin fonetik strukturundakı sait səsin dilortası dodaqlanmayan, yarımqapalı [*e*] ilə ifadəsini məqbul saymırıq – məsələn: dedi (I b., s. 34; əlyazmada didi – mətn 12), degil (I b., s. 35; əlyazmada digil – mətn 14) və s.

Bu cür hallarda «ya» qrafemi ilə ifadə olunan sait səs həmin hərfin bildirdiyi səsə uyğun olaraq, dilönü, qapalı, dodaqlanmayan [*i*] ilə göstərilməlidir. Axır zəman olub qiyamət qopınca bu didügi Osman nəslidir (müqəddimə, s. 31)[1].

(mətn 1). Rəsul əleyhissəlam zəmanına yaqın Bayat boyından Qorqut ata dirlər bir ər qopdı (müqəd.. s. 31)[2].

(mətn 1). Bənim suçum nə oldı kim, qara otağa qondurdı? –dedi (I b.. s. 34).

(mətn 12). Xan qızı, səbəbi nədir, degil mana! Qatı qəzəb edərəm şimdi sana! –dedi (I b., s. 35).

(mətn 13 və 14).

Bu, bizcə, qədim türk (runik) yazılı abidələrinin və sonrakı orta əsrlər türk ədəbi dilinin – türkinin qrafik norma sisteminə uyğun de- fel kökünün fonetik strukturunda və bəzi başqa sözlərdə yarımqapalı [*e*] yerinə qapalı [*i*] saitinin işlənməsi ənənəsi ilə bağlı ola bilərdi. Kültiqin şərəfinə abidədə: Üze türk tenrisi, türk ıduk yiri, subı ança timis (KltŞ. 11 – Yuxarıda türk tanrısı, müqəddəs türk yeri, suyu eləcə demiş). «Kimke iliq kazğanurmen?» –tir ermis (KltŞ. 9 – Kim üçün dövləti qazanıram? -deyirmiş). …Ança tip tabğaç kağanka yağı bolmıs (KltŞ. 9 – Eləcə deyib tabğaç

---

qeyd[1]: «Kitabi-Dədə Qorqud»un 1988-ci il nəşrində müvafiq söz əlyazmadakına uyğun şəkildə transkripsiya olunmuşdur.
qeyd[2]: 1988-ci il nəşrində ***diyərlər***

xaqanına yağı olmuş). «Divani – lüğət-it-türk»də: Ol andağ titürdi

(6, c., III, s. 186 – O elə dedirtdi).

§2. MƏTN VƏ HECA

Fonem kommunikativ sistemin ən kiçik elementi və ilkin quruluş vahidi (bu mənada dil vahidlərinin hər biri aid olduğu yarusla bağlı növbəti quruluş vahididir; fonem fonetikada, leksem leksikada, morfem morfologiyada, söz birləşmsi və cümlə sintaksislə) olsa da, səslənən sözün ilkin qavrayışı tələffüz zamanı asan bölünən sözformadan – hecadan başlanır. Ferdinand de Sössür vaxtilə qeyd edirdi: «Müasir fonologiyanın metodu, xüsusilə, ona görə natamamdır ki, dildə yalnız səslərin deyil, tələffüz olunan səs zəncirinin də olduğunu nəzərdən qaçırır. Bütün diqqət, demək olar ki, təcrid olunmuş səslərə yönəlir. Halbuki ilkin olaraq bizə ayrıca səs verilmir: heca onu təşkil edən səslərdən daha əvvəl bilavasitə təzahür etmişdir. Biz görmüşük ki, bir sıra qədim yazı sistemləri məhz heca vahidlərini əks etdirmiş, ancaq bundan sonra hərfi yazı sisteminə gəlib çıxmışdır» (5, s. 124). Bu mənada kommunikasiya prosesinin iştirakçıları üçün kommunikasiya predmeti – söz ayrıca səslərlə deyil, hecalarla (başqa sözlə, səs kombinasiyaları ilə) təzahür edir. Hecanın formalaşması üçün təkcə bir sait səsin varlığı kifayət deyil. Samit səsdən izolə edilən ayrıca götürülmüş sait səs heca əmələ gətirmir. Onun heca olması və söz tərkibində heca kimi ayrılması üçün qonşuluqda ən azı bir samit fonemin iştirakı zəruridir. Məsələn: o(I)–ğuz(II), o(I)–ğul(II), a(I)–na(II), ö(I)–git(II), i(I)–raq(II) və s. sözlərində olduğu kimi. Bu tipli sözlərdə ayrıca götürülmüş sait səs (I heca – o, a, ö, i) ona görə heca olur ki, sözün tərkibində həim də sait-samit kombinasiyası (Ana sözündə [-na], oğul sözündə [-ğul] və s.), yəni saitlə yanaşı, samit səs iştirak edir. Başqa sözlə, samit fonem saitlə birlikdə sözün heca bölümünü reallaşdırmağa xidmət edir.

Sait və samit müxtəlif cinsli danışıq səsləri olduqlarından başqa-başqa fonoloji qütbləri təşkil edirlər. Odur

ki, istənilən leksik vahid daxilində fonoloji qütblərdən hər birinin öz müstəqil konturları müəyyənləşir. Bəzən belə hüdudlanmada onlar növbəli şəkildə bir-birini əvəz edirlər. Məsələn: qılıcı (samit – sait / samit – sait / samit – sait), əlləri (sait – samit / samit – sait / samit – sait), ocağına (sait / samit – sait / samit – sait / samit – sait), gəlübəni (samit – sait / samit – sait / samit – sait / samit – sait) və s. Heca bölümləri o zaman reallaşır ki, sait qütbün əhatə dairəsi bitir və samit qütbün sərhədləri – təsir sahəsi başlayır, yaxud əksinə. Yəni müxtəlif fonoloji qütblərin sərhəddində kommunikasiyanın predmeti – sözün bütöv fonoloji vahid kimi qavranılma imkanları sınır və o, hecalara bölünür. Həmin qütblərin yerləşmə ardıcıllığından asılı olaraq, heca tipləri formalaşır: hecalar saitlə bitir, samitlə başlayır, yaxud əksinə, samitlə bitir, saitlə başlayır.

Rə–sul: [sait] – [samit] (birinci heca-həlqəni sait tamamlayır, ikinci heca-həlqəni samit başlayır)

ə–ley–his–sə–lam: [sait] – [samit] – [samit] – [samit:sait] – [samit]

zə–ma–nı–na: [sait] – [samit:sait]– [samit:sait] – [samit:sait]

ya–qın: [sait] – [samit]

Ba–yat: [sait] – [samit]

bo–yın–dan: [sait] – [samit] – [samit]

Qor–qut: [samit] – [samit]

A–ta: [sait] – [samit:sait]

di–yər–lər: [sait] – [samit] – [samit]

bir: [samit]

ər: [sait:samit]

qop–dı: [samit] – [samit:sait]

Saitlə samitin hər cür fərqli növbələnmələri müxtəlif heca tiplərinin meydana çıxmasına səbəb olur.Nümunədəki sözlərin bəzisində saitlə tamamlanan hecanı samitlə başlayan heca əvəz edir. Belə sıralanma sözün tərkibindəki hecaların əlaqələnmə üsulu kimi özünü göstərir: [sait] – [samit] – [sait] –

[samit] – [sait] – [samit]. Bəzi sözlərdə isə heca–həlqəni samit fonem başlayır və tamamlayır. Burada hecanın xarici konturları samit fonemin iştirakı ilə müəyyənləşdiyindən onun fonetik strukturu samitlə başlandığı kimi, samitlə də qapanır. İki və daha artıq qapalı strukturlu hecalar isə əvvəlkindən fərqli üsulla əlaqələnir: [samit] – [samit] – [samit]. Qapalı strukturlu hecaların olduğu sözlərdə heca bölümü samitlə samitin sərhəddində baş verir. Məsələn: Qor–qut: [samit] – [samit].

Heca həm fonoloji, həm də bədii tekstual əhəmiyyətə malik fonetik vahid olduğundan iki baxış bucağı altında nəzərdən keçirilə bilər; fonoloji və fonotekstoloji hadisə kimi. Fonoloji hadisə olan heca «Kitabi-Dədə Qorqud»un dilində bir saitli köklərdə müxtəlif tiplərlə xarakterizə olunur:

OI [sait] – [samit]: ol, ox, ağ, at, ər, üz
IO [samit] – [sait]: nə, di, su, bu
OII [sait] – [samit] – [samit]: ayt-, and, alp
IOI [samit] – [sait] – [samit]: qız, mal, baş, tağ, güz, yaz
IOII [samit] – [sait] – [samit] – [samit]: qırq, yort, görk

Təkhecalı sözlərin tipik səs kompleksləri onların və deməli, həm də hecaların fonetik strukturlarındakı inkişaf xəttini aşağıdakı şəkildə az və ya çox dəqiqliklə izləməyə imkan verir: a) məlumdur ki, samit – sait (IO) və sait – samit (OI) strukturları samit – sait – samit (IOI) strukturundan ikinci və birinci samitlərin düşməsi nəticəsində yaranmışdır; b) samit – sait – samit – samit (IOII) və sait – samit – samit (OII) strukturları iki hecalı (və ümumiyyətlə, birdən artıq saitli) köklərdə sait səsin düşməsi ilə hecalardan birinin deformasiyaya uğraması nəticəsində formalaşmışdır.

Hər iki halda yeni heca tiplərinin formalaşması hecanın özünün dağılması nəticəsində, sonuncu isə sait, yaud samitin düşümü ilə baş verir. Bu və bu tipli digər dəyişikliklər sözlərdə müxtəlif tipli heca kombinasiyalarının yaranmasına səbəb olur. Heca tiplərindən fərqli olaraq, heca kombinasiyalarının təşkilində təkcə kök (həm də təkhecalı) yox, şəkilçilər də

iştirak edir. «Kitabi–Dədə Qorqud»un dili üzərində apardığımız müşahidələr aşağıdakı heca kombinasiyalarının geniş yayıldığını göstərir:

O + IO + IO
[sait] – [samit+sait] – [samit+sait]: orada
IO+ IO+IO…
[samit+sait] – [samit+sait] – [samit+ sait]… : qıyamadı
OI+ IO
[sait+samit] – [samit+sait]: oldı
OI+IOI
[sait+samit] – [samit+sait+samit]: oğlan
IOI+IO+IO
[samit+sait+samit] – [samit+sait] – [samit+sait]: gizlədi
IO+IOI
[samit+sait] – [samit+sait+samit]: sadaq
IOI+IOI
[samit+sait+samit] – [samit+sait+samit]:toqsan

Sözə morfoloji əlamətin əlavəsi ilə fonetik struktur dəyişdiyi kimi, sözün hecaları da bu cür dəyişikliyə uğraya bilir. Məsələn, sadaq sözünün heca tərkibi IO+IOI ([samit+sait] – [samit+sait+samit])sxeminə uyğundur. Leksik vahidə mənsubiyyət şəkilçisinin əlavəsi ilə axırıncı hecanın (IOI) fonetik strukturu dağılır, yenisi formalaşır: sadağı – IO-IO-IO ([samit+sait] – [samit+sait] – [samit+ sait]; s. 92). Çıxışlıq hal şəkilçisinin artırılması ilə sonuncu da öz növbəsində dəyişikliyə məruz qalır: sadağından – IO-IO-IOI-IOI ([samit+sait] – [samit+sait] – [samit+sait+samit] – [samit+sait+samit] s. 92). Verilmiş halda əvvəlki (kökdəki) hecanın deformasiya olub-olmaması əlavə edilən şəkilçinin fonetik strukturundan asılıdır. Əgər kökün son hecası samit – sait – samit (IOI) səs kompleksindən ibarətdirsə və kökə əlavə

olunan şəkilçinin fonetik tərkibində əvvəl sait gəlirsə, o, əvvəlki hecanı zəiflədir və dağıdır. Məsələn:

sa-daq – sa-da-ğı – sa-da-ğın-dan (s. 92)
IO IOI IO IO IO IO IO IOI IOI

söy–ləş söy–lə –şə – lim (s. 92)
IOI IOI IOI IO IO IOI

i– raq i– ra– ğın– dan (s. 93)
O IOI O IO IOI IOI

kəs kə – sə – yin –mi (s. 35)
IOI IO IO IOI IO

Qeyd: Burada ***I*** işarəsi – samit səsi, ***O*** işarəsi – sait səsi bildirir.

Əlavə olunan şəkilçinin fonetik strukturu samitlə başladıqda əvvəlki heca (kök) olduğu kimi qalır, dəyişikliyə uğramır. Məsələn:

so – ruş so – ruş – ma –dım (s. 93)
IO IOI IO IOI IO IOI

çə – mən çə – mən – lə – rin (s. 32)
IO IOI IO IOI IO IOI

at at – la – rın (s. 45)
OI OI IO IOI

da – yə da – yə – lə –rə (s. 35)
IO IO IO IO IO IO

Bu, başqa bir məsələni ortaya çıxarır; morfoloji quruluş fonetik struktura təsir göstərərək, onu dəyişə bilir. Bu, ona görə baş verir ki, hər iki dil səviyyəsi sözün forması ilə bilavasitə əlaqəlidir. Onların hər hansından gələn təsir sözü formaca

dəyişə bildiyi kimi, o biri səviyyəyə də təsirsiz qalmır. Leksik vahiddəki forma dəyişikliyi – səs kompleksinin deformasiyası, hər hansı səsin başqası ilə əvəz olunması və s. kökü də, şəkilçini də dəyişə bilir. Köklə və sonrakı başlanğıc forma ilə şəkilçilərin morfoloji kontaktı isə fonetik qabığa və daha çox heca strukturuna təsirsiz qalmır.

Hecadaxili fonemlər arasında da özünəməxsus əlaqələnmə qaydası var. Bu qaydaya görə, birinci hecanın son səsi ikinci hecanın ilk səsi ilə, ikinci hecanın axırıncı səsi üçüncü hecanın əvvəl gələn səsi ilə, üçüncü hecanın son səsi dördüncü hecanın ilk səsi ilə möhkəm rabitə yaradır. Belə əlaqələnmə üsulunda daha çox sait samitlə rabitəyə girir və bir qayda olaraq, bu, samit – sait (IO) strukturuna malik hecalar arasında baş verir. Birinci hecanın saiti ikinci hecanın samiti, ikinci hecanın saiti üçüncü hecanın samiti, üçüncü hecanın saiti dördüncü hecanın samiti ilə və s. əlaqələnir. Bu qayda heca komponentlərinin ***ardıcıl əlaqələnmə üsulunu*** təşkil edir. Komponentlərinin ardıcıl əlaqələndiyi hecalara aşağıdakı sözləri misal göstərmək olar:

Ər malına qıymasa, adı çıqmaz (müqəddimə, s. 31)



Quv quvaladı, din dinlədi (müqəddimə, s. 33)



Ol Ayişə, Fatimə soyıdır, xanım (müqəddimə, s. 32)



Ulaşuban sular taşsa, dəniz olmaz (müqəddimə, s. 31)



u a u a

Digər halda, sözün samit – sait – samit (IOI) strukturuna malik hecası həmin fonetik tərkibdə olan başqa bir heca ilə əlaqələnməli olur. Bu zaman bir hecanın sonuncu samiti növbəti hecanın ilk samiti ilə kontakta girir. Bu, heca komponentlərinin ***ardıcıl olmayan əlaqələnmə*** üsuludur. Əlaqələnmənin sxemlə ifadəsi bu cürdür:

Qorqut ata Oğuz müşkilini həll edərdi (müqəddimə, s. 31)



Təkəbbürlik eyləyəni tənri sevməz (müqəd., s. 31)



Ər malına qıymayınca adı çıqmaz (müqəd., s. 31)



Şami günligi yer yüzinə dikdirmişdi (I b., s. 34)



Bununla yanaşı, danışıq səsinin növünə görə hecadaxili komponentlərin möhkəm sıralanma qanunauyğunluğu var. Həmin qanunauyğunluğa görə, hecanın növündən asılı olmayaraq, sözün ümumi heca strukturunda saitin yeri həmişə iki samitarası mövqeyə düşür. Ona görə də heca üçbucağında saitlər bir, samitlər isə digər müstəvi üzərində ayrı–ayrılıqda yerləşirlər.

Qırq yigidinə dilbənd saldı, əl eylədi (I b., s. 41)

i i i ə

Kiminin boynın urdı, kimini tutsaq elədi (I b., s. 41)



Fonotekstoloji heca anlayışı mətndə üslubi məqsədlə istifadə olunan fonetik vahid – hecanı nəzərdə tutur. Bəzən informativ strukturuna görə bir-biri ilə bağlı olan, predikativliyə, modallığa, bitmə intonasiyasına malik sintaktik vahidin ayrı-ayrı hissələrinin, yaxud yarımçıq və tam sintaqmlarının heca tutumu növbəti cümlə vahidində və ya növbəti hissədə təkrarlanır və heca uzlaşmalarını əmələ gətirir. Məsələn:

Minarədə banlayanda fəqih görkli
Dizin basub oturanda həlal görkli (müqəd., s. 33)

Burada birinci cümlə-misranın heca tutumu növbəti cümlə-misrada olduğu kimi təkrarlanır. Bunun eyni intervalda, ölçüdə baş verməsi mətndə ahəngin, ritmin yaranmasına səbəb olur. Aşağıdakı cümlədə isə ahəng, ritm cümlədaxili heca ölçülərinin gözlənilməsi hesabına üzə çıxır:

Ər namərdin,
ər nakəsin
ozan bilür (müqəd., s. 32)

Eyni hadisə nəsr-cümlələrdə cümlədaxili hissələrin heca sayına görə uzlaşması zamanı da müşahidə edilir.

Gördi ki, oğrı köpək, yekə tana evini bir-birinə qatmış (müqəd., s. 33).

«Qonşı həqqi – tənri həqqi», – deyü söylər (müqəd., s. 33).

Av avlar, quş quşlar oldı (I b.. s. 39).

«Kitabi – Dədə Qorqud»un mətnində fonotekstoloji heca iki şəkildə təzahür edir: ***cümlələrarası heca uzlaşmaları*** və ***cümlədaxili heca uzlaşmaları***. Cümlələrarası heca uzlaşmalarında iki-üç cümlənin hecaları kəmiyyətcə eyni

ölçüdə olur. Allah-allah deməyincə işlər onmaz (müqəd.. s. 31; 4 – 4 – 4) . Qadir tənri verməyincə ər bayımaz (müqəd.. s. 31; 4 – 4 – 4).Əski panbuq bez olmaz (4 – 3). Qarı düşmən dost olmaz (müqəd., s. 31; 4– 3). Saç qayğudır (4). Qan qaradır (4; II b.. s. 44). İkinci halda heca uzlaşmaları ya ümumilikdə cümlənin içərisində olur, ya da onun müvafiq komponentləri arasında bərabər şəkildə paylanır. Odur ki, cümlədaxili heca uzlaşmaları da öz növbəsində iki yerə ayrılır:

a) cümlənin simmetrik bölünən hissələrində, yaxud tam və yarımçıq sintaqmlarında hecalar kəmiyyətcə uzlaşırlar: Ölən adam dirilməz, çıxan can gerü gəlməz (müqəd., s.31; 7 – 7). Baş endirüb, bağır basğıl (II b., s. 43; 4 – 4). Burada cümlədaxili mərkəzi bölgü – yarımçıq və tam sintaqmların sərhəddi kəmiyyətcə uzlaşan hecaların kəsişdiyi nöqtəni təşkil edir. Əgər kəmiyyətcə uzlaşmalı hecaların ayrıldığı nöqtə cümlənin simmetriya mərkəzinə düşmürsə, bu, cümlədaxili heca uzlaşmasını əmələ gətirmir. Məsələn: Yapa – yapa qarlar yağsa, yaza qalmaz (müqəd., s. 31; 8 – 4);

b) bir sözün, ya söz birləşməsinin heca tutumu növbəti sözdə və ya söz birləşməsində təkrar oluna–oluna gedir (bir neçə dəfə təkrar olunur).

Qaravaşa – 4
ton geyürsən – 4
qadın olmaz – 4
(müqəd., s. 31)

Yapa –yapa – 4
qarlar yağsa – 4
yaza qalmaz – 4
(müqəd., s. 31)
Ər malına – 4
qıymayınca – 4
adı çıqmaz – 4

(müqəd., s. 31)

Qız anadan – 4
görməyincə – 4
ögit almaz – 4
(müqəd., s. 31)

Qaraquca – 4
qıymayınca – 4
yol alınmaz – 4
(müqəd., s. 31)

Nümunələrdən göründüyü kimi, eyni heca tutumu, yəni dördlük ölçüsü bir misra – cümlədə üç dəfə təkrar olunur. Bu cür uzlaşma nəsr – cümlələrdə də müşahidə edilir. Bitəkəllüf kafərlər at dəpdilər (4), ox səpdilər (4) (II b., s. 43). İki qardaşı oxa düşdi (4), şəhid oldı (4) (II b., s. 43). Bərə çoban, (4) iraqından– (4) yaqınından (4) bərü gəlgil! (4) Baş endirüb, (4) bağır basğıl! (4) Biz kafərə (4) salam vergil! (4) (II b., s. 43). Burada yanaşı gələn cümlələrin yaxın informasiya tutumları onların formal yaxınlığını da şərtləndirir; cümlədaxili bölgülər yaranır, hecaların sayı uzlaşır.

§3. MƏTN VƏ VURĞU

Yazı ilə tələffüz arasındakı ayrılıq hərflə səsin fərqi qədər olsa belə, onları birləşdirən cəhətlər hər iki vahidin – səsin və hərfin ümumi yaxınlığı qədər deyil. Onlardan ən diqqətəlayiq olanı budur ki, hərf səsin ifadəsi olsa da, yazı tələffüzü olduğu kimi əks etdirməyə bilir. Bununla belə, tələffüzlə bağlı fonetik vahidlərin funksionallığı haqqında yazılı dil materialı əsasında az və ya çox dəqiqliklə fikir söyləmək mümkündür.

Məlumdur ki, dilin hər bir səviyyəsi özünəməxsus quruluşla səciyyələnir; fonetika fonetik quruluşu, leksika leksik quruluşu, morfologiya morfoloji quruluşu, sintaksis sintaktik quruluşu və s. xarakterizə edir. Bitmə intonasiyasına, predikativliyə, modallığa malik hər hansı sintaktik vahidin hər hansı komponenti hər bir dil səviyyəsi baxımından müxtəlif paradiqmalar nümayiş etdirir; fonetik səviyyədə səs kompleksi, leksik səviyyədə leksik vahid, morfoloji səviyyədə isim, sifət, say və s., sintaktik səviyyədə yarımçıq, yaxud tam sintaqmın – söz birləşməsi və ya cümlənin tərkib hissəsi müəyyən cümlə üzvü olur. Bəzən də eyni cümlə daxilindəki hər hansı söz eyni vaxtda iki müxtəlif səviyyənin funksional vahidi rolunu oynaya bilir.

Bərü gəlgil, Salur bəgi, Salur görgi,
Başım bəxti, evim təxti (s. 72)

Burada eyni leksik vahid (başım və evim) dilin sintaktik quruluşu baxımından bir cür, fonetik quruluşuna görə başqa cür funksionallıq nümayiş etdirir. Fonetik quruluş baxımından hər iki yarımçıq sintaqmın birinci tərəfi olan bu sintaqmlar cümlədə məntiqi vurğu qəbul etmiş vurğulu sözlərdir. Sintaktik quruluş baxımından bunlar ikinci növ təyini söz birləşmələrinin tabe edən komponentləri – əsas tərəfləridir. Onların hər ikisi – fonetik quruluşdakı vurğulu sözlə sintaktik quruluşdakı tabe

edən söz – kommunikativ gücünə görə bərabər səviyyəli dil vahidi hüququndadır.

Bəzən müəyyən fonetik hadisə müəyyən fonetik vahidin (konkret halda, vurğunun) formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərə bilir. Məlumdur ki, sual əvəzlikləri cümlə vahidinin içərisində əsasən məntiqi vurğulu olur. Bu, «Kitabi –Dədə Qorqud»un dilində də belədir: Altun cida oynadana, yarəb, noldı? (s. 72). Ancaq verilmiş nümunədə nə sual əvəzliyinin saiti düşdüyündən sözün samit tərkibi növbəti sözün səs kompleksi ilə qovuşur. Odur ki, cümlə vahidinə daxil olmuş sonuncu ifadənin fonetik strukturunu sintaktik vahid daxilində bu cür bərpa etmək mümkündür: Altun cida oynadana, yarəb, nə oldı? Ayrıca götürülmüş oldı sözündə sonuncu hecanın vurğulu olduğuna baxmayaraq, nə sual əvəzliyinin fonetik tərkibi ilə qovuşduqdan sonra onun heca vurğusu əvvələ (birinci hecanın üzərinə) doğru yerini dəyişir: nol –dı. Bu, iki cəhətdən əhəmiyyət kəsb edir. Əvvəla, bir fonetik dəyişiklik – səsdüşümü növbəti fonetik dəyişikliyə – heca vurğusunun yerdəyişməsinə səbəb olur. İkincisi, məntiqi vurğulu situasiya heca vurğulu situasiyanın formalaşmasına gətirib çıxarır və ona çevrilir.

Mətnin ayr-ayrı cümlələrində, hətta ümumi məzmun yaxınlığına malik sintaktik vahidləri birləşdirən eyni bir mikromətnin – mürəkkəb sintaktik bütövün tərkib hissələrində məntiqi vurğunun yeri sabit olmaya bilir.

Qalqubanı yerindən **uru** turdın,
Oğlunla yelisi qara Qazlıq atın **bütün** bindin.
Boynı uzun bədəvi keyikin alub **yıqdın**,
Sən atın yüklətdin, **gerü** döndin,
İki vardın, **bir** gəlürsən, yavrım **qanı**?
Qara gərdunda buldığım oğlım **qanı**?
Bir bəgüm görinməz, **bağrım** yanar.
Asılan-asılan qayalardan,

Qazan, **oğlan** uçırdınmı?
Talı sazın aslanına **yedirdinmi**?
Ağ əllərin qarusından **bağlatdınmı**?
Kafər ögincə **yüritdinmi**?
Dili-damağı qurıyıb dört yanına
baqdırdınmı?
Qara gözdən acı yaşın **dökdirdinmi**?
«Qadın ana», «bəg baba» deyü **bozlatdınmı**?
(s. 72)

Qeyd: mətndə kursivlə verilmiş leksik vahidlər məntiqi vurğulu sözləri bildirir.

Burada mürəkkəb sintaktik bütöv daxilindəki informasiya ifadəçisi olan sintaktik quruluşların hər birinin özünəməxsus vurğulu sözü var. Birinci misrada mürəkkəb xəbərin ad hissəsi (uru), ikinci misrada tərzi– hərəkət zərfliyi (bütün), üçüncü misrada feli xəbər (yıqdın), dördüncü missrada yer zərfliyi (gerü), beşinci misrada mürəkkəb cümlənin birinci tərkib hissəsinin tərzi–hərəkət zərfliyi (bir) ilə ikinci tərkib hissənin ismi xəbəri (qanı), altıncı misrada ismi xəbər (qanı), yeddinci misrada səbəb–nəticə əlaqəli tabesiz mürəkkəb cümlənin ikinci komponentinin mübtədası (bağrım), səkkizinci misrada qeyri-müəyyən vasitəsiz tamamlıq (oğlan), qalan misralarda feli xəbərlər məntiqi vurğulu sözlərdir. Verilmiş halda sintaktik vahid daxilində bu və ya digər sözün məntiqi vurğulu olmasını cümlənin informasiya yükü şərtləndirir. Yəni hər bir cümlənin informativ təyinatı digər leksik vahidlərə nisbətdə bu və ya digər sözün fərqli fonosituativliyini təmin edir. Güclü fonosituativliyə malik söz adətən bir cümlə daxilində birdən artıq olmur və ondakı leksik məna cümlənin ümumi informativ bütövlüyünü tamamlayır.

Xan babamın yanına mən varayın (IV b., s. 73)

Burada cümlənin sonuna yaxın mövqe güclü mövqe olduğundan orada yerləşən söz güclü fonosituativlik (fərqli tələffüz məqamı) nümayiş etdirir. Belə mövqe, adətən, xəbərin yanı və ya xəbərin yeri olur. Verilmiş cümlədə həmin vəzifəni xəbərin yanında yerləşmiş mübtəda yerinə yetirir. Bu halda mübtədanın ifadə edildiyi birinci şəxsin təkinə aid əvəzlik cümlənin ümumi informativ tutumunu tamamlayan komponent rolunu oynayır.

Xan babamın yanına mən varayın



Qeyd: Burada **ÜİT** – ümumi informativ tutum deməkdir.

Qeyd: Burada **TS** – tamamlayıcı söz mənasındadır.

Cümlənin başqa bir üzvü – üçüncü növ təyini söz birləşməsi ilə ifadə edilmiş yer zərfliyi də xəbərin yanında işləndikdə güclü fonosituativlik yarada bilir və informativ strukturun tamamlayıcı komponenti olur.

Mən xan babamın yanına varayın



Tamamlayıcı söz üçüncü növ təyini söz birləşməsinin ikinci tərəfi olduğundan ümumi strukturda idarə əlaqəsi ilə birləşdiyi sözlə (babamın), sonuncu isə yanaşma əlaqə növü ilə əlaqələndiyi leksik vahidlə (xan) birlikdə ümumi strukturdan seçilirlər. Yəni hər iki halda cümlə vahidinin fərqli tələffüz məqamına malik məntiqi vurğulu sözü ilə cümlənin ümumi informativ tutumunu tamamlayan komponent üst-üstə düşür.

Hər hansı fonoloji xüsusiyyət, deyək ki, leksik vahidin fonosituativliyi – güclü tələffüz məqamı cümlədə meydana çıxır. İstənilən leksik aktuallıq, misal üçün, sözün məna qruplarından birinə mənsubluğu da cümlədə müəyyənləşir. Yəni cümlə– kontekst istənilən fonoloji və leksik aktuallıq üçün əvəzsiz mənbə rolunu oynayır. Məhz bu kontekstdə hər hansı leksik olan xüsusiyyət hər hansı fonoloji olanı müəyyən edə bilər. Belə ki, cümlə daxilində leksik vahidin fonosituativ aktuallığına təsir göstərən müəyyən amillər mövcuddur. Sözün məna qruplarından birinə, məsələn, əks mənalı sözlərə mənsub olması bu vəzifəni yerinə yetirir. Yanıma ala baqduğımda qonşuma eyü baqdım (IY b., s. 73). Buradakı ala–eyü cütlüyü

əks mənalı leksik vahidlər olmasa da, tekstin bədii gücü hesabına antonimləşirlər. Antonimləşmiş sözlərdən birincisi birinci yarımçıq sintaqmda (Yanıma ala baqduğımda), ikincisi isə ikinci yarımçıq sintaqmda (qonşuma eyü baqdım) işlənir. Misralaradakı əkslik bunların fonoloji (və ya fonosituativ) baxımdan da seçilməsinə və onlardan birinin – cümlənin sonuna (tam sintaqma) daha yaxın olanının (eyü) məntiqi vurğu ilə tələffüzünə səbəb olur. Yanıma ala baqduğımda qonşuma **eyü** baqdım.

Leksik təkrar mətndə bədii effektliyi artırmaqla yanaşı, fonotekstoloji situasiyanın yaranmasına da kömək göstərir. Leksik vahidin təkrarı başqalarından seçilən fərqli tələffüz məqamını yaradır. Bulursam, buldım, bulmaz isəm, tənri verdi, tənri aldı, neyliyəyin (IY b., s. 74). Cümlədə tənri sözünün təkrarı məqsədi, intonasiyanı, bütün informativ tutumu ona doğru yönəldir və həmin sözün məntiqi vurğu ilə tələffüzünə səbəb olur. Bu halda, təkrar olunmuş leksik vahidlərdən sonuncusu (xəbərin yanında gələn) fonoloji aktuallıq nümayiş etdirir.

Bəzən fonoloji baxımdan aktual olan söz yeni bir fonosituativlik formalaşdırır. Belə ki, hər cür leksik təkrar məntiqi vurğulu söz əmələ gətirməyə bilər. Ancaq məntiqi vurğuya malik sözün təkrarı ilə yeni fonosituativ nöqtənin yaranması şübhəsizdir. Bərü gəlgil, Salur bəgi… (IY b., s. 72) cümləsində məntiqi vurğu Salur sözünün üzərinə düşür. Həmin leksik vahid məniqi vurğulu situasiyanın formalaşmasına yardım edən leksik əhatəsi – ikinci növ təyini söz birləşməsi ilə birlikdə yenidən təkrar olunduqda, oradakı güclü tələffüz məqamı da qeyd-şərtsiz təkrar olunur və ikinci fonosituativ nöqtəni formalaşdırır. Bərü gəlgil, **Salur** bəgi, **Salur** görgi (IY b., s. 72).

Leksik təkrarla yanaşı, sintaktik təkrar da sintaktik vahiddəki hər hansı sözün məntiqi vurğulu olmasını müəyyən edir. Vurğulu söz təkrarlanmasa da, onun yerləşdiyi sintaktik

quruluş təkrarlanır. Bu isə öz növbəsində əvvəlki sintaktik quruluş içərisində – cümlədə və ya söz birləşməsində yerləşən bütün qrammatik və fonoloji məqamların təkrar olunmasına səbəb olur.

Bərü gəlgil, Salur bəgi, Salur görgi!
Başım bəxti, evim təxti!
Xan babamın göygüsi,
Qadın anamın sevgisi.
Atam-anam verdigi,
Göz açuban gördügim,
Könül verüb sevdügim,
Bəg yigidim Qazan! (s. 72)

İkinci misra– cümlədə başım bəxti birləşməsinin sintaktik forması – ikinci növ təyini söz birləşməsinin qəlibi növbəti (sonra gələn) yarımçıq sintaqmda təkrar olunduğundan növbəti ikinci növ təyini söz birləşməsi yaranır. Birinci quruluşun birinci sözü vurğulu olduğuna görə ikinci quruluşun da eyni tərkib hissəsi məntiqi vurğu qəbul edir: **Başım** bəxti, **evim** təxti.

Sözün vurğulu olmasında qrammatik situasiya müəyyən rol oynayır. Belə ki, cümlənin təsdiq feli ilə ifadə olunmuş xəbəri məntiqi vurğulu olmaya bilir. Qarşum ələ baqduğımda səni gördüm (s. 69). Burada məntiqi vurğu qəbul etmiş üzv cümlənin tamamlığıdır. İnkarlıq şəkilçisi ilə işlənən feli xəbərlər isə əksər hallarda məntiqi vurğu ilə tələffüz olunur. Bu, ona görə baş verir ki, inkar feli təsdiq feli ilə oppozitiv mütənasiblik yaratdığı üçün ondakı inkarlıq şəkilçisinin qrammatik mənası tekstual anlama daha yaxındır. Sonuncu isə öz növbəsində cümlə vahidinin ümumi informativ tutumundan seçilir, onun tamamlayıcı komponenti olur.

On altı yaş yaşladın.

Bir gün ola düşəm, sən qalasan–
Yay **çəkmədün**,
ox **atmadın**,
Baş **kəsmədin**,
qan **dökmədin**,
Qanlu Oğuz eli içində çöldi **almadın**
(s. 69)

Ən müxtəlif nitq hissələrinə aid sözlər bu və ya digər hallarda məntiqi vurğu ilə tələffüz edilə bilərlər. Bununla belə, cümlə daxilindəki bu və ya digər sözün güclü tələffüz məqamına malik olması onun hər hansı nitq hissəsinə mənsubluğu ilə bağlı deyil. Söz vurğusunun yeri bütün cümlələrdə sabit olmasa da, eyni və ya oxşar sintaktik quruluşlu cümlələrdə bu mümkündür. Bu halda təkrar olunan sintaktik quruluşlardakı cümlə üzvləri ilə yanaşı, onları müşayiət edən fonoloji məqamlar, o cümlədən güclü tələffüz situasiyası da təkrar edilir.

…Bir ayda varmazsam, iki ay baqsun!
İki ayda varmazsam, üç ay baqsun!
Üç ayda varmazsam,
öldügimi ol vəqt bilsün!
(s. 75)

Şərt budaq cümləli tabeli mürəkkəb cümlə ilə ifadə olunmuş sintaktik vahidin birinci tərəfi şərt budaq cümləsindən, ikinci tərəfi baş cümlədən ibarətdir. Birinci və ikinci cümlə vahidlərinin hər iki tərəflərində müəyyən miqdar sayları işlənir. Və hər iki cümlə vahidinin sonra gələn baş cümlə komponentindəki miqdar sayı əvvəl gələn budaq cümlə komponentindəki miqdar sayını ardıcıllıqla tamamlayır: bir ay – iki ay; iki ay – üç ay. İlk iki cümlədə məntiqi vurğunu xəbərlə yanaşı işlənən miqdar zərfliyinin ifadə olunduğu

miqdar sayı qəbul edir. Sonra gələn üçüncü misra–cümlənin ikinci hissəsində miqdar sayının işlənməsinə baxmayaraq, sintaktik quruluş təkrar olunduğundan məntiqi vurğu yenə də xəbərin yanında gələn (və əvvəlki misralardakı sayların yerində işlənmiş) cümlə üzvünün – ol vəqt zaman zərfliyinin üzərinə düşür.

Vurğunun sonuncu hecaya düşmədiyi və ondan əvvəlki hecanın vurğulu tələffüz edildiyi söz məntiqi vurğu ilə deyilir. Toqsan tümən gənc oğuz ardımca gəlsün (s. 74). Ardımca sözündə sonuncu şəkilçi vurğu qəbul etmədiyindən birinci şəxsin təkinə aid –ım mənsubiyyət şəkilçisi vurğulu olur və bu səbəbdən leksik vahidin özü bütövlükdə məntiqi vurğu qəbul edir. Bu zaman cümlənin informativ məqsədi, leksik məna və eləcə də sintaktik faktor həlledici rol oynamır. Yəni məntiqi vurğunun reallaşması burada fonoloji situasiya – heca vurğusunun son hecadan əvvəlkinə doğru yerdəyişməsi hesabına baş verir.

Məntiqi vurğu başqalarına nisbətən fərqləndirilən, məqsədli şəkildə seçilən heca vurğusudur. O, cümlədəki heca vurğuları içərisindən informativ məqsədinə, leksik təyinatına, habelə qrammatik faktların iştirakına və s. səbəblərə görə xüsusi olaraq seçilir. Bu baxımdan, yəni xüsusi forma göstəricilərinə malik olmadığına görə məntiqi vurğu anlayışı heca vurğusuna nisbətən qeyri –konkretdir. Çünki istər yazıda (heca fonetik hadisə olmadığından bu təbiidir), istərsə də tələffüzdə məntiqi vurğunu heca vurğusunda olduğu kimi, xüsusi olaraq xarakterizə edən fonoloji situasiya (deyək ki, hecalardan ancaq birinin güclü tələffüzü ilə səciyyələnən situasiya) yoxdur. Odur ki, söz vurğusu heca vurğusunun fonoloji əlamətini daşıyır. Yəni heca vurğusu verilmiş sözdəki hecalardan birinin digərinə nisbətən qüvvətli tələffüzü, məntiqi vurğu isə vurğulu hecalardan birinin başqasına nisbətən güclü tələffüz məqamıdır, başqa sözlə, heca vurğusunu sözdaxili

tələffüz faktoru – sözdəki hecalardan birinin digərinə nisbətən fərqli tələffüzü, məntiqi vurğunu isə heca vurğusu doğurur.

Beyrəgin anasına, babasına xəbər oldı (s. 125)

Vurğulu heca				Vurğulu söz
I	II	III	IY	
	xəbər oldı	Beyrəgin	anasına babasına	xəbər

Beyrək ətməgün basmadı (s. 125)

Vurğulu heca			Söz
I	II	III	
basmadı	Beyrək	ətməgün	basmadı

Ümumcümlə kontekstində təzahür edən cümlədaxili vurğu (məntiqi vurğu) sözdaxili vurğunu (heca vurğusu) zəiflədir; birincinin fonunda ikinci (ayrıca götürülməmiş halda) güclü olmayan pozisiyanı təşkil edir. Yəni ümumcümlə kontekstində yalnız bir vurğu qalır – məntiqi vurğuya çevrilmiş heca vurğusu. Bu o deməkdir ki, cümlədaxili kontekst üçün istənilən sözdə istənilən hecaya düşə bilən bir yeganə vurğu mövcuddur. Bunu «Kitabi – Dədə Qorqud»dan gətirdiyimiz cümlələrin nümunəsində aşağıdakı kimi ifadə etmək olar:

Oğuzın ol kişi təmam bilicisiydi (müqəd., s. 31)



Hər iki nümunədə verilmiş ümumcümlə konteksində cümlədaxili vurğu ümumi sırada dördüncü hecaya düşür. Vurğu qəbul edən həmin hecaya qədər cümlənin ümumi intonativ tonu qalxmağa doğru gedir. Dördüncü hecadan sonra intonativ ton aşağı enir. Bu hal ancaq bir qrammatik əsası olan cümlənin sintaqmatik hüdudlarında baş verir.

Məlumdur ki, saylar bəzən cümlə vahidində məntiqi vurğulu olur. **Toquz** yerdə badyələr qurılmışdı (s. 68). On **altı** bin qara tonlu kafər ata bindi (s. 69). Keyik olsa, bir, ya **iki** bölük olurdı (s. 69). Ancaq bəzi situasiyalarda saylar daşıdığı məna yükündən asılı olaraq, güclü tələffüz məqamı yarada bilmirlər. Leksemin mənası konkretlikdən uzaqlaşdıqca, onun cümlə vahidindəki qrammatik, fonoloji və s. funksiyaları da irreallaşmağa doğru gedir. Rəsul əleyhissəlam zəmanına yaqın Bayat boyından Qorqut ata diyərlər bir **ər** qopdı (müqəd., s. 31). Qarşu yatan qara tağdan, Bir oğul uçurdınsa, **degil** mana, külünglə **yıqdırayım**! Qamın aqan yügrək sudan, Bir oğul uçurdınsa, **degil** mana, tamarların **toğuldayım**! Azğun dinli kafərlərə, Bir oğul tutdırdınsa, **degil** mana (s. 73). Verilmiş

cümlələrdəki bir sözü konkret miqdar bildirmədiyindən informativ məzmununa görə tamamlayıcı komponent ola bilmir və deməli, məntiqi vurğu ilə də tələffüz olunmur.

Sual əvəzliyi məntiqi vurğulu ola bilir. **Nerədə** bildin bənim tutsaq olduğumı? (s. 74). Mən səndən **nə** gördüm, **nə** ögrənim? (s. 69). **Nə** dersən, söylərsən? (s. 83). Baba, çün məni evərəyim deirsən, mana layiq qız **necə** olur? (s. 85). «Kitabi-Dədə Qorqud»un dilində formaca sual əvəzliyi olan leksik vahid məntiqi vurğu qəbul etməyə də bilir. Miqdar saylarında olduğu kimi, sual əvəzliklərində də bu hal sözün məna yükünün dəyişməsi ilə əlaqədardır. **Kim** atın binər, **kim** cövşən geyər (s. 74). Verilmiş cümlədə kim sözü konkretlikdən – şəxs anlayışını bildirməkdən çox, qeyri–müəyyənlik ifadə edir. Bu səbəbdən qeyri – müəyyən əvəzlik olmuş kim sözü – cümlənin mübtədası yox, xəbərin yanında gələn və hərəkətin obyektini bildirən tamamlıq məntiqi vurğulu olur – atın və cövşən.

Mənsubiyyət şəkilçili söz məntiqi vurğu qəbul edir.

At üstündə əglənməyüb yortan
Qazan, sənin **belin** olmuş.
Üzəngiyə dərmiyən **dizin** olmuş.
Xan qızı, hələlını tanımıyan **gözün** olmuş!
(s. 77)

Mikromətndə mənsubiyyət şəkilçisi və deməli, həm də vurğulu sözlərin təkrar olunan sintaktik quruluşlarda sistem təşkil etməsi başqa faktlarla yanaşı, mürəkkəb sintaktik bütövün komponentlərinin əlaqələnməsinə kömək edir.

Sam yelləri əsmədin, Qazan, **qulağım** çınlar.
Sərimsaq otın yemədin, Qazan, **içim** göynər.
Sarı yılan soqmadın **ağca** tənüm qalqar–şişər.
Qurumışca köksimdə **südim** oynar.

Yalınuzca oğul görünməz, **bağrım** yanar
(s. 72)

Əmr şəklində olan fellər məntiqi vurğu qəbul edir.

Qonur atlu Qazanı **tutun**,
Qarusından ağ əllərini **bağlan**,
Ğafillicə görklü başın **kəsin**,
Alca qanın yer yüzinə **dökün**,
Oğlilə ikisini bir yerdən **öldürün**
(s. 74)

Vurğulu sözlər felin şəxs kateqoriyasının morfoloji əlaməti ilə işlənir. Qalqubanı yerimdən **turam** derdim. Yelisi qara Qazluq atuma **binəyim** derdim. Qalın oğuz içinə **girəm**, derdim. Ala gözlü gəlin **alam**, derdim. Qara yerdə ağ otağlı… **dikəm**, derdim. Yürüyübəni oğulı ulu gərdəgə **keçürəm**, derdim. Murad ilə məqsuda **irgürəm**, derdim (s. 73). Burada birinci şəxsin təkinə aid şəxs şəkilçili sözlər məntiqi vurğu ilə tələffüz edilir.

Cümlədə perifrastik fel işləndikdə onunla yanaşı gələn xəbərin ad hissəsi məntiqi vurğulu olur. Qazanın bəgləri həb yetdi, üzərinə **yığnaq** oldı (s. 77)

«Kitabi –Dədə Qorqud»un mətnində bütün cümlə üzvləri məntiqi vurğulu ola bilir. Bu situasiyanı ən müxtəlif səbəblər – həmin sözlərin cümlə sonuna doğru yerdəyişməsi, məna tutumu və s. şərtləndirir:

– mübtəda xəbərin yanında gələrək məntiqi vurğu ilə tələffüz edilir. Xan babamın yanına **mən** varayın (s. 73). Mənim canımı alur olsan, **sən** alğıl (s. 81). Anun ardınca toquz qoca başları **Aruz** yetdi (s. 77).

– xəbər məntiqi vurğulu olur. Gumbır – gümbır tavullar **dögülmədi**. Ağır –ulu divanım **sürülmədi** (s. 75). Xanım baba, qorxuram səgirdərkən qonur atın **sürücdirəsən** (s. 74).

– tamamlıq məntiqi vurğulu olur. Bəg nökərdən, nökər **bəgdən** ayrıldı (s. 77).

– təyin məntiqi vurğulu olur. Qalqubanı yerindən **turan** Qazan!

– zərflik məntiqi vurğulu olur. Bu məhəldə Oğuz ərənləri **bir-bir** yetdi (s. 77). Dilək ilə bir oğulı **güclə** buldum (s. 73)

– əlavəli cümlə üzvü məntiqi vurğulu olur. Yedi gün **mən** Qazana möhlət vergil (s. 74).

§4. MƏTN VƏ İNTONASİYA

İntonasiya fonem, heca və vurğudan fərqli olaraq, sözün daxilində yox, ondan xaricdə baş verən fonetik prosesdir. Bu halda intonasiya minimum iki söz arasındakı münasibətin tənzimləyicisi rolunu oynaya bilir. O, ya leksik vahidlə leksik vahidi, bir yarımçıq sintaqmın sonu ilə digər yarımçıq sintaqmın əvvəlini əlaqələndirir (bitməmiş intonasiya), ya da bir cümlə kontekstindəki leksemi başqa cümlə kontekstindəki leksemdən ayırır (bitmiş intonasiya). Birinci hal bir cümlə vahidinin içərisində yarımçıq sintaqmlar arasında, ikinci hal mikromətn daxilindəki iki müxtəlif cümlənin sərhəddində baş verir. Hər bir halda intonasiyanı fonetik quruluş, leksik quruluş yox, məhz sintaktik quruluş – cümlənin (və daha böyük sintaktik vahid olan mətnin) sintaqmatik hüdudları müəyyən edir. Başqa sözlə, ayrıca götürülmüş fonetik vahiddə, leksik vahiddə intonasiya yoxdur və həmin sintaqmatik hüdudlardan kənarda o, mövcud ola bilməz. Bu baxımdan struktur – forma planında intonasiya sözdən asılı olmur, sözə quruluş ünsürü kimi xidmət etmir, onun tərkib hissəsini əmələ gətirmir. Ancaq bədii mətn daxilində funksional-məzmun planına görə intonasiya – söz rabitəsi olmamış deyil. Məlumdur ki, semantik – emosional çalarlıq yaratmaq baxımından cümlədə bir neçə əsas intonativ situasiya müşahidə edilir və bunlar nəqli, sual, əmr, nida cümlələrində ifadə olunur. Belə situasiyaları konkret şəkildə hər hansı dil yarusuna aid vahidlər yox, bədii tekstin funksional təyinatı müəyyən edir. Bu halda eyni informativ məzmun kiçik quruluş fərqi ilə eyni (və ya oxşar) cümlə vahidində azı üç intonasiyada deyilə bilər:

Bir gün Qam Ğan oğlı xan Bayındır yerindən turmışdı (I b., s. 34)
Xan qızı, yerimdən turayınmı? (I b., s. 35)
Yerindən uru turğıl! (I b., s. 35)\

Təbii ki, leksikanın vahidi leksem, sintaksisin vahidi cümlə üçün hər hansı intonativ situasiyanın mövcudluğu əhəmiyyətli olmasa da, bədii mətn nəinki bu məqamda neytral qalmır, əksinə, bu və ya digər semantik-emosional intonativliyi özü müəyyən edir.

Bu baxımdan bədii tekstlərdə iki növ intonativliyi – cümələdaxili və mətndaxili intonasiyaları fərqləndirmək mümkündür. Cümlədaxili intonasiya cümlənin məzmun komponentləri, cümləyə quruluş ünsürü kimi xidmət edən daha böyük dil vahidləri – sözlər və söz birləşmələri arasında olur. Odur ki, cümlədaxili intonasiya tabesizlik əlaqəsinin olduğu və tabelilik əlaqəsinin iştirak etmədiyi kommunikativ intervallarda müşahidə edilir. Belə kommunikativ intervallar cümlə daxilindəki söz və yarımçıq sintaqm hüdudlarında reallaşır. Cümlədaxili intonasiya üç əsas formada təzahür edir:

a) sözlə söz arasında; Bu zaman kommunikativ interval bir leksemi başqa leksemdən intonativlik çərçivəsində ayırır. Varın, götürün öldürəyim (I b., s. 37). Ölmüşmiydin, yitmişmiydin, a Qazan (s. 45). Oq atışın görəyim, sevinəyim, qıvanayım, güvənəyim (I b.. s. 37).

b) sözlə yarımçıq sintaqm arasında; İntonasiya sonra gələn yarımçıq sintaqmı (və ya sözü) ondan əvvəlki sözdən (və ya yarımçıq sintaqmdan) ayırır. Qanda gəzərdin, nerədəydin, a Qazan (s. 45). Ağzın qurısın, çoban! (s. 45). Çobanı gördüğində xəbərləşdi (s. 45). Qazan qara köpəklə xəbərləşdi, görəlim, xanım, nə xəbərləşdi (s. 45).

c) iki yarımçıq sintaqm arasında; İntonasiya yanaşı gələn yarımçıq sintaqmları ayırır. Ağ saqallu qocanın ağzın sögdi (Ib.. s. 37). Quş uçurıb, av avlayıb, oğlını oxlayıb, öldirə görgil (s. 37). Uc toqundı, alca qanı şorladı, qoynı toldı (I b., s. 37). İntonasiya mürəkkəb cümlənin tərkib hissələrini ayırır. Kiminün boynın urdı, kimini tutsaq elədi (s. 41). Bənim suçum nə oldı kim, qara otağa qondurdı (I b., s. 35).

Təkrar olunan sintaktik konstruksiyalardan ibarət cümlələrdə isə intonasiya təkrar edilən sintaktik quruluşlarda yerləşən sintaqmlar arasında olur:

Babam at səgirdişimə baqsun, qıvansun,
oq atışıma baqsun, güvənsün
qılıc çalışuma baqsun, sevinsin!
(I b.. s. 37)
Sənin oğlın kür qopdı, ərcəl qopdı
(I b., s. 37)

Mətndaxili intonasyia mürəkkəb sintaktik bütövün tərkib hissələrini təşkil edən cümlə vahidləri arasında kommunikativ intervallar yaradır və bu intonativlik cümlə daxilindəki ayırıcı intonativlikdən xarakterinə görə fərqlənir. O elə formada üzə çıxır ki, sintaktik mətn (mürəkkəb sintaktik bütöv) daxilindəki bir cümlənin sonu ilə növbəti cümlənin başlanğıcını üzvi şəkildə əlaqələndirmiş olur, sanki onun tamamlanmadığını. məzmun informativliyi baxımından və formaca yarımçıq qaldığını üzə çıxarır.

Dirsə xan dişi əhlinin sözilə ulu toy elədi, hacət dilədi. Atdan, ayğırdan, dəvədən buğra, qoyundan qoç qırdırdı. İç Oğuz, Taş Oğuz bəglərin üstinə yığnaq etdi. Ac görsə, toyurdı. Yalın görsə, tonatdı. Borcluyı borcından qurtardı. Dəpə kibi ət yığdı. Göl kibi qımız sağdırdı. Əl götürdilər, hacət dilədilər. Bir ağzı dualının alqışilə allah-təala bir əyal verdi. Xatunı hamilə oldı. Bir neçə müddətdən sonra bir oğlan toğurdı. Oğlancuğını dayələrə verdi, saqlatdı (I b., s. 35).

Başqa misal. Böylə digəc qırq incə qız yayıldılar, tağ çiçəgi döşürdilər. Oğlanın anası əmcəgin bir sıqdı, südi gəlmədi. İki sıqdı, südi gəlmədi. Üçüncidə kəndüyə zərb eylədi, qanı toldı. Sıqdı, südlə qan qarışıq gəldi. Tağ çiçəgilə südi oğlanın yarasına urdılar. Oğlanı ata bindirdilər, alubanı

ordısına gətdilər. Oğlanı həkimlərə ısmarlayub, Dərsə xandan saqladılar (I b., s. 39).

Ancaq növbəti mürəkkəb sintaktik bütövün ilk cümlə vahidi ilə əvvəl gələn sintaktik vahidin sonuncu cümlə vahidi arasında artıq bu cür birləşdirici intonasiya özünü göstərmir. Bunu «Kitabi –Dədə Qorqud»un mətnində bir– birinin ardınca gələn və müxtəlif abzaslarda yerləşmiş üç ayrı-ayrı mürəkkəb sintaktik bütövün nümunəsində də görmək mümkündür:

I abzas. At ayağı külük, ozan dili çevik olur. İyəgülü ulalur, qapırğalı böyür. Oğlan on beş yaşına girdi. Oğlanın babası Bayındır xanın ordısına qarışdı.

II abzas. Məgər xanım, Bayındır xanın bir buğası vardı, bir dəxi buğrası vardı. Ol buğa qatı taşa buynuz ursa, un kibi ügidərdi. Bir yazın, bir güzin buğayla buğrayı savaşdırarlardı. Bayındır xan Qalın Oğuz bəglərilə təmaşaya baxardı, təfərrüc edərdi.

III abzas. Məgər sultanım, genə yazın buğayı saraydan çıxardılar. Üç kişi sağ yanından, üç kişi sol yanından dəmür zəncirlə buğayı tutmışlardı. Gəlüb meydan ortasında qoyu verdilər. Məgər sultanım, Dirsə xanın oğlancığı, üç dəxi ordı uşağı meydanda aşuq oynarlardı. Buğayı qoyu verdilər, oğlancıqlara «qaç» dedilər. Ol üç oğlan qaçdı, Dirsə xanın oğlancuğı qaçmadı. Ağ meydanın ortasında baxdı –turdı. Buğa dəxi oğlana sürdi–gəldi. Dilədi ki, oğlanı həlak qılaydı. Oğlan yumrığilə buğanın alnına qıya tutıb çaldı. Buğa kötin–kötin getdi. Buğa oğlana sürdi, gerü gəldi. Oğlan genə buğanın alnına yumruğilə qatı urdı. Oğlan bu qatla buğanın alnına yumrığını tayadı, sürdi, meydanın başına çıqardı. (I b., s. 36).

Bu cür intonativlik ancaq sintaktik mətn komponentlərində müşahidə edildiyindən o, həm də bədii tekstə məxsus intonasiya hesab olunur. Bu səbəbdən o, şərti olaraq tekstual intonasiya, cümlədaxili intonasiya isə cümlə vahidinin sintaqmatik hüdudlarında (sözlə söz, sözlə yarımçıq

sintaqm və yarımçıq sintaqmlar arasında) yarandığından sintaqmatik intonasiya adlandırıla bilər. Hər iki intonasiya növü xarakterinə görə bir –birindən fərqlənsə də, bədii mətn sintaktik mətnə, sonuncu isə öz növbəsində ayrı –ayrı cümlə vahidlərinə üzvləndiyinə görə tekstual intonasiya cümlə intonasiyasını tamamlayır. Sintaktik mətn forma və həcm baxımından daha böyük dil vahidi olduğuna görə ona məxsus bəzi tekstual funksionallıqlar, o cümlədən intonasiya da mətndən kiçik dil vahidlərində olduğundan daha böyük sintaqmatik vahid kimi xarakterizə olunur. Bununla belə, sintaqmatik intonasiyanı (cümlə intonasiyası) ancaq şərti şəkildə, tekstual intonasiyanın (mətn intonasiyası) tərkib hissəsi hesab edə bilərik. Çünki tekstual intonasiya ayrı–ayrı sintaqmatik intonasiyalardan ibarət olmur, sintaqmatik intonasiyalar da öz növbəsində birləşib, vahid tekstual intonasiya əmələ gətirmirlər. Yəni hər iki intonasiya növü müvafiq kontekst çərçivəsində – cümlə və mürəkkəb sintaktik bütöv daxilində ayrı–ayrılıqda real olur və başqa dil səviyyələrində, misal üçün, sintaksisdə olduğu kimi, quruluşca sadə olan quruluşca mürəkkəb olanın struktur komponentinə çevrilmir. Eyni zamanda cümlədəki hər bir sintaqmatik hüdud və eləcə də tabesizlik əlaqəsi ilə birləşmiş sözlər sintaqmatik intonasiya ilə əhatələnir. Deməli, cümlədəki yarımçıq sintaqmların və tabesizlik əlaqəsi ilə birləşmiş sözlərin sayı qədər cümlədaxili intonasiya olduğundan, bu intonasiya cümlə bitənə qədər müəyyən intervallarda bir neçə dəfə təkrarlanır. Eynilə həmin intonativlik cümlə vahidi qurtardığı məqamda, cümlənin tamamlandığı sonuncu sözdən sonra da mövcud olur. Əgər cümlə vahidi mətnin əvvəlində və ya mürəkkəb sintaktik bütöv içərisində yerləşən sintaktik mətn komponenti olmursa, cümlə sonu intonasiya əvvəlki xarakterində qala bilir. Mürəkkəb sintaktik bütövlərin sonuncu cümlə vahidini buna misal göstərmək olar. Oğlan keyiki qovarkən babasının ögindən gəlüb –gedərdi. Dərsə xan Qorqut sinirli qatı yayın

əlinə aldı. Üzəngiyə qalqıb, qatı çəkdi, uz atdı: oğlanın iki talusının arasında urub çıqdı, yıqdı. Uc toqundı, alca qanı şorladı, qoynı toldı. Bədəvi atının boynın qucaqladı, yerə düşdi. (I b., s. 37). Burada sonuncu cümlə vahidinin bitmə intonasiyası ondan əvvəlki sintaqmatik intonasiyalarla xaraktercə eyni kökdə olur. Odur ki, aşağıda verilən nümunədə sonuncu cümlə intonasiyası və cümlədaxili digər intonasiyalar eyni şəkildə işarələnirlər. Dərsə xan istədi kim, oğlancuğın üstinə körəlib düşəydi, ol qırq namərd qomadı. Atının cilovsın döndərdi, ordısına gəlür oldı. (I b., s. 37).

Mürəkkəb sintaktik bütövün içərisində yerləşən cümlələrə məxsus sonuncu sözdən sonra gələn sonuncu bitmə intonasiyası isə artıq xarakterinə görə sintaqmatik intonasiya olmayıb, sintaktik mətn vahidlərinin kommunikativ intervallarını təşkil edən ***tekstual intonasiyadır***. Mürəkkəb sintaktik bütöv komponentlərinin belə kommunikativ intervalları cümlə intonasiyasından fərqli şəkildə işarələnir. Dərsə xan oğlana bəglik verdi, təxt verdi. Oğlan təxtə çıqdı. Babasının qırq yigidin anmaz oldı. Ol qırq yigit həsəd eylədilər. Bir–birinə söylədilər: «Gəlün, oğlanı babasına quvluyalum. Ola kim, öldürə, genə bizim izzətimiz, hörmətimiz olun babası yanında xoş ola, artıq ola », –dedilər (I b., s. 36).

Beləliklə, ayrıca götürülmüş cümlə vahidinin sonuncu (tamamlayıcı) cümlə intonasiyası sintaktik mətn daxilində tekstual intonasiya ilə əvəz olunur. Başqa sözlə, tekstual intonasiya həm də mətn intonasiyasına çevrilmiş cümlə intonasiyasıdır.

Ümumilikdə, bütün bunlar sintaqmatik fonetikada normativ intonasiya kimi səciyyələnirlər. Cümlədəki kommunikativ intervalların ikinci böyük qütbünü emosional intonasiya təşkil edir. Hər iki intonasiya növü bəzi göstəricilərinə görə bir –birindən seçilir. Normativ intonpasiya istər cümlə vahidi, istərsə də mətn vahidi daxilində mövcud olduğu halda, emosional intonasiya ancaq tam sintaqmda

reallaşır və bu zaman cümlə vahidini bütövlükdə müşayiət edir. Hər iki intonasiya növü bir–birindən asılı deyil və heç bir halda biri digərinə təsir göstərə bilmir. Onlar bipr –birinə münasibətdə müstəqilliyini qoruyub saxlayır, eyni cümlə vahidində birlikdə iştirak edirlər. Normativ intonasiyadan fərqli olaraq, emosional intonasiya cümlədaxili ayrı-ayrı kommunikativ intervallarla deyil, ümumcümlə kontekstində, cümlə vahidinə məxsus ümumi intonativlikdə müəyyən olunur. Bununla belə, onları birləşdirən ümumi cəhət, birini digərinə yaxınlaşdıran xüsusiyyətlər də yox deyil. Emosional intonasiya, bir qayda olaraq, normativ intonasiyada intişar tapır və cümlə daxilindəki kommunikativ intervalların ancaq birində yaranır. Belə kommunikativ interval həmişə vurğulu sözün yanına düşür və onun fərqləndirici tona malik intonasiyası ilə qovuşur.

Sual cümlələrində:

Böylə oğıl sənin nənə gərək? (I b., s. 37)
Oğlandır, nə bilsün? (I b., s. 37)
Qara gərdunda bulduğum oğul qanı (I b., s. 38)
…Ordun üstinə kimi qorsan? (II b., s. 42)
Yarımasun – yarçımasun, bu çoban bizim həpimiz qırar, olamı? (II b., s. 44)
Ağan Qazanın namusını sındırayınmı? (II b., s. 47)
Ərəbi atlar olan yerdə bir qulunı olmazmı olur? (II b., s. 47)

Nida cümlələrində:

Tənrinin birliginə yoqdır güman! (II b., s. 47)
Arqırı söyləmə, mərə, itüm kafər! (II b., s. 43)
Ağ saqallu baban yeri uçmaq olsun! (II b., s. 40)
Qamən aqan görkli suyın qurumasın!

(II b., s. 40)

Qırq yoldaşım, aman! (II b., s. 40)

Görərmisin, ay oğul, nələr oldı?! (II b., s. 40)

Böylə oğıl mana gərəkməz ! (I b., s. 37)

Nümunələrdən göründüyü kimi, vurğulu söz, vurğulu sözün xüsusi intonasiyası emosional intonativliyin yaranmasında xüsusi rol oynayır. Yuxarıdakı sual cümlələrində sual əvəzlikləri və şəkilçiləşmiş sual ədatının (-mı, -mi, -mu, -mü) qoşulduğu fellər məntiqi vurğulu olduqlarından onların xüsusi intonasiyası emosional intonativliyə çevrilir. Nida cümlələrində isə xitabla yanaşı gələn təyin, inkarlıq bildirən yoq predikativi, inkarlıq şəkilçisi qəbul etmiş fellər, perifrastik fellərin ad hissəsi, habelə nidalar belə intonativliyin əmələ gəlməsinə səbəb olurlar.

Cümlədaxili intonasiyalar müxtəlif yüksəkliklərdə (tonlarda) ola bilir. Xitab və vurğulu sözlərdə intonativ ton kommunikativ intervallardakı intonativ tonlardan fərqlənir. Kommunikativ intervallardakı intonasiya müxtəlif cinsli olub, ayrı–ayrı dil vahidlərini, onların yerləşdiyi sintaqmları ya ayırır, ya da birləşdirir. Bu zaman yarımçıq sintaqmlararası intonasiya həmcins üzvlərin intonasiyasından, mətndaxili intonasiya isə hər ikisindən seçildiyinə görə, birincisi ***ayırıcı tona***, ikincisi ***sadalama tonuna***, sonuncu isə ***birləşdirici tona*** malik olur. Ancaq xitablar, vurğulu sözlər, bir qayda olaraq, eynicinsli yüksək tonlu intonasiya ilə xarakterizə edilirlər.

Kommunikativ intervallara düşən ton normativ intonativliyi təmsil etdiyi halda, vurğulu sözlərin, xitabların intonativ tonu emosional intonasiyaya daha yaxın olur və müxtəlif formalarda üzə çıxır.

Cümlədə vurğulu sözün yerləşdiyi yarımçıq sintaqmdakı sintaktik quruluş təkrar olunduqda cümlənin iki vurğulu sözü və eyni miqdarda da yüksək tonlu intonasiyası olur.



Xitabların təkrarı da oxşar situasiyaların formalaşmasına səbəb olur və mətndə emosional intonativlik yaradır.



Yarımçıq sintaqmlararası intonasiya, adətən, ayırıcı xarakterdə olur. Lakin bəzən də yarımçıq sintaqmdan sonrakı intonasiya növbəti sintaqmatik parçaları nəinki ayırmır, əksinə, onların arasında birləşdirici fonetik komponent rolunu oynayır. On beş bin kafər; kimi qırıldı, kimi tutuldlı (s. 77). Burada birinci yarımçıq sintaqmdan sonra gələn kommunikativ intervaldakı intonasiya aydınlaşdırıcı, izahedici tonlara malik olduğundan tam sintaqmın sonrakı hissələrinin işlənməsini tələb edir; verilmiş konkret yazılı kommunikativlikdə yarımçıqlıq yaradır. Buna baxmayaraq birinci yarımçıq sintaqmı növbəti yarımçıq sintaqmlardakı kimi formal qrammatik göstəricilər tamamlamır. Bu isə göstərir ki, sintaqmatik hüdudlar ilə sintaktik vahidlərin qrammatik formalarla sərhədlənmiş hüdudları eyni olmaya bilir.

İntonasiya da yazıda işarəsi olmayan fonetik vahidlərdəndir. Bununla belə, müxtəlif dil səviyyələrinə aid vahidlər intonasiyanın müəyyən edilməsi üçün vasitə rolunu oynaya bilir. Belə ki, sadalanan leksik vahidlər (həmcins üzvlər) arasındakı kommunikativ intervallar cümlənin başqa üzvləri arasında olan intervallardan uzunluq dərəcəsinə görə seçilir. Bu məqam onları intonativ situasiyalar kimi fərqləndirməyə imkan verir. Məsələn: Oq atışın görəyim, sevinəyim, qıvanayım, güvənəyim (Ib., s. 37). Keyiki qovardı, gətirərdi (I b., s. 37). Babam at səgirdişimə baqsun, qıvansun (I b., s. 37). Nümunələrdəki həmcins xəbərlər sadalama intonasiyasını əmələ gətirir və onları bir-birindən bu intonativlik ayırır. Sadalanan həmcins üzvlərin iştirak etmədiyi cümlə vahidlərində isə belə intonativlik olmur. Məsələn: Bayındır xanın qatında sana qəzab ola (Ib., s. 37). Böylə oğıl mana gərəkməz (I b., s. 37). Xatunı hamilə oldı (I b., s. 35).

Cümlədə yarımçıq sintaqmların mövcudluğu onLardan sonra cümlədaxili intonasiya olduğunu bildirir. Məsələn: sənin oğlın yerindən uru turdı, köksi gözəl qaba tağa ava çıqdı (I b., s. 37). Həmin intonativlik cümlənin yarımçıq sintaqmlarını aşağıdakı kimi ayırmağa imkan verir:

Sənin oğlın
yerindən uru turdı
Köksi gözəl
qaba tağa
ava çıqdı

Cümlədaxili intonasiyanı təkcə söz və söz birləşmələri yox, tabesiz və tabeli mürəkkəb cümlələrin komponentləri də müəyyən edir. Varın, gətürün, öldürəyim (I b., s. 37). Dərsə xanın nökərləri aydır: «Biz sənin oğlını necə gətürəlim…» (I b., s. 37).

Cümlədaxili intonasiyanın müşahidə olunduğu kommunikativ intervallarda bağlayıcılar və xüsusilə, tabesizlik bağlayıcıları yerləşir. Bunlar öz vəzifəsi baxımından, konkret

morfoloji (və həm də sintaktik) normalılığa görə ayrı-ayrı sözlər, yaxud söz birləşmələri və cümlə – komponentlər arasında əlaqə yaradırlar. Ancaq «Kitabi – Dədə Qorqud»un mətnində elə cümlə nümunələri də var ki, tabesizlik bağlayıcıları belə funksionallıqdan çox, intonem vəzifəsini yerinə yetirir, başqa sözlə, intonativliyin yazılı ifadəsinə xidmət edirlər. Yigidin gözü bir dəniz qulunı boz ayğırı tutdı, bir də altı pərli gürzi, bir də ağ tozlu yayı tutdı (I b., s. 53). Verilmiş cümlədə ikinci dəfə işlənən bir də bağlayıcısının mövcudluğu onun normativ qrammatik fakt deyil, yardımçı fonoloji vasitə olduğunu göstərir. Bu cür məqamlarda tabesizlik bağlayıcısının leksik vahiddən çox, intonem olmaq ehtimalı daha güclüdür:

Aydır: «Marə bəzırganlar, bu ayğırı və dəxi bu yayı və bu gürzi mana verin!» – dedi (I b., s. 53)

Aydır: «Marə bəzırganlar, bu ayğırı, dəxi bu yayı, bu gürzi mana verir!» –dedi.

«Kitabi-Dədə Qorqud»un dilində bu situasiyada daha çox və bağlayıcısı çıxış edir. Beyrək aydır: «Ağanızın başı və gözi sədəqəsi, köhnə qaftanınuz var isə, geyəyin, düğünə varayın…» (III b., s. 62). Beyrəgə və anasına və qız qardaşlarına muştçı gəldi (III b., s. 56). Qılıc və sügü və çomaq və sair cəng alətin geydirüb tonatdılar (s. 120).

Eyni bir söz cümlədəki yerindən (sıralanmağından), vurğulu olub-olmamasından asılı olaraq, ayrı-ayrı intonasiyalarla səciyyələnir; ya adi normativ, ya da emosional intonativliyə malik olur. Mən səni böylə ***bilməz*** idim (s. 86). Qalqubanı yerimdən ***mən*** turayım (s. 70). Əvət ***mənəm*** (s. 80). Məlumdur ki, xəbərin yanında gələn cümlə üzvü, adətən, məntiqi vurğu ilə deyilir. Birinci cümlədə inkarlıq şəkilçisi qəbul etmiş fel məntiqi vurğulu olduğundan birinci şəxsin təkinə aid əvəzlik normativ (adi) intonasiyalıdır. İkinci cümlədə xəbərlə yanaşı işlənmiş mübtədanı bildirən şəxs əvəzliyi məntiqi vurğulu və həm də emosional intonasiyalıdır.

Üçüncü cümlədə də həmin əvəzlik həm xəbər vəzifəsindədir, məntiqi vurğuludur, həm də emosional intonasiyaya malikdir.

Bəzən sintaktik mətnin (mürəkkəb sintaktik bütövün) əvvəli ilə sonunda leksik vahidlər və sintaktik quruluş təkrar olunduğuna görə onlara məxsus intonativlik də təkrarlanmalı olur və özünəməxsus fonotekstoloji model yaranır. Qazan bəg əlin əlinə çaldı, qas-qas güldi, aydır: «A bəglər, Uruz xub söylədi, şəkər yedi. Siz yegüniz-içüniz, söhbətinüz tağıtmanuz. Mən bu oğlanı alayın, ava gedəyin. Yedi günlük azuğla çıqayın. Ox atduğım yerləri, qılıc çalub baş kəsdügim yerləri göstərəyim. Kafər sərhəddinə, Cızığlara, Ağlağana, Gögcə tağa aluban çıqayın. Sonra oğlana gərək olur, a bəglər!» -dedi (IY b., s. 69). Verilmiş sintaktik mətnin əvvəlində aydır sözündən normativ intonasiya ilə ayrılan müraciət bildirən leysik vahid (a bəglər) gəlir və xitablara məxsus yüksələn tonla xarakterizə olunur. Belə intonativlik struktur komponentlərin əksinə sıralanması ilə sintaktik mətnin sonunda ikinci dəfə təkrarlanır:

Mürəkkəb sintaktik bütövün əvvəli:

normativ intonasiya + müraciət intonasiyası (yüksələn ton)

(Aydır a bəglər)

Mürəkkəb sintaktik bütövün sonu:

müraciət intonasiyası (yüksələn ton) + normativ intonasiya

(a bəglər dedi)

Mətnin əvvəli ilə sonundakı belə növbələşmə tekstdə xüsusi effektliyə səbəb olur. Fonotekstoloji model mətni başlayır və qapayır.

§5. MƏTN VƏ AHƏNG QANUNU

Bədii mətnə məxsus fonoloji strukturda ahəng qanunu xüsusi fonotekstoloji detal kimi təzahür edir. Onun fonoloji hüdudları yalnız leksik vahidlə müəyyən olunmur, sözdən söz birləşməsinə, cümləyə və daha böyük quruluş vahidi olan sintaktik mətnə keçir. Və normativ fonetikadakı heca ilə hecanın sait uzlaşmasını burada söz ilə sözün sintaqmatik uzlaşmaları tamamlayır. Adətən, belə uzlaşmalar cümlədaxili yarımçıq sintaqmlar arasında olur. Bu zaman sintaqmatik hüdudları bir dəfə qalın, bir dəfə incə sait səslər (yaxud əksinə) müşayiət edir:

Tölə – tölə – incə
şahbaz atlarını – qalın
bindilər (s.42) – incə

Anlar – qalın
eylə digəc – incə
At ağuzlu Aruz Qoca – qalın
iki dizinin üstinə çökdi (s. 42) – incə

Qarıcıq anasını – qalın
biz gətürmişiz (s. 42) – incə

Qatar– qatar – qalın
dəvələrini yetmişüz (s. 43) – incə

Belə ahəng tipini aşağıdakı kimi formullaşdırmaq olar:

İ + İ – Q + Q

Qeyd: burada **İ** – incə saitlərin ahəngini, **Q** – qalın saitlərin ahəngini bildirir.

Digər ahəng tipində ayrı-ayrılıqda ön sıra və arxa sıra saitli sözlər yanaşı işlənmirlər. Yarımçıq sintaqmın tərkibindəki leksemlərin biri qalın, digəri incə saitli (yaxud əksinə) olur. Ahəng tipi bu cür formullaşdırıla bilər:

İ + Q – İ + Q

Birin atanda – İ + Q
ikisin-üçin yıqdı (s. 43) – İ + Q

İki qardaşı – İ + Q

oxa düşdi – Q + İ
şəhid oldı (s. 42) – İ + Q

Bədii tekstdə struktur hissələrədən biri kimi özünü göstərən ahəng qanununu digər fonetik vahidlərə (heca, vurğu) yaxınlaşdıran amillərdən biri onun fonetikanın vahidi fonemlə birbaşa bağlılığıdır. Belə bağlılıq ilk baxışda birtərəfli görünsə də, konkret halda hər növ fonem (istər sait, istərsə də samit səslər) sinharmonizmin fonoloji hadisə kimi müəyyən olunmasında bu və ya digər dərəcədə rol oynayır. Burada məntiq çox sadədir; fonoloji olan fonemdən kənarda real deyil. Eyni zamanda sinharmonizmin funksional gücü daha çox sait fonemlərin iştirakı ilə üzə çıxır. Məlumdur ki, saitlərin ahəngi dildə normativ fonoloji hadisədir. Ancaq mətndə ayrı-ayrı sözdaxili harmoniyaların bütövlükdə cümlədaxili harmoniya ilə tamamlanması sonuncunu şəksiz bədii fiqura çevirir.

Sait uzlaşmaları bədii mətnə, birinci növbədə, quruluş vahidi kimi xidmət göstərir. Bədii mətnə məxsus struktur-forma elementlərindən biri isə qafiyədir. Şer-mətnlərdə qafiyənin yaradılmasında sait uzlaşmaları böyük rol oynayır.

Bu mənada qafiyə həm də eyni cinsli sait səslərin uzlaşmasıdır. Nümunəyə baxaq:

Qarşu yatan qarlı qara tağlar,
Qarıyıbdur, otı bitməz.
Qanlu-qanlu ırmaqlar,
Qurıyıbdır, suyı gəlməz.

Nümunədəki ikikncı və dördüncü misralarda [ı] və [ə] səsləşmələri bu funksiyanı yerinə yetirir.



Bədii mətnin tekstual balansında iki ahəng tipi fərqləndirilir: leksik ahəng və tekstual ahəng. Leksik ahəng leksik vahidlərdə adi sait uzlaşmalarıdır. Yarımçıq sintaqm daxilində hər hansı sözə məxsus eynicinsli (dilarxası, ya dilönü) sait uzlaşmaları növbəti sözün eyni cinsli sait uzlaşmaları ilə növbəli şəkildə əvəzləndikdə adi ahəng tekstual ahəngə çevrilir. Boyı uzun Burla bunı eşitdi, yürəgilə canına odlar düşdi (s. 46). «Kitabi-Dədə Qorqud»dan gətirdiyimiz nümunədə dilarxası ahəng ilə dilarxası ahəng (Boyı uzun Burla bunı) və dilarxası ahəng ilə dilönü ahəng (bunı eşitdi; yürəgilə canına odlar düşdi) növbəli şəkildə əvəzlənirlər. Tekstual ahəngdə diqqəti çəkən məqamlardan biri assonansla əlaqədardır. Assonans da öz növbəsində eyni növdən olan sait səslərin bir–biri ilə uzlaşmasıdır. Bu halda ən azı bir sait səsin təkrarı ahəng yarada bilir. Yalnuz qaldım (s. 46; a səsi), əllərin çözdi (s. 46; i səsi), Şökli Məlik (s. 46; i səsi), qadir tənri (s. 47; i səsi), ağboz atın (s. 47; a səsi), qəbul olsun (s. 47; u

səsi), yeyüb-içüb (s. 53; ü səsi) və s. Belə situasiyalarda bir sait fonemin təkrarından ibarət olan strukturlarda təkrar olunan saitlər eyni mövqedə durmalıdırlar. Əks halda, başqa cür sıralanma tekstual ahəng yaratmır. Məsələn, altmış tutam (s. 46) birləşməsində təkrar olunan [a] saiti, uçmaq olsun birləşməsində təkrar olunan [u] saiti hər iki sözün ayrı-ayrı mövqeyində (birində söz əvvəlində, digərində söz sonunda) yerləşdiyindən lazım olan effekti vermir. Əksinə, qatı yayın (s. 46), böylə digəc (s. 41) birləşmələrində, eləcə də «Oğul, çoban, qarnım acdır» (s. 46) cümləsinin hər iki yarımçıq sintaqmında **a – a**, **ı – ı**, **ə – ə**, **o – o** və **aı – aı** təkrarları sözün eyni mövqelərinə düşdüyündən güclü tekstual ahəng əmələ gətirirlər.

Bundan asılı olaraq «Kitabi–Dədə Qorqud»un mətnində tekstual ahəng üç formada təzahür edir. Birincisi, bir sözün saitlərdən ibarət fonetik strukturu növbəti sözdə və ya sözlərdə tam şəkildə təkrar olunur.

Yata – yata yanımız ağrıdı (s. 42).
a- ı - ı a -ı - ı
Oğlancuğına qarşu varub (I b., s. 40)
a -u a – u

Bu cür sait uzlaşmaları yarımçıq sintaqmın tərkib hissələrində olur.

Boyı uzun Burla xatun yesir getdi (II b., s. 43)
e-i e – i
Bir ağ tozlu qatı yay aldılar (III b., s. 53)
a- ı -a a- ı –a
Baş endirdi, bağır basdı (III b., s. 55)
a –ı a – ı

Uzlaşma tam sintaqmın tərkib hissələrində müşahidə olunur.

Ağam Qazan, yetdim, dedi (II b., s. 49)

a –a a – a e – i e–i
Sorar olsam, sağmı arğış?! (III b., s. 58)
o – a o–a a – ı a–ı

İkincisi, bir sözün saitlərdən ibarət səs tərkibi sonrakı sözdə (və ya sözlərdə) yarımçıq şəkildə təkrar olunur. Suçı yoqdır (s. 39; ı saiti). Qarşu yatan qarlı qara tağlar (s. 49; a saiti).

Üçüncüsü, eyni fonetik tərkibin qalın və incə variantları bir-birini izləyir. Bu vaxt eyni sintaqmın ayrı-ayrı sözlərində yaxın məxrəcli qalın və incə saitlər işlənirlər.

Bərü gəlgil, başım bəxti… (I b., s. 38)

başım – a – ı
| | |
bəxti – ə – i

Kafərin gözi qorqdı (II b., s. 47)

gözi – ö – i
| | |
qorqdı – o – ı

Karvan kibi qondı, köçdi (I b., s. 41)

qondı – o – ı
| | |
köçdi – ö – i

Qadir tənri səni nasmərdə möhtac eyləməsün, xanım, hey!.. (I b., s. 40)



«Kitabi–Dədə Qorqud»un mətnində eyni fonetik strukturun qalın və incə variantlarının növbələşməsi daha çox cümlə sonu qafiyələnən leksik vahidlərdə müşahidə olunur.

At yemiyən acı otlar [bitincə] bitməsə yeg
i -i - ə i - ə -ə
Adam içməyən acı sular sızınca, sızmasa yeg (müqəd., s. 32)
ı -ı - a ı - a -a

Aşağıdakı nümunələrdə də tekstual ahəng eyni sait strukturun maksimum və ya yaxın dəqiqliklə bir-birini izləməsi formasında təzahür edir.

Qarşu yatan qara tağım yıqılubdır,
ı -ı -u - ı
Ozan, sənin xəbərin yoq.

Kölgəlicə qaba ağacım kəsilübdir,
ə -i -ü - i
Ozan, sənin xəbərin yoq (III b., s. 62)

Apul-apul yürişindən
ü-i -i - ə
Aslan kibi turışından
u-ı -ı -a
Ağam Beyrəgə bənzədürəm, ozan, səni…
(III b., s. 62)
Ağam Beyrək gedəli
bizə ozan gəldügi yoq
ə - ü -i
Əgnimizdən qaftanımuz alduğı yoq (III b., s. 62)
a -u -ı
Dilün içün öləyin, gəlincigüm!
ö - ə -i
Yolına qurban olayın, gəlincigüm! (III b., s. 66)
o -a-ı

NƏTİCƏ

1.Müvafiq dil səviyyələrinə aid vahidlərin yeni sözlərin əmələgəlmə prosesinə öz münasibəti müəyyənləşir. Morfologiyada morfem (söz kökünə əlavə olunmaqla), leksikada leksem (mənasını daraldıb genişləndirməklə), sintaksisdə sözlərin yanaşma üsulları bu prosesdə həlledici rol oynayır. Bu baxımdan fonetikanın vahidi fonem də yeni sözlərin əmələ gəlməsində sistemli şəkildə iştirak edir. Fonemin sözyaradacı vasitə kimi funksionallığı «Kitabi – Dədə Qorqud»un mətnində daha aydın şəkildə təzahür edir və tekstual əhəmiyyət kəsb edən yen söz və ifadələrin yaranmasına səbəb olur. Məsələn, qan sözündə kökün səs strukturundakı dilarxası, açıq, dodaqlanmayan sait fonem dilarxası, qapalı, dodaqlanan saitlə əvəz olunaraq əsas tərəf (orijinal söz) ilə bir yerdə işlənir, ondan sonra gəlir və mürəkkəb isim əmələ gətirir. Bu zaman yeni yaranmış ikinci tərəf, təbii ki, ayrılıqda işlənə bilmir və leksik məna daşımır. Vardı, könləgi qana-quna baturdı, Bayındır xanın öginə gətürib bıraqdı (III b., s. 58). Bin dəxi xaraca-qaraca bürələr dilədi (III b., s. 56). Dədə aydır: «Yarımasun-yarçımasun, Dəli Qarçar eylə mal istədi ki, heç bitməsün!» – dedi (III b., s. 56).

2. İstənilən fonem istənilən mətn daxilində aktuallıq nümayiş etdirə bilər. Ancaq danışıq səsinin fonotekstoloji keyfiyyəti, bir qayda olaraq, bədii mətnlərdə üzə çıxır və danışıq səsini bədii tekstual element kimi səciyyələndirir. Ümumiyyətlə, fonotekstoloji xüsusiyyətin özü daha geniş anlayış olub, ayrı-ayrılıqda fonem, heca, vurğu, intonasiya və s. fonetik vahidlərlə bağlı bədii aktivliyi, onların bədii tekstdəki rolunu nəzərdə tutur. Fonetik vahidlərin hər biri müəyyən situasiyalarda bədiilik momentini doğura bilər və bunu minimum şəkildə yerinə yetirdikdə fonotekstoloji predmetə çevrilmiş olur.

3. Fonotekstoloji müəyyənlik ilkin olaraq fonem – mətn münasibətlərində təzahür edir. Bu kontekstdə aparıcılıq fonemə deyil, mətnə – bədii tekstə mənsubdur. Məhz mətn fonemin həm kommunikativ vahid kimi müəyyən olunmasına imkan yaradır, həm də tekstual vahid kimi onun bədii mətndə yerini müəyyən edir. Bu mənada aparıcı funksiyalılıq baxımından hər iki nitq vahidi – fonem də, mətn də oxşar vəzifə yerinə yetirir və bir-birindən qarşılıqlı şəkildə asılı olurlar. Fonemsiz kommunikativ parça – mətn, mətnsiz fonotekstual element–fonem mümkün deyil. Fonotekstuallıq fonemin və digər fonetik vahidlərin bədii mətnlə bağlı keyfiyyətidir və bədii mətndən kənarda fonotekstoloji xüsusiyyət yoxdur.

Qafiyənin yaranmasında müstəsna rolu olan fonem bir neçə vəzifə yerinə yetirir. Əvvəla, fonemin iştirakı ilə vahid qafiyələnmə strukturu yaradılır. «Kitabi-Dədə Qorqud»un mətnində qafiyələnmə strukturu bir neçə variantda üzə çıxır. Cümlə vahidinin öz qafiyələnmə strukturu olur. Bu halda intonativ formaya görə, iki yerə ayrılmış cümlənin tam və yarımçıq sintaqmlarının sonluğu öz fonetik tərkibinə görə bir-biri ilə uyuşur. Həmin uyuşma cümlədaxili qafiyələnməni əmələ gətirir.

İki və daha artıq cümlə vahidləri bir-biri ilə qafiyələnir. Ol qırq yigit həsəd eylədilər. Bir-birinə söylədilər (I b., s. 36). Dirsə xan dişi əhlinin sözilə ulu toy elədi, hacət dilədi. Atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç qırdırdı. İç Oğuz, Taş Oğuz bəglərin üstinə yığnaq etdi. Ac görsə, toyurdı. Yalın görsə, tonatdı. Borcluyı borcından qurtardı. Dəpə kibi ət yığdı. Göl kibi qımız sağdırdı (I b., s. 35).

Cümlələrarası qafiyələnmə iki cür – distantiv (məsafəli) və instantiv (məsafəsiz) olur. Distantiv qafiyələnmə növündə bir neçə qafiyələnmə tipi özünü göstərir. Və onlar növbəli şəkildə sıralanırlar.

Məsafəsiz qafiyələnmə növündə üç-dörd cümlə və ya mətnin bütün cümlə vahidləri birinci qafiyələnmə tipi ilə xarkterizə olunurlar.

«Kitabi-Dədə Qorqud»un mətnində elə situasiyalar var ki, qrammatik formanın təkrarı da üslubi vəzifə daşımaqla yanaşı, cümlə daxilində, yaxud ayrı-ayrı cümlələrdə söz sonluqlarının fonetik baxımdan həmcinsləşməsinə səbəb olur.

Fonemin iştirakı ilə yaranmış qafiyələnmə sistemində danışıq səslərinin növünə görə də fərqlənmələr özünü göstərir. Saitlərin, yaxud samitlərin eynicinsliyi sistem əmələ gətirir; sait saitlə, samit samitlə uzlaşır və belə qafiyələnmə cümlə vahidinin (yaxud cümlə tərkibindəki sözlərin) sonunda deyil, əvvəlində özünü göstərir. Bu türk bədii mətnləri üçün xarakter olan alliterasiya və assonans hadisələridir.

4. Heca həm fonoloji, həm də bədii tekstual əhəmiyyətə malik fonetik vahid olduğundan bədii mətndə fonoloji və fonotekstoloji hadisələr kimi özünü göstərir. Fonotekstoloji heca anlayışı mətndə üslubi məqsədlə istifadə olunan fonetik vahidi – hecanı nəzərdə tutur. İnformativ strukturuna görə bir-biri ilə bağlı olan, predikativliyə, modallığa, bitmə intonasiyasına malik sintaktik vahidin ayrı-ayrı hissələrinin, yaxud yarımçıq və tam sintaqmlarının heca tutumu növbəti cümlə vahidində və ya növbəti hissədə təkrarlanır və heca uzlaşmalarını əmələ gətirir. Minarədə banlayanda fəqih görkli, Dizin basub oturanda həlal görkli (müqəd., s. 33). Birinci cümlə-misranın heca tutumu növbəti cümlə-misrada olduğu kimi təkrarlanır. Bunun eyni intervalda, ölçüdə baş verməsi mətndə ahəngin, ritmin yaranmasına səbəb olur.

«Kitabi – Dədə Qorqud»un mətnində fonotekstoloji heca iki şəkildə təzahür edir: cümlələrarası heca uzlaşmaları və cümlədaxili heca uzlaşmaları.

5. Sintaktik vahid daxilində bu və ya digər sözün məntiqi vurğulu olmasını cümlənin informasiya yükü şərtləndirir. Hər bir cümlənin informativ təyinatı bu və ya digər

sözün fərqli fonosituativliyini təmin edir. Güclü fonosituativliyə malik söz adətən bir cümlə daxilində birdən artıq olmur və ondakı leksik məna cümlənin ümumi informativ bütövlüyünü tamamlayır.

Xan babamın yanına ***mən*** varayın (s. 73)

Cümlənin sonuna yaxın mövqe güclü mövqe olduğundan orada yerləşən söz güclü fonosituativlik (fərqli tələffüz məqamı) nümayiş etdirir. Belə mövqe, adətən, xəbərin yanı və ya xəbərin yeri olur və cümlənin ümumi informativ tutumunu tamamlayan komponent rolunu oynayır.

Bütün hallarda cümlə vahidinin fərqli tələffüz məqamına malik məntiqi vurğulu sözü ilə cümlənin ümumi informativ tutumunu tamamlayan komponent üst-üstə düşür. Hər hansı fonoloji xüsusiyyət, deyək ki, leksik vahidin fonosituativliyi – güclü tələffüz məqamı cümlədə meydana çıxır. Cümlə– kontekst istənilən fonoloji və leksik aktuallıq üçün əvəzsiz mənbə rolunu oynayır. Məhz bu kontekstdə hər hansı leksik olan xüsusiyyət hər hansı fonoloji olanı müəyyən edə bilər. Belə ki, cümlə daxilində leksik vahidin fonosituativ aktuallığına təsir göstərən müəyyən amillər mövcuddur. Sözün məna qruplarından birinə, məsələn, əks mənalı sözlərə mənsub olması bu vəzifəni yerinə yetirir.Yanıma ala baqduğımda qonşuma eyü baqdım (IY b., s. 73). Buradakı *ala–eyü* cütlüyü əks mənalı leksik vahidlər olmasa da, tekstin bədii gücü hesabına antonimləşirlər.

6. Leksik təkrar mətndə bədii effektliyi artırmaqla yanaşı, fonotekstoloji situasiyanın yaranmasına da kömək göstərir. Sözün təkrarı məqsədi, intonasiyanı, bütün informativ tutumu ona doğru yönəldir və həmin sözün məntiqi vurğu ilə tələffüzünə səbəb olur.

Leksik təkrarla yanaşı, sintaktik təkrar da sintaktik vahiddəki hər hansı sözün məntiqi vurğulu olmasını müəyyən edir. Vurğulu söz təkrarlanmasa da onun yerləşdiyi sintaktik quruluş təkrarlanır. Bu isə öz növbəsində əvvəlki sintaktik

quruluş içərisində – cümlədə və ya söz birləşməsində yerləşən bütün qrammatik və fonoloji məqam-ların təkrar olunmasına səbəb olur.

7. Sözün vurğulu olmasında qrammatik situasiya müəyyən rol oynayır. İnkarlıq şəkilçisi ilə işlənən feli xəbərlər isə əksər hallarda məntiqi vurğu ilə tələffüz olunur. Bu, ona görə baş verir ki, inkar feli təsdiq feli ilə oppozitiv mütənasiblik yaratdığı üçün ondakı inkarlıq şəkilçisinin qrammatik mənası tekstual anlama daha yaxındır. Sonuncu isə öz növbəsində cümlə vahidinin ümumi informativ tutumundan seçilir, onun tamamlayıcı komponenti olur.

Ümumcümlə kontekstində təzahür edən cümlədaxili vurğu (məntiqi vurğu) sözdaxili vurğunu (heca vurğusu) zəiflədir; birincinin fonunda ikinci (ayrıca götürülməmiş halda) güclü olmayan pozisiyanı təşkil edir. Yəni ümumcümlə kontekstində yalnız bir vurğu qalır – məntiqi vurğuya çevrilmiş heca vurğusu.

Saylar, sual əvəzlikləri, məntiqi vurğulu ola bilir. Mənsubiyyət şəkilçili söz, əmr şəklində olan fellər məntiqi vurğu qəbul edir. Vurğulu sözlər felin şəxs kateqoriyasının morfoloji əlaməti ilə işlənir. Cümlədə perifrastik fel işləndikdə onunla yanaşı gələn xəbərin ad hissəsi məntiqi vurğulu olur.

8. İntonasiya fonem, heca və vurğudan fərqli olaraq, sözün daxilində yox, ondan xaricdə baş verən fonetik prosesdir. Bu halda intonasiya minimum iki söz arasındakı münasibətin tənzimləyicisi rolunu oynaya bilir. O, ya leksik vahidlə leksik vahidi, bir yarımçıq sintaqmın sonu ilə digər yarımçıq sintaqmın əvvəlini əlaqələndirir (bitməmiş intonasiya), ya da bir cümlə kontekstindəki leksemi başqa cümlə kontekstindəki leksemdən ayırır (bitmiş intonasiya). Birinci hal bir cümlə vahidinin içərisində yarımçıq sintaqmlar arasında, ikinci hal mikromətn daxilindəki iki müxtəlif cümlənin sərhəddində baş verir. Hər bir halda intonasiyanı fonetik quruluş yox, məhz sintaktik quruluş – cümlənin (və daha böyük sintaktik vahid

olan mətnin) sintaqmatik hüdudları müəyyən edir. Başqa sözlə, ayrıca götürülmüş fonetik vahiddə, leksik vahiddə intonasiya yoxdur və həmin sintaqmatik hüdudlardan kənarda o, mövcud ola bilməz. Semantik – emosional çalarlıq yaratmaq baxımından cümlədə bir neçə əsas intonativ situasiya müşahidə edilir və bunlar nəqli, sual, əmr, nida cümlələrində ifadə olunur. Belə situasiyaları konkret şəkildə hər hansı dil yarusuna aid vahidlər yox, bədii tekstin funksional təyinatı müəyyən edir. Bədii mətn nəinki bu məqamda neytral qalmır, əksinə, bu və ya digər semantik-emosional intonativliyi özü müəyyən edir.

Bədii tekstlərdə iki növ intonativliyi – cümələdaxili və mətndaxili intonasiyaları fərqləndirmək mümkündür. Cümlədaxili intonasiya cümlənin məzmun komponentləri, cümləyə quruluş ünsürü kimi xidmət edən daha böyük dil vahidləri – sözlər və söz birləşmələri arasında olur.

Mətndaxili intonasyia mürəkkəb sintaktik bütövün tərkib hissələrinn təşkil edən cümlə vahidləri arasında kommunikativ intervallar yaradır və bu intonativlik cümlə daxilindəki ayırıcı intonativlikdən xarakterinə görə fərqlənir. O elə formada üzə çıxır ki, sintaktik mətn (mürəkkəb sintaktik bütöv) daxilindəki bir cümlənin sonu ilə növbəti cümlənin başlanğıcını üzvi şəkildə əlaqələndirmiş olur, sanki onun tamamlanmadığını, məzmun informativliyi baxımından və formaca yarımçıq qaldığını üzə çıxarır.

Bu cür intonativlik ancaq sintaktik mətn komponentlərində müşahidə edildiyindən o, həm də bədii tekstə məxsus intonasiya hesab olunur. Bu səbəbdən o, şərti olaraq tekstual intonasiya, cümlədaxili intonasiya isə cümlə vahidinin sintaqmatik hüdudlarında (sözlə söz, sözlə yarımçıq sintaqm və yarımçıq sintaqmlar arasında) yarandığından sintaqmatik intonasiya adlandırıla bilər.

9. Bədii mətnə məxsus fonoloji strukturda ahəng qanunu xüsusi fonotekstoloji detal kimi təzahür edir. Onun

fonoloji hüdudları yalnız leksik vahidlə müəyyən olunmur, sözdən söz birləşməsinə, cümləyə və daha böyük quruluş vahidi olan sintaktik mətnə keçir. Və normativ fonetikadakı heca ilə hecanın sait uzlaşmasını burada söz ilə sözün sintaqmatik uzlaşmaları tamamlayır. Mətndə ayrı-ayrı sözdaxili harmoniyaların bütövlükdə cümlədaxili harmoniya ilə tamamlanması sonuncunu bədii fiqura çevirir.

Bədii mətnin tekstual balansında iki ahəng tipi fərqləndirilir: leksik ahəng və tekstual ahəng. Leksik ahəng leksik vahidlərdə adi sait uzlaşmalarıdır. Yarımçıq sintaqm daxilində hər hansı sözə məxsus eynicinsli (dilarxası, ya dilönü) sait uzlaşmaları növbəti sözün eyni cinsli sait uzlaşmaları ilə növbəli şəkildə əvəzləndikdə adi ahəng tekstual ahəngə çevrilir.

«Kitabi – Dədə Qorqud»un mətnində tekstual ahəng üç formada təzahür edir:

-bir sözün saitlərdən ibarət fonetik strukturu növbəti sözdə və ya sözlərdə tam şəkildə təkrar olunur;

-bir sözün saitlərdən ibarət səs tərkibi sonrakı sözdə (və ya sözlərdə) yarımçıq şəkildə təkrar olunur;

-eyni fonetik tərkibin qalın və incə variantları bir-birini izləyir.

«Kitabi–Dədə Qorqud»un mətnində eyni fonetik strukturun qalın və incə variantlarının növbələşməsi daha çox cümlə sonu qafiyələnən leksik vahidlərdə müşahidə olunur.

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Əliyev Y.V. Qədim türk (runik) yazılı abidələrindən orta əsrlər türk yazılı abidələrinə keçid: ədəbi dil normalarının inkişafı. Bakı: Nurlan, 2004

2. Əliyev Y.V. «Kitabi-Dədə Qorqud» və bədii mətnin struktur-semantik təşkili. Bakı, 2005

3. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi: 2 hissədə. I h., Bakı: 1976

4. Kitabi–Dədə Qorqud (Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə F.Zeynalov və S. Əlizadənindir). Bakı: Yazıçı, 1988

5. Sössür Ferdinand de. Ümumi dilçilik kursu. Bakı: Bakı Dövlət Univesiteti nəşri, 2003

Türk dilində

6. Divanü-lüğat-it-türk tercümesi: 4 ciltte. Cilt I, Ankara – 1985

7. Rossi Ettore. «Kitabi-Dede Qorqut» (Drezden nüsxəsinin faksimilesi). Roma, 1952

Rus dilində

8. Qadciev T. Azerbaydcanskiy literaturnıy əzık naçala XX veka. Avtoref. diss. dokt. filol. nauk. Baku,1969

TAPŞIRIQLAR

Tapşırıq 1.

Verilmiş cümlədə fonemin iştirakı ilə yaranmış mürəkkəb sözü göstərin.

Vardı, könləgi qana-quna baturdı, Bayındır xanın öginə gətürib bıraqdı (III b., s. 58). Bin dəxi xaraca-qaraca bürələr dilədi (III b., s. 56).

Tapşırıq 2.

Cümlədaxili qafiyələnməni əmələ gətirən sözləri seçin.

Bir qiyamət savaş oldı, meydan tolu baş oldı (III b., s. 66). Mərə, varın, Qazanın oğlı Uruzı tartun, çəngələ asun (I b., s. 40). Qalın Oğuz bəgləri bunı eşitdilər, şad olub sevindilər (III b., s. 52). Qalın Oğuz bəgləri əl götürdilər, dua qıldılar (III b., s. 54). Baş endirdi, bağır basdı (III b., s. 55).

Tapşırıq 3.

Hansı cümlənin heca tutumu növbəti cümlədə təkrarlanmaqla heca uzluşmalarını əmələ gətirir?

Minarədə banlayanda fəqih görkli
Dizin basub oturanda həlal görkli
Ər namərdin, ər nakəsin ozan bilür
Gördi ki, oğrı köpək, yekə tana evini bir-birinə qatmış.
«Qonşı həqqi – tənri həqqi», – deyü söylər.
Av avlar, quş quşlar oldı.

Tapşırıq 4.

Cümlənin informasiya yükünə görə məntiqi vurğulu sözləri seçin.

Qalqubanı yerindən uru turdın,
Oğlunla yelisi qara Qazlıq atın bütün bindin.
Boynı uzun bədəvi keyikin alub yıqdın,

Sən atın yüklətdin, gerü döndin,
İki vardın, bir gəlürsən, yavrım qanı?
Qara gərdunda buldığım oğlım qanı?
Bir bəgüm görinməz, bağrım yanar.
Asılan-asılan qayalardan,
Qazan, oğlan uçırdınmı?
Talı sazın aslanına yedirdinmi?
Ağ əllərin qarusından bağlatdınmı?
Kafər ögincə yüritdinmi?
Dili-damağı qurıyıb dört yanına
baqdırdınmı?
Qara gözdən acı yaşın dökdirdinmi?
«Qadın ana», «bəg baba» deyü bozlatdınmı?

III FƏSİL
LEKSİK – SEMANTİK XÜSUSİYYƏTLƏR

GİRİŞ

Mətn və leksem bir–biri ilə qarşılıqlı əlaqədə olan kateqoriyalardandır. Onların bu qarşılıqlı münasibəti dil sistemində müxtəlif paradiqmalar üzrə təzahür edir:

1. Mətn leksemdən başladığı kimi, leksem üçün də mətn başlanğıc nöqtə ola bilir;
2. Leksemin bütün semantik funksionallığı mətndə üzə çıxır və mətnin funksional imkanları da leksemlə reallaşır;
3. Mətndən təcrid edilmiş leksem, leksemdən kənarda mətn yoxdur;
4. Mətn leksemin, leksem də öz növbəsində mətnin kommunikativ vahid kimi təyinatını müəyyən edir.

Burada mühüm olan odur ki, mətn həm sözün fonetik tərkibə, leksik mənaya malik vahid kimi normativ parametrlərinin müəyyən olunmasına təsir edir, həm də onun bədii üslubi imkanlarını üzə çıxarır. Leksemin daşıdığı üslubi–semantik yük çox halda yaxın mənalı və əks mənalı sözlərdə özünü göstərir. Bədii mətdə sinonimlər yanaşı işlənərək bəzən leksik mənanı qüvvətləndirir, yaxud yeni məna çaları yaradır, bəzən də sintaktik norma sistemində xüsusi vəzifə daşıyır. Mənşəcə sinonim olmayanlar da mətnin bədii gücü hesabına yaxın mənalı sözlərə çevrilir. Prof. R.Məhərrəmovaya görə, leksitkanın məna bəhsinə daxil olan sinonimlər leksik kateqoriya olmaqdan başqa həmdə semantik üslubi kateqoriyadır. O yazır: «…leksik sinonimlər və sinonimik cərgədə birləşən sözlər əsasən bir ümumi mənanı bildirən eyni mənalı sözlır olur. Bədii ədəbiyyatda, daha doğrusu, fərdi

istifadədə bir sinonimik cərgədə elə sözlər birləşir ki, bunlar adi halda nəinki bir-birinin sinonimi deyil, hətta uzaq mənalı sözlərdir. Mətndə isə bu sözlər bir məna ətrafında birləşir və ümumi mənanı müxtəlif şəkildə aydınlaşdırmağa xidmət edir» (9, s. 121).

Bədii təzad yaradan antonimlər isə bütün işlənmə məqamlarında mətnin bədii gücünü artırır. Antonim tərəflərin hər biri təkrar olunan sintaktik konstruksiyalarda yerləşdikdə həm də bədii quruluş elementinə çevrilirlər. Məsələn: Tənri verdi, tənri aldı (s. 74).

Bədii mətn sözün daha işlək olduğu yerdir. O sözü formaca da, mənaca da dəyişə bilir. Yeni, hətta mətn üçün spesifik ola biləcək leksik vahidlər formalaşdırır.

§1. MƏTN VƏ SEMA

Sema mətn üçün xüsusi aktuallıq kəsb edən kateqoriyalardandır. Bu aktuallıq öz növbəsində bir neçə şəkildə reallaşır. Birincisi, hər hansı mətn səs kompleksinə və eləcə də müəyyən semantikaya malik sözlərin sistemli yığınıdır. Deməli, sema mətnin normativ strukturunu təşkil edən normal dil vahididir. İkincisi, sema mətndə bədiilik potensiyası yarada bilir. Bu isə o halda baş verir ki, hər hnsı bədii fiqur, bədii üslub faktı kontekstdə iştirak etmiş olsun. Semanın hesabına leksik vahidlər arasında məna yaxınlığı yarana bilir, mənaca qarşılaşdırılır, bənzədilir, bir-biri ilə müqayisə olunurlar. Dəpə kimi ət yığdı, göl kimi qımız sağdırdı (s. 35) cümləsində informativ tutumu paylaşdıran sözlərin semantitk yükü imkan verir ki, bunlardan birincisi dəpə, digəri göl sözü ilə müqayitsə olunsun. Əks təqdirdə digər leksik vahidlərin iştirakı, yaxud əksinə situasiya ya zəif məqamdır, ya da ümumiyyətlə, mümkün deyil. Yəni göl kimi ət olmadığı kimi, dəpə kimi də qımız olmur. Bundan asılı olaraq bədii tekstdə mütləq və nisbi semalar fərqləndirilir. Mütləq semalar qeyri-üslubi detal kimi həqiqi mənalı sözlərdə olur. Bu baxımdan istənilən mətni təşkil edən leksik vahidlər mütləq semalı sözlərdir. Nisbi semalar həqiqi mənalı sözlərin qarşılığı olub, onu məcazi şəkildə ifadə edən sözlərdə, frazemlərdə özünü göstərir.

Mətn və sema qarşılıqlı şəkildə biri digərini şərtləndirə bilir. Yəni bir tərəfdən mətn üçün sema zəruridir. Çünki mətn müəyyən mənaya malik sözlərin sistemli təşkilidir. Bu sistemli təşkildə sema həlledici olmasa idi, sözlər arasında məna pərakəndəliyi yaranar, ümumi kommunikativlik pozular və nəticədə bu, mətnin özünün deformasiyasına gətirib çıxarardı. Mətn üçün sema əsas olduğu kimi, sema üçün də mətn əsasdır. Hər bir sema lüğəvi vahidin ayrılmaz hissəsi kimi ancaq kontekstdə – mətnin içərisində işləklik hüququ qazanır. Bədii

mətn heç bir məna yaxınlığı olmayan sözləri asanlıqla yaxın mənalı leksik vahidlərə çevirir, əks mənası olmayan sözlər isə mətnin bədii gücü hesabına antonimləşə bilirlər.

Mətnlə semanın bu cür yaxınlığı, təbii ki, onların eyniləşdirilməsi üçün əsas ola bilməz. Onlar başqa-başqa səviyyələri təmsil etməklə, müxtəlif paradiqmalar nümayiş etdirirlər. Mətn sintaksislə, sema leksikologiya ilə bağlıdır. Mətn daha böyük, sema nisbətən kiçik dil vahididir. Və nəhayət, iyerarxik pillə mətndən semaya yox, semadan mətnə doğru yüksəlir. Bununla belə, mətn-sema bərabərliyini də inkar etmək düzgün deyil. Bu bərabərlik əslində sonuncu fərqdən – semanın nisbətən kiçik, mətnin nisbətən böyük dil vahidi olmağından irəli gəlir. Bu fərq ayrı-ayrı semaların birləşib mətnə (söz–semanın mürəkkəb sintaktik bütövə) çevrilməsini şərtləndirir. Yəni öz-özlüyündə bir sema bir cümlə ola bilər (bir sözdən ibarət xəbərsiz təktərkibli sadə cümləni – adlıq cümləni xatırlayın). Ancaq semanın inkişaf edib mətnə çevrilməsi üçün onun maddi (fiziki) baxımdan çoxalmağı labüddür. Bu isə öz növbəsində ayrı-ayrı söz–semaların birləşib cümlələrə və nəhayətdə sintaktik mətnə keçməsi hesabına baş verir. Bu baxımdan bir sintaktik mətn möhkəm qrammatik əlaqələrlə birləşmiş ayrı-ayrı leksik semalardan törəyir:

$$\mathbf{S + S + S\ldots = M}$$

Qeyd: Burada S – leksik semanı, **M** – sintaktik mətni bildirir.

Mətndəki ayrı- ayrı sözlərin qrammatik əlaqələnməsi ilə yanaşı, müxtəlif leksik semalar arasında məna uzlaşmaları da olur. Belə semantik uzlaşmalar iki formada təzahür edir: ənənəvi və tekstual uzlaşmalar. Ənənəvi uzlaşmaya görə cümlədaxili leksik vahidlər arasında normativ səviyyədə məna əlaqələri olur. Qorqud ata Oğuz qövmünün müşkilini həll edərdi (müqəddimə, s. 31) cümləsində iki məna əlaqəsi var:

predikativ (və ya subyekt – predikat; Qorqud ata həll edərdi) və obyekt (və ya obyekt – predikat; Oğuz qövmünün müşkilini həll edərdi). Tekstual məna uzlaşmaları qeyri-normativ, ənənəvi olmayan məna əlaqələridir. Belə əlaqələr ancaq bədii mətnlərdə özünü göstərir və əlaqələnmənin istiqamətinə görə şaquli, yaxud üfüqi simmetriyalar əmələ gətirirlər. İstər üfüqi, istərsə də şaquli simmetriyalarda yaxın, bəzən də əks mənalı sözlər predikativliyə, modallığa, bitmə intonasiyasına malik sintaktik vahidlərdə assosiasiya təşkil edirlər. Üfüqi simmetriyalı əlaqələnməyə görə, bir cümlə daxilində təkrar olunan iki və daha artıq yarımçıq sintaqmlara düşən sözlər arasında bu və ya digər şəkildə semantik əlaqələnmə olur. Bu məhəldə ərənlərin… arslanı, pəhləvanların qaplanı Boz oğlan yetdi (III b. s. 53). Verilmiş cümlədə eyni modeldə iki təyini söz birləşməsi işlənmişdir. Birinci yarımçıq sintaqmdakı ərənlər və arslan sözlərinə uyğun olaraq ikinci yarımçıq sintaqmda pəhləvanlar və qaplan leksemləri iştirak edir. Hər iki yarımçıq sintaqma düşən sözlər burada məna yaxınlığı baxımından assosiasiya əmələ gətirirlər: ərənlər – pəhləvanlar, arslan – qaplan. Başqa nümunələr:

Köpək Qazanın atının ayağına çap-çap düşər,
sin-sin sinlər (s. 45); çap-çap – sin-sin
Yedi gün, yedi gecə yemə–içmə oldı (s. 50); gün-gecə
Dədəm Qorqut gəlübən boy boyladı,
soy soyladı (s. 50); boy boyladı – soy soyladı
Qırq baş qul, qırq qırnaq oğlı Uruz başına azad
elədi (s. 50); qul – qırnaq
Ol zəmanda bəglərin alqışı alqış, qarğışı
qarğış idi (III b., s. 52); alqış – qarğış
Ac görsəm, toyurdım, yalınçıq görsəm,
tonatdım (I b., s. 38); ac – yalın, toyurdım – tonatdım

Şaquli simmetriyalı əlaqələnmə daha çox şer-mətnlərdə müşahidə edilir. Şaquli simmetriyalı semantik əlaqələnmədə ilk

misra-cümlənin hər şansı sözü ilə növbəti misra-cümlələrin eyni mövqedə dayanan leksik vahidləri arasında məna yaxınlaşmaları olur. Bu cür assosiasiyalar, bir qayda olaraq, mətnin bədii gücünü artırır, ona həm də quruluş detalı kimi xidmət göstərir.

Ağayıldan tümən qoyun vergil bu oğlana,
şişlik olsun, ərdəmlidir!
Qaytabandan qızıl dəvə vergil bu oğlana,
yüklət olsun, hünərlidir! (I b., s. 36)

Verilmiş şer-mətndə semantik uzlaşmalar ayrı-ayrı misralarda yerləşmiş ağayıl–qaytaban, qoyun–dəvə sözlərinin işlənməsi hesabına baş verir.

Əgər mətndə sinonim olmayan sözlər sinonimlərə çevrilir və antonim olmayanlar antonimləşirsə, yaxud normativ məna kontekstindən üslubi kənaraçıxmalar və digər fərdi müəllif müdaxilələri baş verirsə, belə məqamları leksik-tekstoloji situasiyalar kimi qiymətləndirir, konkret olaraq, bədii mətndə üzə çıxan üslubi mənanı tekstosema adlandırırıq. Tekstosemanın yaranması mətnin mükəmməl sintaktik vahid kimi təşəkkülü ilə bağlıdır. Mətn elə bir təşəkküldür ki, həm adi nitq vahidlərini bədii detallara və əksinə çevirə bilir, həm də nitq elementlərini məhz mətndə hər cür nizamlamaq, qaydaya salmaq mümkün olur. Mətnin sintaktik quruluşu, eləcə də leksik tutumu, habelə, bədii gücü hər cür adi semanın tekstosemaya keçidini şərtləndirir. Odur ki, sema ilə tekstosemanın hüdudlarını mətn müəyyən edir. Mətndən kənarda tekstosema yoxdur. Tekstosema da mətnin səciyyəvi əlamətlərindəndir. Sema bir leksik vahidə, tekstosema isə mətnə aid keyfiyyətdir. Onlarla, hətta yüzlərlə semalar bir-biri ilə zəncirvari şəkildə əlaqələnib, mətni müəyyən edə bilər. Ancaq tekstosemalar öz aralarında birləşib, hər hansı dil vahidini yarada bilmir və kəmiyyətcə azlıqda qalırlar. Bir

sintaktik mətndə (mürəkkəb sintaktik bütövdə) olan tekstosemaların sayı semaların sayından on dəfə azlıq təşkil edir. Yəni bir mürəkkəb sintaktik bütöv daxilində üç-dörd tekstosema ancaq olur. Və bütün bunlar tekstosemalarda iki münasibət formasının mövcudluğunu üzə çıxarır: tekstosema ilə sema arasında və tekstosema ilə tekst arasında. Həmin münasibətlər isə tekstosemanın yaranma mexanizmini daha aydın təsəvvür etməyə imkan verir: mətn–sema–tekstosema.

Mətn-sema əlaqələri heç də sadə mexanizmli münasibət deyil. Əlaqələrin mahiyyəti ondadır ki, müəyyən semaya malik adi leksik vahid mətn içərisində tamam başqa keyfiyyət kəsb edə bilir. Belə ki, sözlərin sinonimliyi normal dil hadisəsidir. Bir şərtlə ki, leksemlərin müxtəlif səs kompleksləri və yaxın siqnifikatı (mənası) olsun. Məsələn, var–get, sağ–əsən, əsil–kök, xəbər–ətər sözləri «Kitabi–Dədə Qorqud»un dilində leksik sinonimlərdir. «Həm bizi ög, Oğuzı sındırğıl, səni qoyu verəlim, var–get!» – dedilər (XI b., s. 117). Kəndü əslim, kəndü köküm sımağım yoq! – dedi (XI b., s. 117). Anları sağ və əsən gördi, Allaha şükr eylədi (s. 67). Bunun müqabilində yenə «Kitabi–Dədə Qorqud»un mətnində işlənmiş xoş–əsən, murad–məqsud sözləri yaxın (və ya eyni) mənaları olan leksik vahidlər deyil. Ancaq tekstin bədii gücü və mətnin informativ yükü onları kontekstdə sinonimləşmiş vahidlər kimi qəbul etməyə əsas verir. Qoca eşidüb şad oldı. Gumbur–gumbur davullar çalındı. Altun-tuc borılar ağrıldı. Ol gün ala bargah otaqlar dikildi. Atdan–ayğırdan, dəvədən buğra, qoyundan qoç qırıldı. Qoca bəg oğullarına qarşu gəldi. Atından endi, oğlanlarilə quca-quca görüşdi. «Xoşmısız, əsənmisiz, oğullar?» -dedi (s. 115). Verilmiş mətnin informativ strukturuna görə, mənaca yerinə düşən söz əsən sözüdür. Çünki Uşun Qoca uzaq səfərdən qayıdan oğlanlarına, ən yaxşı halda, «əsənmisiz» deyə müraciət edə bilərdi. Əsən sözünün sinonimi isə başqa leksik vahid – sağ sözüdür. Ancaq mətnin informasiya yükü bu məqamda işlənən başqa mənaya malik digər bir leksemin – xoş

sözünün semasını neytrallaşdıra bilir və əsən sözü ilə sinonimləşdirir. Mətndən digər parçaya baxaq:

Günlügi altunluca odasına gəldilər. Şadlıq, yemək-içmək oldı. Ulu oğlına dəxi görklü gəlin gətürdi. Eki qardaş bir-birinə sağdıc oldılar, gərdəklərinə çapub düşdilər. Murada-məqsuda irişdilər (s. 115). Burada mətnin informasiya yükü murad sözünün işlənməsini tələb edir. Məqsud sözü isə verilmiş halda murad sözü ilə üslubi sinonimdir.

Mətn sinonimliyini də bədii mətn formalaşdırır. Onun üslubi sinonimlikdən fərqi ondadır ki, o, yalnız funksional məzmun detalı şəklində mətndə iştirak etmir, həm də struktur forma elementi kimi onun tərkib hissəsini təşkil edir. Belə sinonimlərin nominativ mənası mətndə həlledici rol oynamır. Onlar şərti olaraq, mətni struktur hissələrə ayırır və hər hissəyə belə sinonimlərdən yalnız biri düşür. Mətndəki hər bir şərti struktur hissə (cümlə, misra və s.) başqa–başqa informasiyaların deyil, eyni informativliyin ifadəsinə xidmət edir. Məhz bu faktlar mətn sinonimliyinin yaranmasına əsaslı təsir göstərir.

Qaytabanım güdəndə sarvanımmısan?
Qaraquçım güdəndə ilqıçımmısan?
Ağayılım güdəndə çobanımmısan?
Qulağımda şırşıyan naibimmisən?
Beşikdə qoyub getdigim qardaşcığımmısan?
Yigit, degil, mana!
Qara başım qurban olsun bu gün sana! (s. 114)

Verilmiş mətnin ilk dörd misrası sonrakı beşinci misranı məzmun–informasiya baxımından dolğunlaşdırmağa, bədii təsir gücünü qüvvətləndirməyə, onu informativ planda tamamlamağa xidmət edir. Odur ki, verilmiş halda sarvan, ılqıçı, çoban, naib, qardaş sözləri mətnin informasiya yükünə görə sinonimlər sayılırlar. Ancaq bu leksik vahidlər konkret

mətnin konkret normativliyindən kənarda sinonimlik hüququnu itirir.

Göründüyü kimi, mətn semaya təsir edərək, onu neytrallaşdıra, hətta dəyişə bilir. Mətn–sema münasibətlərinin mühüm cəhəti də bundadır ki, belə məna deformasiyaları hər halda mətnin xeyrinə olur – tekstin bədii gücü artır, ekspressivlik, emosionallıq yüksəlir. Bəs məna deformasiyalarını doğuran amil hansıdır? Suala cavab vermək üçün yenə mətndən çıxış etmək lazım gəlir. Mətndən kənarda ayrıca götürülmüş leksik vahid heç bir halda nominativ mənasını itirmir. Hər cür məna dəyişikliyinin yaranmasında, hətta yeni mənanın təşəkküləndə mətn əsaslı rol oynayır. Məhz bu əsasda sözdə məcazi mənalılıq yaranır, obrazlı ifadələr, məcazlar, bədii təsvir və ifadə vasitələri əmələ gəlir.

Mətn elə bir təşəkküldür ki, ondakı sözlərin məna yükü həm olduğu kimi qalır, həm də dəyişir. Yəni sözlər məcaziləşdikdə nominativ məna itir, köhnə sema yenisi ilə əvəz olunur. Mətnlərə baxaq.

I mətn. Qanturalı aydır: «Yoq, əlbətdə öldürsəm gərəkdir,» –dedi. Qız qaqdı, aydır: «Mərə, qavat oğlı qavat, Mən aşağa qulpa yapışuram, sən yuqarı qulpa yapışursan. Mərə, qavat oğlı, oxınlamı, qılıcınlamı? Gəl bərü, söyləşəlim! » –dedi (s.92).

II mətn. Atın dəpdi. Bir yüksək yerə çıqdı. Sadaqından toqsan oxın yerə dökdi. Eki oxın dəmrənin çıqardı: birin gizlədi, birin əlinə aldı. Dəmrənlü oxla atmağa qıymadı. Aydır: «Yigit, at oxunı!». Qanturalı aydır: «Qızların yolı əvvəldir, əvvəl sən at!» –dedi. Qız bir oxla Qanturalıyı atdı, şöylə kim, başında olan bit ayağına endi (s.92-93).

Hər iki mətnin kursivlə verilmiş cümlələrində obrazlı ifadə tərzi iştirak edir. II mətnin müvafiq cümləsində bütün leksik vahidlər müstəqim mənasını saxlayır. I mətndəki cümlədə isə qulp sözü nominativ mənasını itirdiyindən yeni sema ilə çıxış edir.

Sema funksional məzmun elementi olduğu kimi, mətndə quruluş–forma detalı rolunu da oynaya bilir. «Kitabi-Dədə Qorqud»dakı şer mətnlərdə yaxın mənalı sözlər müəyyən semantik yük daşımaqla bərabər, onların struktur-forma baxımından təşkilinə də xidmət göstərir. Belə sözlər mürəkkəb sintaktik bütövün bütün misra–cümlələrinə simmetrik şəkildə paylanaraq məzmun və forma baxımından assosiasiya yaradırlar.

Hey Dirsə xan! Oğlana bəglik vergil;
Təxt vergil, -ərdəmlidir!
Boynı uzın bədəvi at vergil,
Binər olsun, hünərlidir!
Ağayıldan tümən qoyun vergil,–
Bu oğlana, şişlik olsun, ərdəmlidir!
Qaytabandan qızıl dəvə vergil, bu oğlana,
Yüklət olsun, hünərlidir!
Altun başlu ban ev vergil, bu oğlana,
Kölgə olsun, ərdəmlidir!
Çigin quşlı cübbə ton vergil bu oğlana,
Geyər olsun, hünərlidir! (I b., s. 36)

Şer mətndəki ikiliklərin hər biri yaxın mənalı leksik vahidlərdir. «Kitabi-Dədə Qorqud»un şer mətnləri (və ümumiyyətlə, qədim türk mətn tipologiyası) üçün xarakter olan bənd mərkəzləri də ikiliklərin hesabına formalaşır: at–binər, qoyun–şişlik, dəvə–yüklət, ev–kölgə, ton–geyər (başqa sözlə, at minilir, qoyundan şişlik hazırlanır, dəvə yüklənir, ev kölgə salır, don geyinilir).

Yaxın mənalı sözlərin simmetrik paylaşması nəsr–cümlələrdə də olur. «Baban, dedi, keyikləri qovsun, gətürsün, bənüm ögimdə dəpələsün, oğlumın at səgirdişin, qılıc çalışın, oq atışın görəyim, sevinəyim, qıvanayım, güvənəyim» – dedi – dedilər (I b., s. 37). Yaxın mənalı sözlərin yerləşmə ardıcıllığı

cümlə vahidini struktur baxımdan iki hissəyə ayırır; əvvəl gələn hissədə ikiliklərin birinci tərəfi, sonrakı hissədə ikiliyin ikinci tərəfi yerləşir.



Odur ki, ikilikləri aşağıdakı şəkildə bərpa etmək mümkündür:
at səgirdişin [görəyim] sevinəyim
qılıc çalışın [görəyim] qıvanayım
oq atışın görəyim, güvənəyim

Təsadüfi deyil ki, növbəti cümlələrin birində yaxın mənalı cütlüklərin hər biri ayrı-ayrı yox, eyni predikativ vahidlərə düşdüklərindən simmetriyaya daha ciddi riayət olunur və güclü bədii məqam əmələ gətirir. «Babam at səgirdişimə baqsun, qıvansun; ox atışıma baqsun, güvənsün; qılıc çalışıma baqsun, sevinsin».

Mətndə yaxın leksik mənalı sözlər qeyri-simmetrik ardıcıllıqla da sıralana bilir.

Qara tağım yüksəgi oğul!
Qanlu suyım taşqunı oğul!
Qocalığın vəqti aldırduğım yalnuz oğul! –dedi
(s. 74)

Burada tağ – yüksəg, su – taşqun, qoca – yalnuz, cütlükləri müvafiq assosiativliyi əmələ gətirir.

Bu onu göstərir ki, «Kitabi – Dədə Qorqud»dakı şer-mətnlərdə leksik vahidlər bir-biri ilə sintaqmdaxili rabitə ilə

əlaqələndiyi kimi, başqa misra-cümlələrdəki leksik vahidlər ilə də əlaqə yarada bilirlər. Bu müxtəlif əlaqə formaları intensivliyinə görə bir-birindən seçilirlər. Bunlardan birincisi normativ sintaktik rabitənin əsasını təşkil edir, ikincisi, üslubi dil faktı kimi nisbətən az müşahidə olunur. Bundan asılı olaraq şer-mətnlərdəki leksik vahidlərin iki düzülüş forması özünü göstərir: sintaqmatik və paradiqmatik. Sintaqmatik (yaxud üfüqi) düzülüş sözlərin cümlədaxili adi sıralanmasıdır. Bu halda leksik vahidlər arasında bütün mövcud qrammatik və obyektiv məna əlaqələri özünü göstərir. Paradiqmatik (yaxud şaquli) düzülüş bir mürəkkəb sintaktik bütöv daxilində ayrı-ayrı cümlələrin leksik vahidləri arasındakı münasibət formasıdır. Yəni başqa-başqa misraların eyni quruluşa malik və sintaktik sırada eyni yerdə dayanan leksik vahidləri öz aralarında paradiqmatik münasibətlər yaradır. Məsələn, Qaytabanda qızıl dəvə əsən olsa, torum verür, Ağayılda ağca qoyun əsən olsa, quzı verür (s. 75) nümunəsində sözlər misradaxili planda sintaqmatik, misralararası planda isə paradiqmatik düzülüşə (qaytabanda–ağayılda, qızıl dəvə–ağca qoyun, əsən olsa–əsən olsa, torum verür–quzı verür) tabedir.

«Kitabi-Dədə Qorqud»dakı şer-mətnlərdə bəzən birinci cümlə xüsusi struktur-semantik yük daşıyır. Və mətn hansı misra–cümlə ilə başlayırsa, sonrakı misra–cümlələr də onu məzmun və forma baxımından təkrar edir, izləyir. Paradiqmatik düzülüşə tabe olan sözlər arasında sintaktik əlaqələr olmur, yalnız məzmun və quruluş (forma) yaxınlığı özünü göstərir. Bunu müəyyən sintaqmla bir ümumi elementlərə malik vahidləri əhatə edən bir, yaxud bir neçə assosiativ sıra ilə bağlı Ferdinand de Sössürün məlum sxemindən (3, s. 239) istifadə etməklə aşağıdakı şəkildə ifadə etmək olar:



Sintaq-matik düzülüş →		Qarşu yatan qara tağlar	istər olsa	el yaylar
		Qanlu-qanlu sular	istər olsa	qamın düşər
		Qaraquc atlar	əsən olsa	qulun toğar
	Qaytabanda	Qızıl dəvə	əsən olsa	torum verür
	Ağayılda	ağca qoyun	əsən olsa	quzı verür
		Bəg ərənlər	əsən olsa	oğlı toğar (s. 75)

Bədii mətnlərdə mərkəzi sema deformasiyaya uğradığı kimi, mükəmməl bir formada funksionallaşa da bilir. Bu halda şer-mətndə informativ yük təkcə nominativ mənaya daha yaxın leksik vahidlərlə deyil, həmin mənanı bildirməyən yardımçı sözlərlə də ifadə olunur.

Qaytabanın buğrası ürkdi gedər,
Sarvanlar ögin aldı, döndərəməz.
Qaraquc ayğırın ürkdi gedər,
Ilqıçılar ögin aldı, döndəriməz.
Ağayılın qoçları ürkdi, gedər,
Çoban ögin aldı, döndəriməz.
Ala gözlü oğlun qardaşını andı, gedər.
Ağca yüzlü gəlinün döndəriməz (s. 112)

Nümunədən göründüyü kimi, belə yardımçı sözlər son misrada verilmiş əsas mənanı bildirən sözlərin iştirak etdiyi cümlənin sintaktik qəlibində yerləşdiyindən məzmunca olduğu kimi, formaca da bir-birini tamamlayırlar:

buğra – sarvan
ayğır – ılqıçı
qoç – çoban

oğul – gəlin

Hər iki sırada mətnin informasiya yükünü tamamlayan oğul və gəlin sözləridir. Çünki əsas informativ nüvə həmin sözlərin iştirak etdiyi misra–cümlələrdə yerləşir.

Aşağıdakı şer-mətndə isə yardımçı deyil, əsas leksik vahidlər informativ yükü birbaşa bildirməyə xidmət edir.

Aruz, mana bu işi edəcəgin bilsəydim,
Qaraqucda Qazlıq atuma binərdim!
Əgni bərk dəmür tonım geyərdim!
Qara polad uz qılıcım belümə bağlardım!
Alın-başa qunt işuğım urardım!
Qarğu talı altmış tutam sügümi əlümə alurdım.
Ala gözlü bəgləri yanıma salardım!
Qavat, mən bu işi tuysam, sana böylə gəlürmiydim?!
Aldayuban ər tutmaq övrət işidir,
Övrətindənmi ögrəndin sən bu işi, qavat?!

(XII b., s. 124)

§2. *MƏTN VƏ LEKSİK -SEMANTİK SÖZ QRUPLARI*

1. Sinonimlər

Sözlərin məna qruplarının təşəkkülündə mətnin də xüsusi rolu var. Müxtəlif səs kompleksli sözlərin yaxın mənalar bildirməsi (sinonimləşmə), əks semalı sözlərin üslubi yük daşıması məhz mətndə mümkün olur. «Kitabi-Dədə Qorqud»un dilində sinonimlərin çox maraqlı işlənmə situasiyaları mövcuddur. İki sinonimin yanaşı işlənməsi çox halda üslubi-semantik yük daşıyır. Belə hibridləşmə sözə məxsus semanın güclü ifadə tərzini yaradır, mənanı qüvvətləndirir. Sağ və əsən sözləri eyni mənanı bildirən sinonim–dubletlərdir. Hər ikisinin yanaşı işlənməsi leksikondakı sadəcə «sağ» anlamını yox, «tamamilə sağ», «salamat» mənasını verir. Atası-anası: «Yort, oğul! Uğurun açıq olsun, sağ–əsən varub gələsən, gələcəgin varsa!» -dedilər (s. 113). Uşun qocaya çapar gəldi. «Muştluq! Gözün aydın! Oğulların ikisi bilə sağ–əsən gəldi», - dedilər (s. 115). Yat- və uyı- felləri də yaxın mənalı sinonim vahid olduğu halda, mətndə yanaşı işlənərək leksik mənanı daha da şiddətləndirir. Dün yatmış, üç gün dünli yatmış yigit, qarannulı gözin uyxu almış yigit atının çilbərini biləginə bağladı, yatdı – uyıdı (s. 113). Oğlan turdı, atına bindi. Adı görklü Məhəmmədə səlavat gətürdi. Kafərə qılıc qoydı, basdı, qələyə tıqadı. Atını döndərdi. Genə mənzilinə gəldi. Uyxusın yenəmədi, gerü yatdı-uyıdı (s. 113).

Sinonim dubletlər «Kitabi-Dədə Qorqud»un dilində mürəkkəb cümlələrin başlanğıcı ilə sonunu əlaqələndirir. Burada sinonim–cütlüyün işlənməsi mətnin özünü və tərkib hissələrini xüsusi formaya salır və spesifik sintaktik quruluş əmələ gətirir. Əgrək aydır: «Uşda uyur, gəlün varalım!» - dedi (s. 113). Mətn vahidlərində belə sinonim cütlüklər ikili vəzifə yerinə yetirir. «Aydır–dedi» cütlüyünün iştirakı həm sintaktik vahidin – tabeli mürəkkəb cümlənin, bəzi hallarda isə mətnin sintaqmatik hüdudlarını müəyyənləşdirir; onu başlayır və

qapayır, həm də ədəbi–kommunikativ funksiyalılıq baxımından xüsusi vəzifə daşıyır. Yəni sinonim cütlüyün birinci tərəfi (aydır) obrazın nitqi ilə bağlıdırsa, ikinci tərəfi – yekunlaşdırıcı hissə (dedi) müəllif təhkiyəsi ilə əlaqəlidir. Başqa sözlə, obrazın təhkiyəsini (məsələn: Qılbaş ayıtdı: «Sən qarındaşısan, sən var…»; XII b., s. 125) müəllif təhkiyəsi (…dedi) müşayiət edir və tamamlayır (Cümlə bütöv halda bu cür ifadə olunur: Qılbaş ayıtdı: «Sən qarındaşısan, sən var!» - dedi; XII b., s. 125) (6, s. 46; 4, s. 31). «Kitabi – Dədə Qorqud» şerlərində işlənən «aydır – dedi» sinonim cütlüyü konstruktiv funksiya da daşımalı olur; mətn vahidi hesab edilən şerlərin başlanğıcı ilə sonunu əlaqələndirməklə, mətn komponentlərini bir-birinə bağlayır, onların bütöv sintaktik vahid kimi təşkilinə xidmət edir. Odur ki, sinonim cütlüklərin əhatə etdiyi belə şerləri tabeli mürəkkəb cümlədən çox mətn hesab etmək daha məqsədəuyğundur.

Selcan xatun burada soylamış, görəlim, xanım, nə soylamış, aydır:

Hey yigidim, bəg yigidim!
Qaytabanlar torumından dönərmi olur?
Qaraqucda Qazlıq atlar
quluncığın dəpərmi olur?
Ağayılda ağca qoyun
quzıcığın süsərmi olur?
Alp yigitlər, yeg yigitlər
Görklüsünə qıyarmı olur?
Yigidim, bəg yigidim!
Bu yağının bir ucın mana,
Bir ucın sana! –dedi (s. 92)

«Kitabi-Dədə Qorqud»un dilindəki yanaşı sinonimlər adətən eyni qrammatik formaya malik olduqda yeni məna bildirir. Dünya–aləm Dəli Domrulun gözünə qarannu oldı (V b., s. 79). Cümlədəki dünya–aləm cütlüyü «bütün dünya»

anlamındadır. Bunlar yeni məna çalarını ifadə etmədikdə isə müxtəlif qrammatik formalarda işlənirlər. Aslanı qoyu verdilər. Sürdi gəldi. Qanturalı bir kəpənəgi qapağına toladı. Aslanın pəncəsinə sunı verdi (s. 89; sunı verdi – feli bağlama forması+felin şühudi keçmiş zaman əlaməti). Sinonim tərəflər eyni cümlə vahidinin təkrar olunan yarımçıq sintaqmlarına düşdüyü halda güclü bədii effekt yaradır. Kəndü əslim, kəndü köküm sımağım yoq (s. 118; əsl–kök). Cümlədə təkrar olunan sintaktik konstruksiyaların birində sinonim–cütlüyün bir tərəfi (əsl), digərində sinoni cərgənin başqa üzvü (kök) işlənir.

Tekstuallıq mənşəcə sinonim olmayan sözləri mətndə sinonim vahidlərə çevirir. Tekstuallığı da məhz mətn komponentləri – ayrı–ayrı leksik vahidlərin mənaları əmələ gətirir. Onu da nəzərə almalıyıq ki, mətndə hər cür leksik vahidlər sinonimləşə bilməz. Burada konkret semalar və semalararası münasibət mühüm rol oynayır. Mətn o sözləri sinonim vahidlərə çevirir ki, onlara məxsus semaları hər hansı ortaq əlamət yaxınlaşdıra bilsin. Məsələn, qədim türk leksikonunda altun «qızıl», aqça «gümüş» mənasındadır. Onları yaxınlaşdıran ortaq cəhət hər ikisinin tədavül vasitəsi roLunu aynamasıdır. Bu əlamətə görə də hər iki leksik vahid «Kitabi–Dədə Qorqud»un dilində sinonim sözlər kimi işlənir. Böylə digəc Qazan bəg aydır: «Mərə dəlü ozan! Məndən nə dilərsən? Çətirli otaqmı dilərsən? Qul-qaravaşmı dilərsən? Altun-aqçamı dilərsən, verəyim!» - dedi (II b., s. 64). Yaxud başqa misal. Anam mənim içün gög geyüb qara SArınsun! Qalın Oğuz elində yasım tutsun! Mənim başım sənin yolına qurban olsun! Gerü dön, baba! – dedi (s. 75). Nümunədəki gög, qara sözləri ayrı-ayrı rəng adlarını bildirən sifətlərdir. Görünür, hər iki rəng qədim türklərdə hüzn, kədər əlaməti sayıldığından bunlar yaxın mənalı sözlər kimi işlənə bilir. Növbəti nümunədə isə yer və yurd sözləri sinonimləşdirilir. Baybörə bəg aydır: «Xan Qazan, necə ağlamıyayın, necə bozlamıyayın? Oğulda ortacım yoq, qartaşda qədərim yoq! Allah-təala məni qarğayıbdır… Bəglər

tacım-təxtim içün ağlaram. Bir gün ola, düşəm öləm, yerimdə-yurdımda kimsə qalmıya»,– dedi (III b.,s. 52)

Üslubi sinonimlik kimi mətn sinonimliyi də tekstin hüdudları daxilində yaranır. Ancaq birincidən fərqli olaraq, mətn sinonimliyini daha böyük sintaktik vahid olan mürəkkəb sintaktik bütöv əmələ gətirir. Mürəkkəb sintaktik bütöv daxilində adətən bir neçə cümlə iştirak edir və onların hər biri özünəməxsus informativ strukturla səciyyələnir. Bu informativ baza istənilən sözün məna tutumunda dəyişikliklər əmələ gətirə bilir. Məsələn, «Kitabi–Dədə Qorqud»un leksikonunda tuşaq sözü «atın yeriyə bilməməsi üçün ayaqlarına vurulan kəndir» mənasındadır. Ancaq mətnin informativ bazası bəzən sözü semantik təyinatını dəyişməyə məcbur edir. O, əşya, predmet («kəndir») mənasından uzaqlaşaraq, tamamilə yeni bir anlama – «insan» mənasına yaxınlaşır. Belə bir proses ilk baxışda bir leksik vahidlə bağlı olsa da, əslində iki sözün iştirakı ilə baş verir və sema ilə sema, səs kompleksi ilə səs kompleksi arasında olur. Yəni başqa bir səs kompleksinə daxil olan hər hansı leksik məna öz səs kompleksini itirir. Eləcə də digər mənanı qəbul edən fonetik tərkib öz anlamından uzaqlaşır:



Qeyd. Burada **S**–sema, **SK**–səs kompleksini bildirir.

Əgər

$$\mathbf{SK}_1 - \mathbf{S}_1$$

və

$$\mathbf{SK}_2 - \mathbf{S}_2$$ olarsa,

onda $\mathbf{SK}_2 = \mathbf{S}_1$ bərabərliyi də yaranır; bu halda ikinci səs kompleksi (tuşaq) ilə birinci sema («insan») nisbi bərabərlik təşkil edir.

Ata–ana «yanlış xəbərdir, getmə, oğul!» –dedilər. Oğlan aydır: «Məni yolımdan ayırman! Ağam tutulan qələyə

varmayınca, ağamın ölüsin–dirisin bilməyincə, öldüsə, qanın almayınca, Qalın Oğuz elinə gəlməgim yox!» –dedi.

Ata–ana ağlaşub, Qazana Adam saldılar. «Oğlan qardaşın andı, gedər; bizə nə ögüt verərsən?» –dedilər. Qazan aydır: «ayağına ət tuşağın urun!» –dedi. Yauqlısı vardı, tez dügün–diring etdilər. Atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç qırdırdılar. Oğlanı gərdəgə qoydılar. Qızla ikisi bir döşəgə çıqdılar. Oğlan qılıcın çıqardı. Qızla kəndü arasına bıraqdı. Qız aydır: «Qılıcın geydir, yigit, murad ver, murad al, sarılalım!» -dedi. Oğlan aydır: «Mərə qavat qızı, mən qılıcıma toğranayım, oxuma sancılayım! Oğlım toğmasun, toğarsa, on yaşına varmasun, ağamın yüzin görməyincə, ölmiş isə, qanın almayınca bu gərdəgə girərsəm!» -dedi… Qız aydır: «Qədəmi qutsız gəlin deyincə, udsız gəlin desünlər. Qayın atama, qayın anama aydayım», -dedi. Soylamış, qız aydır: «Ala gözlü oğlun qardaşını andı, gedər, Ağca yüzlü gəlinün döndəriməz» (s. 112).

Mətndən göründüyü kimi, eyni bir obraz müxtəlif situ-asiyalarda üç nominativ ünvanla təqdim olunur. Uşun qoca oğlu Səgrəkin adaxlısı bir məqamda ət tuşağı, digərində yauqlı, üçüncüdə gəlin adlandırılır. Bu cür nominasiya müxtəlifliyini informasiyaların xarakteri müəyyən edir. Birinci situasiyada qardaşını əsirlikdən qurtarmaqdan ötrü kafər ellərinə yollanmaq arzusunda olan Səgrək üçün evlənəcəyi qız maneə olduğundan birinci nominativ ünvan yaranır (ət tuşağı). Digər halda Səgrəyin evlənmək istədiyi qız onun sevgilisidir. Bu informaiya ikinci nominativ ünvanı (yauqlı), başqa bir informativlik – toydan sonrakı ailəlik həyatı üçüncü nominasiyanı (gəlin) əmələ gətirir.

2. Antonimlər

Bədii mətn daxilində antonimlər daha çox üslubi imkanlarının genişliyi ilə seçilir. «Kitabi–Dədə Qorqud»un dilində bunların, demək olar ki, bütün işlənmə məqamları tekstin bədii gücünü artırır. Bu xüsusiyyət söz qrupunun semantik təyinatı ilə birbaşa bağlıdır. Antonimlər qüvvətli bədii təzad yaradır. Baya mırlardı, şimdi xırlamağa başladı (s. 80; baya–şimdi). Antonimlərin iştirakı ilə bədii mətndə güclü orbrazlılıq əmələ gəlir. Mərə Əzrayıl, mən səni gen yerdə istərdim, tar yerdə eyü ələmə girdin (s. 80; gen–tar). Yigitlərim, Əzrayilin gözini elə qorxutdum ki, gen qapuyı qodı, tar bacadan qaçdı (s. 80; gen–tar). Sinonim cərgələrdə olduğu kimi, antonimlərdə də tərəflər arasında semantik əlaqələr mövcuddur. Belə əlaqələnmə sinonimlərdə məna yaxınlığı şəklində özünü göstərirsə, antonimlərdə vahid bir anlayışla bağlılıq formasında üzə çıxır. Sonuncu xüsusiyyət antonimlərdə üslubi potensiallıq üçün birbaşa şərtdir. Odur ki, antonim sözlər mətndə bəzən yanaşı işlənir və birlikdə hər hansı yeni anlayışın ifadəsinə xidmət edirlər. Gecə və gündüz leksemləri leksikonumuzda əks mənalı sözlərdir. Ancaq mətndə ikisinin bir yerdə işlənməsi zaman anlayışının sürəkliliyini, yaxud zaman intervalına görə qət olunan yolun uzunluğunu bildirir. Bəzırganlar dəxi gecə–gündüz yola girdilər (III b., s. 52). Antonimlər üçün xas olan leksik duallıq tərəflərdən hər birinin təkrar olunan sintaktik konstruksiyalara düşməsi ilə onları şəksiz quruluş elementinə çevirir. Tərəfləri bütün hallarda eyni qrammatik formalar izləyir. Bəzırganın ulusı tutıldı, kiçisi qaçaraq Oğuza gəldi (III b., s. 53; ulusı–kiçisi). Yerdə isə oğulı çıqarayım, gögdə isə endürəyim (, s. 74; yerdə–gögdə). Bulursam, buldım, bulmaz isəm, tənri verdi, tənri aldı, neyliyəyin (s. 74; verdi–aldı). İç Oğuz, Taş Oğuz bəgləri yığnaq olmışdı (s. 104; iç–taş).Xeyir xəbər gətürənə at,

ton verəm, qaftanlar geydürəm, şər xəbər gətürənin başın kəsəm (s. 112; xeyir–şər).

Qara və ağ sifətləri «Kitabi – Dədə Qorqud»un dilində ən çox işlənən antonim cütlüyüdür. İki talusından çəngələ sancun, qıyma–qıyma ağ ətindən çəkün. Qara qaurma edib, qırq bəg qızına ilətün (II b., s. 47). Ağ yüzin qara yerə dəpəydim (II b., s. 47). At ürkdi. Dəli Domrulı götürdi, yerə urdı. Qara başı bunaldı, bunlu qaldı. Ağ köksinin üzərinə Əzrayil basub qondı (s. 80). Qamğan oğlı xan Bayındır yerindən turmışdı. Qara yerin üzərinə ağ ban evin dikmişdi (s. 94). Qazanın divanına çapub varın, ağ çıqarıb, qara geyin. «Sən sağ ol, Beyrək öldi» – deyin (s. 125). Altında Al ayğırı arıq oğlan. Qara polad uz qılıcı gödək oğlan! Əlindəki sügüsi sınıq oğlan! Ağ tozlu qatı yayı gedə oğlan (s. 107). Mətndə elə situasiyalar var ki, ağ–qara sifətlərinin hər hansı birindən antonim cütlük yaratmaq məqsədilə istifadə olunur. Bunı eşidüb Qıyan Səlcük oğlı Dəlü Dondaz ağ çıqardıb, qara geydi. Beyrəgin yarü yoldaşları ağı çıqarıb, qaralar geydilər. Qalın oğuz bəgləri Beyrək içün əzim yas tutdılar. Ümid üzdilər (III b., s. 58).Ağ saqallu atanı, ağ birçəklü ananı sorar olsan, sağdır Bamsı! Ağ çıqarıb qara geydilər sənincün, Bamsı! (III b.,s. 59).

Verilmiş nümunədə ağ sözünün yerinə başqa bir rəng bildirən sifətin işlənməsi tamamilə mümkün idi. Lakin onlardan istifadə olunmaması qara sözü üçün leksik oppozitivlik yaradır və bir növ üslubi antonimləşmə gedir. Ümumiyyətlə, bu sifətlərin mətndə işlənmə tezliyi o qədər intensivdir ki, onların iştirakı ilə tez-tez təkrarlana bilən sabit ifadələr əmələ gəlir: ağ yüz, ağ əl, ağ ət, ağ alın, Bayındır xanın ağ meydanı, qara yer, qara baş, qara polad uz qılıc və s. Bu isə sözlərin bəzən ifadə daxilində idiomlaşmasına, rəng mənasını itirməyinə gətirib çıxarır. Qardaşım tutsaq oldı. Malımızı, rizqimizi yağmaladılar, gerü döndilər. Qara başım götürdüm, sana gəldim. Qara başın sədəqəsi, yigit, mədəd mana! – dedi

(III b., s, 53). Asmanlu gögdə qara bulut oluban kafərin üzərinə gurlıyayım. Ağ yıldırım olup şaqıyayım (s. 76).

Sağ–sol oppozitivliyi də «Kitabi-Dədə Qorqud»un dilində ən çox təsadüf edilən antonim ikiliklərdəndir. İkiliyin işlənməsində bir neçə məqam xüsusilə diqqəti cəlb edir. İkiliyə daxil olan leksik vahidlər nominativ mənada işlənir və bədii fiqur olmur. Xan qızı gördi kim, Qazan gəlür, yumurlanıb yerindən uru turdı. Samur cübbəsin əgninə aldı. Qazana qarşu gəldi. Qabaq qaldırdı. Qazanın yüzinə toğrı baqdı. Sağlan–solına göz gəzdirdi. Oğlancuğını – Uruzı görmədi (s. 72). Antonim cütlük nominativ mənada işlənir və bədii fiqur olur. Sağ tərəfdə Qara Tükən Məlikə Qıyan Səlcük oğlı Dəli Tondaz qarşu gəldi. Sağ yanını qılıcladı, yerə saldı. Sol tərəfdə Buğacıq Məlikə Qaragünə oğlı Dəli Budaq qarşu gəldi. Altı bərli güz ilə dəpəsinə qatı tuta urdı (s. 50). Üç kişi sağ yanından, üç kişi sol yanından dəmür zəncirlə buğayı tutmışlardı (I b., s. 36). Burada antonim tərəflərin hər biri təkrar olunan sintaktik konstruksiyalara düşür və leksik vahidlərin üslubi təyinatını müəyyən etmiş olur.

Türk bədii mətnlərində sağ–sol oppozitivliyinin iştirakı ikiliyin vaxtilə daşımış olduğu termin statusu ilə bağlıdır. Ə.Əsgər və M.Qıpçaq yazırlar: «Qədim türk dövlətlərində ordu quruluşu ilə dövlət quruluşu bir-birini tamamlayırdı. Hun, Göytürk, Uyğur xaqanlıqlarında dövlət iki idarəçilik bölgəsinə ayrılırdı: şərq və qərb. Şərq və qərb bölgəsi həm də sağ və sol bölgəsi şəklində ifadə olunur, «böyük» və «kiçik» anlayışına uyğun gəlirdi… Bu bölgüyə uyğun olaraq türk ordularının quruluşunda sağ və sol cinah mühüm əhəmiyyət təşkil edirdi. Demək olar ki, ordunun bütün özəkləri sağ və sol cinaha ayrılırdı. Qədim türk dövlətlərində hərbi rütbələr belə sağ və sol bölgüsündən doğurdu. Məsələn, Hun imperiyasında hərbi rütbələr «sağ müdrik şahzadəsi», «sol müdrik şahzadəsi», «sağ böyük sərkərdəsi», «sol böyük sərkərdəsi» şəklində adlandırılırdısa, göytürklərdə «tölis bəylər», «tarduş bəylər»

şəklində ifadə olunurdu. Bu qanunauyğunluq «Kitabi–Dədə Qorqud»da «sağ bəglər», «sol bəglər» şəklində əks olunur. Bəylərin xaqan iqamətgahındakı mövqeləri ilə ordudakı mövqeləri bir-birindən fərqlənmirdi. Ona görə də xaqan iqamətgahında qurultaylar zamanı xaqanın sol yanında oturan bəylər ordunun sol cinahında, xaqanın sağ yanında oturan bəylər isə ordunun sağ cinahında dururdu. Hun, Göytürk, Uyğur dövlətlərində ordunun sol cinahında (eləcə də xaqanın sol yanında) oturan bəylər nüfuzlu hesab olunurdu. Sonrakı dövrlərdə isə sağ cinah nüfuzlu hesab olunmuşdur» (8, s. 79-80).

Sonrakı dövr – orta əsrlər türk yazılı mətnlərində bunlar (sağ–sol) terminlilikdən uzaqlaşmış, yalnız antonim sözlər kimi bədii mətnlərin tekstual təşkilinə xidmət etmişlər. Bununla belə, «Kitabi-Dədə Qorqud» mətnində ikiliyin termin təyinatı ilə bağlı nümunələr kifayət qədərdir. Bayındır xanın qarşusında oğlı Qarabudaq bay tayanıb turmışdı. Sağ yanında Qazan oğlı uruz turmış idi. Sol yanında Qazlıq qoca oğlı bəg Yegnək turmışdı (III b., s. 52). Bəzirganın ulusı tutıldı, kiçisi qaçaraq Oğuza gəldi. Baqdı gördi, Oğuzun ucında bir ala sayvan dikilmiş, bir imirzə xub yigit qırq yigid ilən sağında və solında oturırlar (III b., s. 53). Sağda oturan sağ bəglər! Sol qolda oturan sol bəglər! Eşikdəki inaqlar! Dibdə oturan xas bəglər! Qutlu olsun dövlətinüz (s. 63). Oğlı Uruz qarşusında yay söykənib turardı. Sağ yanında qardaşı Qaragünə otırmışdı. Sol yanında tayısı Uruz oturmışdı (s. 68). «Kitabi-Dədə Qorqud»un dilində antonim cərgə (sağ – sol) idiomlaşa bilir. Beyrək şülən yeməginin üzərinə gəldi. Qarnın toyurduqdan sonra qazanları dəpdi–dökdi, çevirdi. Yəxninin kimini sağına, kimini solına atar. Sağdan gedəni sağ alur, soldan gedəni sol alur. Haqluya həqqi dəgə, haqsıza yüzi qaraluğı dəgə (s. 64).

Antonim cərgəni təşkil edən sözlərin məna yükü başqa bir leksik vahidə məxsus sema ilə rabitə yaradaraq, əvvəlki oppozitivliyi onunla qoruyub saxlayır. Yeni təşkil olunmuş

antonim ikilik əvvəlkindən fərqli olaraq, leksikonda eyni anlayışın əks tərəflərini və ümumiyyətlə, heç bir əkslik bildirmir. Belə üslubi antonimləşmədə istənilən leksik vahid iştirak edə bilməz. Odur ki, bu cür keyfiyyət hər hansı ortaq əlaməti, müştərək xüsusiyyəti olan sözlər arasında özünü göstərə bilir:

Ala – eyü. Yanıma ala baqduğımda qonşuma eyü baqdım (s. 73).

Acı – ağ. Acı tırnaq ağ yüzinə çalarmısan (s. 82).

Çoq – yoq. Yelisi qara Qazlıq atuma binməgim çoq, Arqu beli, Ala tağı avlayuban aşmağım yoq (s. 107).

Verilmiş nümunələrdə ala sözü eyü sözü ilə, acı sözü ağ sözü ilə, yoq sözü çoq sözü ilə antonim ikiliklər yaradır. Bu səbəbsiz deyil. Çünki istər kontekstdə, istərsə də kontekstdən kənarda ala sözü «pis», acı sözü «qara», yoq sözü isə «az» anlamları ilə sinonim kimi işlənirlər.

§3. MƏTN VƏ LEKSEM

Ayrı–ayrı sözlər birlikdə mətn vahidini yaratdığı kimi mətn də öz növbəsində sözün leksik–semantik vahid şəklində formalaşmasına təsir göstərir. Çünki sözün elə mənası var ki, ancaq kontekstdə üzə çıxır və yalnız kontekst onu müəyyən edə bilir. Bu və bu tipli başqa paradiqmalar mətn–leksem münasibətlərinin bir sıra əsas tərəflərini əks etdirir:

–mətn leksemdən başladığı kimi, leksem üçün də mətn başlanğıc nöqtə ola bilir;

–leksemin bütün semantik funksionallığı mətndə üzə çıxır və mətnin funksional imkanları da leksemlə reallaşır;

–mətndən təcrid edilmiş leksem, leksemdən kənarda mətn yoxdur;

–mətn leksemin, leksem də öz növbəsində mətnin kommunikativ vahid kimi təyinatını müəyyən edir.

Mətnlə bağlı hər hansı funksionallıq ilk növbədə cümlələrin informsiya tutumu ilə müəyyən olunur. Cümlənin informativ tutumunu isə leksik-semantik vahid yaradır. Türk bədii mətninə məxsus bəzi tipoloji xüsusiyyətlər qədim dövrdə olduğu kimi, orta əsrlərdə də sabit dil faktı kimi meydana çıxır. İstər qədim dövrdə, istərsə də orta əsrlərdə bədii mətnin predikativliyə, modallığa, bitmə intonasiyasına malik ilk sintaktik vahidi – ilk cümlə xüsusi təyinat nümayiş etdirir. İlk cümlənin informativ məzmun planında üzə çıxan bu təyinat xaqan (xan) haqqında informasiya ilə səciyyələnir. Tenri teq tenride bolmış türk bilqe kağan bu ödke olurtım (KltŞ. 1). Qam ğan oğlı xan Bayındır yerindən turmışdı (KDQ, s. 52). Kültiqin şərəfinə abidədən gətirdiyimiz nümunədə cümlənin informativ nüvəsi olurtım felinin üzərinə düşür (bu ödke olurtım), «Kitabi – Dədə Qorqud»a aid ilk cümlənin əsas informativ nüvəsini isə turmışdı feli ifadə edir (yerindən turmışdı). Qədim və orta əsrlərə aid mətnlərin tipoloji təhlili göstərir ki, bədii mətnlərin

xüsusi təyinata malik ilk cümlələrində əsas informativ nüvəni ifadə edən sözlər eyni anlayışın əks tərəflərini bildirən leksik vahidlərdir: olurtım «oturdum» – turmışdı «durmuşdu». Bu isə qədim türk mətninə aid ilk cümlənin informativ bazasını orta əsrlərdə də maksimum şəkildə qoruyub saxlayır. İnformativ bazanın dəyişmədiyini aşağıdakı müqayisə də əks etdirir:

[Mən] Bilgə xaqan [bu taxta] oturdum – Bayındır xan [yerindən] durmuşdu
Bilgə xaqan oturdu – Bayındır xan durmuşdu

Bilgə xaqan – Bayındır xan
oturdu – durmuşdu

Göründüyü kimi, dil abidələri arasında zaman və məkan fərqləri olsa da, etnik təfəkkür məhsulu – qədim dövr yazılı abidələrin spesifik mətn strukturu kiçik dəyişikliklə orta əsrlərə də ötürülür. Bu zaman təkcə mətn strukturu yox, mətnin informativ vahidləri, leksik – semantik funksionallıq, sözlər, ifadələr də ötürülə bilir. Bunlar əksər hallarda bədii potensiallığı artırır, informativ bazadan çox, mətnin struktur – forma baxımından təşkilinə xidmət göstərirlər. Kağan sözü qədim türk (runik) yazılı abidələrindən orta əsrlər ümumtürk ədəbi dilinə (türki) ötürüldükdə öz kommunikativ təyinatını itirir. Və bu zaman həmin leksik vahid dil sistemində normal ünsiyyət funksionallığından çox bədii funksionallığa xidmət edir. Yəni orta əsrlərdə kağan // xaqan institutu mövcud olmadığından kağan // xaqan sözünün həmin leksik mənada işlədilməsinə də ehtiyac qalmır. Odur ki, leksik vahid orta əsrlər türk yazılı abidələrində, o cümlədən, «Kitabi – Dədə Qorqud»un dilində işlənsə də, nominativ anlamda yox, ekspressivliyə xidmət edən bədii dil detalı kimi diqqəti cəlb edir (6, s. 60). Bədii təyin olur, mifonimi təyinləndirir – Qağan Aslan qopdı Dəpəgöz, Qalın sazlarda çevirdim, alımadım,

Basat (VIII b., s. 100). Anam adın sorar olsan, Qaba Ağac, Atam adın deirsən Qağan Aslan (s. 102). Kağan Aslan bilen pençe tutuşkan İr degil (Xaqan Aslan ilə pəncə tutan adam deyil; «Kitab–Gülistan bi-t turki» (15 s.43)). Böyüklük, əzəmət bildirir – Çərikdə bir bödük qağan ər bəg bar irdi (Qoşunda bir böyük, igid xaqan döyşçü vardı, Oğuznamə, (14, s. 84)). Kültiqin şərəfinə abidədə: Biliqsiz kağan olurmıs erinç, yablak kağan olurmıs erinç (KltŞ. 5; Biliksiz xaqan taxta oturmuş, pis xaqan taxta oturmuş).

Qədim türk ədəbi dilindən orta əsrlər türk ədəbi dilinə – «türki»yə ötürülmüş leksik vahid bu və ya digər şəkildə köhnə məna ilə əlaqəsini saxlayır. Bu bir neçə şəkildə özünü göstərir. Semantik cəhətdən arxaikləşmiş söz bir ifadə tərkibində həmin mənanı bildirən «yeni» leksik vahidlə paralel olaraq işlənir. Belə ki, müasir dildə semantik daralma keçirən oğlan sözü Kültiqin şərəfinə abidədə daha geniş mənanı – «övlad» anlamını ifadə edir. Sözün «övlad» mənası (geniş məna) yeni sema («övladlardan biri» – dar məna) ilə birlikdə «Kitabi – Dədə Qorqud»un dilində işlənir. Qazan bəg ordusını, oğlanını – uşağını, xəzinəsini aldı (III b., s. 50). İfadənin bu şəkildə formalaşmağının səbəbi leksik komponentlər arasındakı leksik – semantik bağlılıqdır. Həmin bağlılığı köhnəlməkdə olan leksik vahidlə (oğlan «övlad») yeni təşəkkül tapmış leksemin (uşaq «övlad») paralel işlənməsi doğurur. Belə ardıcıllıq müasir Azərbaycan dilində də kiçik dəyişikliklə qorunub saxlanır: oğul – uşaq.

Sözə məxsus sema başqa bir leksik vahidin yaranmasını şərtləndirir. Bu sözdəki leksik mənanın konkretləşməsi hesabına baş verir. Qız sözünün semantik ehtiyatı bir-biri ilə üzvi şəkildə birləşmiş iki semaya əsaslanır – qız «insan» və qız «bakirə». Sonrakı inkişaf prosesində isə qız sözündəki leksik məna iki semadan biri üzərində konkretləşir. Bu halda söz əlamət bildirən sifət funksiyasını daşıyır. «Kitabi–Dədə Qorqud»da qız söz «eşidilməmiş, deyilməmiş söz», «yeni söz».

Oğlan bəzirganlar xüsusından qız söz söyləmədi (III b., s. 53). «Oğuznamə»də qız yaqut daş «cilalanmamış, işlənməmiş xam yaqut daş». Kop–təlim altun–kümüş dartıb, kop–təlim qız yaqut Daş alıb, kop–təlim erdinilər yibərib yumşayıb, Oğuz xaqanqa soyurqab berdi (14, s. 81).

Bədii mətndə informasiyanın xarakteri də yeni leksik vahidin yaranmasına səbəb olur. Misal üçün, «Qambörənin oğlı Bamsı Beyrək boy»nda Beyrəkin adaxlısından gələn qırmızı qaftanı qırx yigidin hər biri növbə ilə geyinməlidir. İnformasiyanın xarakteri elədir ki, qaftanın qırx yigit tərəfindən bir–bir növbə ilə geyinilməsini nəzərdə tutur. Bunu «Kitabi–Dədə Qorqud»da yeni leksik vahid – sıravardı sözü ifadə edir. Mürəkkəb sözün və onun tərkib hissələrinin məna tutumu informasiyanın təbiətinə tamamilə uyğundur; sıravardı, yəni növbə bir sırada (yigiddə) qurtardı, sonra gələn sıraya (yigidə) vardı. Adağlusından ərgənlik bir qırmızı qaftan gəldi. Beyrək geydi. Yoldaşlarına bu iş xoş gəlmədi. Səxt oldılar. Beyrək aydır: «Niyə səxt oldunuz?» dedi. Ayıtdılar: «Necə səxt olmıyalum? Sən qızıl qaftan geyərsən, biz ağ qaftan geyəriz!» - dedilər. Beyrək aydır: «Bu qədər nəsnədən ötri niyə səxt olursız? Bu gün bən geydim, yarın naibim geysün. Qırx günə dəkin sıravardı geyəgüz» (III b., s. 57).

Tekstuallıq bədii mətnə məxsus leksikonun formalaşmasına təsir göstərə bilir. Bu da öz növbəsində spesifik söz və ifadələrin işlənməsini zəruri edir. Məsələn: inağ, imrənci, umur, qırım (III b., s.58), kəndözi (III b., s. 59), dəpdi, arqurı (IV b., s. 69), şülən, mərə, qavat, tonatdı (III b., s. 65), alaldı (IV b., s. 68), qaba ağac (III b., s. 66), uru (IV b., s. 72), çaldı (VI b.,s. 90), apul–apul yürüyiş (III b., s. 62). Bəzi ifadələr isə tez-tez təkrarlandığına görə sabit model formasını alır: əlin–əlinə çaldı (IV b., s. 69), qas – qas güldi (III b., s. 65), bıldır–bıldır ağladı (III b., s. 64), qaza bənzər qızı-gəlini (III b., s. 62), qaba ələm, qarşu yatan qara tağlar (III b., s. 66), dünlügi altun ban ev (III b., s. 66), yum verəyim (III b., s. 67), qara

başım qurban olsun (IV b., s. 68), av avladı, quş quşladı (IV b., s. 69), uru turdı (IV b., s. 72), alca qan, qara baş (VI b., s. 92). Bədii mətnin tekstual gücü sabit birləşmələri, idiomları, frazeoloji ifadələri formaca dəyişdcirə bilir. Bu cür şəkildəyişmə daha mürəkkəb formadan daha sadə olana doğru gedir. Mətnlərə baxaq.

– Qazılıq qoca qələyə yetdügiləyin cəngə başladı. Pəs ol təkur qələdən taşra çıqdı. Meydana girdi, ər dilədi. Qazılıq qoca anı gördiginləyin yel kibi yetdi, yeləm kibi yapışdı. Kafərin ənsəsinə bir qılıc urdı. Zərrə qədər kəsdirəmədi. Növbət kafərə dəgdi. Ol altmış batman gürzlə Qazılıq qocayı dəpərə tutıb çaldı. Yalan dünya başına tar oldı (VII b., s. 96).

– Qıyan Selcik oğlı Dəli Tondaz yerindən turı gəldi. Avltmış tutam sür cidasın qoltuq qısub, ol kafəri qarşusından süsəm, -dedi, süsəmədi. Kafər təkur qarmalayıb, zərb etdi. Sügüsin çəkdi, əlindən aldı . Ol altmış batman gürz ilə Tondazı dəpərə tutıb çaldı. Gen dünya başına tar oldı (VII b., s. 96).

– Oğuz yığılub üzərinə vardı. Dəpəgöz görüb qaqdı, bir ağacı yerindən qopardı. Atub əlli-altmış adam həlak elədi. Alplar başı Qazana zərb urdı – dünya başına tar oldı (VIII b., s. 99).

Nümunələrdə kursivlə verilmiş sabit birləşmə üç mətndə üç fərqli formada iştirak edir. Şübhəsiz ki, burada başlanğıc şəkil antonim cütlüyün (gen–tar) bir–birini tamamladığı formadır: Gen dünya başına tar oldı. Sonrakı formada antonimlərdən biri üslubi sinonimi ilə əvəz olunur: Yalan dünya başına tar oldı. Növbəti inkişaf artıq antonim cütlüyün dağılmasına doğru gedir: Dünya başına tar oldı.

Eyni sözün təkrarı bəzən yeni və «Kitabi–Dədə Qorqud»un mətni üçün spesifik leksik vahidin yaranmasına səbəb olur və bu şəxs əvəzliklərinə aid oduqda, xüsusilə, unikal forma əmələ gəlir: mən – mənləmək. «Qazan bəg oğlı Uruz bəgin tutsaq olduğu boy»da oğlu Uruz bəyi xilas etməyə gedən Qazan bəy ilk həmlədə kafəri yenə bilmir. «Başım tacı Qazan

gəlmədi» deyə onun ardınca yollanan Burla xatunu da Qazan xan tanıya bilmir. «Qara ayğırın cilovsını mana tartğıl, yigit! Təkyə tutub yüzümə baqğıl, yigit! Altundağı qara ayğırı mana vergil, yigit! Ələndəki sür cidanı, Yanındağı göq poladını mana vergil, yigit! Bu günümdə umud olğıl mana! Qala–ölkə verəyim sana!» deyir. Burada Qazan xanın işlətdiyi «mana tartğıl», «mana vergil», «mana umud olğıl» ifadələrin müqabilində qarşı tərəfin nitqində həmin şəxs əvəzliyindən düzələn mənləmək sözü işlənir: Qarşım ala, yigit, məni nə mənlərsən? (IY b., s. 76). Qalan hallarda eyni köklü sözlərin iştirakı mətnin dilində ritm, ahəngin yaranmasına səbəb olur: Dəmür qapu Dərvənddəki dəmür qapuyı qapub alan (IV b., s. 77).Dəli Domrulun görər gözi görməz, tutar əlləri tutmaz oldı (V b., s. 79). Mən mana netdim və s.

* * *

«Kitabi – Dədə Qorqud»un mətnindəki sabitləşmiş ifadələrin bəzisi şifahi xalq ədəbiyyatı nümunələrinin, eposların, xalq dastanlarının dilindən gəlir. Mümkündür ki, «Kitabi–Dədə Qorqud»un mətni onların bir çoxu üçün ilkin formalaşma mənbəyi, yaxud işlənmə yeri olsun. Bunu oradakı sabit ifadələrin malik olduğu daha sadə, daha bəsit formalar da təsdiq edir. Sıçradı, kafərlər arasından çıqdı. At sürüb bu yigidin üzərinə gəldi. Atından endi. Çilbərini bir tala ilişdirdi. Baqdı, gördi kim, ayun on dördinə bənzər bir məhbub ala gözlü gənc yigit burçuq–burçuq dərləmiş uyur. Gələndən–gedəndən xəbəri yoq (X b., s. 113). Nümunədəki ayun on dördinə bənzər ifadəsi sonrakı dövrlərdə – XVII–XVIII əsrlərdən sonra yaranmış məhəbbət dastanlarında on dörd gecəlik ay kimi formasını alır: Sabahı Mirzalı xan bir karlı qurbanlıq götürüb getdi ocağa. Kəsib nəziri payladı. Allah–taala bunların qurbanını qəbul eylədi. Belə ki, bir müddət sonra Mirzalı xanın on dörd gecəlik ay kimi bir oğlu oldu («Qurbani» dastanı (2, s. 204)). Fərq ondadır ki, sonrakı ifadədə informasiya tutumu

nominativliyə doğru daha da konkretləşdirilir. Yəni «ayun on dördi» (və ya on dörd günlük ay) yox, «on dörd gecəlik ay». Ona görədir ki, sonrakı dövr klassik ədəbiyyatımızda da «ay, aypara» məfhumu məhz gecənin atributu kimi təqdim olunur.

* * *

Bəkilin al ayğırına məxsus başqa bir xüsusiyyət isə «Koroğlu»da Qıratın əlamətlərindən biri kimi özünü göstərir. Al ayğır qaçan kim yağı qoxusın alsa, ayağın yerə dögərdi, tozı gögə çıqardı (IX b., s. 107). «Kitabi–Dədə Qorqud»da işlənən «dəniz qulunı boz ayğır» ifadəsi də əski dastan elementi olub, «Koroğlu» eposunda Qırat ilə Düratın dəniz atından törəməsi əhvalatını xatırladır. «Dəniz qulunı boz ayğır» ifadəsi «Kitabi–Dədə Qorqud»da ancaq Beyrəyin atına ünvanlanır. Bu, həmin adın təsadüfi epitet olmadığını, xüsusi gücə malik əfsanəvi atlarla (o cümlədən, sonrakı dövrlərin məhsulu olan Qırat, Dürat ilə) genealoji bağlılığını göstərir. Bəzırganlar dəxi gecə–gündüz yola girdilər. İstanbula gəldilər. Dan–danışux ilə yəxşi ərməğanlar aldılar. Baybörənin oğlıyçün bir dəniz qulunı boz ayğır aldılar. Bir ağ tozlu qatı yay aldılar. Bir dəxi altı pərli gürz aldılar. Yol yarağın gördilər (III b., s. 53). Yigidin gözi bir dəniz qulunı boz ayğırı tutdı, bir də altı pərli gürzi, bir də ağ tozlu qatı yayı tutdı. Bu üçini bəgəndi (III b., s. 53). Baqdı gördi, kəndünin dəniz qulunı Boz ayğır bunda otlanub turar. Boz ayğır dəxi Beyrəgi görüb tayandı, iki ayağının üzərinə turdı, kişnədi (III b., s. 60). «Koroğlu» dastanında da Qırat ilə Düratın dəniz atı və adi madyanın cütləşməsindən törədiyini göstərən əhvalat var:

Alı bir gün ilxını dərya qırağına aparmışdı. Atlar dəryanın qırağında bir otlaqda otlayırdı. Alı bir də gördü dəryadan iki at çıxdı. Atlar gəldilər, ilxıda iki madyana yaxınlaşdılar, sonra qayıdıb dəryaya girdilər. Alı nə qədər ilxıçılıq eləmişdi, belə şey görməmişdi. Bunu gözündən qaçırtmadı; həmin madyanları manşırladı. Bundan on ay bir

vaxt keçdi. Madyanların hərəsi bir qulun doğdu. Qulunlar böyüyüb bir yaşar oldu. Həsən xan ilxıçısı Alını yanına çağırıb dedi: – Paşayçun iki ayğırlıq at tutduracam, sabah ilxını çölə aparma. Qoca Alı paşaya dərya atlarının balalarını ayğırlığa layiq gördü («Koroğlu» (1, s. 273)).

«Kitabi–Dədə Qorqud»da «dəniz qulunı boz ayğır» ünvanı ilə «Koroğlu» dastanındakı əhvalatın yaxınlığı onun türk mifik təfəkkürünün məhsulu olan qədim bir epos süjeti ilə bağlılığını nümayiş etdirir.

* * *

Elə ifadələr də var ki, onların yaranma yeri «Kitabi–Dədə Qorqud» olmasa da, mənbəyi həmin abidədə birbaşa təsbit olunmuş dini–mifoloji təsəvvürlərdən gəlir. Məlumdur ki, belə teist görüşlərdə dini təsəvvürlərlə mifoloji elementlər sintez olunmuş şəkildədir. Belə ki, qədim türk yazılı abidələri və digər mənbələrə görə həmin dini sistemin yüksək səviyyəsi hesab edilən Tenri yalnız ilahi başlanğıc kimi təqdim olunmur. O, şəxsləndirilir (Tenrii ança timis erinç – Ton2; Tanrı eləcə demiş), adi insana, hökmdara məxsus titullarla təyinlənir (Üze tenri kann – Ongin abidəsi, sağ tərəf, 12; Yuxarıda Tanrı xan). Tanrı xaqanı təyin edir (Özümin ol tenri kağan olurtdı erinç– KltŞ. 25-26; Özümü o tanrı xaqan taxtına əyləşdirdi). Tanrı çətin məqamlarda yol göstərir, kömək edir, insanlara bilik verir, mühafizə edir, qoruyur. Tanrıya məxsus bu cür əlamətlər, atributlar sonrakı dövr yazılı abidələrdə, o cümlədən, «Kitabi–Dədə Qorqud» da da özünü göstiərir:

–Tanrı buyuruq, fərman, yarlıq verir. Kültiqin şərəfinə abidədə: tenri yarlıkaduk üçün illiqiq ilsiretmis, kağanlığığ kağansıratmıs, yağığ baz kılmıs, tizliqiq sökürmis, başlığığ yüküntürmis (KltŞ.15; Tanrı buyurduğu fərman verdiyi üçün dövləti olanı dövlətsiz, xaqanı olanı xaqansız qoymuş, yağını tabe etmiş, dizi olanı diz çökdürməyə məcbur etmiş, başı olanı baş əydirmiş). «Kitabi–Dədə Qorqud»da: Həq təalaya

Domrulun sözi xoş gəlmədi: «Baq, baq, mərə dəli qavat mənim birligim bilməz, yarligümə şükr qılmaz. Mənim ulu dərgahımda gəzə, mənlig eyləyə?» –dedi (V b., s. 79).

–Düçar olunmuş məğlubiyyətlər də, qazanılmış qələbələr də Tanrının iradəsi ilə bağlanır (Tonıkuk şərəfinə abidədə: Tenri yarlıkadu; yaydımız, üqüzke tüsdi–Ton.C.16; Tanrı buyuruq, fərman verdi, [qoşunu] dağıtdıq, [qoşun] çaya düşdü). «Kitabi–Dədə Qorqud»da: «Həq təala Cəbrayilə buyurdı kim, ya Cəbrayil, var, şol quluma qırq ərcə qüvvət verdim» – dedi. Oğlan kafəri götürdi, yerə urdı. Burnundan qanı düdük kibi şorladı. Sıçrayub şahin kibi kafərin boğazın ələ aldı (IX b., s. 109).

–Qədim türklərdə tanrı antropomorfozlaşdırılır. Antropomorfozlaşdırılmış tanrı–insana məxsus xüsusiyyətlərə malik ali yaradıcı qüvvə tədricən insan obrazına çevrilir. Kültiqin şərəfinə abidədə: Üze türk tenrisi, türk ıduk yiri, subı ança timis (KltŞ. 10-11; Yuxarıda türk tanrısı, müqəddəs türk yeri, suyu eləcə demiş). Həq-təalaya Domrulun sözi xoş gəlmədi: «Baq, baq, mərə dəli qavat mənim birligim bilməz, yarligümə şükr qılmaz. Mənim ulu dərgahımda gəzə, mənlik eyləyə?» – dedi. Əzrayilə buyuruq elədi kim, ya Əzrayil, var, ol dəxi dəli qavatın gözinə görüngil, bənizini sarartğıl! – dedi; canını xırlatğıl, alğıl! – dedi (V b., s. 79). Həq təalaya Dəli Domrulun sözi xoş gəldi. Əzrayilə əmr elədi: «Dəli Domrulun atasının–anasının canın al! Ol iki hələla yüz qırq yıl ömr verdim», –dedi (V b., s. 83).

–VIII əsrdə Orxon türklərində xaqan kultunun olduğu tədqiqatlarda qeyd edilir. Xaqana aid sabit model şəklini almış epitetlərdən birində xaqan tanrıya bənzədilir (Tenri teq tenriide bolmış türk bilqe kağan – KltC. 1; Tanrı kimi göylərdə doğulmuş müdrik türk xaqanı). Ongin abidəsində xaqana ünvanlanan o cür məzmuna malik tenrikən ifadəsi işlənir. Xaqan da tanrı kimi göylərdə doğulur (bax: KltC.1). Xaqan tanrının göstərişi, fərmanı ilə təyin olunur (taxta çıxır)

(KltŞ.25-26). Tanrı sözü Orxon türklərində (qədim türklərdə) xaqana aid təyin kimi də işlənirmiş. Tenri bilqe kağanka sakınu isiq, küçiq berseqim bar ermis erinç (Ong., sağ 10; tanrı müdrik xaqana düşünərək işimi, gücümü verməyim var imiş). Tədqiqatçılar dünyanın yaradılması ilə bağlı qədim türk versiyası – qədim türk xaqanlığının insanların ilk etnik–siyasi təsisatı hesab olunması haqqında Kültiqin şərəfinə abidənin ilk xətti[1] ilə xaqanın, xaqan hakimiyyəti kultunun yaranması arasında yaxınlıq görür (23, s. 144). Eyni baxış bucağı sonrakı dövr yazılı abidələrdə də özünü göstərir. «Kitabi–Dədə Qorqud»da: Xatun aydır: «Yigidim, bəg yigidim! Padşahlar tənrinin kölgəsidir. Padşahına asi olanın işi rast gəlməz» (IX b., s. 105). «Kitabi–Dədə Qorqud»un mətnində tanrıçılıqla əlaqədar təşəkkül tapmış sabit ifadə və birləşmələr işlənir – parmaq götürmək («barmaq qaldırmaq»), acı tırnaq ağ yüzinə çalmaq. X əsr ərəb müəllifi Əhməd ibn Fədlan Volqaboyu oğuzları haqqında yazır ki, oğuzlar and içəndə barmaqlarını göyə qaldırıb «bir tenqri» deyirdildər (3, s. 151; 22). Qədim türklərin teist görüşləri ilə bağlı bu detalın relikti islam dininə adaptasiya olunmuş şəkildə «Kitabi–Dədə Qorqud»da müşahidə edilir. Kafər aydır : «Yigit, aman, sizin dinə nə derlər, dinünə girdim», –dedi. **Parmaq götürüb**, şəhadət gətürüb müsəlman oldı (IX b., s. 109). Müqayisə üçün deyək ki, M.Füzuli qəzəllərinin birindəki obrazlı təsviri də həmin detalın dini ritual elementi olduğunu təsdiq edir: Mahi novdur, yoxsa sən etdikdə seyri–asiman, **Qalldırıb barmaq** gətirmiş asiman iman sana (9, s. 56; Səmadakı yeni aydır, yoxsa sən asimana baxıb onu seyr etdikdə göylər barmaq qaldırıb sənə iman gətirir). Acı tırnaq ağ yüzinə çalmaq ifadəsi də həmin dini–mifoloji sistemə aid ritualla əlaqədar yaranmışdır. Beyrəgin babası qaba sarıq

qeyd[1] Üze kök tenri asra yağız yir kılıntukda ekin ara kisi oğlı kılınmıs. Kisi oğlınta üze eçüm–apam Bumın kağan, İstemi kağan olurmış (KltŞ.1; Yuxarıda mavi göy, aşağıda qonur yer yarandıqda ikisinin arasında insan oğlu (ilk insan – Y.Ə.) dünyaya gəlmiş, insan oğlunun üzərində Bumın xaqan, İstemi xaqan hakim olmuş).

götürüb yerə çaldı. Tartdı, yaqasın yırtdı. «Oğul! Oğul!» deyübən yügirdi, zarlıq qıldı. Ağ birçəklü anası buldır–buldır ağladı, gözinin yaşın dökdi. **Acı tırnaq ağ yüzinə aldı–çaldı**. Al yanağın tartdı, qarğu kibi qara saçını yoldı (III b., s. 57). Səndən can dilərəm, ana, Canın mana verərmisən, Yoxsa «oğul, Dəli Domrul!» –deyü ağlarmısan? Acı tırnaq ağ yüzinə çalarmısan? Qarğu kibi qara saçın yolarmısan, ana? (Y b., s. 82). Qədim türk yazılı abidələrindən bəlli olur ki, qədim türklərdə dəfn mərasimi ağlamaqla, qadınların üzlərini kəsməsi, saçlarını yolması ilə müşayiət olunurmuş. Bilgə xaqan şərəfinə abidədə: Bunça kazğanıp kanım kağan ıt yıl onınç ay altı otuzka uça bardı. Bunça bodun saçın, kulkakın, yanakın bıçdı. (BxC. 10 və 12; Bunca qazanıb atam xaqan it ili onuncu ayın iyirmi altısında (25 noyabr 734-cü il) vəfat etdi. Bu qədər xalq saçını, qulağını, yanağını kəsdi).

* * *

«Kitabi – Dədə Qorqud»un mətnində elə ifadələr var ki, etnogenetik zəminlə bağlı hadisələr burada simvolik kodlaşmalara məruz qalır. Onlardan ikisi Qazan xanla bağlı tez–tez işlədilən fərdi səciyyəyə malik sabit ifadələrdir – Türküstanın dirəyi, Qaraçuğın qaplanı. *Tülü quşun yavrısı, Türküstanın dirəgi, Amit soyının Aslanı, Qaraçuğın qaplanı, qonur atın ayası, xan Uruzın babası, xanım Qazan, ünüm anla, sözüm dinlə* (II b., s. 63). Mətndən gətirdiyimiz nümunədən görünür ki, ifadələrdə xalqın etnik təfəkküründə özünə yer etmiş zəruri genetik informasiyalar qorunub saxlanır. Məlumdur ki, İkinci Şərqi Türk Xaqanlığının süqutundan sonra qədim türk birliyinin müxtəlif etnos subyektləri bir–birinin ardınca təmərküzləşmiş strukturdan uzaqlaşır. YIII əsrdə Xəzər dənizinin şərq hövzəsində oğuz tayfa birliklərinə əsaslanan Oğuz yabqu dövləti, X əsrdə Amu Dərya ilə Sır Dərya arasında karluq tayfa birliklərinin əsasında Qaraxanlılar dövləti təşkil olunur, qıpçaq tayfa birlikləri müasir Qazaxıstanın cənub–

qərbini, Volqa və Donun aşağı axarlarını, Krımın çöl rayonlarını əhatə edən böyük bir ərazidə – «Dəşti-Qıpçaq»da məskunlaşırlar.

Həmin etnik–mədəni sistemin coğrafi hüdudlarını ilkin olaraq oğuzlar tərk edərək, qərbə doğru köç edirlər. Oğuzların yerdəyişməsi türklərin qərbə – Şərqi Avropaya doğru ən böyük köç dalğalarından biri hesab olunur. YIII əsrdə oğuzların etnocoğrafi parametrləri Sır Dəryanın aşağı axarlarından qərbə – Xəzər dənizinə və İdil (Volqa) çayına qədər olan ərazini əhatə edir. Məhz bu ərazidə YIII əsrdən X əsrin II yarısına qədər davam edən dövlət – Oğuz dövləti təşkil olunur (16, s. 161). Oğuzlar qərbdən Xəzər və bulqarlarla, şərqdən kaprluqların torpaqları ilə, şimaldan İdil çayı istiqamətində kiməklərlə (qıpçaqlarla), cənubdan müsəlman vilayətləri ilə qonşu idilər (20, s. 524). Oğuz ölkəsinin qərb hüdudlarını Xəzər dənizi, cənub hüdudlarını Aralın cənubu təşkil edir, şərq sərhədləri Mavəraünnəhrdə Buxaranın şimalındakı çöldən başlayaraq İsficaba (indiki Çimkənd yaxınlığında) qədər uzanırdı. Oğuz ölkəsinin şimal sərhədləri isə İdil çayına qədər idi (16, s. 54).

Qədim türk dövrünün əvvəllərində oğuzlar ictimai və siyasi həyatda sanballı çəki qazanır. Orta əsr mənbələrində oğuz boylarına mənsub olmayan başqa türk dil subyektləri (məsələn: uyğurlar) bu etnonimlə («tokuz oğuz») tanınmış, Xəzərin şərqindəki Karaçuk dağlarına (Sır Dəryanın orta yatağı) qədər uzanan əraziyə – XIII əsrdə türklərin Karakum adlandırdıqları çölə həmin dövrün ərəb müəllifləri (Bəlxi, İstəxri və s.) «Məfazət əl-Ğuziyyə», yəni «oğuz çölü» adını vermişlər. Bu fakt oğuz amilini mədəni mühit daxilində həlledici qüvvəyə çevrildiyini göstərir. Dövrün mənbələrində oğuz türkisindən funksional ədəbi dil kimi bəhs edirlər. XI əsrdə «Divani-lüğət–it-türk» müəllifi M.Kaşğari oğuz türkisini «öztürkcə» (yəni köktürkcə, əsl türkcə), «dillərin ən yenisi» adlandırır (18, s. 30), ondan mükəmməl və normalı ədəbi dil

kimi bəhs edir, «türklərin və oğuzların dili» tipli müqayisələr aparır. Belə müqayisələri prof. Ə.Cəfəroğlu bu cür izah edir: «X yüzil Qaraxanlılar dövlətinin Xaqaniyyə türkcəsindən sonra M.Qaşğarinin qeyd etdiyi ikinci ədəbi dil oğuzların dilidir» (19, s. 43). «Oğuz xaqan» dastanı və digər şifahi ədəbiyyat nümunələri yaranır. Oğuz xaqan eponimi məşhurlaşır. Sonrakı yüzillərdə müsəlman aləmində oğuzlara, onların tarixinə güclü maraq oyanır. Fəzlullah Rəşidəddinin «Came ət-təvarix» (XIII-XIV əsrlər), Aybək əd-Davadarinin «Dürər üt-Tican» (XIV əsr), Əbülqazi Bahadur xanın «Şəcəreyi–tərakimə» (XVII əsr) əsərləri və s. yaranır.

Oğuz ölkəsinin iqtisadiyyatı, oğuzların təsərrüfat həyatı ilə bağlı mənbələrdə məlumatlar var. Akademik V.Bartold göstərir ki, nəhəng qoyun sürülərinə malik oğuzlar ibn-Fədlanda (X əsr ərəb səyyahı) varlı, köçəri xalq təəssüratı yaratmışdılar. Qoyunlar oğuz çöllərindən müsəlman vilayətlərinə gətirilən əsas ticarət predmeti idi (20, II c., 1 h., s. 563). Xarəzmdən İdil bölgəsinə gedən əsas ticarət yolu da oğuzların ölkəsindən keçirdi (16, s. 63). F.Sümerə görə, burada oğuz elinin kompakt yaşadığı yer Sır Dəryanın mənbəyindən orta yatağına qədər çayın hər iki sahilindəki ərazi, xüsusilə, şimala uzanan torpaqlardır (16, s. 53). Mənbələrdə məhz bu ərazidə Oğuz şəhərlərinin yerləşdiyi göstərilir. M.Qaşğari onlardan beşinin adını çəkir: Sepren // Sapran, Sitgün, Suqnak, Karnak, Karaçuk (18, I c., s. 436, 443, 471, 473, 487).

Beləliklə, «Kitabi–Dədə Qorqud»dan gətirdiyimiz nümunədə «***Türküstanın dirəyi***» ifadəsi qədim Göytürk döv-lətinin süqutundan sonra (VIII əsrin ikinci yarısı) türk etnoslarının, o cümlədən, oğuzların mərkəzi Asiyada, Türküstanda (farslara görə, Torke-stan) təmərküzləşməsi, «***Qaraçuğın qaplanı***» ifadəsi isə Oğuz yabqu dövləti zamanında Sırdərya çayı boyunda oğuzlara mənsub şəhərlərdən biri – Qaraçuq ilə bağlı informasiyanı, yəni Oğuz dövlətinin etnogenetik zəminində müəyyənləşmiş informasiyaları təqdim edir. «Kitabi – Dədə

Qorqud»un mətnində Türküstan, Qaraçuq sözləri coğrafi terminlər kimi yox, işlənmə sahəsini daraltmış, real olmayan, obrazı bədii təyinləndirməyə xidmət edən coğrafi adlar kimi özünü göstərir.

* * *

«Kitabi – Dədə Qorqud»da işlənən tatar, tat əri sözləri etimoloji baxımdan fərqlənməsə də, kontekstdə ifadə etdiyi mənalara görə bir – birindən seçilirlər. «Kitabi-Dədə Qorqud»un mətnində tatar sözünün işlənmə məqamları bir – birinə çox yaxındır. Cəmi iki dəfə müşahidə edilən söz hər iki halda Qazana ünvanlanır.

Qanlu qara Qərvənddə kafər dəxi qonmış idi. Oğlana qara kəpənək geydirmişlərdi. Qapu eşigi üzərində arqurı yer qomışlardı. Girən basar, çıqan basardı: «*Qarı düşmən, tatar oğlı ələmizə girmişkən cəza ilə öldürəlim*!» (IV boy, s. 74).

Qazan aydır: «Ölülərinizdə andan yorğa yoqdır, həp ana binərəm!» – dedi. Övrət aydır: «Vay, sənin ələndən nə yer yüzində dirimiz və nə yer altında ölümiz qurtulurmış!» – dedi. Gəldi, təkura aydır: «*Kərəm eylə, ol tatarı quyudan çıqar*. Qızcığazın belini üzər, yer altında qızcuğazıma binərmiş. Qazan ölülərimizi cəm edərmiş. Həm ölülərimiz içün verdügimiz aşı əllərindən çəküb alub yeər imiş. Anun əlindən nə ölümiz, nə dirimiz qurtulurmış! Dinin eşqinə, ol əri quyudan çıqar» –dedi (XI boy, s. 117).

Verilmiş nümunələrin birincisində Qazan oğlu Uruza aid edilən tatar oğlu ifadəsinin qarı düşmən birləşməsi ilə üslubi sinonimliyi faktdır. Sonrakı nümunədə də adresat – oğuz adamı, adresant isə qeyri–oğuzlardan, kafərlərdəndir, yəni düşmən – dost qarşıdurması burada da ön plandadır. Belə olan halda tatar sözünün «talançı, «yağmaçı», «düşmən tərəf» anlamlarında işlənməsi mətndən anlaşılır. Bunu sonrakı orta əsrlərdə Nəsimi əsərlərinin dilində də müşahidə etmək mümkündür: Ləşkəri yəğmaçı tatar kirpigün, Aləmi bir heçə

satar kirpigün (10, s. 36). Burada şair gözəl qızın ürək ovlayan kirpiklərini talançı, yəğmaçı (və ya tatar) qoşununa bənzədir.

Tədqiqatlarda tat sözünün «yad», «oturaq», «şəhərli» mənalarında işləndiyi qeyd olunur. Filologiya elmləri doktoru M.Qıpçaq bu barədə yazır: «Kafərin kəlisasın yıxdırıb, yerinə məscid yapdırdı. Saqalı qırmızı tat əri banlatdı. Burada birinci cümlə onu göstərir ki, dastanlarda haqqında söhbət gedən oğuzlarda şəhər mədəniyyəti olmayıb. Yalnız kafir şəhərini, yaxud qalasını tutduqdan sonra onlarda «islam qanı coşur» və kilsəni yıxıb yerinə məscid tikdirirlər. İkinci cümlə göstərir ki, oğuzların özünün içində ərəb dilini bilib Quran oxumağı, əzan verməyi bacaran adamlar olmayıb. Ona görə də oturaqlardan bir nəfərini – «tat ər»i (mollanı) «banladır» – əzan verdirirlər» (11, s. 114).

***

«Kitabi – Dədə Qorqud»un mətni heç bir yazılı abidədə müşahidə edilməyən spesifik leksik vahidlərin kəmiyyətcə çoxluğu ilə də səciyyələnir. Bu siyahıda işlənmə situasiyaları yaxın olan mərə və qavat sözləri xüsusi yer tutur. Onların fərqi mətn vahidində yerinə yetirilən kommunikativ funksiya ilə bağlıdır. Mərə sözü müstəqil leksik vahid kimi işlənmir, müstəqim məna bildirmir, cümlə üzvü olmur. Kafərlər aydırlar ki, gülürsən? Qazan aydır: «Mərə kafərlər, bu ərəbəyi beşigim sandım. Sizi yamrı – yumrı tadım–dayəm sandım», –dedi (s. 116). Yalnuz yigit alp olmaz, yovşan dibi bərk olmaz. Qadası yetmiş, qavat oğlı qavat, qayıda dön buradan! –dedi (s. 108). Mərə sözü kontekstdə, bir qayda olaraq, pozitiv münasibət ifadə etmir. Bu isə müxtəlif situasiyalarda özünü göstərir:

–aşağı təbəqəyə ünvanlanır. ***Bəzırgana*** – Yigit aydır: «Mərə bəzırganlar, çoqmı istədim?! –dedi» (s. 53). ***Dayəyə*** – Banıçiçək otaxdan baqırdı: «Mərə dayələr, bu qavat oğlı qavat bizə ərlikmi göstərir?» (III b., s. 54). Beyrək aydır: «Mərə dadı, mən avçı degiləm, bəg oğlı bəgəm…» (III b., s. 54). ***Xidmətçiyə*** – Banıçiçək aydır: «Mərə qızlar, bu yigit nə yigitdir?» (III b., s. 54). ***Oazana*** – Beyrək Oğuza gəldi. Baqdı-gördi, bir ozan gedər, aydır: «Mərə ozan, nerəyə gedərsən» (III b., s. 60). ***Çobana*** – Beyrək aydır: «Mərə çobanlar, bir kişi yolda taş bulsa, yabana atar. Siz bu yolda bu taşı neçün yığırsız?» (III b., s. 60).

–iyerarxik pillə üzrə xanlar xanından sonra gələn rütbə sahiblərinə ünvanlanır. Vardı, könləgi qana–quna baturdu, Bayındır xanın öginə gətürib bıraqdı. Bayındır xan aydır: «Mərə, bu nə kömləkdir?» «Beyrəgi Qara Dərvənddə öldürmişlər, uş da nişanı, sultanım!» –dedi. Kömləgi göricək bəglər ökür–ökür ağlaşdılar, zarlıqlara girdilər. Bayındır xan aydır: «Mərə, niyə ağlarsız? Biz bunı tanımazız. Adaqlusına aparın, görsün…» (III b., s. 59).

–aşağı təbəqə nümayəndələri bir–birinə ünvanlayır. Çobanlar aydır: «Mərə, sən səni bilürsən, bizim halımızdan xəbərin yoq», –dedilər. «Mərə, nə halınuz vardır?» (III b., s. 60).

–özündən gücsüzlərə ünvanlanır. Dəpəgöz sıçradı, baqdı… Aydır: «Mərə qocalar, ekindi vəqti munı mana çevirəsiz, yiyəm» –dedi (s. 101).

–həmsöhbətə ünvanlanır. Nagahandan Dəli Domrul çapar yetdi, aydır: «Mərə qavatlar, nə ağlarsız?»… Ayıtdılar: «Xanım, bir yaxşı yigidimiz öldi, ana ağlarız», –dedilər. Dəli Domrul aydır: «Mərə, yigidinizi kim öldürdi?» Ayıtdılar: «Vallah, bəg yigit, allah-təaladan buyruq oldı. Al qanatlu Əzrayil ol yigidin canın aldı». Dəli Domrul aydır: «Mərə, Əzrayıl dedügüniz nə kişidir kim, adamın canın alur?» (s. 79).

–mübahisə edən tərəflər arasında işlənir. Qanturalı aydır: «Yoq əlbətdə öldürsəm gərəkdir» –dedi. Qız qaqdı, aydır: «Mərə qavat oğlı, qavat! Mən aşağa qulpa yapışuram, sən yuqarı qulpa yapışursan. Mərə qavat oğlı, oxınlamı, qılıcınlamı? Gəl bərü, söyləşəlim!» –dedi (s. 92). Tərs Uzamış deərlərdi, Oğuzda bir yigit vardı, aydır: «Mərə Uşun Qoca oğlı, bu oturan bəglər hər biri oturduğı yeri qılıcilə, ətməgilə alubdur. Mərə, sən başumı kəsdin, qanmı tökdün, acmı toyurdun, yalıncığmı tonatdın!» –dedi. Əgrək aydır: «Mərə Tərs Uzamış, baş kəsüb qan tökmək hünərmidir?» –dedi. Aydır: «Bəli, hünərdir, ya» (s. 110).

–neqativ münasibət bəslənilən tərəfə ünvanlanır. İmdi mərə dəli, gəldim ki, sənin canın alam (s. 80).

–rəqib tərəfə ünvanlanır. At dəpdilər. Beyrək atı qızın atını keçdi. Ox atdılar. Beyrək qızın oqın yardı. Qız aydır: «Mərə yigit, mənim atumı kimsə keçdügi yoq. Oxımı kimsə yardığı yoq» (III b., s. 55).

–düşmən tərəfə ünvanlanır. Mərə, dini yoq, əqlsiz kafər (s. 49). Mərə Şökli Məlik, dünlügi altun ban evlərimi gətürüb dururs an, sana kölgə olsun (s. 48).

Müstəqim mənalı leksik vahid olan qavat sözü də tekstdaxili semaya görə, oxşar işlənmə situasiyasına malikdir.

Qavat aşağı təbəqə nümayəndəsinə (Bunlar böylə edicək Baybörə bəgin acığı tutdı. Bəzırganlara aydır: «Mərə qavat oğlı qavatlar! Ata tururkən oğul əlinmi öpərlər?»–IIIb., s. 54), qarşı tərəfə (…bu qavat oğlı qavat bizə ərlikmi göstərir – III b., s. 54; Qazan bəg buna dəxi bir zərb urdı, aydır: «Mərə qavat, var bəgünə de, gəlsün», –dedi – s. 121; Kafər təkur adır: «Qatlan, mərə qavat oğlı, mən sana varayım!» –dedi – s. 108), həmsöhbətə (Əzrayıl adır: «Mərə dəli qavat, mana nə yalvararsan, allah-təalaya yalvar- s. 80), düşmən tərəfə (Basat aydır: Mərə qavat! Ağ saqallu babamı ağlatmışsan – s. 102) ünvanlanır.

Qavat sözünün «Oğuz xaqan dastanı»nda işlənən başqa bir leksik vahidlə formaca yaxınlığı diqqəti cəlb edir. Burada bir neçə variantda işlənmiş kıat // kat sözü XV əsrə aid çincə–uyğurca lüğətdə «əfsanəvi təkbuynuz» mənasında qeydə alınmışdır (24, s. 68). A.Şerbak yazır ki, söz çincə–uyğurca lüğətdə vahid formada – kat şəklində özünü göstərir (24, s. 105). Müxtəlif mənbələrdə tam fonetik tərkibdə qeydə alınan bəzi sözlərin «Oğuznamə»də səsdüşümü ilə işləndiyi məlumdur. Məsələn:

keyik («Kitabi–Dədə Qorqud») // *kiyik* (çincə–uyğurca lüğət) – *kik* («Oğuz xaqan»)

yeyir – yeer («Oğuz xaqan» (24, s. 24))

«Kitabi–Dədə Qorqud»dakı qavat sözünün də «Oğuznamə»də samit düşümünə məruz qaldığı və təbii ki, sait uzanması ilə müşayiət olunduğu da tamamilə mümkündür. Söz «Oğuznamə»nin mətnində «vəhşi heyvan» anlamına daha uyğun gəlir. Oşul orman içində bödük bir kıat bar erdi. Bedük yaman bir kik erdi (24, s. 24;Tərcüməsi – Bu ormanda böyük bir kıat var idi. O yaman böyük heyvan idi). Qavat sözü «Kitabi–Dədə Qorqud»un mətnində pozitiv anlamda işlənmədiyindən mümkündür ki, mənasına görə də həmin sözlə bağlı olsun.

* * *

«Kitabi – Dədə Qorqud»un mətnində xüsusilə diqqəti cəlb edən ifadələrin bir neçəsi türkmən sözü ilə bağlıdır. Əhəmiyyətlisi odur ki, hər bir halda ifadələrin məna planında oğuz – türkmən qarşıdurması mühüm yer tutur. Mətnlərə baxaq:

1. Qanlı qocı aydır: «…Bundan yegrəgi yoxdur ki, gözüm görərkən, oğul, gəl, səni evərəyim!» –dedi. Oğlan aydır: «Baba, çün məni evərəyim deirsən, mana layiq qız necə olur?» Qanturalı aydır: «Baba, mən yerimdən turmadın ol turmış ola! Mən qaraquc atıma binmədin ol binmiş ola! Mən qanlu kafər elinə varmadın ol varmış, mana baş gətürmüş ola!» –dedi. Qanlu qoca aydır: «Oğul, sən qız istəməzmişsən, bir cilasun bahadır istəyirmişsən, anun arqasında yeyəsən – içəsən, xoş keçəsən!» Aydır: «Bəli, canım baba, eylə istərəm! Pəs varasın, bir cici–bici türkman qızını alasan, nagahandan tayanım, üzərinə düşəm, qarnı yırtıla?» –dedi (s. 85).

2. Oğlan dəxi burada soylamış, görəlim, nə soylamış, aydır: Hərzə–mərzə söyləmə, mərə, itüm kafər! Altımda al ayğırım nə bəgənməzsən, – səni gördi oynar… Kafər aydır: «Oğuzun arsızı türkmanın dəlüsinə bənzər! Baq-a şuna» –dedi (s. 108).

Tarixi mənbələrin verdiyi məlumatlar da bu etnonim (türkmən) daşıyıcılarının bu və ya digər əlamətə görə türklərdən (oğuzlardan) seçildiyini üzə çıxarır. Müqəddəsi X əsrdə Balasaqun ilə Tarazın təqribən yüz mil şərqindəki Mirki qəsəbəsi arasında yaşayan türkmən adlı bir qövmün islamı qəbul etmiş yeganə türk boyu olduğunu göstərir və bu ad altında kiçik bir etnik qrupu nəzərdə tuturdu (12, s. 150).

Başqa məlumatlar erkən orta əsrlərdə türkmən sözünün malik olduğu leksik məna haqqında daha dəqiq təsəvvür yaradır. F.Sümər yazır ki, müsəlmanlığı qəbul etmiş oğuz zümrələrini qeyri–müsəlman qardaşlarından fərqləndirmək

üçün Mavəraünnəhr müsəlmanları onlara türkmən adını verirdi (16, s. 70). Orta əsrlərə doğru məna deformasiyalarına uğrayan söz F.Rəşidəddinə görə, «türkə bənzər» (geniş mənada «qeyri–türk», «türk olmayan») anlamını bildirirdi. Bu baxımdan müvafiq ifadələrin məna planındakı oğuz–türkmən oppozitivliyini əslində türk – qeyri–türk qarşıdurması kimi qəbul etmək daha məqsədəuyğundur.

§4. MƏTN VƏ ƏSAS NİTQ HİSSƏLƏRİ

1.Sifət

Müstəqim mənalı leksik vahidlər hər hansı mətn vahidini funksional – məzmun baxımından təşkil etdiyi kimi, ona quruluş detalı kimi də xidmət göstərə bilirlər. Bu hər bir nitq hissəsində onun məzmun yükünə uyğun formada baş verir. Belə ki, sifətlər təyin etdiyi ayrıca götürülmüş leksik vahidin mənasını qüvvətləndirir. Məsələn: Qarşu yatan qara tağlar istər olsa, el yaylar (s. 75) – qarşu yatan qara tağlar. Bu hər belə misrada təkrar olunduqda əlamət bildirən sözlərin paradiqmatik assosiAsiyası yaranır.

Qanlu – qanlu sular əsən olsa, qamın düşər;
– qanlu–qanlu sular
Qaraquc atlar əsən olsa, qulun toğar;– qaraquc atlar
Qaytabanda qızıl dəvə əsən olsa, torum verür;
– qızıl dəvə
Ağayılda ağca qoyun əsən olsa, quzı verür;
– ağca qoyun
Bəg ərənlər əsən olsa, oğlı toğar; – bəg ərənlər (s. 75)

Kontekstdəki bu cür assosiativlik – qanlu–qanlu, qaraquc, qızıl, ağca, bəg sifətlərinin paradiqmatik düzülüşü şer–mətnin (bədii mətnin) struktur vahidi hüququnda çıxış edir.

İnformasiyanın bədii formada biçimlənməsində rəng bildirən sifətlərin rolu, xüsusilə, nəzərə çarpır. Dərsə xan yerindən uru turdı. Aydır: «Qalqubanı yigitlərüm, yerünüzdən uru turun. Bu qara eyib bana ya bəndəndür, ya xatundandur», – dedi (I b., s. 34). Verilmiş nümunədə qara sözünün ümumi etnik təfəkkürdə sabitləşmiş rəmzi mənası ilə eyib sözünün məna tutumu yaxınlıq təşkil etdiyindən həmin leksik vahidlərin

iştrakı ilə güclü assosiasiya yaranır və belə yanaşı işlənmə, bir qayda olaraq, bədii informativliyin təşəkkülünə xidmət edir.

Sifətin müqayisə dərəcəsinin «Kitabi–Dədə Qorqud»un dili üçün daha orijinal ifadə üsulu özünü göstərir. Belə ki, müqayisə dərəcəsini ifadə etmək üçün ənənəvi –rək (– raq) şəkilçisinin yerinə (Atamdan yegrək qayınata! Anamdan yegrək qayınata! – s.. 112) sözə məxsus sema (morfoloji kateqoriya) mühüm rol oynayır. Və əsas funksionallıq mənaca söz qruplarının üzərinə keçir. Bu zaman leksik vahidin əks mənalı qarşılığı da işlənməklə, hər hansı potensial müqayisə üçün zəmin yaranır. Dərsə xanın xatunı qayıtdı, gerü döndi. Qatlanmadı, qırq incə qızı boyına aldı. Bədəvi ata binüb oğlancüğın istəyü getdi. Qışda–yazda qarı–buzı ərinməyən Qazılıq tağına gəldi, çıqdı. Alçaqdan yuca yerlərə çapub çıqdı (Ib., s. 38). Burada antonim qarşılığı ilə müqayisə zəminində yuca sözünün mənası daha təsirli ifadə planına malik olur: alçaqdan yuca yerlər (ifadədəki məntiqə görə, yuca yerlər alçaq yerlərlə müqayisədə uca hesab olunur).

Bədii mətnə xüsusi effekt verən amillərdən biri sifətlərin təkrarlanmasıdır. Sifətlərdə iki növ leksik təkrar müşahidə olunur: yanaşı gələn və yanaşı gəlməyən leksik təkrarlar. İkinci halda təkrar edilən tərəflərdən hər biri cümlənin bir qütbünə düşür və onların arasında simmetrik şəkildə paylaşdırılır. Ağca yüzlü oğlına ağca qoyun şülən verdi. Ala gözlü oğlına al duvaxlu gəlin aldı (s. 109; Ağca yüzlü oğlı – ağca qoyun). Verilmiş mətnin struktur–semantik və ritmik–informatik biçiminə uyğun olaraq belə təkrar ikinci cümlədə də baş verməli idi. Ancaq ikinci cümlədə leksik təkrarın yaranmasına mətnin informasiya yükü imkan vermədiyindən burada onu fonetik təkrar əvəz edir: ala gözlü oğlı – al duvaxlu gəlin. Birinci halda isə (yanaşı gələn təkrar) eyni sözün təkrarı yolu ilə mürəkkəb sifətlər əmələ gəlir və mətndə xüsusi emosionallıq yaradır. Böyük–böyük suların köprisi ağac!

Qara–qara dənizlərin gəmisi ağac! (s. 48; böyük–böyük sular, qara – qara dənizlər).

Elə məqamlar da var ki, sifətlərin təkrarı üslubi detaldan çox normativ qrammatik fakt təsirini bağışlayır. Məsələn, aşağıdakı nümunədə sifətlərin təkrarı təyin olunanın kəmiyyətcə çoxluğunu bildirməyə xidmət edir.

Yüksək – yüksək qara tağlarım
Sana yaylaq olsun!
Souq– souq sularım
Sana içət olsun!
Tavla–tavla şahbaz atlarım
Sana binət olsun! (s. 82)

Odur ki, verilmiş nümunədə yüksək–yüksək qara tağlar – «çoxlu hündür dağlar», souq–souq sular – «çoxlu soyuq sular», tavla–tavla şahbaz atlar – «çoxlu şahbaz atlar» mənasındadır.

Kontekstdə rəng bildirən sifətlərə məxsus bədii məqamlar kifayət qədərdir. «Kitabi–Dədə Qorqud»un mətnində rəng bildirən (daha çox qara adı ilə bağlı) sifətlər sabit tərkiblər və spesifik ifadələr əmələ gətirir: qara otaq (I b., s. 34), qara tağlar (Qarşu yatan qara tağlar, s. 66), qara başım (Qara başım qurban olsun sana, s. 66), qara təkur (s. 66), qara qaz, qara polat uz qılıc, qaraquc (s. 71), qara gözlər, qara qıyma gözlər, qara bağrım (s. 72), qara gözlü yigit, qara gözlü qız qartaş (s. 74), qar tırnaq, qara yer, qara qazlıq at (s. 75), qara qıl, qara tonuz tamı (s. 75), qara dərə, qara taş (s. 77), qara ölkə (s. 78) və s. Qara sifəti bəzi ifadələrdə bədii təyin kimi çıxış edir (qara qıyma gözlər, qara gözlü yigit və s.), digərlərində nominativ mənadan – rəng anlamından tamamilə uzaqlaşır (qara ölkə, qara yer, qara tırnaq və s.). O xüsusi isimlərin tərkibində iki formada özünü göstərir: a) mürəkkəb isimlərin içərisində komponentləşərək onların ümumi məna balansına qoşulur. Məsələn: Qaragünə, Qarabudaq; b) leksem müstəqilliyini

saxlayaraq mənşəcə mənsub olduğu söz sinfindən uzaqlaşmır. Məsələn: Qara Arslan Məlik, Qara Çəkur. Xüsusi isimlərin və şəxs ifadə edən sözlərin tərkibindəki rəng anlamını bildirən qara sözündə obrazlaşma da iki tərəfli istiqamətdə gedir; eyni bir söz müsbət obrazı pozitiv planda səciyyələndirir (Qarabudaq, Qaragünə, Qara Çəkur), əksinə, mənft obraza neqativ səciyyə verir (qara tonlu kafər, qara təkur, Qara Arslan Məlik). Odur ki, «Kitabi–Dədə Qorqud»un mətnində düşmən sifətləri adətən qara sifəti ilə təyinlənirlər.

Rəng bildirən qara sifətinin işlənmə tezliyi bəzən mətnin öz üslubi-funksional imkanları ilə də tənzim oluna bilir. Nümunəyə baxaq: Qaradərə ağzında qadir verən, qara buğa dərisindən beşiginin yapuğı olan, acığı tutanda qara taşı kül eyləyən, qara bığın yeddi yerdə ənsəsində dügən Qazan qartaşı Qaragünə çapar yetdi. «Çal qılıcın, qardaş Qazan, yetdim!» – dedi (s. 77). İlk baxışdan görünür ki, ayrı–ayrı birləşmələrdə dörd dəfə təkrar olunan qara sözünün mətndaxili kommunikativliyini Qaragünə sözü tamamlayır. Əslində buradakı qara sifətinin mətndaxili funksionallığı Qaragünə sözü ilə başlayır və formal baxımdan həmin xüsusi ismin iştirakı ilə də yekunlaşır. Çünki mətndəki qara sifətinin digər leksik vahidlərdən fərqli işqlənmə tezliyi cümlədə əsas subyekt – iş icra edən olan Qaragünə adındakı eyni səs kompleksli sözlə – qara sifəti ilə əlaqədardır.

«Kitabi–Dədə Qorqud»un mətnində ən çox işlənən rəng adlarından biri də ağ sifətidir: ağ ban ev, ağ otaq (s. 67), ağ ət (s. 71), ağca tən (s. 72), ağ yüz (s. 73), ağ əllər, ağ boynım, ağ birçəklü anam (s. 74), ağ saqallu, ağca yüzli, ağ alın, ağ yıldırım (s. 76) və s. Mətndə elə yerlər var ki, hər iki sifət (ağ, qara) birlikdə işlənir və belə yanaşı işlənmə həm mətnə məxsus semantik gücü maksimuma yaxınlaşdırır, həm də yeni sema hadisəsini – antonimliyi doğurur. Qara yerdə ağ otağlı… dikəm derdim (s. 72; qara yer – ağ otağ). Qara tırnaq ağ yüzümə salayınmı? (s. 73; qara tırnaq – ağ yüz). Bir yerə ağ otağ, bir

yerə qızıl otağ, bir yerə qara otağ qurdırmışdı (s. 34; ağ otağ – qara otağ). Ağlı – qaralı seçilən çağda (s. 37; ağlı - qaralı).

Bədii mətndə rəng bildirən sifətlər ənənəvi məna tutumlarını dəyişə bilir. Tərkibində qara sifəti olan hər hansı sabit ifadə o qədər geniş yayılır ki, sifət özündən sonra gələn ismin siqnifikatı ilə qovuşur. Məsələn: Qara başım götürdüm, sana gəldim (s. 53). Qara başım qurban olsun, qurdum sana! (s. 66). Burada qara sifətinin işlənməsi nominativ mənadan çox ifadənin qrammatik qəlibinə, sintaktik quruluşuna xidmət edir. Çünki «Kitabi–Dədə Qorqud»un mətnində bu ifadə həm yaşca cavan olan obrazın dilindən verilir (bu halda sifətin nominativ mənası yerindədir), həm də qoca təçrəfindən işlədilir (bu halda qara «rəng» anlamı mütləq mənada deyil). «Kitabi–Dədə Qorqud»un mətnində ağ sifətinin «böyük», «geniş», «hündür», «uca» mənaları da var. Ol üç oğlan qaçdı. Dirsə xanın oğlancuğı qaçmadı. Ağ meydanın ortasında baxdı, turdı (I b., s. 36). Bayındır xanın ağ meydanında bu oğlan cəng etmişdür (I b., s. 36). Nümunələrdəki ağ sifəti rəng mənasından çox meydanın əzəmətini, böyüklüyünü, genişliyini göstərmək üçün işlədilir.

2.Say

Saylar bədii mətndə müxtəlif funksiyalar yerinə yetirə bilir. Onların biri və ən mühümü nominativ məna planında üzə çıxır. Saylar hər hansı informativliyin ifadəsində mətnin ayrılmaz kommunikativ elementi hüququnda olur. Dəpəgöz aydur: «Gündə altmış adam verin yeməgə!» –dedi. Dədə Qorqud aydır: «Bu vəchlə sən adam qomaz, dükədərsən, –dedi. – Əmma gündə eki adam ilə beş yüz qoyun verəlim!» –dedi (s. 99). Oğuz yığılub üzərinə vardı. Dəpəgöz görüb qaqdı. Bir ağacı yerindən qopardı. Atub əlli–altmış adam həlak elədi (s. 99). Sayların işləndiyi kontekstdə kəmiyyət adlarının nominativliyi funksional əhəmiyyət daşımır. Buna görə də verilmiş nümunədə işlənən yeddi sayını istənilən konkret miqdar sayı ilə əvəz etmək mümkündür: Ağ saqallu Aruz qocaya qan qusdurdı. Oğlı Qıyan Selcükin ödi yarıldı. Oğuz Dəpəgözə kar qılmadı, ürkdi, qaçdı. Dəpəgöz çöürüb ögin aldı. Oğuzı salı vermədi, gerü yerinə qondurdı. Əlhasil, Oğuz yedi kərrə ürkdi. Dəpəgöz ögin alub yedi kərrə yerinə gətürdi (s. 99). Say mətnin (makromətnin) bədii kompozisiyası ilə üzvi şəkildə bağlanır. Bu elə bir şəkildə olur ki, miqdar sayının hansı məna növündə, hansı kəmiyyətdə, hansı tərkibdə işlənməsi bədii konfliktin yaranması, onun sonrakı inkişafı, yaxud sonluğundan birbaşa asılı olur. Mətnə baxaq. Dədə Qorqud döndi, Oğuza gəldi. Aydır: «Bunlu qoca ilə Yapağlu qocayı Dəpəgözə verün, aşın pişürsün», –dedi. «Və həm gündə eki adam ilə beş yüz qoyun istədi», – dedi. Bunlar dəxi razı oldı. Dört oğlı olan birin verdi, üçi qaldı. Üç olan birin verüb, eki qaldı. Eki olan birin verdi, biri qaldı (s. 99). Miqdar saylarının azalan kəmiyyətdə və həm də çoxdan aza doğru bu cür düzümünü, üstə gəl, sonuncu cümlə vahidlərindəki məzmunu (4–1=3; 3–1=2; 2–1=1) konfliktin sonrakı inkişaf səviyyəsi diqtə edir. Bunu mətnin davamında cərəyan edən növbəti hadisələr də göstərir. Qapaqqan deərlər, bir kişi var idi.

Eki oğlı var idi. Bir oğlın verüb, biri qalmış idi. Gerü növbət tolanub ana gəlmişdi. Anası fəryad edüb ağladı, zarlıq eylədi. Məgər xanım, Aruz oğlı Basat ğəzayə getmiş idi. Ol məhəldə gəldi. Qarıcuq aydır: «Basat şimdi aqından gəldi. Varayın, bolay ki, mana bir əsir verəydi, oğlancığım qurtaraydım», – dedi (s. 99). Burada miqdar sayının azalan kəmiyyətdə növbəti dəfə təqdimi (2–1=1) əvvəlki ifadə formasının davamı kimi, süjet xəttinin bədii sonluğa doğru inkişafı ilə əlaqəlidir (bədii finala doğru bir addımdır). Qapaqqanın iki oğlundan birinin Təpəgöz əlində həlak olması, ikinci oğlunu da gözləyən bu cür aqibət oğul anasını kömək üçün Basata müraciət etməyə vadar edir. Və bu detal öz növbəsində konfliktin bədii həlli üçün açar rolunu oynayır. Ona görə də Təpəgözün əlində həlak olanların artması və Oğuz igidlərinin azalması ilə əmələ gələn tərs mütənasibliyi miqdar saylarının həmin cümlə vahidindəki ifadə üsulu daha aydın nəzərə çatdırır:

Dört oğlı olan birin verdi, üçi qaldı (4–1=3)
Üç olan birin verüb, eki qaldı (3–1=2)
Eki olan birin verdi, biri qaldı (2–1=1)

Hər hansı informasiyanın cümlə vahidi hüdudunda reallaşması üçün müvafiq anlayışların daşıyıcısı olan potensial söz qrupları (isim, sifət, əvəzlik, fel) bəzən kifayət etmir. İnformasiyanın obrazlı ifadə məqamında bu, xüsusilə, vacib olduğundan belə situativlikdə kəmiyyət adlarının iştiarkı da həmin məqsədi daşıyır. Saqın, qadın ana! Mənim üzərimə gəlmiyəsin! Mənim içün ağlamıyasan! Qoy bəni, qadın ana, çəngələ ursunlar! Qo ətimdən çəksünlər, qara qaurma etsünlər, qırqğ bəg qızının öginə ilətsünlər! Anlar bir yedigində sən iki yegil! Səni kafərlər bilməsünlər, tuymasunlar. Ta kim sası dinlü kafərin döşəginə varmıyasan (s. 47). Verilmiş nümunədə adi nitq normalılığı baxımından sayların işlənməsinə ciddi ehtiyac yoxdur. Odur ki, müvafiq cümlədə bu tipli forma

dəyişikliyi yaratmaq tamamilə mümkündür: Anlar yedigində sən də yegil. Lakin sayların iştirakı cümlənin informasiya tutumunu daha güclü ifadə fonunda təqdim edir. Emosionallıq, ekspressivlik yaradır. Anlar bir yedigində sən iki yegil.

Saylar düşmən obrazını təyinləndirməyə xidmət edir və kontenkstdə bədii təyindən çox düşmən tərəf haqqında zəruri informasiyanın daşıyıcısı olur. Oğul, oğul, ay oğul! Mənim ünüm anla, sözüm dinlə! Ol kafərin üçin atub birin yarmaz oqçısı olur (s. 70). Burada da bədii ifadə planı bir növ aktual qalır və düşmən qüvvəsini emosional tonda (yumşaq şişirtmə ilə) təsvir etmək məqsədini güdür. «Ol kafərin üçin atub birin yarmaz oqçısı olur» cümləsinin məntiqi belədir: kafər tərəfindən edilən üç həmlənin ikisi boşa çıxmır (ancaq biri nəticəsiz qalır).

Konkret miqdar sayı müəyyənlik məzmununu daşıdığı kimi, bəzən qeyri–konkretlik də ifadə edir. Yəni sözün məzmun planı iki müxtəlif (hətta əks olsa belə) anlayış üçün aktiv fon olur. Bu ondan irəli gəlir ki, müəyyən miqdar sayı fərqli leksik vahidlərin əhatəsində ola, təbii ki, onun məzmun biçimini də həmin kontekst müəyyən edə bilər. Üç gündür, yoldan gəlirəm, toyurın məni (III b., s. 62) cümləsində miqdar sayının məzmun planı konkretliyi ilə seçilir. Növbəti cümlədə isə həmin miqdar sayı həmin ampluada çıxış etmir: Üç günə varmasun, allah sevindirsün sizi (III b., s. 62). Buradakı sayın ifadə planı qeyri-müəyyənliyi ilə səciyyələnir. Bunu hər iki cümlədə hadisələrin sıralanma ardıcıllığı da göstərir. Əsirlikdən qayıdan Beyrəyin üç günlük yol gəlməsi real və konkretdir. Ancaq bacıların sevinəcəyi müddət üç günə qədərki vaxt intervalıdır. Bu zaman məsafəsi bir günlə də ölçülə bilər, iki günü də əhatə edə bilər. Odur ki, verilmiş nümunədə üç sayı konkret olmayan miqdarı bildirir. Kəmiyyət bildirən sözdəki bu cür duallığı (müəyyənlik və qeyri-müəyyənlik) isə misra–cümlələrin informasiya tutumları əmələ gətirir.

«Kitabi–Dədə Qorqud»un mətni üzərində apardığımız müşahidələrə əsasən bədii mətndə yerinə yetirdikləri vəzifəyə görə sayları iki şəkildə qruplaşdırmaq mümkündür. Birinci qrupdan olanlar bədii mətnə ancaq quruluş elementi kimi xidmət göstərirlər. Burada sayların məna yükü ciddi funksional əhəsmiyyət daşımır, mətnin ümumi informAtivliyinə tabe olur. Misal üçün, saylar alliterasiya yaratmaq xatirinə mətndə işlənir.

Yigirmi bin ər yağı gördümsə, yılamadım.
Otuz bin ər yağı gördümsə, ota saydım.
Qırq bin ər yağı gördümsə, qıya baqdım.
Əlli bin ər gördümsə, əl verмədim.
Altmış bin ər gördümsə, aytışmadım.
Səksən bin ər gördümsə, səksənmədim.
Toqsan bin yağı gördümsə, tonatmadım.
Yüz bin ər gördümsə, yüzüm dönmədim (s. 117)

Prof. Ə.Dəmirçizadə yazır ki, bu parçada əslində olmuş birinci misra ilə ikinci misra birləşdirilmişdir. Çünki qayda üzrə sonuncu xəbər və ya xəbəri bu və ya digər şəkildə aydınlaşdıran söz mütləq misranın başındakı say sözü ilə ilk səslərinə görə həmcins olmalıdır; halbuki «bin» sayı ilə «oyun» sözü arasında belə bir həmcinslik yoxdur. Diqqətlə yoxladıqda məlum olur ki, «oyun» sözü ilə belə bir həmcinslik «on» sayında vardır və ümumiyyətlə, buradakı misralarda say 10-10 artırılır; buna görə də birinci misra Bir min yaxud Bin-bin olanda, ikinci misra igirmi yox, on min olmalıdır. Bizim mülahizəmiz doğru isə, bu zaman belə bir nəticə çıxarmaq lazım gəlir ki, əslində bu parçanın birinci misranı: Bin yaxud bir bin ərdən yağı gördümsə… dedim, ikinci misranı isə: On bin ərdən yağı gördümsə oyunum dedim – olmuşdur[1].

[1] Dəmirçizadə Ə. «Kitabi-Dədə Qorqud» dastanlarının dili (Təkrar nəşr). Bakı: Elm, 1999, s. 16-17

İyirmidən yüzə qədər sıralanmış onluq saylar (yetmiş istisna olmaqla) verilmiş şer–mətnin xüsusi struktur vahidlərindəndir. Onların hər biri başqa–başqa nitq hissələrinə mənsub leksik vahidlərlə fonetik tərkibinə görə səsləşdiyi üçün (yigirmi – yılamadım, otuz – ot, qırq – qıya, əlli – əl, altmış – aytış-, səksən – səksən-, toqsan – tonat, yüz – yüzüm) işlənir və güclü bədii məqam yaradırlar.

İkinci qrupdan olan saylar yalnız quruluş elementi deyil, həm də özünəməxsus funksional–məzmun planına malik mətn vahidləridir. Onlar ya mürəkkəb sintaktik bütövün tərkib hissələrini əlaqələndirən açar söz rolunu oynayır, ya sintaktik mətnin cümlə komponentlərində xüsusi simmetriya ilə yerləşir, ya da cümlə daxilində müxtəlif assosiasiyalar yaradaraq, üslubi situasiyalar əmələ gətirirlər. Hər bir halda sayların bədii mətn içərisində iştirakı tekstual əhəmiyyətə malik üslubi fiqur rolunu oynayır. Onların içərisində üç, yeddi, qırx sayları intensiv işlənmə tezliyinə görə seçilir. Miqdar bildirən kəmiyyət adları, misal üçün, üç sayı hər hansı sintaktik mətn boyu bir neçə dəfə işlənə bilər. Bu zaman onlar ayrıca götürülmüş mürəkkəb sintaktik bütövün məzmun strukturunda nəinki neytral qalmır, hətta özünəməxsus assosiasiyalar yaradaraq, bir-birini tamamlayırlar. Məgər sultanım, genə yazın buğayı saraydan çıxardılar. Üç kişi sağ yanından, üç kişi sol yanından dəmür zəncirlə buğayı tutmışlardı. Gəlüb meydan ortasında qoyu verdilər. Məgər sultanım, Dirsə xanın oğlancığı, üç dəxi ordı uşağıı meydanda aşuq oynarlardı. Buğayı qoyu verdilər, oğlancıqlara «qaç» dedilər. Ol üç oğlan qaçdı, Dirsə xanın oğlancuğı qaçmadı (I b., s. 36). Burada ilk iki say buğanın böyük və güclü olduğunu bildirmək üçün işlədilir. (Üç kişi sağ yanından, üç kişi sol yanından dəmür zəncirlə buğayı tutmışlardı). Sonrakı üç sayı bu əvvəlki saylarla məzmun və forma baxımından assosiasiya yaratmaq xatirinə mətnə gəlir (Məgər sultanım, Dirsə xanın oğlancığı, üç dəxi ordı uşağı meydanda aşuq oynarlardı). Çünki meydanda aşuq oynayan

uşaqların real sayı üç yox, dörddür. Odur ki, bu kəmiyyəti bildirmək üçün dastan müəllifi «1+3» formulundan istifadə etməklə, «Dirsə xanın oğlancuğı, üç dəxi ordı uşağı meydanda aşuq oynarlardı» yazır. Bütün bunlar bir yerdə mürəkkəb sintaktik bütöv daxilində güclü bədii məqam yaradır.

Mətnin başqa yerində üç sayının işlənmə situasiyası əvvəlkindən fərqli assosiasiyalar doğurur. Burada üç sayı üç dəfə işlənir və eyni bir əşyanın adını bildirən leksik vahidlə – sapan sözü ilə bağlı olur. Çobanın üçyaşar tana dərisindən sapanının ayasıydı, üç keçi tüyindən sapanının qollarıydı. Bir keçi tüyindən çatlağucıydı.Hər atanda on iki batman taş atardı. Atdığı taş yerə düşməzdi. Yerə dəxi düşsə, toz kibi savrılardı, ocaq kibi oyulardı. Üç yıladaq taşı düşdigi yerin otı bitməzdi (s. 48). Göründüyü kimi, sayların hər biri burada sapana aid bir əlaməti xarakterizə edir; yəni sapan sözü hər üç keyfiyyətin birləşdiyi ümumi ortaq predmetin adıdır:



Bədii mətn daxilində sayların əmələ gətirdiyi məqamlardan biri bir neçə kəmiyyət adının mətn boyu sıralanma ardıcıllığıdır. Saylar mətndə istənilən formada sıralandığı kimi, xüsusi simmetriya ilə də yerləşə bilirlər. Bu bir neçə şəkildə özünü göəstərir:

– simmetrik paylanma bütövlə hissələrin münasibəti formasında üzə çıxır. Əvvəl işlənən qırx sayından sonra onun

onluq komponenti – yigirmi sayı iki dəfə təkrar edilir. Vardı bu qırq yigidin yigirmisi bir yana, yigirmisi dəxi bir yana oldı. Əvvəl yigirmisi vardı, Dirsə xana bu xəbəri gətürdi… Böylə degəc, xanım, ol namərdlərin yigirmisi dəxi çıqa gəldi və bir quv anlar dəxi gətürdilər (40: 20–20; s. 37).

– eyni cümlə qütbündə yerləşən miqdar sayı təkrar olunur. Yedi gün, yedi gecə yemə–içmə oldı. Qırq baş qul, qırq qırnaq oğlı Uruz başına azad elədi (7–7 : 40–40; s. 50). Yedi gün, yedi gecə yemə–içmə oldı. Qırq evli qulla qırq cariyə oğlı başına çevirdi, azad eylədi (7–7 : 40–40; s. 78).

– təkrar olunan saylar müxtəlif cümlə qütblərində yerləşir. Varayın, anı anası yanından alayın, qılıcla paralıyayın, altı bölük edəyin, altı yolun ayırdında bırağayın (6–6; s. 72).

–saylar mürəkkəb sintaktik bütövün komponentləri arasında paylanır və xüsusi sıralanma üsuluna tabe olurlar. Bu qırq yigidin bir qaçına xan Qazan, bir qaçına Bayındır xan qızlar verdilər. Beyrək dəxi yedi qız qarındaşını yedi yigidə verdi. Qırq yerdə otaq dikdi. Otuz doqquz qız «tale»lü taleinə birər ox atdı. Otuz toquz yigit oxının ardınca getdi. Qırq gün–qırq gecə toy–dügün eylədilər (III b., s. 67). Nümunədən göründüyü kimi, qırx sayı mürəkkəb sintaktik bütövü başlayır, qapayır və sintaktik mətn boyu cəmi dörd dəfə işlənir. Onların arasındakı intervallarda isə başqa miqdar sayları simmetrik şəkildə düzülürlər. Mürəkkəb sintaktik bütöv boyu miqdar saylarının yerləşmə ardıcıllığı bu cürdür:

40 : 7 – 7 : 40 : 39 – 39 : 40 – 40

(I) (II) (III) (IV) (V) (VI) (VII) (VIII)

Saylar mətn boyu simmetrik sıralandığı kimi, asimmetrik də yerləşə bilirlər. Ağ Məlik Çeşmə qızına nikah edən, Sufi Sandal Məlikə qan qusdıran, qırq cübbə bürünüb otuz yedi qələ bəyinin məhbub qızlarını çalub bir–bir boynın qucan, yüzində–todağında öpən İlək qoca oğlı Alb Ərən çapar yetdi (s. 50). Göründüyü kimi, mətndə qırx–qırx və ya otuz yeddi–otuz yeddi mütənasibliyi yoxdur. Bu bədii mətnin tekstual əhəmiyyətinə xələl gətirməyən professional pozuntudur. Çünki

nümunədə eyni miqdar sayının ardıcıl sıralanmaması obrazı səciyyələndirməyə xidmət edir və onun gücü haqqında olduqca real təsəvvür yaradır; İlək qoca oğlı Alb Ərən qırx həmləyə otuz yeddi qala bəyini (qırx yox) məğlub edir. Başqa bir halda sayların asimmetrik yerləşməsinin səbəbi onların malik olduğu nominativ mənanın – konkret kəmiyyətin mətn üçün elə bir əhəmiyyət kəsb etməməsidir. …Salur Qazan yerindən turmuşdı. Toqsan başlu ban evlərin qara yerin üzərinə dikdirmişdi. Toqsan yerdə ala qalı ipək döşəmişdi. Səksən yerdə badyələr qurulmışdı. Altun ayaq sürahilər düzülmüşdü. Toquz qara gözlü, xub yüzlü, saçı ardına urulu, köksi qızıl düğməli, əlləri biləgindən qınalı, barmaqları nigarlı məhbub kafər qızları Qalın Oğuz bəglərinə sağraq sürüb içərlərdi (s. 42). Buna görədir ki, nümunədəki kəmiyyət adları «doxsan – doxsan – səksən – doqquz» formasında sıralanır.

Saylar mürəkkəb sintaktik bütöv komponentlərini bir–birinə bağlayır. Bunun üçün onların mürəkkəb sintaktik bütöv boyu paradiqmatik əlaqələnməsi kifayət edir. Belə ki, sintaktik mətnin ilk cümləsində miqdar sayı varsa və o hansı leksik və qrammatik mənaları bildirirsə, növbəti cümlələrdə də həmin situasiya təkrar olunur; kəmiyyət adları eyni vəzifəni yerinə yetirir. Yigirmi dörd boyun oxşayan Dəli Tondaz yetdi. Anun ardınca bin qövm başları Dügər yetdi. Anun ardınca bin Bəgdiz başları Əmən yetdi. Anun ardınca toquz qoca başları Aruz yetdi. Saydıqımca oğuz bəgləri dükənsə olmaz (s. 77). Nümunənin ilk cümləsində işlənən «yigirmi dörd» sayı sonra gələn cümlələrdəki bin və toquz sayları ilə paradiqmatik uzlaşır:

yigirmi dörd boyun oxşayan
bin qövm başları
bin Bəgdiz başları
toquz qoca başları

Saylar informasiyanın struktur komponenti olmaqla, bədii mətnə funksional məzmun elementi kimi xidmət göstərdikdə də bədii mətn detalına çevrilə bilir. Toquzını bir yerinə

saydurayım (s. 76). Verilmiş nümunədə say həm normal informasiya ötürücüsü, həm də bədii ifadə elementi kimi çıxış edir. Burada toquzını bir yerinə saydurmaq «doqquz adamı bir nəfəri məğlub edən sayaq asanlıqla məğlub etmək» deməkdir. Bəzən də olur ki, sayların məna yükü bədii mətnin informativ tutumu ilə bağlanmır (yaxud zəif bağlılıq özünü göstərir). Bu halda kəmiyyət adları ancaq üslubi məqsədlə işlənirlər. Toqduğında toquz buğra öldürdigim, aslan oğul! (s. 81). Toquz sayının cümlə vahidində iştirakı sırf üslubi səciyyə daşıyır. Çünki toquz sayı əvvəlki toğ- feli ilə alliterativ səsləşmə yaratmaq üçün işlənir.

NƏTİCƏ

«Kitabi-Dədə Qorqud» mətnlərinin leksik-semantik strukturunun təhlili aşağıdakı bəzi mühüm nəticələrə gəlmək imkanı verir:

1. Sema həm mətnin normativ strukturunu təşkil edən, həm də orada bədii məqam yaradan normal dil vahididir. Semanın hesabına leksik vahidlər arasında məna yaxınlığı yarana bilir, mənaca qarşılaşdırılır, bənzədilir, bir-biri ilə müqayisə olunurlar. Bədii tekstdə mütləq və nisbi semalar fərqləndirilir. Mütləq semalar qeyri-üslubi detal kimi həqiqi mənalı sözlərdə olur. Bu baxımdan istənilən mətni təşkil edən leksik vahidlər mütləq semalı sözlərdir. Nisbi semalar həqiqi mənalı sözlərin qarşılığı olub, onu məcazi şəkildə ifadə edən sözlərdə, frazemlərdə özünü göstərir.

2. Mətn və sema qarşılıqlı şəkildə biri digərini şərtləndirə bilir. Yəni bir tərəfdən mətn üçün sema zəruridir. Digər tərəfdən, sema üçün mətn əsasdır. Hər bir sema lüğəvi vahidin ayrılmaz hissəsi kimi ancaq kontekstdə – mətnin içərisində işləklik hüququ qazanır. Bədii mətn heç bir məna yaxınlığı olmayan sözləri asanlıqla yaxın mənalı leksik vahidlərə çevirir, əks mənası olmayan sözlər isə mətnin bədii gücü hesabına antonimləşə bilirlər. Onlar başqa-başqa səviyyələri təmsil etməklə, müxtəlif paradiqmalar nümayiş etdirirlər. Mətn sintaksislə, sema leksikologiya ilə bağlıdır. Mətn daha böyük, sema nisbətən kiçik dil vahididir.

3. Müxtəlif leksik semalar arasında semantik uzlaşmalar iki formada təzahür edir: ənənəvi və tekstual uzlaşmalar. Ənənəvi uzlaşmaya görə cümlədaxili leksik vahidlər arasında normativ səviyyədə məna əlaqələri olur. Tekstual məna uzlaşmaları qeyri-normativ, ənənəvi olmayan məna əlaqələridir. Belə əlaqələr ancaq bədii mətnlərdə özünü göstərir və əlaqələnmənin istiqamətinə görə şaquli, yaxud üfüqi simmetriyalar əmələ gətirirlər. Üfüqi simmetriyalı

əlaqələnməyə görə, bir cümlə daxilində təkrar olunan iki və daha artıq yarımçıq sintaqma düşən sözlər arasında bu və ya digər şəkildə semantik əlaqələnmə olur. Şaquli simmetriyalı əlaqələnmə daha çox şer-mətnlərdə müşahidə edilir. Şaquli simmetriyalı semantik əlaqələnmədə ilk misra-cümlənin hər şansı sözü ilə növbəti misra-cümlələrin eyni mövqedə dayanan leksik vahidləri arasında məna yaxınlaşmaları olur. Bu cür assosiasiyalar, bir qayda olaraq, mətnin bədii gücünü artırır, ona həm də quruluş detalı kimi xidmət göstərir.

4. Normativ məna kontekstindən üslubi kənaraçıxmalar və digər fərdi müəllif müdaxilələri baş verirsə, belə məqamları leksik-tekstoloji situasiyalar, bədii mətndə üzə çıxan üslubi mənanı tekstosema adlandırırıq.

5. Sema ilə tekstosemanın hüdudlarını mətn müəyyən edir. Mətndən kənarda tekstosema yoxdur. Tekstosema da mətnin səciyyəvi əlamətlərindəndir. Sema bir leksik vahidə, tekstosema isə mətnə aid keyfiyyətdir. Onlarla, hətta yüzlərlə semalar bir-biri ilə zəncirvari şəkildə əlaqələnib, mətni müəyyən edə bilər. Ancaq tekstosemalar öz aralarında birləşib, hər hansı dil vahidini yarada bilmir və kəmiyyətcə azlıqda qalırlar. Bir mürəkkəb sintaktik bütöv daxilində üç-dörd tekstosema ancaq olur.

6. Mətn sinonimliyini bədii mətn formalaşdırır. Onun üslubi sinonimlikdən fərqi ondadır ki, o, yalnız funksional məzmun detalı şəklində mətndə iştirak etmir, həm də struktur forma elementi kimi onun tərkib hissəsini təşkil edir. Belə sinonimlərin nominativ mənası mətndə həlledici rol oynamır.

7. Mətn semaya təsir edərək, onu neytrallaşdıra, hətta dəyişə bilir. Mətn–sema münasibətlərinin mühüm cəhəti də bundadır ki, belə məna deformasiyaları hər halda mətnin xeyrinə olur – tekstin bədii gücü artır, ekspressivlik, emosionallıq yüksəlir. Sema funksional məzmun elementi olduğu kimi, mətndə quruluş-forma detalı rolunu da oynaya bilir. «Kitabi-Dədə Qorqud»dakı şer mətnlərdə yaxın mənalı

sözlər müəyyən semantik yük daşımaqla bərabər, onun struktur-forma baxımından təşkilinə də xidmət göstərir. Belə sözlər mürəkkəb sintaktik bütövün bütün misra–cümlələrinə simmetrik şəkildə paylanaraq məzmun və forma baxımından assosiasiya yaradırlar.

8. Mətn vahidi leksik–semantik söz qruplarının təşəkkülündə xüsusi rol oynayır. Yaxın və əks semalı sözlərin üslubi yük daşıması məhz mətndə mümkün olur. «Kitabi-Dədə Qorqud»un dilində iki sinonimin yanaşı işlənməsi çox halda üslubi-semantik yük daşıyır. Belə hibridləşmə sözə məxsus semanın güclü ifadə tərzini yaradır, mənanı qüvvətləndirir. Məsələn: sağ–əsən varub gələsən.

9. Sinonim dubletlər «Kitabi-Dədə Qorqud»un dilində mürəkkəb cümlələrin başlanğıcı ilə sonunu əlaqələndirir. Burada sinonim-cütlüyün işlənməsi mətnin özünü və tərkib hissələrini xüsusi formaya salır və spesifik sintaktik quruluş əmələ gətirir. Əgrək aydır: «Uşda uyur, gəlün varalım!» - dedi (s. 113). Mətn vahidlərində belə sinonim cütlüklər ikili vəzifə yerinə yetirir. «Aydır–dedi» cütlüyünün iştirakı həm sintaktik vahidin – tabeli mürəkkəb cümlənin, bəzi hallarda isə mətnin sintaqmatik hüdudlarını müəyyənləşdirir; onu başlayır və qapayır, həm də ədəbi–kommunikativ funksiyalılıq baxımından xüsusi vəzifə daşıyır.

Sinonim tərəflər eyni cümlə vahidinin təkrar olunan yarımçıq sintaqmlarına düşdüyü halda güclü bədii effekt yaradır. Kəndü əslim, kəndü köküm sımağım yoq (s. 118) Tekstuallıq mənşəcə sinonim olmayan sözləri mətndə sinonim vahidlərə çevirir. Bununla belə, mətndə hər cür leksik vahidlər sinonimləşə bilməz. Burada konkret semalar və semalararası münasibət mühüm rol oynayır. Mətn o sözləri sinonim vahidlərə çevirir ki, onlara məxsus semaları hər hansı ortaq əlamət yaxınlaşdıra bilsin.

Üslubi sinonimlik kimi mətn sinonimliyi də tekstin hüdudları daxilində yaranır. Ancaq birincidən fərqli olaraq,

mətn sinonimlyini daha böyük sintaktik vahid olan mürəkkəb sintaktik bütöv əmələ gətirir.

10. Bədii mətn daxilində antonimlər daha çox üslubi imkanlarının genişliyi ilə seçilir. Odur ki, antonim sözlər mətndə bəzən yanaşı işlənir və birlikdə hər hansı yeni anlayışın ifadəsinə xidmət edirlər. «Kitabi – Dədə Qorqud»un dilində ən çox işlənən antonim cütlüyü qara və ağ sifətləridir. Bu sifətlərin mətndə işlənmə tezliyi o qədər intensivdir ki, onların iştirakı ilə tez-tez təkrarlana bilən sabit ifadələr əmələ gəlir: ağ yüz, ağ əl, ağ ət, ağ alın, Bayındır xanın ağ meydanı, qara yer, qara baş, qara polad uz qılıc və s. Bu isə sözlərin bəzən ifadə daxilində idiomlaşmasına, rəng mənasını itirməyinə gətirib çıxarır. Məsələn: Qara başım qurban olsun, qurdum sana!

11.«Kitabi–Dədə Qorqud»un dilində yeni leksik vahidlərin yaranmasını müxtəlif situasiyalar şərtləndirir. Sözdəki leksik mənanın konkretləşməsi hesabına yeni leksik vahid yaranır. Məsələn: qız söz «eşidilməmiş, deyilməmiş söz», «yeni söz». Bədii mətndə informasiyanın xarakteri yeni leksik vahidin yaranmasına səbəb olur. «Qambörənin oğlı Bamsı Beyrək boyı»nda qırmızı qaftanın qırx yigit tərəfindən bir–bir növbə ilə geyinilməsini sıravardı sözü nəzərdə tutur.. Mürəkkəb sözün və onun tərkib hissələrinin məna tutumu informasiyanın təbiətinə tamamilə uyğundur; sıravardı, yəni növbə bir yigiddə (sırada) qurtardı, sonra gələn yigidə (sıraya) vardı. Tekstuallıq bədii mətnə məxsus leksikonun formalaşmasına təsir göstərə bilir. Bu da öz növbəsində spesifik söz və ifadələrin işlənməsini zəruri edir. Məsələn: inağ, imrənci, umur, qırım, kəndözi, dəpdi, arqurı, şülən, mərə, qavat, tonatdı, alaldı, qaba ağac, uru, çaldı, apul–apul yürüyiş.

Ədəbiyyat və mənbələr

Azərbaycan dilində

1. Azərbaycan ədəbiyyatı inciləri. Bakı, «Yazıçı», 1987

2.Azərbaycan məhəbbət dastanları. Bakı: Elm, 1979

3. Anar. Dünya bir pəncərədir. Bakı, 1986

4. De Sössür Ferdinand. Ümumi dilçilik kursu. Bakı: BDU nəşri, 2003

4[a]. Dəmirçizadə Ə. «Kitabi-Dədə Qorqud» dastanlarının dili (Təkrar nəşr). Bakı: Elm, 1999,

5. Əliyev Y.V. «Kitabi – Dədə Qorqud»un dilində mürəkkəb cümlə. Bakı, 2004

6. Əliyev Y.V. Qədim türk (runik) yazılı abidələrindən orta əsrlər türk yazılı abidələrinə keçid: ədəbi dil normalarının inkişafı. Bakı, 2004

7. Əlyiev Y.V. «Kitabi-Dədə Qorqud» və bədii mətnin struktur-semantik təşkili. Bakı, 2005

8. Əsgər Ə., Qıpçaq M. Türk savaş sənəti. Bakı: «Yazıçı» ədəbi nəşrlər evi, 1996

9. Füzuli. Seçilmiş əsərləri. I cild, Bakı, 1958

10. Qəhrəmanov C. Nəsimi «Divanı»nın leksikası. Bakı, 1970

11. Qıpçaq M. Söz aləminə səyahət. Bakı, 2002

12. Kitabi–Dədə Qorqud (Tərtib, transkripsiya, SAdələşdirilmiş variant və müqəddimə F.Zeynalov və S. Əlizadənindir). Bakı: Yazıçı, 1988

13. Məhərrəmova R. «Kitabi – Dədə Qorqud»un söz xəzinəsi. Bakı, 2007,

14. Oğuz xaqan dastanı. Türk dillərinin morfologiyasına dair araşdırmalar. Bakı, 1990

15. Sarayi S. Gülistan tercüməesi. Ankara-1989

16. Sümər F. Oğuzlar. Bakı, 1992

17. Türk dillərinin tarixi morfologiyasına dair araşdırmalar. Bakı: Bakı Universiteti nəşriyyatı, 1990

Türk dilində

18. Divanü-lüğat-it-türk terjümesi: 4 jiltte, I j., Ankara: Türk Tarih Kurumu Basımevi, 1985

19. Caferoğlu A. Türk dili tarihi, II. İstanbul – 1964

Rus dilində

20. Bartolğd V.V. Soçineniə v 5-ti tomax, V t., M., 1968

21. Baskakov N. Vvedenie v izuçenie törkskix əzıkov. M., 1969

22. Kovalevskiy A.P. Kniqa Axmeda ibn Fadlana o eqo puteşestvii na Volqu v 921–922 qq. Xarğkov, 1956

23. Kormuşin P.V. Tekstoloqiçeskie issledovaniə po drevnetörkskim runiçeskim pamətnikam. –Törkoloqiçeskiy sbornik, 1977. M., 1981

24. Herbak A. Oquz-name. Muxabbat-name. İzd. Vost. lit. Moskva, 1959

TAPŞIRIQ

Tapşırıq 1.

Mətn sinonimliyini əmələ gətirən leksik vahidləri müəyyn edin..

Qaytabanım güdəndə sarvanımmısan?
Qaraquçım güdəndə ilqıçımmısan?
Ağayılım güdəndə çobanımmısan?
Qulağımda şırşıyan naibimmisən?
Beşikdə qoyub getdigim qardaşcığımmısan?
Yigit, degil, mana!
Qara başım qurban olsun bu gün sana!

Tapşırıq 2.

Bədii təzad yaradan antonimləri seçin

Baya mırlardı, şimdi xırlamağa başladı. Əzrayilin gözini elə qorxutdum ki, gen qapuyı qodı, tar bacadan qaçdı. Bəzırganın ulusı tutıldı, kiçisi qaçaraq Oğuza gəldi.

Tapşırıq 3.

«*Kitabi–Dədə Qorqud»un dili üçün spesifik olan sözləri göstərin.*

İmrənci, inağ, altun, umur, qırım, kişi, ər, kəndözi, kəndi, arqurı, dəpdi, qavat, mərə, şülən, tanrı, yum.

MÜNDƏRİJAT

Ön söz ……3

I fəsil. Struktur-semantik xüsusiyyətlər
Giriş……..…….5
§1. Mətn və informasiya…….……..…...11
§2. Mətn və mürəkkəb sintaktik bütöv…….……..…27
§3. Bədii mətn və funksional məzmun detalları.....43
§4. Bədii mətn və struktur forma elementləri….....58
§5. Bədii mətn: nəsr və şer…….....81
Nəticə……..…….…… ...93
Ədəbiyyat…….....99
Tapşırıqlar…..…….
……100

II fəsil. Fonoloji xüsusiyyətlər
Giriş……..104
§1. Mətn və fonem ……108
§2. Mətn və heca ….……..130
§3. Mətn və vurğu ……140
§4. Mətn və intonasiya ……..…...154
§5. Mətn və ahəng qanunu ……..166
Nəticə…….……172
Ədəbiyyat……..……179
Tapşırıqlar…….……...180

III fəsil. Leksik-semantik xüsusiyyətlər
Giriş……..182
§1. Mətn və sema ……..184
§2. Mətn və leksik – semantik söz qrupları
1.Sinonimlər……196
2. Antonimlər……...201
§3. Mətn və leksem ……...206

§4. Mətn və əsas nitq hissələri
1. Sifət……...226
2. Say…….231
Nəticə…….…….240
Ədəbiyyat və mənbələr …..…….244
Tapşırıqlar…….…….……..246

Ядигар Вели оглы Алиев

ОБЩАЯ ТЕКСТОЛОГИЯ
(На основе лингвопоэтического анализа текстов «Китаби-Деде Горгуд»)

Учебное пособие

YADİGAR ƏLİYEV

ÜMUMİ MƏTNŞÜNASLIQ

Əliyev Yadigar Vəli oğlu 1969-cu ildə anadan olmuşdur. 1993-cü ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, 1994-1996-cı illərdə BDU-nun türkologiya kafedrasının aspirantı, 2000-2004-cü illərdə həmin kafedranın doktorantı olmuşdur. 1999-cu ildə «Qədim türk (runik) yazılı abidələrinin dili dialektfövqü (ədəbi) hadisə kimi» mövzusunda namizədlik dissertasiyası, 2007-ci ildə «Qədim türk ədəbi dilindən orta əsrlər türk ədəbi dilinə (türki) keçid» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. «Qədim türk (runik) yazılı abidələrinin dili» (2004), «Qədim türk (runik) yazılı abidələrindən orta əsrlər türk yazılı abidələrinə keçid: ədəbi dil normalarının inkişafı» (2004), «Kitabi-Dədə Qorqud»un dilində mürəkkəb cümlə» (2004), «Orxon-Yenisey abidələri və orta əsrlər türk ədəbi dili – türki» (2005), «Kitabi-Dədə Qorqud» və bədii mətnin struktur-semantik təşkili» (2005), «Kitabi-Dədə Qorqud» və bədii mətnin fonoloji strukturu» (2006), «Kontrastiv leksikologiyadan oçerk» (2006), «Kitabi-Dədə Qorqud» və bədii mətnin leksik-semantik strukturu» (2007) kitablarının müəllifidir.

کیتاب
دده قورقود